Mirəsgər Muradlı

# Ölümdən sonrakı
# ŞİZOFRENİYA

Həyat mərhələlərdən ibarətdir. Tam “hər şey bitdi” dediyiniz an, unutmayın ki, bitən sadəcə o mərhələlərdən biridir. Önünüzdə isə yeni bir başlanğıc var. Bəs bu mərhələlər nə vaxt bitir? Mən ölümdən sonra bitər, deyə düşünmüşdüm. Ölümdən sonra belə, yeni bir mərhələ başlandı. Ölümdən sonrakı şizofreniya... Bu mərhələ isə məni əlimə qələm alıb, yazıçı olmağa vadar etdi. Bax, görürsünüz, hətta şizofreniya belə bir başlanğıc imiş. Eynilə, alman yazıçısı Herman Hessenin də dediyi kimi: «Sözün əsl mənasında, dəlilik hər cür müdrikliyin başlanğıcı olduğu kimi, şizofreniya da hər bir sənətin, hər bir fantaziyanın başlanğıcıdır».

Və son olaraq, bu kitabı oxumağa başlamazdan əvvəl, unutmayın ki, ölümün saatı yoxdur. Sudan ucuz səbəblərə görə, küsülü qalmayın sevdiklərinizdən. Həyat bəzən iki dəqiqəlik üzr istəyəcək vaxtı belə çox görər insana...

**Mirəsgər Muradlı**
Ölümdən sonrakı **ŞİZOFRENİYA**
Bakı, QANUN nəşriyyatı, 2019, 208 səh., 500 tiraj
Çapa imzalanmışdır: 202.01.2019

Korrektor: Əyyar Tahirov

AB

© Mirəsgər Muradlı, 2019
© Qanun nəşriyyatı, 2019
QANUN nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Тел.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ÖN SÖZ

## BİR SEVGİ ROMANI

Mirəsgər Muradlının “Ölümdən sonrakı şizofreniya» romanı ədəbiyyata – söz dünyasına ilkin addımlarını atan bir gəncin sənətdə ilk sözüdür. Mən bu əsəri ilk növbədə, ona görə qiymətləndirirəm ki, burada nə qədər təcrübəsizlik gözə dəysə də, təsvir olunan hadisələrin yalan olmadığına, bir gəncin başına gələn uğursuzluqların, bədbəxtliklərin reallığına inandım. Mən Mirəsgərin bu əsərində insan və tale paralelini izlədim. Qaçılmaz taleyi ilə üzləşən o gənc – Raul həyatda xoşbəxt olmaq istəyir. Lakin xoşbəxtlik, Raulun gələcək haqqında xoş xəyalları həyatın amansız dalğaları içərisində qərq olur, sevdiyi qızın və dostunun xəyanəti ona tuşlanan ən ağır zərbəyə çevrilir, sonra isə sevdiyi başqa bir qız ağır xəstəlikdən sonra ona dərd gətirir. Və Raulun özü də bütün bu bədbəxtliklərdən sonra psixoloji sarsıntılar içərisində yaşayır.

Mən romanın məzmununu nəql etmək fikrində deyiləm. Əgər nəql etsəm, elə indicə xatırlatdığım bir neçə cümlə kifayət edər. Ancaq romanı məzmununa, baş verən hadisələrin yığcam təfsilatına görə deyil, orada təsvir olunan obrazların keçirdiyi psixoloji vəziyyətlərə, həyatının gedişinə mane olan səbəblərin nədən yarandığına görə təhlil etmək lazımdır.

Romanın qəhrəmanının, yəni bütün hadisələrin əsas iştirakçısı olan Raul adlı bir gəncin taleyini izləsək, əvvəlcə onun xoşbəxt günlərinin, sonra isə acınacaqlı taleyinin şahidi olarıq. Doğrudan da, romanın yarıdan çox hissəsini oxuyandan sonra az qala da-

rıxmağa başladım, bir gəncin sevgi əhvalatını bütün təfərrüatı ilə nəql etməyə dəyərmi? Və səhifələri çevirə-çevirə düşünürdüm ki, roman xoşbəxt bir finalla başa çatacaq, yəni Raul və Nərgiz bütün gözləmələrə rəğmən evlənəcəklər. Axı, romanda hadisələrin ziddiyyətini, obrazların qarşıdurmasını müəyyən edən konflikt olmalıdır. Amma darıxmağa dəyməzmiş, bundan sonra Raulun həyatı böhran, tənəzzül mərhələsinə daxil olur. Konfliktlər başlanır.

Raul orta məktəbin yuxarı sinfində oxuyur və illər boyu uşaq qəlbində müqəddəs bir hiss kimi qoruyub saxladığı sevgini Nərgiz adlı qıza bəyan edir. Bu heç də təəccüblü deyil. Əsl sevgi elə məktəb illərindən başlanır. Əksəriyyəti də baş tutmur. Amma Raul-Nərgiz münasibətləri hər ikisinin ürəyincədir. Yeganə maneə Nərgizin anası Aynişan müəllimə ola bilərdi. Çünki Nərgiz onun bircə övladıdır və qızıyla bağlı bütün məsuliyyət onun üzərindədir. Amma Nərgizin intihara cəhd etməsi ananı yumşaldır və hadisələr iki gəncin qarşılıqlı münasibətlərinin bütün maneələri aradan qaldırdığı nöqtəyə gəlib çatır. Buracan Raulun xarakteri, həyata, insanlara özünəməxsus münasibəti ilə tanış oluruq.

O, başdan-ayağa romantika ilə nəfəs alır, xəyallarla, gələcəyə bəslənən xoş arzularla nəfəs alır. Fransız yazarı Jül Renarın bir sözü yada düşür: «Romantika qəlbin Ay işığıdır». Doğrudan da, sevgililər arasında heç bir öpüş, qucaqlaşma səhnəsinə təsadüf etmirik. Raul yalnız sevməyə, sevgilisinin səsini eşitməyə, nəfəsini hiss etməyə can atır. Günlər keçir, aylar ötüşür, illər tamam olur. Raul ali məktəbə daxil olur. Onun təkcə Nərgizlə deyil, yaxın dostları Anar və Lamiyə ilə münasibətləri də təmiz hisslər üzərində qurulub. «Kristal» sözü burada lap yerinə düşür – insan da bu qədər təmiz, saf olarmı, – deyə düşünürsən.

Raulun institut illəri – tələbəlik həyatı xəsis cizgilərlə təsvir olunur. Amma romanda sevgi xətti aparıcıdır və cavan müəllif də bu xəttin axarını qətiyyən zəiflətmir. Raul-Nərgiz xətti – süjetin

bu istiqaməti romanın romantik pafosunu təşkil edir. Yaşadığımız bu mürəkkəb əsrdə, leyliliyin, məcnunluğun, əsl sevginin az qala yoxa çıxdığı bir zamanda sevinirsən ki, həyatda belə saf, bulaq suyu, dağ havası kimi təmiz, riyasız-boyasız sevgilər də varmış…

Amma sən demə, Raul-Nərgiz sevdası uğursuzluğa, qız xəyanəti ucbatından süquta gətirib çıxaracaqmış. Həyatda – xüsusilə sevgi münasibətlərində ən dəhşətli hadisə xəyanətlə bağlıdır. İki insanın qarşılıqlı münasibətlərini bir andaca məhv edən xəyanət baş verdikdə (ya qız, ya oğlan tərəfdən – dəxli yoxdur), mütləq bir faciə ilə üzləşirik. Burada intihar da ola bilər, dərin psixoloji sarsıntı da.

Raul hərbi xidmətə gedir, Vətən qarşısında borcunu şərəflə ödəyir, hətta müharibədə – ön cəbhədə – döyüşlərdə iştirak edir. Müəllifi bu yerdə alqışlayırıq ki, o, Azərbaycan gənclərinin müqəddəs bir borcunu xatırladır. Romanda Raulun hərbi xidməti haqqında yetərincə məlumatımız olur. Amma bundan sonra Raulun həyatında ciddi mənada ağır, qara günlər başlanır.

Əlbəttə, bu romanın müəllifi şəxsən mən olsaydım, Raulun əsgərlikdən sonrakı həyatını bir qədər başqa cür təsvir edərdim. Axı, Raul müharibədə iştirak edib, zənnimcə, müharibə insana dözüm, sərt xarakter bəxş edir və o, həyatda hər növ çətinlikləri dəf etməyə qadir görünür. Amma müəllif təsvir etdiyi qəhrəmanın daxili dünyasına yaxşı bələd olduğundan onu malik olduğu hissiyyat, duyğu və düşüncələr aləmindən ayırmır, çünki Raulun düşüncəsinə görə (bəlkə elə müəllifin də) «Sevgi, dadı ağıza şirin gələn bir zəhər kimidir. İnsanı uzun bir müddət yavaş-yavaş öldürür. Əgər həqiqətən də sevgi belə bir şeydirsə, niyə insanlar daima gerçək sevginin axtarışında olurlar? Məncə, sevmək, üzməyi bilmədiyin halda yenə də dənizə atılmaqdır. Sevmək, əlinin yanacağını bilə-bilə, atəşə toxunmaqdır».

Müəllif də öz qəhrəmanını sevgi əzabı deyilən bu fırtınalardan keçirir. Nərgiz ona xəyanət edir, Raulun ən yaxın dostu Sahibə uyur, indiyə qədər Raulla olan münasibətlərinə «nağıldır» deyir.

Əlbəttə, müəllif gərək Nərgizin bu xəyanətə necə gəlib çıxdığını oxucuya çatdıraydı. Amma görünür, buna ehtiyac yox imiş. Xəyanətin yolu buymuş ki, qəlbin istəyini tamam başqa bir axara yönəldəsən. Və təbii ki, hər bir xəyanət də cəzasız qalmır. Sahib də, Nərgiz də bu xəyanətə görə öz cəzasını alırlar.

Amma Raulun ürəyi sevgi hissləri ilə doludur. Və budur, ikinci sevgi gəlir. Banu sevgisi. Və məlum olur ki, Banu da onu sevir. Amma… o da məlum olur ki, Banu ağır xəstədir, ömrünün sona çatmağına az qalıb. Və ağır əməliyyatdan sonra dünyasını dəyişir. Beləliklə, romanın birinci, ikinci hissələrində xoşbəxt görünən bir insan – romantik Raul ən ağır məhrumiyyətlərə düçar olur. Onun öz həyatını xilas etməyinə çarə varmı? Raul şizofreniyaya düçar olur, bu, elə bir xəstəlikdir ki, insan özü-özüylə mübarizə aparmağı bacarmır. Müəllif öz qəhrəmanını dərin psixoloji hallar, Banu ilə xəyali söhbətlər içərisində oxucudan ayırır.

Bəs axırı necə olacaq? Yəqin ki, romanda təsvir olunmayan, amma ümid edəcəyimiz hadisələr gözləyəcəyik. Təbii ki, romandan sonra. Raul öz xarakterində həyata inamını bərpa edəcək, yenə sevəcək, seviləcək və bədbəxtliklərin seriyası qırılacaq.

Mirəsgər Muradlının romanını onun ilk ədəbi sınağı hesab edirəm. Ümid edirəm ki, onun gələcək əsərlərində müasir gəncliyin həyatı, işi, mübarizəsi, müstəqillik dövrünün yaşantıları təsvir olunacaq. Ona uğurlar arzulayıram!

***Vaqif YUSİFLİ,***
***filologiya elmləri doktoru.***

# I

# Başlanğıc

Asfalt yolda, səkinin qırağı ilə addımlayırdı o. Payızın saxta günəş işıqları, asfaltın üzərində, o məğrur yerişi ilə diqqətləri üzərinə çəkən o qızın kölgəsini əks etdirirdi. Qəhvəyi rəngli, ayaqlarına qədər uzanan dəri paltosunu geyinməmiş, sadəcə çiyinlərinə atmışdı. Maşınlar yanından sürətlə, santimetrlik məsafədən keçir, mən onun yerinə uzaqdan qorxur, o isə reaksiya belə vermirdi. Yanından sürətlə keçən maşınların yaratdığı külək, qara rəngli, uzun və parıltılı saçlarını havalandırırdı. Elə hey, başı dik, qərarlı addımlarla yoluna davam edirdi o. Kimsən axı sən? Ürəkmi yemisən, ay qız? Yoxsa tam tərsinə ürək yanğısımı çəkirsən, ondandımı bu cəsarət?

Bir dikdaban geyinmişdi ki, görməliydiniz onu. Bir qadına bu qədərmi yaraşar, axı, bir dikdaban? Əslində, boyu heç də qısa deyildi. Niyə geyinmişdi onu, anlam verə bilmədim. Qısaboy qadınların əksəriyyətində, boy kompleksi olduğun-

dan, dikdaban geyinməyə daha çox üstünlük verərlər. Bunu anlayıram, hətta, normal qəbul edirəm. Amma, həyatım boyunca, uca boyu olan qadınların dikdaban geyinməsini anlaya bilməmişəm. Bəlkə də aranızda bunu anlayanlar var, amma, nə yalan deyim, mən anlaya bilmirəm. Tanıdığım bütün qadınlar, onu ayaqlarından çıxardıqları an ayaqlarının ağrımasından və əzilməsindən gileylənib hər zaman. Amma, buna baxmayaraq, onu geyinməkdən əsla imtina etmirlər.

Bir qadının geyindiyi dikdaban ancaq bu qədər xoş gələ bilərdi insana. Hər "tak" səsində elə bil, ayaqlarının altında ümidlərini puç etmiş, xəyallarını əlindən almış insanları əzirdi qəddarcasına. Sanki arxasında milyonlarca param-parça olmuş arzularını qoyub gəlirdi bu qız. Getdikcə daha da yaxınlaşır mənə doğru. Artıq, daha dəqiq görə bilirəm üzünü. Bir gözləri var ki, anlatmağa ömür yetməz. Dəniz mavisi rəngində gözləri, özündə çox şeyi əks etdirir. Gözlərindəki dərin hüznü, məğrurluğu və bir balaca göz yaşarmasını anlamamaq mümkün deyil. Gördüyüm andan bəri nə etdiyimi, hara getdiyimi unutmuş, yerimdəcə donub qalmışam. Onun addımlarının istiqamətində dayanmışam həm də.

Mənə çatdığında, üzümə belə baxmadan, istiqamətini bir az dəyişərək yanımdan keçib, addımlamağa davam edir. Getdikcə uzaqlaşır məndən. O uzaqlaşdıqca, mən hər addımında daha çox heyran oluram ona. Yanımdan keçib gedişini, yerimdəcə dayanıb izləyirəm. Beynim arxasınca get, deyir, amma ayaqlarım, sanki yerə mıxlanıb. Və budur, artıq gözdən itdi.

Bir daha heç kimi sevməyəcəyim barədə, özümə söz verməyimə rəğmən, ilk baxışdan aşiq oldum bu qıza. İşin gülünc tərəfi isə, mən, “ilk baxışdan aşiq olmaq” sözünə əsla inanmayan biri idim. Hətta, o sözü işlədən insanları içimdə məsxərəyə qoyar, onlara hər zaman gülərdim. Bəlkə də aranızda mənim kimiləri çox var. İndi mən nə edəcəm? Hardan tapacam o qızı? Bir daha görə biləcəmmi onu?

Təxminən, beş-on dəqiqə idi ki, olduğum yerdə dayanmışdım. Havada günəş olsa da, payızın dondurucu küləyi üzümü kəsmiş, əllərimi dondurmuşdu. Bir anda, üşümə hissi ilə irkilərək, özümə gəlirəm. Uşaqlıq dostum olan Anarın evinə gedirdim mən. Soyuqdan buz bağlamış əllərimi gödəkcəmin ciblərinə qoyub, yoluma davam edirəm. Anarın evinə gedərkən, yol boyu o qızla bir daha qarşılaşma ehtimalımı düşünürəm...

***

“Salam, qardaşım, xoş gəlmisən”.

“Salam, Anar. Zəhmət olmasa, isti bir qəhvə hazırlaya bilərsən? İliklərimə qədər donmuşam”, deyib içəri keçirəm. Qonaq otağına keçib, soyuqdan və yorğunluqdan keyləşmiş olan bədənimi yemək stolunun yanındakı divana atıram.

Anar mətbəxdən səslənir: “Yenə başına nə bəla açmısan, Raul?”

Cavab vermirəm. Bir az sonra, əlində iki köhnə qəhvə fincanı ilə yanıma gəlir. Fincanları stolun üstünə qoyur. Divana uzatdığım ayaqlarımı sanki, bir döşəkcəni götürürmüş kimi qaldırıb bir az qırağa çəkərək yanımda oturur. “O qızı tapmalıyam. Necə olur-olsun tapmalıyam!”

Anar gülərək: “Axşam olmadan sərxoş olmusan artıq? Nə qız? Qalx ayağa, qəhvəni iç”.

“O qız! Bayaq şəhərdə qarşılaşdıq. Yanımdan elə keçib getdi ki, elə bil, mənim də bir parçamı özü ilə söküb apardı”.

“Kimdir ki o? Harda yaşadığını bilmirsən?”

“Ünvanını bilsəydim, indi orda olardım da, sənin bu xarabanda yox!”

İkimiz də susduq. Anar, mənim hər çətinə düşdüyümdə, hər canım sıxıldığında, ilk yanına qaçdığım adam olub hər zaman. Məktəb illərində ikən, mənə görə çox başı ağrıyıb. Mən o vaxtlar bir az davakar biri olduğumdan, o da mənə görə çox davalara qoşulub. Çox döyüb, çox döyülmüşük bir yerdə. Bir il bundan əvvələ qədər, eyni məhəllədə qalırdıq həm də onunla. Anar magistr təhsili almaq üçün Macarıstana getdikdən sonra ailəsi də köçüb getmişdi bizim qəsəbədən. Anar, bu dünyada məni həqiqətən də anlayan tək-tük adamlardan biridir. Məhz buna görə də, dərdim olduğunda ilk, onun yanına qaçmışam hər zaman. İnsanın dərdi olanda, ya yanında sevdiyi qadının çiyinləri olacaq, başını o çiyindəki çuxurlara göməcəksən, ya da Anar kimi bir dostu olacaq. Amma, dost deyirəm ha sizə. İşi düşəndən-düşənə yada salan yox, altınızdakı dəmir parçası maşına, cibinizdəki pula görə yox, sizi, sırf siz olduğunuza görə sevən dost. Əslində adamın belə bir dostu olduğunda, müəyyən bir yerə qədər, sevgiliyə də gərək duymur. Onsuz da indiki zamanda insanların bir çoxu əsl sevginin, sevməyin nə demək olduğunu belə bilmir, vallah. Sırf sevişmək üçün sevgili olunan bu zamanda yalnızlığınızla qürur duyun, məncə.

***

Sağollaşıb çıxıram evdən, qaldığım evdən bir az aralıda dənizin sahilinə gedirəm. Dənizin hər zaman insanı sakitləşdirə biləcəyini düşünənlərdənəm mən də. Bu sahildə çox xatirələrim var mənim. Demək olar ki, bütün şeirlərimi bu sahildə ikən yazmışam.

Sahildəki qayaların birinə oturub, cibimdəki "Winston" siqaretindən bir dal yandırıb dodaqlarımın arasına qoyuram. Sahilə vuran ləpələr, sakitləşdirmək yerinə bu dəfə çox narahat edir məni. Dənizin mavi suları o qızın gözlərini xatırladır mənə. Ah, o gözlər! O gözlərin içinə baxaraq paketin içindəki 20 siqareti də ard-arda çəkə bilərəm. Gözləri indiyə qədər gördüyüm ən gözəl mənzərələrə meydan oxuyar o qızın. Uşaqlıqdan bəri insanların xarici görünüşünə çox da önəm verən tiplərdən olmamışam, amma gözlərinə hər zaman fikir vermişəm. Gözlərə qarşı incə bir həssaslığım var. İnsanları gözlərindən oxumağı, yaxşı bacardığımı düşünürəm. Bəlkə də səbəbi bundan qaynaqlanır. Düzdü, illərlə gözünün içinə baxıb, heç tanıya bilmədiklərim də oldu bəzən. Bir onu bilirəm ki, o qızın gözləri indiyə qədər gördüyüm ən mükəmməl gözlər idi. Onu sadəcə iki dəqiqə otuz yeddi saniyə görmüşdüm. Kaş ki, bir daha görə biləydim, deyə düşünmədən edə bilmirəm. Çox şey istəmirəm, sadəcə iki dəqiqə otuz yeddi saniyə daha…

***

"Salam, Fariz dayı. Zəhmət olmasa, bir paçka winston ver".

"Salam Raul. Sən hələ də tərgitmədin bu zəhrimarı? Bildiyim qədəri ilə, əsgərlikdə ikən başlamısan bu zəhəri

çəkməyə. Tərgit, Raul, gec olmadan tərgit getsin. Mənim arvadım da, üstümdən siqaret iyi gəldiyini görəndə hər dəfə deyinərdi. Hə, bu arada bilmirəm qulağına çatıb, yoxsa yox, dünən boşandıq biz".

Ürəyimdə, ay Fariz dayı, bundan mənə nə, deyir, amma yalandan keçişdirmək üçün "Hər şeyin xeyirlisi... Sağlıq olsun", deyirəm. Siqaretin pulunu ödəyib, dükandan çıxıram. Fariz dayı əslində yaxşı adamdır, sadəcə məndən fərqli olaraq, uzun-uzun danışmağı çox sevir. Yoldaşından boşanıb, heyf. İnsan birini sevə, nə çətinliklərin öhdəsindən gələrək ailə qura, illərlə bərabər yaşaya və sonda isə ayrıla. Onları ayıran şey, əgər ölüm deyilsə, bu çox hüznlüdür, əslində. Kişi üçün hər nə qədər ağır olsa da, qadın üçün on misli, yüz misli ağırdır hətta. Kişi boşandıqdan sonra, əgər baxmalı, böyütməli olduğu uşağı yoxdursa, rahatdır, əslində. Tək problemi evdə qadının gördüyü işləri artıq, o görməlidir.

Bəs qadın? O isə, – bundan sonra nə olacaq? El-aləm nə deyəcək mənə? İnsanlar mənim haqqımda nələr danışacaq? – deyə düşünər. Yaşadığımız bu ölkədə, bizim mentalitetimizdə qadın-kişi bərabərliyindən söhbət belə edilə bilməz. Çünki, elə bir şey yoxdur. Məhəllədə kişilərin Fariz dayı haqqında deyəcəkləri tək şey "Fariz kişi boşanıb-e, xəbəriniz var?" – olar. Bəs yoldaşı haqqında? Onun haqqında nələr deyərlər məhəllədə? Hələ də içlərində bir nəfər qeybətcili varsa, gerisini siz düşünün. İki günə qalmaz, bu ölkədə fahişə damğası vurarlar o qadına. Əgər qadın da bir az dilsiz-ağızsızdırsa, elə bir vəziyyət yaradarlar ki, bir sabah açıldığında, o qadın bütün bunlardan bezmiş və intihar etmiş olar artıq.

Bəs o insanlar? Yenə də susmazlar. Bu dəfə də ölünün arxasınca, “kim bilir nə pozğunluq edib ki, axırda çarəsiz qalıb öldürüb özünü. Yaxşı oldu elə ona!” – deyərlər. Siz, siz olun – əsla bir mövzunun əslini bilmədən, ağızdan-ağıza dolanan bir sözə nə inanıb etimad edin, nə də bir başqasının eşitməyinə vəsilə olun...

***

Bir siqaret daha alışdı barmaqlarımın arasında. İri addımlarla evimə doğru gedirəm. Bilirsiz, əslində hər kəsin siqareti fərqli yanar. Əslində, atəşlə yandırmaq istədiyi siqaret deyildir insanın. Acılarını yandırmaq istəyər insan. Bütün dərdlərini yandırmaq, kül etmək istəyər. Siqaretin külünü hər vurub atdığında, sanki acısı azalırmış kimi hiss edər. Siqaretinin dumanını sevər kimi, dumanındakı xəyalları sevər, özünü öldürsə belə, gerçəkləşməyəcək olan xəyallarını. Kimisi də sadəcə vərdiş etmişdir, o iki barmağı arasında tüstüləyən bir şeyin olmasına. O iki barmağının arasında boşluq hiss etdiyində canı sıxılar. Siqaret çəkməklə, içki içməklə dərdlər bitmir deyənləri eşidirəm aranızda. Düzdü dostum, heç nə bitmir. Sadəcə bir növ anesteziyadır...

Evə çatar-çatmaz ilk işim duş almaq, isti suyun altında anlamsızcasına dəqiqələrcə durmaq oldu. İsti suyun damlaları bədənimə təmas etdikcə, az əvvəl küçədə donmuş olan bədən hüceyrələrimin canlandığını, beynimdəki ölmüş neyronların yenidən dirildiyini hiss edirəm. Sanki su, mənə yeni bir həyat bəxş edir. Duşdan çıxıb, hamam xalatımı geyinirəm. Evimdəki o iki nəfərlik olmasına baxmayaraq, hər zaman tək yatdığım yatağıma uzanıram. Mobil telefo-

numda "Sarı gəlin" mahnısını qoşub, telefonu yatağımın başındakı Sovet dönəmindən qalma çəkməcənin üzərinə qoyuram. Bir söz var, "Elə bil içimdə kəpənəklər uçuşur" deyə. Hə! Bax, tam da o hissi yaşayıram.

Hər zamankı kimi üzü üstə yatağa uzanıb gözlərimi yumduğumda, bu dəfə onun gözləri açılır xəyallarımda. Onu təkrar görə bilməyi çox istəyir, bir yandan da belə bir şeyə ehtimal belə verə bilmirəm. Bu Bakı yenidən qarşılaşdırarmı bizi? Məncə yox. Bu şəhər çox insafsızdır. "Ey Bakı! Səndən böyük Allah var" deyirəm öz-özümə. Bir yandan da özümə əsəbiləşirəm. Axmaq Raul! Niyə arxasınca getmədin o qızın? Ən azından bir rədd edilmiş olsaydın, indi belə olmazdın. Həqiqətən, rədd edilmiş olsaydın, vaz keçərmiydin ondan? Yox, Raul, yox, özünü aldatma. Vaz keçməzdin...

***

Oyandığımda saatın əqrəbi 18:45-i göstərirdi. Lakin, payız ayları olduğundan hava artıq qaranlıq idi. Küləkli hava ağacın budaqlarını evin eyvanına çırpırdı. Aynanın qarşısında durmuş, öz-özümə danışıram. Əgər bir daha o qızla bu şəhərdə qarşılaşsam, ona deyəcəklərimi düşünürəm. Eynilə məktəbli uşağın ayna qarşısında şeir əzbərləyib, özözünə danışdığı vəziyyətdəyəm. Sonra bir anda aynadakı əksimə baxıb: "Ah Raul, Axmaq Raul! Biz tərgitməmişdik bəs aşiq olmaq, inanmaq, güvənmək kimi şeyləri? Yenə canın çox yanacaq..." deyirəm. Divanın üstünə səliqəsizcə tulladığım paltarlarımı tələsik geyinib, evdən çıxıram. Pilləkənləri iki-iki düşürəm. Binadan çıxar-çıxmaz, bir siqaret qoyuram dodağıma. Mən macal tapıb yandırmadan,

sol tərəfimdən bir əl, alışqanı yandırıb mənə uzadır. Kim olduğuna fikir vermədən, siqaretimi yandırıb, ilk tüstünü ciyərlərimdə hiss edirəm. Xəfif xırıltılı səsiylə gülərək: “Hansı cəhənnəmdəsən, Raul? Əsgərlikdən gəldiyindən bəri üzünü görən cənnətlikdi”.

Səsin sahibi Elçin idi. Eyni məktəbdə oxumuşuq onunla. Məktəb illərindən bəri, heç sevməzdim bu adamı. Bəlkə də özlüyündə yaxşı bir adamdı, amma, mənə heç səmimi gəlmir onun hərəkətləri.

“Başım qarışıqdı bu aralar. Bir az problemlərim var. Ona görə qəsəbədə çox vaxt keçirə bilmirəm”.

“Hara gedirsən indi? Vaxtın varsa oturardıq, bir çay içərdik heç deyilsə. Həm sənə deyəcəklərim var”.

“Başqa vaxt, Elçin. Tələsirəm. Deyəcəklərin vacibdir?”

“Mənə görə yox, amma, sənə görə bəlkə də vacibdir. Nərgiz haqqındadır deyəcəklərim”.

“Elə isə, boş ver. Ölülərin arxasınca danışılmaz. Mən tələsirəm”.

“Yaxşı, hələlik, görüşərik başqa vaxt. Yenə də bilmiş ol, Nərgizə elçi gəliblər. Söz kəsilib bu gün”.

“Hələlik” – deyib, sürətli addımlarla uzaqlaşıram məhəllədən. Hətta, bu qəsəbədən uzaqlaşmaq istəyirəm. Bu qəsəbədə heç xoş xatirələrim yoxdur mənim...

# II

# Keçmişdən indiyə doğru...

Nərgiz mənim ilk sevdamdır. Sevgiyə tövbə etməyimin, insanlara güvənməməyimin səbəbidir o. Ona olan sevgim düz birinci sinifdən başlayırdı. Bilirəm, indi hər birinizin ağlına uşaqlıq eşqiniz gəldi, amma, bizimkisi bir az fərqli idi. Anası, Aynişan müəllimə, bizim oxuduğumuz məktəbdə ibtidai sinif müəlliməsi idi. Birinci sinifdə ikən, bütün uşaqlar qorxardı ondan. Nə yalan deyim, elə mən özüm də həmçinin. Mən Nərgizi ilk gördüyümdə, hələ birinci sinfə başlamamışdı belə. O vaxtlar, anası Aynişan müəllimənin yanında, məktəbə gəlib-gedərdi sadəcə. Onuncu sinfi bitirənə qədər, nə mən ona yaxınlaşıb sevgimdən bir kəlmə söz dedim, nə də o məni tanıdı bu illər ərzində.

On birinci sinfin əvvəlləri idi. Günlərdən yeddi noyabr. Bütün cəsarətimi toplayaraq, sinif otaqlarının önünə getdim. Onu gördüyümdə qarşısına çıxaraq, ona olan bü-

tün hisslərimi ən başından bəri danışdım. Ondan, mənə bir şans verməsini istədim. Nərgiz, ona qarşı olan, on illik sevgimdən təsirlənmiş olmalı idi ki, bir şans verərək məni tanımaq istədi o da. On illik xəyallarım nəhayət ki gerçəkləşirdi. Hər şey yuxu kimi gəlirdi mənə. Axı necə ola bilərdi bu? Əgər, hər şey bu qədər sadə idisə, mən on il niyə susdum? Niyə həsrət çəkdim uzaqdan? Öz-özümə "Həyat mənim də üzümə gülərmiş" – dedim. Sən demə, həyatımın bu hissəsi bir növ fırtına öncəsi səssizlik imiş. Çox gözəl bir cütlük olmuşduq onunla. Həm xarici görkəmcə, həm də xasiyyətcə çox uyuşurduq bir-birimizə. Daha doğrusu, o vaxtlar mən elə zənn edirdim.

Amma, oxuduğumuz məktəbdə hər kəsi qısqandıran bir münasibətimiz var idi. Məktəb xaricində isə, demək olar məcbur qalmadıqca görüşmürdük. Qəsəbədə onsuz da hər kəs bir-birini tanıyır, bir yandan da Nərgiz tanınmış bir müəllimənin qızı idi. Aynişan müəllimə münasibətimizdən xəbər tutduqda, ola biləcəkləri ikimiz də yaxşı bilirdik. Ona görə, bir-birimizi beş dəqiqəlik də olsa görə bilmək üçün, az qalırdı ki, yeri yarıb, içinə girək. Qəsəbə daxilində görüşə bilmir, məktəbdə də bir-birimizə məsafəli davranırdıq. Qəsəbədən kənara çıxmağa isə Nərgizin icazəsi yox idi. Artıq, iki ay idi ki, sevgili idik, amma, toplam iki saat belə bərabər vaxt keçirə bilməmişdik. İçimdəki həsrətin verdiyi sıxıntı məni get-gedə tamam əsəbi bir insana çevirmişdi. Günün iyirmi dörd saatı Nərgizdən ibarət idi mənim üçün. Səhər oyandığımdan axşam yatana kimi görəsən, "Nərgiz indi haradadır? Yanında kim var? Mən ona bu qədər həsrət ikən, kim israf edir onu baxışlarıyla?" deyə düşünürdüm.

Onu da qeyd edim ki, mən, çox qısqanc bir adamam. Bəzi insanlar, qısqanclığı güvən əskikliyi kimi görər, amma, heç də elə deyil. Qadınım dediyini qısqanacaqsan əlbət. Qadının qoxusunu qısqanacaqsan, Adam! Sevdiyinin, səni sərxoş edən, ciyərlərinə dolduqda içində xoşbəxtlik hormonları istehsal edən qoxusunu. Gülüşlərini səndən başqasına sərf etməsini qısqanacaqsan. Bəzən sevgi dolu baxan gözlərini, bəzən şərbətdən belə şirin gələn sözlərini qısqanacaqsan. Yox, əgər sevdiyini qısqanmır, mən ona güvənirəm, qısqanmaq boş bir şeydi və s. kimi boş sözlər deyirsənsə, ya ürəkdən sevmirsən, ya da sadəcə olaraq, adam deyilsən. O günlərdə, əsəblərim bir az pozulduğuna görə, tez-tez, dava edirdim məktəbdə. Nərgizə uzaqdan belə baxan birini gördükdə əsəblərimə hakim ola bilmir, olanlar olurdu. Məktəb direktoru məndən dəfələrlə atama şikayət etmişdi. Artıq, məktəbdən də qovulmaq üzrə idim.

Bir gün dərs sonrası, yenicə evə çatmışdım ki, Nərgizdən gələn bir səsli mesajla hər şey daha da gərginləşməyə başladı. Anasının hər şeyi öyrəndiyini, onu məktəbdən çıxardığını və məndən ayrılmalı olduğunu demişdi mesajında. Həmin gün nə edəcəyimi bilməz halda, bütün gecəni səhərə qədər düşünmüşdüm. Cəsarətimi toplayıb, Aynişan müəllimə ilə danışmağa hazırlaşırdım. Səhər açıldığında hər zamankından daha tez hazırlaşıb, məktəbə getmişdim. Məktəbin həyətində durub, hər gün etdiyim kimi, Nərgizin anası ilə birlikdə gəlməsini gözləyirdim. Bir xeyli gözlədikdən sonra Aynişan müəllimə məktəbin həyətinə daxil olmuşdu. Amma, bu dəfə yanında Nərgiz yox idi. Məktəbdə dünən

nələr olub bitdiyini öyrəndiyimdə, əlimdə olsa, o məktəbi bir kibritin qabında yandırardım.

Müəllimlərdən biri, bizi bir yerdə olarkən görüb və bunu Nərgizin anasına deyib. Aynişan müəllimə də Nərgizi müəllimlər otağına çağırıb. Elə oradaca, o qədər insanın gözünün önündə, Nərgizə bir şillə vuraraq, onu danlayıb. Sonra isə, Nərgizə ev həbsi verib. Hətta mənimlə əlaqəsini kəsmək üçün mobil telefonunu belə əlindən alıb. Eşitdiklərimin səbəb olduğu öfkənin də verdiyi cəsarətlə, Aynişan müəllimə ilə danışmaq üçün dərs keçdiyi sinfə getdim. Bir-iki dərin nəfəs alıb, özümü sakitləşdirməyə çalışdım. Sinfin köhnəlmiş taxta qapısını döyüb, içəri girdim. "Salam, Aynişan müəllimə, beş dəqiqə vaxtınızı ala bilərəm?"

"Salam, Raul, elə mən də səninlə danışmaq istəyirdim. İçəri keç". Sonra dərs dediyi birinci sinif uşaqlarına dönərək, mənimlə danışdığı incə səs tonuna nisbətən daha sərt bir şəkildə: "Ev üçün verdiyim tapşırığı həll edin, bir azdan bir-bir yoxlayacam dəftərləri!"

"Aynişan müəllimə, mən..."

"Raul, qulaq as mənə, oğlum. Hər şeydən xəbərim var. Nərgiz mənim gözümün ağı-qarası tək övladımdır. Mən onu bu yaşa kimi atasız böyütmüşəm. Ona həm ana, həm də ata olmuşam. Mənim üçün hər şeydən əvvəl, onun təhsil alması, oxuyub, yaxşı bir ixtisasa yiyələnməsidir. Evlənmək vaxtı çatdığında isə, özünü və ailəsini çox yaxından tanıdığım, rəfiqəmin oğluna verəcəm mən Nərgizi. Hansı ki, uşaqlığından bəri, Nərgizə talibdir o ailə".

"Müəllimə, axı biz..."

"Sözümü kəsmə, Raul! Siz deyə bir şey yoxdur, heç vaxt da olmayacaq! Mən nə desəm, Nərgiz də onu edəcək. Məktəbdən də çıxardıram onu, nə vaxt ağlını başına yığar, səni beynindən çıxarar, onda təhsilinə başqa yerdə davam edər. Sən də cavansan hələ, Nərgizdən də gözəl qızlar çıxacaq qabağına. Çox çəkməz unudarsan Nərgizi, başqa birini sevərsən".

"Nərgiz istəmədiyi müddətcə onu başqa birinə verməyinizə icazə verмərəm, lazım gəlsə o gözünüzün ağı-qarası dediyiniz qızınızı gözünüzün önündə qaçıraram. Qaldı ki, digər sözünüzə, düzdür, Nərgiz gözəl qızdır. Amma, mən, onu gözəlliyinə görə sevmirəm. Gözəlliyə önəm verənlər beyni ilə sevənlərdir. Ürəyi ilə, ruhu ilə sevən insan, xarici görünüşə çox da önəm verməz".

Sözümü bitirər-bitirməz, cavab verməsini belə gözləmədən arxamı döndərib, qapıdan çıxıb getdim. Dediklərim onu bir az da öfkələndirmiş olmalıydı ki, çıxarkən arxamca "Raul, bura gəl!" deyə qışqırdı. Amma arxama belə baxmadan, əsəbdən bulud kimi dolmuş gözlərimi ovuşduraraq, sürətli addımlarla məktəbdən çıxdım...

***

Yaşadığım məhəlləyə təzəcə çatırdım ki, arxadan boğuq, xırıltılı bir səs tonu ilə biri "Raul, ay Raul!" deyə bağırdı. Dönüb arxaya baxdığımda, qarşımda iri addımlarla mənə yetişməyə çalışan Elçin var idi. "Salam, qardaş, necəsən? Vəziyyət necədir? Çinarə danışdı mənə hər şeyi, sənin üçün çox pis oldum, vallah".

Üzündəki ifadə dedikləri ilə təzad yaradırdı. Elçin həmişə belə səmimiyyətsiz biri olub onsuz da. Sevdiyi qız Çinarə,

Nərgizin sinif yoldaşı, eyni zamanda yaxın rəfiqəsi idi. Ona görə də Elçinlə yaxın əlaqədə olmaq məcburiyyətində idim. İkimizdə bu əlaqədən məmnun deyildik çox güman ki, amma, orası da var ki, bir-birimizə lazım olduqda faydamız dəyirdi. "Salam, Elçin. Vəziyyət elə bildiyin kimidir. Bir az əvvəl, Aynişan müəllimə ilə də Nərgizə görə mübahisə eləmişik. Əsəblərim çox gərgindir. Sən necəsən?"

Sanki ağzında turş bir şey yeyirmiş kimi üzünü turşutdu Elçin. "Əşşi, mənəm də, standart. Məni boş ver". – deyərək dodaqları arasına bir siqaret qoyub yandırdı. Sonra əlindəki paçkanı mənə tərəf uzadaraq: "Götür bir dənə yandır, əsəblərə birə-bir dərmandır".

"Sağ ol, Elçin, amma bu vaxta qədər o zəhərə əlimi də vurmamışam, bundan sonra da bir əsəbin badına getmək istəmirəm."

"Sən bilərsən. Nəysə, mən gedim, tələsirəm. Görmüşkən vəziyyətini soruşmaq istəmişdim sadəcə".

"Diqqətinə görə sağ ol, hələlik."

...O gün yataq otağıma girdikdən sonra, sabaha qədər bir daha otaqdan çıxmamışdım. Anam yemək yeməyim üçün bir neçə dəfə təkidlə çağırsa da, mən qaranlıq otağımda tavana baxıb, musiqiyə qulaq asmağı seçmişdim. Axşam atam işdən evə gəldiyində anamın "Raulla danış, gör nə olub ona, mən nə qədər elədimsə, mənə heç nə demədi. Bu gün gəldiyindən bəri otağından çıxmayıb, yemək də yeməyib. Son vaxtlar çox qəribə aparır özünü. Bəlkə sənə danışar nə sıxıntısı olduğunu", sözlərini eşitdim. Ardından atamın ayaq səslərinin yataq otağıma doğru yaxınlaşdığını hiss etdim. Danışmağa nə halım, nə də istəyim var idi. Ona

görə də cəld üzü üstə yatağıma uzanaraq, özümü yatmışlığa vurdum. Əvvəlcə otağın qapısı döyüldü. Sonra qapı açıldı və “Raul, yatmısan?” deyə səsləndi atam. Bir neçə saniyə sonra yatdığıma inanıb, qapını bağlayaraq uzaqlaşdı.

Aradan üç saat keçmiş və artıq gecə olmuşdu. Nə qədər istəsəm də yata bilmirdim. Düşündüklərim yuxumu qaçırırdı. Otağın içində öz-özümə danışaraq, dönüb dururdum. Gözümün önünə Aynişan müəllimənin Nərgizi öz rəfiqəsinin oğluna vermə ehtimalı gəlirdi. O düşüncələrin verdiyi anlıq bir öfkə ilə yumruğumu otağımdakı şifonerin güzgüsünə vurdum. Atam və anam səsi eşitmiş olmalıydılar ki, yataq otaqlarından qaçaraq yanıma gəldilər. Əlim tamamilə al qana bürünmüşdü. Zərbədən qırılmış olan şüşənin qırıqları, xırda-xırda əlimə batmışdı. Anam bir üzümə, bir də əlimə diqqətlə baxdıqdan sonra digər otağa gedib, bir bez parçası ilə geri döndü. Əlindəki bez ilə sərt bir şəkildə əlimi sarıyaraq “Ay bala, dəli olmusan sən? Bu nə işdi axı sən açırsan başımıza?” dedi.

Cavab verməyib, susdum. Atam, “Get maşında otur, mən indi gəlirəm”, deyib, yataq otağına geri döndü. Hazırlaşıb, çıxdım evdən. Küçəyə çıxıb, maşını işə saldıqdan sonra, arxa oturacağa keçib uzandım. Bir az sonra atam gəldi. Xəstəxanaya gedənə qədər heç nə danışmadıq. Xəstəxanada əlimə tibbi yardım göstərildi. Əlim sarğıya alındı. Orada işimiz bitdikdən sonra, həmin qaydada heç danışmadan evə qayıtdıq. Otağıma geri döndüyümdə atam arxamca səslənərək: – Yat dincəl, səhər ilk iş psixoloq yanına gedəcəyik bir yerdə, – dedi.

“Mən dəli deyiləm, psixoloqa da ehtiyacım yoxdur”.

“Ağıllı olduğuna min şahid lazımdı, amma, psixoloq yanına da dəlilər getmir onsuz. Bu vaxta qədər səsimi çıxarmadım, amma, bundan sonra mənim dediklərim olacaq!” – Atam üzünü çevirib yataq otağına döndü. Artıq məcbur idim, nə də olsa, gözlədiyimdən də artıq səbr göstərmişdi bu vaxta kimi. Psixoloqa getməkdən başqa çarəm qalmamışdı. İlk başda bu işə könülsüz idim. Psixoloqa getməyimin həyatımın dönüş nöqtəsi olacağı heç ağlıma belə gəlməzdi.

Psixoloqum Lamiyə xanım cavan bir qız idi. Gülərüz, insana rahatlıq bəxş edən bir siması var idi adətən. Sözün düzü, həm problemlərimi ona danışmağa utanır, həm də bu psixoloq yanına getmək məsələsini özümə sığışdıra bilmirdim sanki. Ona görə də ilk iki seansda öz həyatımla bağlı önəmli heç bir şey danışmamış, verdiyi bütün suallarını qısa cavablarla keçişdirmişdim sadəcə. O da bu barədə çox üstümə gəlmir, zamanla hər şeyi özümün danışmağımı gözləyirdi. Danışacağımın bütün həyatımı dəyişəcəyi, ağlıma belə gəlməzdi. Dördüncü seansdan etibarən, artıq ona öyrəşmiş, danışdığımız hər şeyin aramızda qalacağına inanmaq qənaətinə gəlmişdim. Beləliklə, həyatımdakı bütün olub-bitənləri ona danışmışdım. Lamiyə xanım, mənimlə dost olmuş, bu çıxılmaz vəziyyətimə çarə tapmaq üçün, məndən çox düşünməyə başlamışdı. Artıq seanslardan xaricdə görüşür, zəngləşir, olub-bitənləri danışır və məsləhətləşirdik.

Aradan bir neçə həftə keçmişdi, amma Nərgizlə nə danışa bilmişdim, nə də üzünü görə. Bir axşam Lamiyə xanımdan zəng gəldi. “Salam, Raul. Bu vaxtı narahat edirəm, amma, yaxşı bir fikir gəldi ağlıma. Səninlə bölüşmək istədim”.

“Salam Lamiyə xanım. Buyurun, sizi dinləyirəm”.

“Neçə dəfə deyəcəm sənə, “xanım” sözünü yığışdır. Biz səninlə dostuq. Atan haqlı olaraq, sənin nə problemin olduğunu öyrənmək üçün çox sıxışdırır məni. Hələ ki, qanuni haqqından bəhs edərək, keçişdirməyi bacarmışam. Amma, yaxşı bir fikrim var. Sabahkı seansda sənin yerinə atanla görüşmək istəyirəm. Mən onun anlayacağı şəkildə hər şeyi izah edib, səni Nərgizinə qovuşduracağıma söz verirəm”.

“Sən atamı tanımırsan, Lamiyə, boş yerə özünü yorma. Atam çox inahatkeş və sərt bir adamdır. Mən məktəbi bitirib, ali təhsil alıb və onun istədiyi kimi, yaxşı bir işə sahib olmadan, bu işə yanaşmaz belə. O da, Aynişan müəllimə kimi qarşı çıxacaq bu işə”.

“Raul, sən məni dinlə. Bu mənim işimdi. Mən özümə güvənirəm. Ən azından şansımızı sınamış olarıq”.

“Yaxşı, sənin dediyin kimi olsun”.

“Atanla özüm əlaqə saxlayacam, sən bu danışığımızdan, heç kimə bəhs eləmə. İndi artıq dərmanlarını at və yatmağa çalış. Gecən xeyrə qalsın”.

“Xeyrə qarşı”.

Lamiyə əsəblərimə görə, mənə bir-iki dərman məsləhət görmüşdü ilk seansda. Dərmanın normal qəbulu gün ərzində bir dəfə olmaqla, dərmanın dörddə bir hissəsini qəbul etmək idi. Mən isə iki-iki atırdım o dərmanı. Bilmirəm, artıq nə dərəcədə düzgün idi bu, amma, başqa cür təsirini hiss etmirdim. Lamiyənin dediklərinin vermiş olduğu rahatlama ilə, həmin gecə rahat yatdım, nəhayət ki. Yuxudan oyandığımda, artıq günorta idi. Əl-üzümü yuduqdan sonra, gözlərimi ovuşduraraq, mətbəxə keçdim. Uzun müddətdir

bu qədər kəsintisiz yatmırdım. Ona görə də bədənim uyuşmuşdu bir az.

Günəş işıqları pəncərədən içəri düşərək, otaqdakı yemək masasını işıqlandırırdı. Anam hər zamankı kimi, ev işləri görürdü. Mən otağa girəndə, mənə tərəf dönüb gülümsədi: "Günortan xeyir, tənbəl, yemək hazırdır. Otur yeməyini ye, çay da beş dəqiqəyə dəmlənir".

"Günortan xeyir, anacan, əllərin dərd görməsin", – deyib stolun arxasında əyləşdim.

"Hə, bu arada atan zəng eləmişdi. Raula de, axşam vaxtında evdə olsun, onunla danışacağım var" – dedi.

Ağzımdakı loxma boğazımda qaldı bir anda. Çox həyəcanlandım. Ağlıma bir anda Lamiyəylə olan dünənki danışığımız və nələr olub-bitdiyinin ehtimalları gəldi. Bir az daha səbr edə bilməyib, masadan qalxaraq cəld otağıma getdim. Ətrafa göz gəzdirərək telefonumu hara qoyduğumu xatırlamağa çalışdım. Gecə ən son yatmamışdan əvvəl telefonu səssizə qoymuşdum. Bir az axtardıqdan sonra yatağımda, balışımın altında tapdım telefonu. Üç saat əvvəl, Lamiyədən iki zəng və ardıyca da bir mesaj gəlmişdi. Mesajda "Salam, Raul. Mesajı oxuyan kimi tez mənə zəng elə", – yazılmışdı.

Həyəcanla Lamiyəyə zəng vurdum. Üçüncü çağırışdan sonra, telefonu açdı. Səs tonundan sevincli olduğu sezilirdi. Səsi titrəyərək: "Bacardıq, Raul! Xoşbəxt olun. Gələcəkdə qızınız olsa, adını Lamiyə qoyacaqsan ha! Yoxsa məndən incimə day".

"Lamiyə, nə danışırsan sən? Xoşbəxt olun nədi? Qızınız olsa nədi?"

“Yaxşı, yaxşı sakitləş... Hər şeyi danışacam indi. Hətta istəyirsən şəhərdə görüşək, üz-üzə danışaq”.

“Aha, olar, yaxşı olar hətta. İndi çıxıram evdən. Harda görüşək?”

“Bir saat sonra İçərişəhərdə, Qız qalasının yanında. Sənin üçün uyğundur?”

“Aya uçaq, orda görüşək desən, o belə uyğundur... Bir saat sonra ordayam. Hələlik”.

Tezbazar hazırlaşıb, mətbəxə geri döndüm. Yeməyimdən ayaqüstü bir-iki loxma yeyib, mən telefonla danışarkən süzülmüş və artıq soyumuş çayımdan da bir qurtum içdim. Harasa tələsdiyimi görən anam qaşlarını çataraq: “Axşam vaxtında evdə ol ha!” – dedi. Gülümsəyərək yanına gedib üzündən öpdüm.

“Narahat olma ana, vaxtında evdə olacam”, – deyib evdən çıxdım. Yaşadığımız mənzilə ən yaxın olan dayanacağa gedib, oradan taksi ilə İçərişəhərə getdim. Qız qalasının yanına çatanda bir saatın tamam olmasına artıq, beş dəqiqə qalırdı. Bir-iki dəqiqə sonra, bir az irəlidən Lamiyənin də mənə tərəf iri addımlarla gəldiyi gördüm. O da, mənim kimi görüş yerinə gecikməyi sevmirdi. Dediyi vaxtda gəlib çatmışdı. Hər zamankı kimi gözləri qamaşdıran saf gözəlliyi ilə diqqət çəkirdi. Sevincdən yaşıl, zümrüdtək parlayan gözlərini gözlərimə dikərək: “Necəsən, Məcnun? Çox gözlətmədim ki səni?” – deyərək gülümsədi.

“Yox, mən də indi gəlmişəm. Danış görək, nə baş verir? Həyəcandan ürəyim duracaq indicə”.

“Tələsmə, Raul, Hər şeyi danışacam. Amma, əvvəlcə bura yaxın, şəhərin səs-küyündən uzaq, bildiyim gözəl bir

restoran var, gedək ora. Həm rahat söhbət edərik, həm də bir şeylər içmiş olarıq”.

“Yaxşı, vaxt itirmədən gedək onda”.

Çox səbrsiz bir adam olsam da restorana gedənə qədər bu barədə söhbət açmadım bir daha. Restoran dediyi kimi gözəl idi həqiqətən də. Həm şəhərin mərkəzində olub, həm də şəhərin səs-küyündən uzaq bir məkan idi. Qapıdan girər-girməz, içəridəki dekorasiya diqqət cəlb edirdi. Ağaclardan hazırlanmış qədim dövrə aid əl işləri, toxunma xalçalar, gildən düzəldilmiş qablar insana xoş əhval-ruhiyyə verirdi. Masalardan birinə əyləşib, sifarişimizi verdikdən sonra, söhbətimizə qaldığımız yerdən davam etdik.

“Lamiyə, həyəcandan ölməyimi istəmirsənsə danışmağa başla artıq.”

Lamiyə incə bir qəhqəhə ataraq güldü: “Sənə demişdim axı, mən özümə güvənirəm. Bu mənim işimdir. Atanla danışdıq bu gün. Sənin mənə lap başından, birinci sinifdən indiyədək olub bitəni danışdığın kimi, eynilə mən də atana danışdım”.

Qaşlarımı çatıb, gözlərimlə “davam elə” deyirmiş kimi üzünə baxdım.

“Dur, dur. Qaşlarını çatma hələ. Atan sənin düşündüyün qədər sərt, qəddar bir adam deyil. Atanın tək istədiyi sadəcə sənin oxuyub savadlı bir adam olmağındır. Atana elçilik edib, Nərgizlə səni sözləndirməyi, gələcəkdə də ailələrin uyğun gördüyü vaxtda evləndirməyi məsləhət gördüm. İlk başda qətiyyətlə qarşı çıxdı bu işə. Amma onu razı salmağı bacardım”.

“Atamı? Nərgizə elçilik eləməyə? Həm də belə tez?”

Yenidən çox zərif bir qəhqəhə atdı Lamiyə. “Hə, atanı buna razı saldım. Axşam özü səninlə bu barədə danışacaq”.

“İlahi bütün bunlar yuxudur? Hələ də dediklərinə inana bilmirəm. Bunu necə bacardın bəs?”

“Atan səni çox istəyir, Raul. Dediyim kimi, onun tək dərdi sənin ali məktəb oxumağın, özünə yaxşı bir gələcək qurmağındır. O da, sözsüz ki, sənin xoşbəxtliyini istəyir bir ata kimi. Ona bir psixoloq olaraq sənin vəziyyətini danışdım. Raul Nərgizə qovuşmazsa nəinki ali məktəb, heç orta məktəbi belə, bitirmək kimi bir həvəsi olmadığını izah etdim ona. Atan da məcbur qalıb, qəbul etdi”.

“Lamiyə, mən sənin borcundan necə çıxacam? Sən həqiqətən də əsl dostsan. Mən... mən nə deyəcəyimi bilmirəm”.

Sevincdən özümü itirmişdim. Əlim titrəyir, danışarkən kəkələyirdim həyəcandan. Lamiyə qarşımda oturduğu stuldan qalxaraq yanıma gəldi. Çox səmimi bir təbəssümlə: “Sakitləş, Raul, borcunu necə ödəyəcəyini telefonda danışarkən demişdim sənə. Gələcəkdə qızınız olsa, mənim adımı qoyarsınız. Hə, bir də nikah şahidin mən olacam, əlbəttə.”

Sözlərini bitirib boynuma sarıldı. “Yaxşı ki səni tanımışam, gözəl qəlbli insan, yaxşı ki varsan və mənim dostumsan”.

“Sən də, Raul. Sən də yaxşı ki mənim dostumsan. Amma, bir məsələni də deyim ki, atanın bəzi şərtləri var”.

“Nə şərti var ki atamın?”

“Mən sənin adından atana söz vermişəm ki, sən universiteti qazanacaqsan. Oxuyub, savadlı bir adam ola-

caqsan. Sadəcə Nərgizin eşqinə düşüb, hədəflərindən vaz keçməyəcəksən və yalnızca ailənin uyğun gördüyü vaxtda evlənəcəksiniz”.

“Yaxşı. Mən də sənə söz verirəm ki, hər şey dediyin kimi olacaq. Təki, ailəsi Nərgizi mənə verməyə razı olsun, mən onunla evlənmək üçün ömrümün sonunadək gözləməyə hazıram”.

“Sən narahat olma. Birinci qadın tərəfi olaraq, anangil gedəcək elçiliyə. Mən özüm də orda olacam. Nərgizin anasını razı salmaq üçün, əlimdən gələni edəcəm...”

***

Lamiyənin dediklərindən sonra, sevincimin həddi-hüdudu yox idi. Həm çox sevincli, həm də həyəcanlı idim. Sanki özümü, həyatdakı bütün məqsədlərimə çatmış kimi hiss edirdim. Buna görə də, çox xoşbəxt idim. Hələ ortada əl ilə tutular heç bir şey yox idi, amma, mən artıq çox böyük xəyallar qururdum özlüyümdə. Nəhayət ki, Nərgizlə evlənəcəkdik. Bir neçə ildən sonra olsa belə, günün birində evlənəcəkdik. İkimiz, bir ailənin təməlini qoyacaqdıq. İki uşağımız olacaq idi. Adlarını belə düşünmüşdüm artıq. Oğlumuzun adını Yusif, qızımızın adını isə Lamiyə qoyacaqdıq. Nərgiz uşaqlarımıza yaxşı bir ana, mən də ideal bir ata olacaqdım. Yetkinlik yaşına çatdıqlarında, onlara başımıza gələnləri, necə tanış olub və necə evləndiyimizi danışacaqdıq bir yerdə. Sevməyin, sevilməyin gözəlliklərini danışacaqdıq onlara...

Məndən sizə məsləhət, xəyal qurmaq da pul ilə deyil ki, deyə düşünüb çox da böyük xəyallar qurmayın. Əmin olun, pul ilə olmasa belə, yıxıldığı an ödəyərsiniz qurdu-

ğunuz o bütün xəyalların bədəlini. Evə gəldiyimdən bəri, zamanın necə keçdiyinin fərqinə varmamışdım. Demək ki, insan xoşbəxt olduğunda zaman qavramının onun üçün bir əhəmiyyəti qalmırmış, bunu da öyrənmiş oldum. Axşam düşdüyündə şam yeməyi üçün, masa arxasında toplanmışdıq. Yeməyi bitirənə qədər demək olar ki, heç kim ağzını açıb tək bir kəlmə belə etmədi. Yeməkdən sonra, atamın bədən dilindən, söhbətə başlamaq istədiyini, amma necə başlayacağını bilmədiyini hiss etdim. Ona görə də, söhbəti özüm açmaq istədim.

"Ata, bu gün anam mənə axşam vaxtında evdə olmağımı, sənin mənimlə danışmaq istədiyini demişdi."

Atam öskürərək boğazını təmizlədi və əllərini bir-birinə birləşdirərək masanın üzərinə qoydu. Masanın üstünü səliqəyə salan anama dönərək: "Qoy qalsın. Sən də otur, söhbətimizi edək", – dedi. Anam gülümsəyərək üzümə baxdı, daha sonra o da masanın arxasında əyləşdi. "Hə, Raul, səninlə danışacağımız var. Anan da, mən də səni nə qədər çox istəyirik – bunu yəqin ki bilirsən. Sən bizim tək övladımız, tək sevincimizsən".

"Əlbəttə, ata, bilirəm. Mən də sizi çox istəyirəm."

"Sağ ol, oğlum, amma, sözümü kəsmədən axıradək dinlə. Raul, biz səni bu yaşına qədər, bir istədiyini iki etmədən, əzizləyərək böyütmüşük. Bu gün isə, bizim də valideynlərin olaraq, səndən öz istəklərimiz var. Hər bir valideyn kimi biz də sənin universitet oxuyub, ali təhsil almağını və gözəl bir ixtisasa yiyələnməyini istəyirik. İndi bizim sənə baxdığımız kimi, gərək, biz yaşlandığımız zaman sən də bizə baxasan. Hətta, demək olar, artıq yaşlanmışıq. Təbii

ki, biz sənin sevib-sevilməyini, ailə qurmağını da istəyirik. Hansı valideyn övladının xoşbəxt gününü, ailə qurmasını görmək istəməz ki? Amma, bunun üçün hələ ki tezdir".

"Atacan, axı mən..."

"Sözümü kəsmədən axıra kimi dinlə, Raul. Bunun üçün hələ tezdir. Sadəcə, yaranan vəziyyətdən dolayı, həm sən sevdiyin qızı itirməyəsən, həm də təhsilinə davam edəsən deyə, Nərgizə elçi gedəcəyik. Mən qızın ailəsi haqqında maraqlanmışam, pis bir ailə deyil. Qismət olarsa indi söz kəsərik, sən universiteti bitirib əsgər gedəndə də nişanınız olar. Əsgərlikdən gələndən sonra isə, toy edərik, inşallah. Anan bir az sonra zəng vurub, Nərgizin anası ilə danışacaq. Elçi getmək üçün uyğun bir gün istəyəcək. Sən isə, bizim istəklərimizi yerinə yetirəcəyinlə bağlı, mənə kişi kimi söz verəcəksən".

"Söz, ata. Kişi sözü. Hər şey çox yaxşı olacaq".

"Raul, son bir sözüm daha var. Nərgizə olan hisslərindən əminsən, oğlum?"

"Əlbəttə, ata, əminəm. Bundan heç şübhəniz olmasın."

Nərgizə olan hisslərimə zərrə qədər belə şübhəm yox idi. Nərgiz mənim ilk sevdam, ilk tutqum idi. Ömrümün yarıdan çoxu, bütün uşaqlığım onu sevməklə keçmişdi mənim. Masada söhbət bitdikdən sonra, anam ayağa qalxıb: "Xeyirlisi oğlum, qismət Allahdan", deyərək mobil telefonunu əlinə aldı. Aynişan müəllimə ilə rahat danışa bilmək üçün digər otağa keçdi. Elçiliyə getmək üçün xəbər verib, uyğun bir gün istəyəcəkdi. Düşüncəsi belə ürək ritmimin dəyişməyinə yetirdi. Anam telefon danışığını bitirənə qədər, masa arxasında həyəcanla oturub gözlədik. Tam otuz səkkiz

dəqiqə telefonla danışmışdılar. Otuz səkkiz dəqiqənin sonunda anam əlində telefon, üzüntülü bir ifadə ilə yanımıza gəldi. Bayaqkı əhvalından əsər-əlamət görsənmirdi üzündə. Atam ayağa qalxıb, anama tərəf dönərək:

"Əzizim, nə olub sənə? Nərgizin anası tərs bir söz dedi?", – deyə soruşdu.

"Yox. Tərs bir söz demədi. Əksinə, çox xoş danışdı mənimlə. Hətta qızına elçi düşdüyümüzə görə minnətdarlığını bildirdi. Amma, Nərgizi öz rəfiqəsinin oğluna ərə verəcəyinə dair söz verdiyini dedi, buna görə də üzrlü saymağımızı istədi."

"Nə etmək olar? Bəlkə də xeyirlisi belədir."

Anamın dediklərindən sonra yerimdəcə donub qalmışdım. Gözlədiyimdən də yaxşı gedərkən, bir anda bitmişdi sanki hər şey. Arzularıma çatmağa bu qədər yaxın ikən, hər şeyin başlamadan bitməsi ağlasığmaz idi. Heç bir söz demədən ayağa qalxdım. Tezbazar əynimi geyinib, özümü küçəyə atdım. Payızın hələ əvvəlləri olsa da, axşamlar hava soyuq olurdu. Əllərimi paltonun ciblərinə salaraq, addımlamağa başladım. Hara getdiyimi özüm də bilmirdim. Elə bu vaxt Lamiyədən zəng gəldi.

"Axşamın xeyir, Raul, necədi vəziyyət, elçiliyə hazırlaşaq?"

"Axşamın xeyir. Hər şey bitdi, Lamiyə. Bağladılar bizim kitabımızı."

"Necə yəni? Kim bağladı sizin kitabınızı?"

"Boş ver, sonra danışarıq. Bir az tək qalmağa ehtiyacım var.

"Hardasan sən? Dur gəl bizə, oturub danışaq. Unutma, Raul, bu həyatda ölümdən başqa hər şeyin bir çarəsi var."

“Bir az tək qalmaq istəyirəm. Məni bu günlük üzrlü say.”

“Mən tək qalmağını istəmirəm. Evə gələndə, sənin sevdiyin cipsidən almışam. Gəl söhbət edək, həm də film izləyərik bir yerdə. Çox xahiş edirəm, mənim xətrimə gəl.”

“Yaxşı, Lamiyə. Yarım saata orda olaram.”

“Gözləyirəm ha. Hələlik.”

Danışıb qurtardıqdan sonra, taksi tapmaq üçün dayanacağa doğru getdim. Yolüstü bir marketə girib bir ədəd siqaret və alışqan aldım. İlk dəfə idi ki, siqaret çəkəcəkdim o gecə. Dərdimin dərmanını siqaretdə tapmağı düşünmüşdüm nədənsə. Siqareti əlimə alıb yandırmaq istəyirdim ki, Lamiyənin “Bu həyatda ölümdən başqa hər şeyin çarəsi var” – sözləri bir anda qulağımda səsləndi. Bir yandan da, bu yaşıma kimi təmiz saxladığım ciyərlərimi kirlətməyə könlüm əl vermirdi. Siqareti qırıb yerə atdım.

Yoluma davam edib, dayanacağa gəldim. Taksinin biri ilə qiymətdə razılaşdıqdan sonra, Lamiyənin evinə doğru yola düşdüm. Lamiyə ata və anasını hələ uşaq ikən itirmişdi. Nənəsi və babası ilə birgə böyümüş, təhsilini bitirib psixoloq olduqdan sonra, ayrı evə çıxmışdı. Onun işi hər kəsin dərdini dinləmək idi, amma, əslində onun özünə də bir psixoloq lazım idi. Bu psixoloq da mən olmuşdum. O da heç kimə danışmadığı dərdlərini bir tək mənimlə bölüşürdü. Buna görə də, ikimiz çox yaxşı dost olmuşduq. Evlərinə çatdığımda hər zamankı kimi, insana rahatlıq bəxş edən xoş təbəssümü ilə qapını açdı.

“Gəl, vəfasız, keç içəri. Məcbur eləməsək heç gəlməyəcəksən dostunun evinə. Hətta, bu ilk gəlişindi hələ indiyə kimi”

“Lamiyə, əslində heç danışmağa belə heyim yoxdur, vallah. O dərəcə yorğunam. Sadəcə, sənin xətrinə gəldim.”

“Gəl, gəl. Sənin yorğunluğun fiziki deyil, psixolojidir. Onun da çarəsinə baxarıq indi.”

Ayaqqabılarımı yenicə çıxarırdım ki, telefonuma zəng gəldi. Nömrə rəhbərdə qeydli deyildi. İki-üç çağırışdan sonra telefonu açdım. “Raul, hardasan? Nərgiz... Nərgiz”

Telefondakı ağlayaraq danışan səsi tanıyırdım mən. Səsin sahibi Aynişan müəllimə idi. Bir anlıq dünyam qaraldı sanki. Ağlıma bu zəngin səbəbinin ən pis ehtimalları gəldi. Nərgiz, ah Nərgiz. Yalvarıram, mənə bunu etmiş olma.

“Aynişan müəllimə, Nərgizə nəsə olub?”

“Marketə getmişdim. Evə döndüyümdə Nərgizə səsləndim. Cavab vermədi. Əvvəl yatmış olduğunu düşündüm. Otağına girdim, yatağında uzanmışdı paltarla. Üstünü örtmək üçün yanına getdim. Gördüm ki, Nərgiz...” Cümləsini bitirmədən, yenidən ağlamağa başladı.

“Nərgizə nə olub axı?” deyə qışqırdım istəmədən. “Evdə nə qədər dərman varsa, hamısını bir-birinə qatıb. İntihar edib Nərgiz. Mənim balam canına qıymaq istəyib. Xəstəxanaya bir az da gec çatdırsam, bəlkə də indi...”

Dərindən bir oh çəkdim. Nərgiz həyatdadır. Təsirinə düşdüyüm şokdan birdən-birə ayıldım. “Hardasız indi? Olduğunuz yerin ünvanın mənə mesajla göndərin. Ora gəlirəm.”

“Yaxşı, Raul, gəl oğlum, gözləyirəm.”

Çıxardığım ayaqqabının bir tayını təkrar ayağıma geyindim: “Lamiyə, mən getməliyəm. Nərgiz xəstəxanadadır.”

“Danışığından başa düşdüm məsələni. Bu vaxtı tək getmə. Piyada getmək çətin olar sənin üçün. Beş dəqiqə gözlə, mən də əynimi dəyişim. Maşınla gedərik bir yerdə.”

“Yaxşı, Lamiyə, amma tez ol, xahiş edirəm. Nərgiz nə vəziyyətdədir bilmirəm heç.”

“Narahat olma. Əsas odu yaşayır və xəstəxanadadır. Maşının açarın götür, aşağı düş. Beş dəqiqəyə gəlirəm mən də.”

Məhəlləyə çıxıb maşını işə saldım. Lamiyəni gözləyərkən, Aynişan müəllimə ilə olan telefon danışığımız gəldi ağlıma. Nərgiz ölmüş olsaydı, mən onsuz nə edərdim, deyə düşündüm bir anlıq. Yəqin ki, buna dözə bilməzdim... Bir az sonra Lamiyə gəldi. Telefonda Aynişan müəllimənin atdığı adresə baxıb, yola düşdük...

***

Xəstəxanaya çatdığımızda, ilk növbədə qeydiyyat bölməsinə yaxınlaşıb Nərgiz haqqında məlumat aldım. Gətirildiyində ağır vəziyyətdə olduğunu, bir az da gec gətirilsəymiş, hətta ölə biləcəyini dedilər. Həkimlərin dediyinə görə, lazımi müdaxilələrin edildiyini və hal-hazırda vəziyyətinin yaxşı olduğunu öyrəndim. Elə bu vaxt Aynişan müəllimə ilə rastlaşdıq. “Salam, Raul, Nərgizin otağı üçüncü mərtəbədədir, reanimasiya şöbəsində. Sistemi bitdikdən sonra, bir azdan adi otağa keçirəcəklər.”

“Salam, müəllimə. Qeydiyyat şöbəsindən maraqlandım. Şükür ki, Nərgizə heç nə olmayıb. Nərgizə bir şey olsa, nə edərdim, düşünmək belə istəmirəm.”

“Bu gün müşahidə altında qalacaq. Sabah səhər evə apara bilərsiniz, dedi həkim... Bu arada unutdum soruşam, yanındakı xanım qohumundu?”

“İcazə verin, sizi tanış eləyim. Yanımdakı xanım həm mənim psixoloqum, həm də yaxın dostum Lamiyədir. Lamiyə, sən isə Aynişan müəlliməni şifahi olaraq tanıyırsan onsuz da.”

Lamiyə cana yaxın, səmimi bir şəkildə gülümsəyərək, əl uzadıb görüşdü.

“Şad oldum, Aynişan xanım”

“Mən də şad oldum, qızım.”

“Sizinlə bir az qadın-qadına söhbət edə bilərik?”

“Əlbəttə, qızım. Xəstəxananın mətbəxinə gedirdim mən də çay içmək üçün. Buyur gəl, söhbətimizi orda edək.”

Lamiyə mənə tərəf dönərək: “Raul, bizi bir az üzrlü say, sən gözləmə zalına keç, biz də Aynişan müəllimə ilə bir az söhbət edib, gəlirik.”

“Yaxşı Lamiyə, işinizdə olun. Mən buralardayam.”

Təkrar qeydiyyat şöbəsinə qayıdıb, Nərgizin həkimi ilə danışmaq istədiyimi dedim. Şöbədə oturan qız, həkimin otağına zəng vurub, həkimə onunla danışmaq istəyən xəstənin yaxını olduğumu deyərək telefonu mənə uzatdı.

“Salam, həkim. Mən Rzayeva Nərgizin yaxınıyam.”

“Salam. Buyurun, eşidirəm sizi.”

“Nərgizin vəziyyəti ilə bağlı məlumatı qeydiyyatdan öyrəndim. Amma, bir şeyi bilmək istəyirəm. Nərgiz nə vaxt özünə gələcək? Nə vaxt görə bilərik onu?”

“Təxmini bir saata özünə gəlmiş və otağına köçmüş olar. Bir saat sonra görə bilərsiz xəstəni”

“Oldu, həkim. Hər şeyə görə çox sağ olun.”

“Siz sağ olun, xoşdur.”

Nərgizi tez görə bilmək üçün can atırdım. Uzun müddət idi görmür, hətta səsini belə eşitmirdim. Həm də bu hadisədən

sonra, Nərgiz üçün çox narahat idim. Telefonumun zəngi ilə daldığım xəyaldan ayıldım bir anda. Zəng vuran anam idi.

"Oğlum, axşamın xeyir. Hardasan sən? Niyə evə gəlmirsən? Saatdan xəbərin var?"

Gecə saat üçün yarısı idi artıq.

"Axşamın xeyir, ana. Nərgiz intihara cəhd edib. Lamiyə ilə birlikdə xəstəxanadayıq."

"Nə intihar, ay bala? Necədir Nərgiz? Hansı xəstəxanadasız, biz də gələk atanla bərabər."

"Narahat olma. Yaxşıdır indi. Bir azdan yanına buraxacaqlar. Sizin gəlməyinizə ehtiyac yoxdur. Burdan çıxandan sonra evə gələcəm."

"Yaxşı, oğlum, Allah köməyiniz olsun. Evə gələndə danışarıq. Hələlik."

Aradan yarım saat keçmişdi artıq. Gözləmə zalında oturduğum, o rahat divanda sanki tikanlar batırdı bədənimə. Özümü çox narahat, tədirgin hiss edirdim. Bir az sonra Lamiyənin mənə tərəf gəldiyini gördüm. Gəlib yanıma oturdu.

"Raul, səninlə danışacaqlarım var. Aynişan müəllimə ilə ətraflı söhbət elədik. O da sizi ayıraraq səhv elədiyini anlayıb artıq. Səni bura çağırmağının səbəbi də o səhvi düzəltməkdir. İndi səninlə birlikdə yanına gedəcəyik. Oturub söhbət edəcəyik bərabər. Bilirəm, bu intihara görə onu günahlandırırsan. Haqlısan da əslində, amma bax, xahiş edirəm, tərs bir şey danışma. Olan olub artıq, hər şey geridə qaldı. Hər işdə bir xeyir var, sözünü boş yerə deməyiblər. Bu vəsilə ilə Aynişan müəllimə də səhvini anlamış oldu. Bundan sonra, artıq xoş günlər gözləyir sizi."

“İnşallah, Lamiyə, ümidvaram bundan sonra hər şey yaxşı olar. Çünki, ikimizdə çox yorulduq artıq.”

Lamiyə əlini əlimin üstünə qoyaraq: “Üzün gülsün artıq. Hər şey çox yaxşı olacaq, əmin ol. Qalx ayağa, gedək. Qaynanan bizi gözləyir”, – dedi. Mətbəxə getdiyimizdə Aynişan müəllimə əlində üç fincan çay ilə, çantasını qoyduğu masaya doğru gedirdi. Bizi gördükdə “Buyurun gəlin, çayları soyutmayın”, – deyərək əyləşdi. Lamiyəylə bərabər gedib, masa arxasında öz yerimizi aldıq. Bir neçə dəqiqə sonra Aynişan müəllimə söhbətə başladı.

“Raul, bilirəm, səni də, Nərgizi də çox incitdim indiyənə kimi. Amma, mənim bir ana kimi istədiyim tək şey, sadəcə qızımın yaxşılığı idi. Daha əvvəl də demişdim sənə, mən onu atasız böyütmüşəm. Nə çətinliklərlə bu yaşa çatdırmışam, ona bir Allah şahiddir. Onun məktəbi bitirib, savadlı bir insan olmasını istəyirəm. Evlilik isə ikinci plandadır mənim üçün. Onu da, Nərgiz hələ uşaq ikən, öz tanışıma söz vermişdim. Sözümdən də əsla dönəcək biri deyiləm mən. Amma, bu gün...”

Sanki, sözləri bir anda boğazında düyünləndi. Gözlərinin dolduğunu görən Lamiyə masadan bir salfet götürərək, Aynişan müəlliməyə uzatdı. Salfeti alıb, əvvəl göz qapaqlarının altını sildikdən sonra, salfeti yumruğunda sıxıb, sözlərinə davam elədi.

“Amma bu gün, o gözümün ağı-qarası tək qızımı, Nərgizimi gəlib yataqda o vəziyyətdə gördükdə dünyam başıma yıxıldı. Hələ də düşünə bilmirəm, evə bir az gec getmiş olsam, qızım indi həyatda olmayacaqdı. Həyat yoldaşım, Nərgiz doğulduqdan qısa müddət sonra vəfat etmiş-

di. Onun vəfatından sonra, həyata Nərgiz ilə tutundum mən. Tək yaşamaq səbəbim, qızım oldu. İnşallah bundan sonra ikiniz bərabər mənim yaşam sevincim olacaqsınız. Nərgiz madam ki, səni bu qədər çox sevir, bundan sonra o mənim gözümdürsə, sən mənim gözümün nuru olacaqsan, Raul".

"Aynişan müəllimə, əmin olun, Nərgiz mənim həyatımda da, ən az sizinkində olduğu qədər dəyərli biridir. Mən Nərgizi həqiqətən, çox sevirəm. Xatırlayırsız, bundan on il əvvəl, məktəbdə rəfiqəniz Aygün müəllimənin sinfinə gəlib-gedirdiz bəzən. Yanınızda da Nərgiz olurdu hər zaman. O vaxtlar, Nərgiz hələ məktəbə başlamamışdı. Sadəcə siz özünüzlə aparıb-gətirirdiniz. Mənim Nərgizə olan sevgim, düz o vaxtlardan başlayıb. Mənim valideynlərim də, ilk başlarda eynilə sizin kimi, bu uşaqlıq sevgisidir, zamanla gəlib-keçər, deyə düşünürdülər. Amma, gəldiyimiz nöqtəni indi hər birimiz görürük."

"Raul, evdəkilərlə danış bu gün. Bax gör, əgər hələ də Nərgizi gəlinləri olaraq istəyirlərsə, Nərgiz xəstəxanadan çıxdıqdan sonra, elçilik üçün gələ bilərlər."

Lamiyə söhbətə daxil olaraq: "Sözünüzü kəsirəm, amma, vaxtdır artıq. Nərgiz çoxdan palatasına köçmüş olmalıdır. Gəlin bir yerdə gedək, həm Nərgizi görək, həm də bunları ona da deyək ki, qoy, o da sevinsin bir az. Unutmayın ki, o hələ də intiharın psixologiyasındadır."

İkimiz də başımızı sallayaraq Lamiyənin dediklərini təsdiqlədik. Ayağa qalxıb, otağın yerini öyrənmək üçün xəstəxananın qeydiyyat şöbəsinə doğru getdik. Aynişan müəllimə qeydiyyat şöbəsindən Nərgizin otaq nömrəsini öyrəndikdən sonra, bizə tərəf dönüb, dedi:

“Nərgiz dördüncü mərtəbədədir, dörd yüz altı nömrəli palatada. Amma, xəstənin yanına iki nəfərdən artıq adama icazə vermirlər, Raul. Necə edək indi?”

“Siz Lamiyəylə bərabər ikiniz girin. Mən yaxınlarda bir yerdə, açıq gül mağazası tapsam, Nərgiz üçün gül almaq istəyirəm. Xəstəxanaya döndüyümdə, Lamiyəyə zəng vuraram, o aşağı düşər, mən də onun yerinə qalxaram.”

“Yaxşı, oğlum. Necə istəyirsən.”

Lamiyəylə bərabər Nərgizin otağına doğru getdilər. Mən də xəstəxanadan çıxıb, gül mağazası axtarmağa getdim. Xəstəxananın olduğu yerdən bir az aralıda açıq bir gül mağazası var idi. Nərgizin ən sevdiyi gül olan qırmızı qızılgül almışdım bir ədəd. Qızılgül... Bütün güllərin şahı sayılan bu gül on doqquzuncu əsrdən bəri sevgi-məhəbbət simvolu sayılır. Bizim də sevgimizin gülü məhz elə bu gül idi. Deyilənlərə görə, qızılgül yer kürəsində iyirmi beş milyon ildir ki, mövcuddur. Ətri dini ətir sayılıb, məbədlərin bəzədilməsində istifadə edilirmiş. Qızılgül haqqında əfsanələr, rəvayətlər saysız-hesabsızdır. Amma, bizim gözümüzdə onu daha dəyərli edən şey, o gülə “sevgimizin gülü” adını verməyimiz idi.

Gülü aldıqdan sonra, həyəcanla xəstəxanaya geri döndüm. Bu dəfə, həqiqətən də qovuşurduq artıq. Pis günlər nəhayət ki, geridə qalacaqdı. Xəstəxanaya çatar-çatmaz, Lamiyəyə zəng vurub, gəldiyimi xəbər verdim. Bir az sonra Lamiyə aşağı düşərək yanıma gəldi.

“Raul, üzrlü say, amma, səbr edə bilmədik. Nərgizi üzgün görüb dayana bilmədik, hər şeyi danışdıq ona.”

“Yaxşı eləmisiz. Canınız sağ olsun. Mən gedim Nərgizin yanına, evə dönərkən ətraflı söhbət edərik.”

“Yaxşı, get. Mən burda gözləyirəm. Hə, bu arada gül çox gözəldi”.

Təbəssüm edib, Nərgizin otağına doğru qalxdım. Həyəcandan ürəyim sanki ağzımda döyünürdü. Otağa girdiyimdə Nərgiz əlində güzgü tutmuş, özünə baxır, Aynişan müəllimə də onun saçlarını darayırdı. O an, “Ah bu qadınlar, necə də qəribədir”, – dedim öz-özümə. Bir neçə saat bundan əvvəl, intihara cəhd edən qız, indi gözəl görsənmək üçün saçlarını düzəldir. Nərgiz məni görən kimi, həyəcanla “Raul, eşitdiklərim doğrudur?” – deyə soruşdu. Aynişan müəllimə bizə baxaraq, xoş bir təbəssüm etdi:

“Mən Lamiyənin yanına düşüm, qız aşağıda tək qalıb.” – deyərək, çölə çıxdı. Əslində, Lamiyə bəhanə idi. Yanında rahat olmayacağımızı bildiyi üçün, bizi tək qoymaq istəmişdi. Otaqdakı xəstə yaxınları üçün qoyulmuş stullardan birini çəkərək, Nərgizin yanına oturdum. Əlimdəki qızılgülü yastığının yanına qoyub, əlini tutdum.

“Qovuşduq artıq, bütün pis günlər geridə qaldı, Nərgiz”

“Hələ də inana bilmirəm. Mən ümidimi itirdiyim üçün, intihar etmək istədim. Özümə gəldiyimdə isə, bu xəbəri eşitdim”.

“Çox qorxutdun məni. Sən ölsən, mən sənsiz nə edərdim, deyə düşünmədinmi heç?”

“Raul, sənə qovuşmadıqdan sonra yaşamağın heç bir mənası yox idi mənim üçün. Ona görə də ölmək...”

“Yaxşı, dayan. Ölüm sözünü unudaq, bu mövzunu da bağlayaq. Əsas odur ki, qovuşduq. Sən sabah burdan çıx, bir

az özünə gəl. O biri gün səni istəməyə gələcəyik. Bundan sonra hər şey çox gözəl olacaq."

"Çox həyəcanlıyam, Raul. İnşallah hər şey yaxşı olar".

"Hər şey çox yaxşı olacaq, söz verirəm sənə. İndi yat dincəl bir az. Görüşün də vaxtı bitir, mən artıq gedim, elçilikdə görüşərik", deyib, əyilərək alnından öpdüm. Nərgizlə sağollaşıb, Lamiyəgilin yanına düşdüm. Sanki bir-birini uzun müddətdir tanıyırlarmış kimi, xoş bir söhbətə qarışmışdı başları.

"Allah həmişə mehriban eləsin", – deyərək güldüm.

"Sevdiyinə qovuşmusan, kefin düzəlib ha, deyəsən. Sən zarafat da edə bilirmişsən, Raul?" – deyə, gülməyə başladı Lamiyə. Aynişan müəllimə də bizə baxıb güldü. Lamiyə:

"İstəyirsən gedək artıq, bir azdan səhər açılacaq. Səni evə ötürüm, sonra mən də evə gedim."

"Lamiyə, hər şeyə görə çox sağ ol. Sənə kifayət qədər əziyyət verdim onsuz da. Mən özüm burdan taksi ilə gedərəm. Sən get evə, dincəl bir az. Səhər işə getməlisən."

"Əvvəla, əziyyəti-zadı yoxdur, sən sevdiyinin yanına gəlmisənsə, mən də gəlinimin yanına gəlmişəm. Gəl gedək, mən apararam səni. Heç elə şey olar, təzə bəyi taksi ilə göndərək?" – deyib çox zərif bir şəkildə yenidən güldü.

"Yaxşı onda, biz gedək artıq. Aynişan müəllimə də Nərgizin yanına qayıtsın, Nərgiz otaqda təkdir... Aynişan müəllimə, siz də hər şeyə görə çox sağ olun. Bir daha sizə söz verirəm ki, hər şey çox gözəl olacaq."

"Bundan heç şübhəm yoxdur, oğlum, arxayın ol."

Aynişan müəllimə bizi xəstəxananın giriş qapısına qədər ötürüb, yolçu etdikdən sonra, Nərgizin yanına getmək üçün

geri döndü. Lamiyə ilə bərabər maşına oturub, yola düşdük. Yolda söhbəti ilk başladan Lamiyə oldu. "Görürsən, Raul, əgər Allah birini sənin qismətinə yazıbsa, əlbət-axır yollarınız qovuşar, yox, əgər qismətində yoxdursa, bütün dünya da sənə kömək etsə, yenə də bütün çarələr çarəsiz qalar."

"Lap şair kimi danışdın ha, sən də. Amma, haqlısan. Hər şey üçün bir daha çox sağ ol."

"Şair kimi danışmağım normaldır. Nə də olsa, bir yazarla dostluq edirəm. Dəyməz, Raul, mən bütün bunları həqiqətən də içimdən gəldiyi üçün edirəm. Unutma, sən mənim dostumsan. Dost yalnız xoş günlərdə yanında olmaq üçün deyil."

"Sən həqiqətən, əsl dostsan..."

Lamiyə məni evə qədər apardıqdan sonra, o da öz evinə getdi. Bir neçə saatdan sonra, artıq işdə olmalıydı. Evə çatdığımda pəncərədən işıqların sönülü olduğunu görüb hər kəsin yatdığını düşündüm. Evdəkilər oyanmasın deyə qapını açarla açıb, səssiz-səssiz içəri girdim. Dəhlizdən keçib, otağıma doğru getdiyimdə anamı mətbəxdə oturmuş çay içərkən gördüm. Məni görüb "Raul, gəldin, oğlum? Nərgizin vəziyyəti necədir?" – deyə həyəcanlı bir səs tonu ilə soruşdu.

"Salam ana. Narahat olma, Nərgiz yaxşıdır. Hətta, bir yaxşı xəbərim daha var sənə. Sən niyə yatmamısan bu vaxta kimi?"

"Niyə olacaq oğlum, fikirdən yata bilmədim. Səni gözlədim mən də. Xeyir olsun inşallah, nə yaxşı xəbərdir elə?"

Ah, canım anam mənim. Qayğıkeş anam. Boşuna deməyiblər ki, ağlasa anan ağlar, gerisi yalan ağlar...

“Aynişan müəllimə bugünkü hadisədən sonra, artıq bizi ayırmağın doğru bir fikir olmadığı qənaətinə gəlib. Yəni səhvini anlayıb. Oturub, uzun-uzun söhbət elədik. Lamiyə də bizimlə bərabər idi. Aynişan müəllimə dedi ki, ailən hələ də Nərgizi gəlini olaraq görmək istəyirsə, xəstəxanadan çıxdıqdan sonra, elçilik üçün buyurub gələ bilərlər.”

“Sənin adına çox sevindim, oğlum. Xeyirlisi ilə səhər olsun, bu barədə atanla danışıb məsləhətləşərik. Allahın izni ilə, uyğun bir zaman təyin edib, elçiliyimizi edərik.”

Anam oturduğu masadan ayağa qalxdı. Üzümdən öpüb, boynuma sarıldıqdan sonra, “Oğlum, get yat artıq, sən də yorğunsan. Unutma, sabah məktəbin də var”, – dedi.

“Yaxşı, anacan, narahat olma. Gedib yatıram indi”, – deyib, yataq otağıma getdim. Sabahısı gün məktəbə getdiyimdə, hər zamankından fərqli olaraq, gülərüz, mehriban və şən bir Raul olmuşdum. Bütün dərs boyunca, yalnızca Nərgizlə gələcəyimizə dair planlar qurub, elçilik haqqında düşünürdüm. Bu düşüncələr belə, xoşbəxt olmağıma artıqlaması ilə kifayət edirdi. Dərsdən qayıtdıqdan sonra, günün geri qalanını telefonda Nərgizlə danışaraq keçirtdim. İkimiz də telefonda rahat-rahat danışmağa uzun zamandı həsrət idik. Hər ikimizin evində də elçiliyə hazırlıq işləri gedirdi. Bir-birimizə evlərimizdə gedən elçilik hazırlığından danışır, bir yandan da gələcəklə bağlı planlar qururduq.

Otağımın qapısı döyüldü və anam içəri girdi.

“Oğlum, Nərgiz qızıma de, sabah səhər hazırlaşsın, gedib onu evdən götürək. Axşama söz üçün üzükləri alaq.”

Zarafata salaraq: “İndidən üzükləri almaq üçün tez deyil? Bəlkə heç vermədilər qızı”, – dedim.

“O dediyin əvvəllər idi, Raul. Həm də zarafat bir yana, mən Aynişan müəllimə ilə danışmışam. Nərgiz ağır travma keçirib. İşi çox uzadıb, onu da yormamaq üçün elə sabah hə cavabından sonra üzükləri taxmaq yaxşı olar. Sən Nərgizə de, sabah səhər hazır olsun.”

“Yaxşı anacan, deyərəm indi. Narahat olma.”

“Özünüz də yatın dincəlin, sabah işimiz çoxdu.”

Anam qapını bağlayıb, otaqdan çölə çıxdı. Nərgiz telefonda məni gözləyirdi. “Nərgiz, sabah səhər üzük...”

“Eşidirdim danışdıqlarınızı. Həm də ki, xəbərim var. Anam bayaq demişdi mənə.”

“Lap yaxşı. Elçilikdən qabaq, görüşmüş olarıq bu vəsiləylə.”

“Sabah üzük almağa gedəndə kimlər olacaq yanımızda?”

“Bizdən anamla mən olacayıq. Sən də kimi istəyirsənsə, özünlə gətirərsən.”

“Çinarəylə danışaram bir azdan. Mən də onunla bir yerdə gələrəm.”

Üzük almaq məsələsi, məni daha da həyəcanlandırmışdı. Gecə yarısına qədər telefonda danışıb, planlar qurduq. Nə vaxt yatıb qaldığımı xatırlamırdım belə. Sabah olduğunda, anam otağıma gəlib oyatmışdı məni. “Raul, saat on tamamdır. Mən oyatmasam günortaya kimi yatacaqsan. Elə bil heç sənin elçiliyin deyil bu gün. Dur hazırlaş, görüləsi işlər çoxdur.”

“Sabahın xeyir, ana. Sən yeməyimi hazırla, gəlirəm indi. Yemək yeyim, gedək Nərgizi götürək.”

“Yaxşı, bir az tez ol. Mən otaqdan çıxan kimi təzədən yatma.”

Yatağımdan qalxmadan, yatağın yanındakı çəkməcəyə uzanıb, telefonumu götürdüm. Saat 10:05 idi. Anam hər səhər məni oyadanda, otaqdan çıxar-çıxmaz, təkrar yatmağa davam edərdim. Amma, bu dəfə həyəcandan təkrar yata bilməzdim, sözsüz ki. Ayağa qalxıb əynimi geyindikdən sonra, əl-üzümü yuyub, mətbəxə keçdim. Atam dəhlizdən mənə səsləndi:

"Raul, piyada getməyin üzük almağa. Maşının açarın evdə qoyuram, maşınla gedərsiz. Mən bu günlük piyada yola verərəm işlərimi."

"Çox sağ ol, ata. Məni də elə piyada getməyin fikri götürmüşdü bayaqdan. Sən hara gedirsən bəs?"

"Bir-iki saatlıq işim var çöldə. Siz gedin işinizi həll edib, qayıdın."

"Yaxşı, ata, xəbərləşərik."

Səhər yeməyini yedikdən sonra, anamla bərabər hazırlaşıb, çıxdıq evdən. Yolda anam "Nərgizə xəbər vermisən evdən çıxdığımızı?" – deyə soruşdu.

"Narahat olma, hazırdır o. İndi zəng vuracam, düşəcək aşağı."

Məhəllələrinə çatdıqda maşını binanın qarşısında saxlayıb, Nərgizə zəng vurdum. Bir az sonra Nərgiz, rəfiqəsi Çinarə ilə birlikdə yanımıza gəldilər. Maşından düşüb, salamlaşdıqdan sonra, arxa qapını açıb, "Buyurun, xanımlar, əyləşin gedək. İşimiz çoxdur", – deyə gülümsədim.

Çinarə, gülərək "Çox şanslısan, Nərgiz. İncə ruhlu bir adamla ailə quracaqsan", – dedi və keçib arxa oturacaqda əyləşdilər.

Başımı yuxarı qaldırdığımda Aynişan müəlliməni evlərinin balkonundan bu mənzərəyə baxarkən gördüm. O

da çox sevincli görsənirdi. Başımız ilə bir-birimizə salam verdikdən sonra, mən də maşına əyləşdim: "Yaxşı xanımlar, indi deyin görək hara gedirik? Üzükləri hardan alacayıq, bir planınız var?"

Anam: "Raul, sən sür gedək şəhərə. Üzük tapılar".

Anamın dediyi kimi də elədik. Şəhərə gedib bir xeyli yer gəzdikdən sonra, nəhayət dükanlardan birində istədiyimiz kimi üzüklər tapdıq. Bəyəndiyimiz üzüklərin qiyməti baha olduğundan, Nərgiz ilk başda istəmədi. Anam vəziyyəti başa düşüb, dedi: "Bu sizin bəxt üzüklərinizdi. Ömürdə bircə dəfə olan bir şeydir. Baha olmasının ziyanı yoxdur. Həm bayaqdan neçə dənə dükan gəzdik, bircə bunu bəyəndiniz ikiniz də. Hələ görüləsi çox iş var, əgər həqiqətən bəyəndinizsə götürək bunları."

Nərgizlə bir-birimizə baxıb, gözlərimizlə sanki bəyəndiyimizi təsdiqlədik. Üzükləri aldıqdan sonra qəsəbəyə geri döndük. Nərgiz bəzənmək üçün gözəllik salonuna gedəcəkdi. Ona görə əvvəlcə Nərgizlə Çinarəni yaşadığımız qəsəbədə gözəllik salonlarının birinə qoyub, ardından da anamı evə apardım. Anam maşından düşərkən "Raul, sən hara gedirsən bəs?" – deyə soruşdu.

"Mən bərbərə gedirəm. Saçımı düzəltdirim, sonra evə gələcəm."

"Yaxşı Raul, amma, gec qalma. Üç saat sonra Nərgizgildə olmalıyıq."

"Yaxşı. Siz hazırlaşın, mən də evə gəlib, tezbazar əynimi dəyişərəm çıxarıq."

"Bəs Lamiyə? Bura gəlib, bizimlə bir gedəcək?"

"Yox, ona adresi vermişəm. Özü vaxtında orda olacaq."

“Yaxşı, çox gecikmə sən də. Vaxtlı-vaxtında gedək ki, ayıb olmasın.”

“Narahat olma, vaxtında gələcəm. Yaxşı, sözə tutma day məni. Qoy gedim işimi həll edim, gəlim tez.”

Vaxt yaxınlaşdıqca həyəcandan ürəyimin döyüntüsü də getdikcə artırdı. Hələ elçilikdə belə həyəcanlıyamsa, toyda yəqin ki, həyəcandan ölərəm, deyə düşündüm öz-özümə. Saçımı düzəltdirmək üçün getdiyim bərbər, elə yaşadığım qəsəbədə idi. İllərdi həmişə onun yanına gedirdim. Bu dəfə də, başqa birinin yanına getmək istəmədim. Bərbər Şaiq həm xoşdilli, gülərüz bir adam, həm də işinin ustası idi. Hər kəs, onu saç memarı adlandırırdı. Yanına çatan kimi “Xoş gəlmisən, Raul. Neçə gündü gözüm səni axtarır”, – dedi.

“Xoş gününə gələk, qardaş. Xeyr olsun?”

“Qulağıma söz-söhbət çatıb yenə. Eşitdim, məktəbdə qırğın-dava edirsən istədiyin qıza görə.”

“Qulağına çatmasa təəccüblənərdim, onsuz da. Bir az-dan, istədiyim qıza elçi gedəcəyik inşallah.”

“Xeyirli olsun, qardaşım. Allah xoşbəxt eləsin. Gəl otur onda sənin üçün bəy saçı düzəldək, – deyib, gülümsəyərək əli ilə dəri oturacağı işarə elədi: – Hə, Raul, danış görək. Həyəcanlısan?”

“Verdiyin suala bax da, əlbəttə ki həyəcanlıyam. Sənin də başına gəlsin, görərsən onda.”

“Mən səndən altı yaş böyüyəm. Əslində, elə birinci mənim başıma gəlməli idi. Amma, sən qabağa düşdün.”

“Onsuz da hələ qabaqda universitet, sonra ardıyca əsgərlik var. Mənim evlənməyimə ən az beş il var. O vaxta kimi sən çoxdan evlənərsən.”

“Hə, yaxşı yadıma düşdü. Hazırlaşırsanmı, heç olmasa, universitet üçün?”

“Hazırlaşacam. Bu iş həll olsun, daha ciddi düşəcəm o məsələnin üstünə.”

“Uğurlar sənə. Sən inahatkeş və istədiyini əldə edən bir adamsan. İstəsən onu da bacararsan. Bu arada hazırsan, təzə bəy.”

“Şaiq, əlinə sağlıq, qardaş. Bəy saçının qiyməti fərqlidir səndə də?”

“A kişi, nə bəy saçı, dur çıx çölə. İmkan ver işimizi görək. Səndən pul alası deyiləm xeyir işində”, – deyib gülməyə başladı.

“Çox sağ ol, Şaiq. Elə isə, gedim onda mən yavaş-yavaş. Özünə yaxşı bax.”

“Dayan, a kişi, dayan. Pul almayacam dedim, heç olmasa, bir sağ əlini başıma çək də. Mənim də bəxtim açılsın”...

Bərbərdən çıxdıqdan sonra, evə doğru yola düşdüm. Yol boyu, bu olub-bitənləri Şaiqə kim danışıb görəsən? – deyə düşünürdüm. Bu bərbərlərin də haqqında məlumatı olmadığı bir nəfər belə olmur qəsəbədə. Kişilərdə kişi salonu, qadınlarda isə qadın salonu. Bax, bu iki yer bütün qəsəbənin qeybəti olunan məntəqələrdir. Danışmağa söhbət tapmırlarmış kimi, qəsəbədə yaşayan kim varsa – azyaşlıdan qocasına kimi – bir-bir hamısının qeybətini edirlər. Filankəsin qızın filan oğlanla bərabər görüblər, Mehdinin ortancıl oğlu siqaret çəkirmiş sən demə, Fariz yoldaşından boşandı keçən gün, Cavidin qızı universiteti qazana bilmədi, xəbərin var? və s. İndi də Raul, Nərgizə görə qırğın-dava edirmiş söhbəti. Axı bütün bu olanlardan sizə nə? Nəysə əşi, mən bu insan-

ları həyatım boyunca anlaya bilməyəcəm belə getsə. Axı bir insanın nəyinə gərək olsun ki, öz doğması olmayan, kənar şəxslərin şəxsi həyatı? Görünür, ya bu insanlarda bir problem var, ya da ki məndə...

Telefonuma gələn zəng ilə düşüncələrdən ayıldım. Zəng vuran anam idi. "Raul, hardasan, oğlum?"

"Bərbərdən indi çıxdım. Evə gəlirəm"

"Bayaq demək yadımdan çıxdı, bir buket qəşəng gül alaydın gərək. Elçiliyə gül ilə şirniyyat aparmaq adətdəndir. Şirniyyatı atan alıb. Sən də gələndə gül al."

"Bunu yadıma vaxtında salsaz, olmazdı? Bir saata Nərgizgildə olmalıyıq artıq."

"Bizim də yadımızdan çıxmışdı, oğlum. Yaxşı, uzatma daha, get tezbazar yolüstü al."

"Yaxşı, ana, alaram. Siz mən gələnə hazır olun."

Yaxınlarda bir-iki məhəllə uzaqda bildiyim bir gül dükanı var idi. Ora gedib, Nərgiz üçün yeddi ədəd qızıl gül seçib, buket bağlatdırdım. Yeddi mənim həm ən sevdiyim, həm də mənə uğurlu gələn bir rəqəmdir. Evə çatdığımda anam və atam artıq hazır idilər. Hazırlaşmış, oturub məni gözləyirdilər. əynimi dəyişmək üçün tez otağıma keçdim. Qara kostyum dəstim ütülənmiş, otağımın qapı qulpuna asılmışdı. Tam bu andan etibarən içimi böyük bir həyəcan sardı. Bu vaxta kimi olan təmkinli, olğun davranışlı adam getmiş, onun yerinə uşaq kimi sevincək olan biri gəlmişdi. Kostyumu geyindikdən sonra, otağımda parıltısı ilə göz qamaşdıran klassik ayaqqabılarımı da geyinib, güzgünün qarşısına keçdim. Öz-özümə "göz qamaşdırırsan ha, Raul" deyib gülümsəməyə başladım. Nərgiz görəsən nə edir?

Mən bu qədər həyəcanlıyamsa, onun həyəcanını təsəvvür belə edə bilmirəm heç. İnşallah bir gün, bu güzgünün qabağında bəy kostyumumu geyinərək duracam. Tam şirin-şirin xəyallara dalırdım ki, anamın "Raul, tez ol bala, vaxt azdı. İyirmi dəqiqədir, hazırlana bilmədin sən hələ?" – sözləriylə gecikdiyimizi xatırladım.

"Hazıram, anacan. Çıxa bilərik artıq."

Anam dolmuş gözləri ilə məni süzərək: "Raul, xoşbəxt olun, oğlum, canım mənim", – deyib, hər iki üzümdən öpdü.

"Yaxşı, ana, kövrəltmə day məni. Xeyr işə gedirik, şükür Allaha. Sənin niyə gözün dolub?"

"Bir gün valideyn olub, övladının xeyir işin görəndə anlayarsan məni. Nəysə, gəl gedək daha. Dediyimiz vaxtda gedib çataq."

Hazırlaşıb, tezbazar evdən çıxdıq. Nərgizgil bizdən iki-üç məhəllə aralı, oxuduğumuz məktəbə yaxın qalırdı. Təxminən, beş dəqiqə sonra çatmışdıq artıq məhəlləyə. Lamiyənin maşını, məhəlləyə girən kimi, gözümə sataşdı. Lamiyə bizdən qabaq gəlmiş, maşında oturub gözləyirdi. O da bizim gəldiyimizi gördü, maşından enib yanımıza gəldi: "Salam, Əli dayı. Salam, Sevda xala, necəsiniz? Allah xoşbəxt eləsin. Sevgiləri əbədi olsun, inşallah."

"Salam, qızım. Yaxşı olasan. Şükür Allaha yaxşıyıq biz də. Tez zamanda, səndən görək, inşallah", – deyə qarşılıq verdi anamgil. Söhbətlərin kəsərək: "Görüşməyiniz bitdisə əgər, bəlkə artıq yuxarı qalxaq?" – dedim. Hamı bir ağızdan gülməyə başladı.

Atam əlini «gedək» mənasında qabağa uzadaraq: "Bəyimiz tələsir bir az, gəlin qalxaq", – dedi. Qapını Nərgizin

anası açmışdı bizə. Aynişan müəllimə, gülər üzlə xoş gəldin edib, içəri buyur etdi. Nərgiz hər zamankı kimi çox gözəl görsənirdi. Gözlərimi onun ala rəngli gözlərindən çəkə bilmirdim. Mənə başı ilə salam verdikdən sonra, valideynlərimlə salamlaşıb, öz otağına keçdi. Qonaq otağına keçib, oturduqdan sonra, təxminən bir saat idi ki, böyüklər hal-əhval tutur, öz aralarında danışırdılar.

Mən isə bir yandan Nərgizi görmək istəyir, bir yandan da valideynlərimin əsas mövzuya keçib elçilik etməsini, Nərgizi istəməklərini gözləyirdim həyəcanla. Yanımda oturan Lamiyəyə gileylənir, o da məni sakitləşdirməyə çalışırdı. Anam ara-sıra üzümə baxır, bu düşündüklərimi gözlərimdən oxuyurmuşcasına gülümsəyirdi. Bir ara, atamın qulağına pıçıltı ilə bir şeylər dedi. Çox güman ki, o, gözlədiyim cümlə idi.

“Artıq əsas mövzuya keçək, – atam oturduğu rahat divanda, bir az doğrulub, boğazını təmizləyərək, sözə başladı. – Həə, Aynişan xanım, sizin də izninizlə əsas mövzumuza gələk”.

Aynişan müəllimə gülümsəyərək, “Buyurun”, dedi sadəcə.

“Gəlişimizin səbəbi məlumdur. Çox istəyərdik ki, bu elçiliyi elimizin adət-ənənəsi ilə və vaxtı gəldiyində edək. Amma, məlum vəziyyət belə olmasını tələb etdi. Əlbət, hər işdə bir xeyir vardır. Bəlkə də Allah belə məsləhət bilib. Bu gözəl balalar bir-birini sevib, könül veriblər. Bizə düşən də valideyn olaraq, onlara bu yolda dəstək olmaq, ailə qurmaqlarına və gözəl bir ailə olmalarına kömək etməkdir. Həə, necə deyərlər, bir qız bir oğlanındır. Allahın əmri,

Peyğəmbərin qanunu ilə Nərgiz qızımızı Raul oğlumuza istəyirik.”

Aynişan müəllimə zərif bir şəkildə, sevincdən yaşarmış gözlərini ovuşdurdu: “İki gün bundan əvvəl, Nərgizi, gözümün ağı-qarası tək övladımı, itirəcəyimi zənn etmişdim. Şükürlər olsun ki, Allah onu mənə yenidən bağışladı. Bu gün isə, bir oğlan övladı daha qazanıram. Eynilə sizin də dediyiniz kimi, görünür xeyirlisi belə imiş. Bizə “Allah xoşbəxt eləsin” deməkdən başqa, heç bir söz düşməz artıq.”

Hamı bir ağızdan xeyir-dua verməyə başladı: “Allah xoşbəxt eləsin, yarıyanlardan olsunlar.” Aynişan müəllimə Nərgizə səslənərək, “qızım, şirinçayları gətir” dedi. Lamiyə ayağa qalxıb “Mən də Nərgizə kömək edim. O indi həyəcanlıdır”, – deyərək Nərgizin yanına getdi. Anam “Şirinçayımızı içəndən sonra, istəyirik uşaqlara bu gün söz üzüklərin taxaq. Sonra isə, oturub uşaqların gələcəyi haqqında bir az söhbət edək”, – dedi. Aynişan müəllimə gülümsəyərək başı ilə razılıq əlamətini bildirdi.

Bir az sonra Lamiyə və Nərgiz əlində şirin çaylar ilə yanımıza gəldilər. Birinci mənim valideynlərimə, sonra öz anasına, Lamiyəyə və ən son mənə çayları verib, otaqdan çıxmaq istəyirdi ki, “Getmə qızım, otur sən də – deyə səsləndi atam. Aynişan müəlliməyə doğru dönərək, – icazənizlə Nərgiz də qalsın. Nə də olsa, onların gələcəyi haqqında danışacayıq”. Aynişan müəllimə Nərgizə əli ilə otur deyə, işarə elədi.

Çaylarımızı içdikdən sonra, növbə üzükləri taxmağa gəldi. Hamı ayağa qalxaraq, Nərgizlə mənim başımıza toplandı. Lamiyə qırmızı lent taxılmış üzükləri barmağımıza

taxdı. “Allah xoşbəxt eləsin, əzizlərim. Allah toyunuzu görməyi qismət eləsin. Bir ömür sevib-sevilənlərdən olasız, inşallah” deyib, əlində tutduğu qayçı ilə lenti kəsdi. Hamı bir daha təbrik edib, xeyir-dualarını verdikdən sonra əyləşib, qaldığımız yerdən söhbətə davam etdik. Atam: “Həə, izninizlə indi, ikinci əsas məsələyə keçək, – deyib, söhbətə başladı. – Raul on bir, Nərgiz isə onuncu sinifdədir. Sözün açığı, mən belə düşünürəm ki, Raul universitetin dördüncü, yəni son ilində olan vaxtı nişan edərik. Sonra Raul hərbi xidmətə gedib gələr, eyni zamanda Nərgiz də universiteti bitirmiş olar. Əsgərlikdən gələndən sonra isə şanımıza layiq gözəl bir toy edərik. Mənim bu haqda düşüncəm budur. Siz necə düşünürsünüz, Aynişan xanım?”

“Məncə də sizin dediyiniz kimi uyğundur. Tələsən bir yerimiz yoxdur nədə olsa. Xeyirlisi Allahdan.”

Əsas məsələlər haqqında danışıb, qərarımızı verdikdən sonra, təxmini bir-iki saat daha oturub, gecəni sonlandırdıq. Təbii ki, gecəni sonlandırmaq Nərgizlə mənə aid deyildi. Bizim üçün tam tərsinə, gecə uzun çəkəcəkdi bəlli ki. Çünki ikimiz də telefonlara sarılıb səhərə qədər bir-birimizlə danışmağın planlarını qururduq artıq. Lamiyəyə minnətdarlığımı bildirib, hər şey üçün bir daha təşəkkür etdikdən sonra, onu maşınına qədər yolçu edib, biz də evə doğru yol aldıq. Evə çatar-çatmaz, ilk işim ayaqqabılarımı çıxarıb, otağıma keçmək oldu. Əynimdəki kostyumu belə dəyişəcək səbrim yox idi. Ona görə də elə kostyumla yatağıma uzandım.

O gecə sübhə qədər telefonla danışdıq. İkimiz də özümüzlə qürur duyurduq. Bu yaşda gerçək sevgini tapdığımı-

zı və sözlənərək bu sevgini bərkitdiyimizi düşünürdük. Nə də olsa, bu yaşda hər kəs ailəsini buna razı sala bilməzdi. Tam anlamı ilə bir çılğınlıq idi bu. Sabahısı gün, bazar günü idi. Görüşmək üçün öz aramızda planlar qururduq. Bundan sonra görüşəndə, qəsəbədəki güvənlik kamerası rolu oynayan o insanlardan özümüzü gizlətməyə ehtiyac yox idi. Aynişan müəllimənin qorxusundan gizli-gizli görüşdüyümüz günlər, artıq geridə qalmışdı.

Səhər tezdən hazırlaşıb evdən çıxdım. Nərgizi evlərindən götürüb, gəzməyə gedəcəkdik. Evlərinə çatdığımda qapını Nərgiz açdı. Üzgün olduğu, ala rəngli gözlərindən çox rahat sezilirdi. “Nəsə olub, Nərgiz?”

“Gəl içəri, Raul, anam da səni gözləyirdi elə.”

Görüş üçün icazə ala bilmədiyini anlamışdım. Ayaqqabılarımı çıxararaq, içəri otaqda olan Aynişan müəllimənin də eşitməsi üçün bir az yüksək səslə:

“Görünür icazə ala bilməmisən görüş üçün. Narahat olma, mən icazə alaram. Mən Aynişan müəlliməni çox istədiyim qədər, o da məni çox istəyir. O mənim xətrimə dəyməz”, dedim.

İçəri keçdiyimizdə Aynişan müəllimə gülərək “Ah, Raul, ah, belə şirinliklər edə-edə həqiqətən də özünü çox istədəcəksən zamanla. Buna əminəm.”

Bir az zarafatyana bir şəkildə “Necə bəyəm? İndi çox istəmirsiz ki, məni?” deyə soruşdum.

“İndi də çox istəyirəm, amma, sözümə qulaq assan, zamanla lap çox istəyəcəm. Keçin oturun ikiniz də, sizə deyəcəklərim var”, deyə əlavə etdi Aynişan müəllimə. Nərgizlə bir-birimizə sual dolu baxışlarla baxaraq, oturduq.

“Baxın uşaqlar, mən sizi çox yaxşı başa düşürəm. Bir-birinizi həqiqətən sevirsiniz, bunu da bilirəm. Sevginizə də hörmət edirəm hətta. Amma, sizin bu yaşda sözlü olmağınız, bütün günü gəzib-əylənəcəyiniz anlamına gəlmir. Siz hələ məktəblisiniz. İkiniz də universitetə qəbul olmalısınız. Raul, əsas da sən. Sən onbirinci sinifdəsən. Bir neçə ay sonra qəbul imtahanın olacaq sənin. Mən müəllimə adamam. Mənim qızım da, kürəkənim də ali savadlı olmalıdır.”

Aynişan müəllimənin dediklərinə ikimiz də başımızı sallayaraq razılıq verir, bir yandan da, yenə əvvəlki kimi görüşə bilməyəcəyimizi düşünməyə başlamışdıq artıq. “Raul, qulaq asırsan sən mənə? Fikrin hara getdi sənin?”

“Diqqətim sizdədir. Haqlısınız əlbəttə ki. Nərgiz də, mən də universitet oxuyacağıq.”

“Bəli, oxumalısınız! Məktəbdə onsuz da bir-birinizi görəcəksiniz, buna qarışmayacam. Məktəb xaricində isə universitetə daxil olana qədər, sadəcə ayda bir dəfə görüşməyinizə icazə verəcəm. İstisna olaraq sözlənməyiniz xətrinə bu gün gəzməyə gedə bilərsiniz.”

Bu son sözlər ikimizin də gözünə işıq gətirdi sanki. Nərgiz oturduğu yerdən qalxaraq, anasının boynuna sarıldı. “Bəs mənə deyirdin, Raul gəlsin, ona da sözümü deyib, göndərəcəm evlərinə?

Aynişan müəllimə gülümsəyərək “Neyniyim, çox istəyirəm də onu. Xətrinə dəyə bilmədim”, deyərək həm mühiti yumşaltdı, həm də bayaq ona eşitdirmək üçün dəhlizdə yüksək səslə dediklərimə qarşılıq verdi.

Hazırlaşıb çıxdıq evdən. Getmək istədiyimiz yer Botanika bağı idi. Nərgizlə çox uzun zaman idi ki ora getmək

istəyirdik. Bir gün əgər rahat-rahat görüşə bilsək, mütləq ora da gedərik, deyə planlar qururduq. Qış olsa, gedib qartopu oynayar, qarın üzərində öz izlərimizi qoyar, yaz olsa, gedib güllər-çiçəklər arasında gəzər, piknik edərdik, deyə düşünmüşdük.

Fevral ayının son günləri idi. Demək olar, qış artıq bitmiş, sadəcə gecələri üşümə verən soyuqları qalmışdı geriyə. Yaz isə yavaş-yavaş gəldiyini hiss etdirirdi təbiətdə. Gündüzləri havalar nisbətən daha isti olurdu və ən əsası, baharın xəbərçisi olan çiçəklər çoxdan dörd bir yanda açmağa başlamışdı. Yaz mövsümündə biz bu bağı cənnətdən bir guşə adlandırırdıq. Şəhərin səs-küyündən uzaq, yaşıllıq, gül-çiçək, quşların cəh-cəh vurması. Necə deyərlər, gül bülbülü çağırır, bülbül də gülü. İkimiz də ona görə bu huzur verən yeri çox sevir, tez-tez gəlirdik bura. Sadəcə ikimiz bərabər gələ bilməmişdik heç vaxt. Bu gün, o gün idi. Bir xəyalımız daha gerçək olurdu bu gün. Bir az gəzdikdən sonra piknik edəcəyimiz yeri qərarlaşdırıb ayaq saxladıq. Nərgiz piknik üçün hazırladığı çantadan, yerə sərmək üçün bir örtük çıxardı. O, hazırlıq görərkən, mən də bir az aralıda ətrafdakı güllərdən ona bir çələng düzəldirdim.

Nərgiz piknik masasını hazırladıqdan sonra yanıma gəldi. “Hazırdır, Raul, gəl oturaq”. “Sən otur, bir dəqiqəyə gəlirəm”. Nərgiz əlimdə düzəltdiyim çələngə diqqətlə baxaraq, bir az daha yaxına gəldi. “Nə edirsən ki sən burda?” “Sənin üçün güllərdən çələng düzəldirdim. Bitdi artıq.”

Əlimdəki çələngi Nərgizin başına qoydum. Adi güllərdən düzəltdiyim bir çələng belə, Nərgizə çox gözəl yaraşmışdı. Heç nə demədən bir neçə saniyə sarıldı mənə. Sonra

əlimdən tutub, gülümsəyərək “gedək, Raul, süfrə hazırdır”, dedi.

Piknikə başladıqdan bir az sonra, Nərgiz yaman fikirli görsənirdi gözümə. Sanki bura bərabər gəldiyim gülərüz, sevincək Nərgiz deyildi yanımdakı. “Nə baş verir, Nərgiz? Nəyə görə belə fikirlisən?” deyə soruşdum.

«Fikirli deyiləm. Sadəcə bir az düşündüm».

“Nə haqda? Səsli düşün ki, kömək eləyim sənə».

“Anamın dedikləri haqqında. Dörd-beş aydan sonra artıq sənin universitetə qəbul imtahanındır. Öz aramızdır, sən isə buna hazır deyilsən».

“Narahat olma, Nərgiz. Mən bu haqda düşünmüşəm. İstəyirəm Anarla görüşüm bu axşam. Onu da universitetə hazırlaşması üçün məcbur edəcəm. Mən inanıram ki, ali məktəbə bir yerdə hazırlaşsaq biz bunu bacaracayıq. Biz ikimiz gördüyümüz bütün işlərdə bərabər olmuşuq hər zaman. Sadəcə bir müddətdir başım bizim məsələlərə qarışmışdı. Bir halda ki mən universitet oxuyacam, gərək bu yolda Anarı da özümlə gəlməyə razı salım.”

“Bu, yaxşı fikirdir, Raul. Məktəbdə bütün müəllimlər sizin ikinizin də haqqında “Əslində çox ağıllı uşaqlardı. Oxusalar, çox savadlı olarlar. Amma, oxumaq yerinə boş-boş avaralanırlar ancaq”, deyə danışırlar.

“Hansı müəllim deyib ki, bunu?”

“Önəmli olan hansı müəllimin dedikləri deyil. Önəmli olan dediklərinin doğruluq payıdır. Məncə tamamilə haqlıdırlar. Bu arada anamın məni sənə vermək istəməməyinin səbəblərindən biri bilirsən nə idi?” – Sual dolu baxışlarla sadəcə üzünə baxmağa davam etdim. – “Ən bö-

yük səbəblərdən biri, sizin yaxşı imkanınızın olmamağı idi. Bilirsən necə, mən atasız böyümüşəm. Anam məni çox çətinliklərlə bu yaşa gətirib çıxarıb. Ona görə də o, gələcəkdə mənim də eyni çətinlikləri çəkməyimi istəmir. Sözün açığı mən də həmçinin. Düzdü, siz kasıb sayılmazsız. Amma, imkanlı bir ailə də deyilsiz."

Nərgizin dedikləri məni həm məyus etmiş, həm də çox utandırmışdı. Bunu Nərgizə bildirməməyə çalışsam da, təəccüblə Nərgizin üzünə baxır, sözünü kəsmədən dediklərini dinləyirdim. Görünür, nə qədər gizlətməyə çalışsam da, o da bunun fərqinə varmışdı ki, sözlərinə belə davam elədi: "Raul, nəticədə biz bir-birimizi sevirik. Kasıb da olsaq, varlı da olsaq – biz bir ailə olacayıq. Amma, dediklərimi bir az düşün. Sən istəməzsən ki, gələcəkdə yaxşı bir maşının olsun? Sizin maşınınız kimi dəmir parçası yox, bahalı bir maşın. Gözəl bir evin və yaxşı pul qazandığın bir işin olsun. İstəməzsən? Nə yalan deyim, mən istəyərəm, məsələn. Buna görə də gələcəyimiz üçün indidən çalışmalıyıq."

"Mən də istəyərəm, əlbəttə. Kim istəməz ki, bu saydıqlarını? Qismət Allahdan. Ümidvaram ki, yaxşı bir gələcəyimiz olacaq bizim də. Bunun üçün əlimdən gələni edəcəyimə şübhən olmasın, Nərgiz."

"Şübhəm yoxdur. Mən inanıram ki, mənim sevdiyim adam, bunu etməyə qadir olan biridir".

Piknik bitdikdən sonra, toparlanıb evə tərəf yol aldıq. Evdən çıxarkən, hava qaralmamış Nərgizin evdə olması barədə tənbeh eləmişdi Aynişan müəllimə. Qəsəbəyə dönüb, Nərgizi evə ötürdükdən sonra ilk işim Anarı axtar-

maq oldu. Dəfələrlə zəng vursam da, telefonu sönülü idi. Nə olur-olsun, bu söhbəti onunla bu gün danışmalı idim. Evlərinə getdiyimdə anası Ruziyyə xala, Anarın evdən təzəcə çıxdığını dedi. Gedə biləcəyi yerləri az-çox təxmin edirdim. Nədə olsa, yaxın dostum idi. Eyni məktəbdə oxumağımız və qonşu evlərdə yaşamağımız demək olar, bütün günümüzün bərabər keçməsinə səbəb olurdu. Bir az axtardıqdan sonra, nəhayət ki, tapdım onu.

Qəsəbədə cavanların daha çox getdiyi bir çayxana var idi. Son zamanlar, Anarın orada çox vaxt keçirdiyini bilirdim. İçəri girdiyimdə ağzında siqaret, əlində domino daşları və yanında üç nəfər tanışı ilə oturmuşdu. Yanlarına gedib salamlaşdıqdan sonra, Anara onunla vacib bir işim olduğunu deyib, ondan mənimlə gəlməsini xahiş etdim. Vacib bir səbəbi olmasa, belə bir şey etməyəcəyimi yaxşı bilirdi. Ona görə də heç nə soruşmadan dostlarına üzrxahlıq edib, kafedən ayrıldıq.

“Nə olub, Raul? Yenə kimləsə qırğın-davaya gedirik?”

“Yox, Anar. Bu dəfəki ciddi bir məsələdir”.

“Nə qədər ciddi bir məsələ? Hara gedirik ki?”

“Hara getsək, mənimlə gəlməyəcəksən ki?”

“Boş-boş danışma, Raul! Ölümə gedirik desən, yenə də gələrəm. Bunu sən də bilirsən. Sadəcə maraqdan soruşuram.”

“Nə vaxta kimi belə həyat tərzi sürməyi düşünürsən? Səhər-axşam çayxanada domino oynamaqla, necə bir gələcək düşünürsən, məsələn?”

“Nə olub, Raul? Nədən danışırsan sən?”

“Bir neçə ay sonra dost-tanışlarımız ali məktəbə qəbul olacaq. Özlərinə bir gələcək quracaqlar. Biz nə edəcəyik bəs? Əsgər gedəcəyik?

“Əsgər getməkdə pis nəsə var ki, bəyəm?”

“Əsgər getməkdə pis nəsə yoxdu. Hərbi xidmət hər birimizin borcudur. Amma, gələndən sonra nə edəcəyik? Kim bizi yaxşı bir işə götürəcək?”

Anar başını qaşıyaraq bir az düşündü. Üzündə qəribə bir ifadə ilə mənə tərəf dönüb:

“Yaxşı, sən nə düşünürsən bəs? Nə məsləhət görürsən, daha doğrusu?” deyə soruşdu.

“Məsləhətim odur ki, biz də digərləri kimi ali təhsil alaq. Hərbi xidmətə isə sonra gedərik. Az əvvəl dediyim kimi, hərbi xidmət onsuz da hər birimiz üçün vətən borcudur. O borcu əlbət-axır ödəyəcəyik.”

“Necə edəcəyik bəs bunu? Sənin də dediyin kimi bir neçə ay sonra qəbul imtahanının vaxtıdır artıq. Biz isə hırnan-zırı qanmırıq.”

“Düzdü, vaxt azdır. Amma, ikimiz də bilirik ki, biz istəsək bunu bacara bilərik. Uşaqlıqdan bəri sən humanitar, mən isə texniki fənləri hər zaman yaxşı bilmişik. Bərabər hazırlıq kurslarına gedərik. Gecə-gündüz oxuyub, bir-birimizə də kömək edərik.”

Dediklərim yavaş-yavaş Anarın da ağlına batmağa başlamışdı. Mən onun bütün düşüncələrini üzündəki ifadədən anlayırdım. Eynilə o da mənim. Bir insanın ağlından keçənləri, onun üzündəki ifadədən və ya gözlərindən anlamağı, sözsüz ki, onun ən yaxınları bacara bilər yalnız.

“Yaxşı, Raul. Onda elə günü sabahdan oxumağa başlayaq. Amma, mənim bir şərtim var.”

“Nə şərt?”

“Nə olur-olsun, çıxdığımız yoldan geri dönməmək və qarşımıza qoyduğumuz məqsədi layiqincə yerinə yetirəcəyimiz barədə bir-birimizə söz verək.” – Anarın bu cavabı məni həm şad etmiş, həm də daha çox həvəsləndirmişdi. Qürurlu bir şəkildə əlimi Anarın çiyninə qoydum.

“Söz, qardaşım, söz.”

***

Evə gəldiyimdən bəri, özümü çox qəribə hiss edirdim. Yaşana biləcək bütün duyğuları eyni anda yaşayırdım sanki. Nərgizin maddi durumumuz haqqında dedikləri çox canımı sıxmışdı. Botanika bağında dedikləri, məni çox utandırmışdı. Mən heç vaxt gözü çox yüksəklərdə olan, böyük arzuları olan bir adam olmamışdım. Mənim tək arzum başımı soxacaq bir daxmam olsun, o daxmada Nərgiz və iki uşağımız olsun – istəyirdim. Biri oğlan, biri qız. Oğlan eyni mənə bənzəsin, qız isə Nərgizə. Gözləri onun gözləri kimi olsun, məsələn. Mən yaşadığımız qəsəbədə müəllimlik edim. Çətinliklə dolansaq belə, xoşbəxt bir ailəm olsun. Amma, bu gün Nərgizin dedikləri bütün bu fikirlərdən daşındırdı məni. Məsuliyyət və öfkə qarışıq bir hiss gəlmişdi mənə. Gələcəkdə Nərgizin istədiyindən də, daha imkanlı biri olacaqdım. Bunun üçün ilk addımı sabah Anarla bərabər atacaqdıq. Sabah universitetə hazırlıq üçün kursa yazılacaqdıq ikimiz də. Nə olursa olsun, ali məktəbə qəbul olmalı idim. Həm istədiyim gələcəyi əldə etmək üçün, həm də ailəmi məyus etməmək üçün. Çünki gedəcəyimiz kurs bir neçə

ay maddi sıxıntı yaradacaq idi atam üçün. Elə tək bunun məsuliyyəti, əlimdən gələnin ən yaxşısını etməyim üçün əsaslı səbəb idi.

Səhər ilk işimiz, məktəbdən çıxar-çıxmaz, kursa getmək oldu. Bizim kimi gec hazırlaşmağa başlamış, amma, qavrama qabiliyyəti yaxşı olan abituriyentlərdən ibarət bir qrup var idi. Kursda belə bir qrup tapmaq bizim üçün çox yaxşı olmuşdu. Gündəlik qrafikimizi elə qurduq ki, gündüzlər məktəbdə müəllimlərdən kömək alır, məktəbdən sonra kursa gedir, hətta kursdan sonra belə gecələr bir-birimizin evində olur, gecə saat üçə, dördə qədər oturub dərs oxuyurduq. Anar Azərbaycan dili və ingilis dilini, mən isə fizika və riyaziyyat fənlərini çox yaxşı qavrayırdıq. Zəif olduğumuz fənlərdən isə bir-birimizə kömək edirdik. Bir müddət sonra, ilk başlardakı özümüzə qarşı olan güvənsizlik duyğusu getmiş, yerini arxayınlıq almışdı. Artıq ikimiz də buna inanırdıq. Biz bunu bacaracağıq!

***

Bu minvalla günlər həftələri, həftələr ayları qovmuş və artıq on bir il oxuduğumuz məktəblə vidalaşmaq vaxtı gəlib çatmışdı. Bu gün "Son zəng" idi. Bizim üçün son dəfə çalınacaqdı bu məktəbin zəngi. İnsanın həyatında yaşadığı elə günləri olur ki, neçə yaşına gəlirsə gəlsin, o günləri əsla unutmur. O günlərdən biri də on bir ilinin keçdiyi, hər kvadrat metrində bir uşaqlıq xatirəsinin olduğu məktəblə vidalaşdığı gündür. Çox insan məktəb illəri boyunca, kaş ki tez bitirəydim məktəbi, canım qurtaraydı, deyə düşünür. Son zəng günü gəlib çatdığında isə hər nə qədər bildirməsə

belə, hər kəs kimi o da kövrəlir məktəbin bitməsinə. Çünki, məktəb illəri həyatının ən çılğın, ən rəngarəng və qayğısız keçdiyi illər olur. Böyüklər hər nə qədər "Bu illərinizin qədrini bilin, sonra çox darıxacaqsınız bu illər üçün" desə belə, mən də hər bir şagird kimi, bu sözləri qulaq arxasına vururdum. Bax elə məktəb illərinə xas olan əsas şey də bu idi. Çünki biz özümüzü hamıdan ağıllı sayırdıq.

Məktəbin girişi önündə bütün onbirincilər yığılmış, son sözlərimizi deyir, mahnılar oxuyurduq. Bütün məzunların yaxınları və ailəsi də burada idi. Bizimkilər də həmçinin. Bir ara uzaqdan Nərgizin mənə əl salladığını görmüşdüm. Kövrəkliyim iki qat daha artmışdı o an. Dərin bir nəfəs çəkib, bir Nərgizə, bir də geridə qoyub getdiyim məktəbə baxdım. Bu məktəb sayəsində tapmışdım mən sevgimi. Mən birinci sinifdə oxuyarkən Nərgizin bizim sinfə ilk girdiyi gün canlanmışdı gözümün önündə. Məktəbi buraxıb getmək onsuz da çətin gəlirdi mənə. Bir yandan da Nərgizi burda tək qoyub getmək bir az da canımı sıxırdı. Bu can sıxıntıma yaxşı gələn tək şey Aynişan müəllimənin də bu məktəbdə işləməsi idi. Mən olmasam belə, o Nərgizin məktəbdəki son ilində daima yanında olacaq idi.

Daldığım bu xəyallardan zəngin səsi ilə ayıldım. Və budur, artıq bizim üçün sonuncu zəng çalındı. Son zəngin standart adət-ənənələrini yerinə yetirdikdən sonra, Nərgizi evlərinə qədər ötürüb, Anarla birlikdə bizim evə getdik. Evə girər-girməz, Anar deyinməyə başlamışdı. "Bütün onbirincilər bu gecə orda olacaq, Raul! Onlar orada əylənəndə biz burda oturub axmaq kimi dərs oxuyacayıq? Bir gün dərs oxumasaq, dünya dağılacaqdı bəyəm?"

“Qəbul imtahanına cəmi bir ay qalıb. Sən bunun fərqindəsən, a kişi? Bir ay sonra imtahan verəcəyik, amma, hələ də bilmədiyimiz çox şey var.”

“O bilmədiklərimizi bir gündə öyrənəcəyik, professor?”

“Boş-boş danışıb canımı sıxma, Anar. Tələbə olandan sonra istədiyimiz qədər əylənərik. Onlar ilboyu bu imtahana hazırlaşıblar, hətta illərdi. Təbii ki, tələbə olmaq kimi bir fikri olmayanları demirəm. Ona görə də bu gecə bizim orada yerimiz yoxdur.”

Anar bu sözlərimdən sonra dərin bir köks ötürüb, əsəbi bir şəkildə çantasından çıxardığı kitabları masaya fırlatdı. Dodaq altından “Universitetə qəbul olduqdan sonra bu lənətə gəlmiş kitabların hamısını bir-bir yandıracam”, deyə öz-özünə mırıldandı. Bundan sonra artıq, məktəb də yox idi. Məktəbdə olduğumuz altı-yeddi saat vaxtı da oxumağa sərf edəcəkdik. Oxumaqdan bezdiyim, yorğun düşdüyüm zamanlarda məni özümə gətirən tək bir şey var idi. Nərgizin botanika bağında mənə dediyi sözlər. O sözləri Nərgizdən eşitmək canımı çox acıtmışdı həqiqətən də. Özümə, nəyin bahasına olursa olsun, bir gün çox imkanlı bir adam olmağa, söz vermişdim. Masanın üstünə qoyduğum mobil telefonum zəng çaldı. Telefonun ekranına baxdığımda zəng edənin Lamiyə olduğunu gördüm. Bu gün, Məzun günümdə yanımda yox idi. Gəlmədiyi üçün üzülmüşdüm, amma gəlmədiyinə görə yəqin ki, önəmli bir səbəbi var, demişdim özüm-özümə.

“Alo, eşidirsən, Raul?”

“Salam, Lamiyə, eşidirəm. ”

“Bilirəm incimisən məndən. Amma, bu gün işlər o qədər çox idi ki, sənin son zənginin olduğu tamam yadımdan çıxmışdı”.

“Eybi yox, Lamiyə, önəmli deyil. Canın sağ olsun”.

“Üzr istəyirəm, Raul. De görüm, özümü sənə necə bağışlada bilərəm?”

“İşinlə bağlı gələ bilməmisən, nəticədə. Ona görə də eybi yox. Amma, yenə də ürəyini rahatlatmaq üçün bir şey etmək istəyirsənsə, qəbul imtahanına gedəndə sən də Nərgizlə bərabər yanımda ola bilərsən.”

“Böyük bir məmnuniyyətlə, əziz dostum. Onsuz da elə bir gündə sənin yanında olmasam, özümü çox pis hiss edərəm.”

“Elə isə, bir ay sonra görüşmək üzərə. Çünki bu bir ay ərzində evdən bayıra çıxacağıma inanmıram.”

Lamiyə hər zamankı incə gülüşü ilə “Allah zehin açıqlığı versin. Tez zamanda görüşmək üzərə”, deyərək sağollaşdı.

Anara doğru döndüyümdə, əlindəki kitabı çox diqqətli və sakit bir şəkildə oxuyan bir adamla qarşılaşdım. Sanki ətrafında bir vakuum yaratmışdı özünə. Qulağının dibində telefonla danışmağım belə onu heç rahatsız etmirdi. Ümumiyyətlə, məni heç eşitmirdi sanki. Önümüzdəki bu bir ay bizim üçün heç də asan olmayacaqdı...

***

Zəngli saat çaldığında səhər yeddi idi. Gözlərimi açmadan, yatdığım yerdən əlimi uzadaraq söndürdüm onu. O zəngin səsindən zəhləm gedirdi. Hər səhər o səs ilə yuxudan oyanmaqdan bezmişdim artıq. Ona görə də yatdığım yerdən, gözübağlı şəkildə onu söndürməyi vərdiş etmişdim.

Onu söndürdükdən sonrakı təkrar yatdığım dörd-beş dəqiqə nəyə desən dəyərdi mənim üçün. O anı doya-doya yaşamaq üçün hətta gedəsi bir yerim olmadığı günlərdə belə, bəzən zəngli saatı gecədən qurar, oyandığımda isə onu söndürüb təkrar yatardım. Bəlkə də bu bir axmaqlıqdır. Amma axmaqlıq belə olsa, bunu etməyi çox sevirdim. Unutmayaq ki, bu həyatı gözəl edən tək şey axmaqlıqlardır.

Yatmadan əvvəl ən son saata baxdığımda 05:32 idi. Nə qədər yatmaq istəsəm də həyəcandan bütün gecə yata bilmirdim. Təxmini, bircə saat yuxuda olmuşdum deyəsən. Bugünkü günün əhəmiyyəti yadıma düşdükdə yorğunluqdan aça bilmədiyim gözlərim, üzünə fənər tutulmuş dovşan gözləri kimi açıq qaldı. Bu gün böyük gün idi. Səbirsizliklə gözlənilən imtahan günü gəlib çatmışdı nəhayət ki. Cəld ayağa qalxıb hazırlaşmağa başladım. Əynimi təzəcə geyinmişdim ki, telefonun zəngi çaldı. Zəng vuran Anar idi.

“Sabahın xeyir, Raul, qalxa bilmisən yataqdan?”

Güzgüdəki əksimə baxıb, gözlərimi ovuşdurdum.

“Sabahın xeyir. Özüm qalxmışam birtəhər, amma beynim hələ də yatıb sanki.”

Anar gülərək cavab verdi: “O beyin sənə çox lazım olacaq bu gün. Ona görə də oyat beynini və hazırlaşıb imtahana get.”

“Çalışacam. Sən tək gedəcəksən bəs?”

“Hə, Raul, məni bilirsən özün. Yanımda bir adam olsa, əksinə, daha da stressə girərəm orda. Sən kiminlə gedirsən?”

“Nərgizlə gedəcəm. Hə, bir də Lamiyə də gəlməli idi. Yaxşı Anar, ikimiz də hazırlaşaq. İmtahandan çıxanda görüşərik.”

Son olaraq ikimiz də bir-birimizə uğurlar diləyib sağollaşdıq. İmtahanlarımız ayrı-ayrı məktəblərdə olacaqdı, təəssüf ki. İmtahana bərabər getmək arzularımız suya düşmüşdü. Bu son bir ayda gecə-gündüz dərs oxumuşduq. Əslində ikimiz də artıq universitetə qəbul olacağımızdan əmin idik. Bunun üçün, qısa vaxt da olsa belə, çox çalışmışdıq. Sadəcə bizi həyəcanlandıran tək şey yaxşı bir universitetə və mümkünsə dövlət sifarişli yerlərə qəbul olunmaq arzusu idi.

Qonaq otağından səslər gəlirdi. Valideynlərim deyəsən mənə görə erkən oyanmışdılar bu gün. Diqqətlə qulaq asdığımda üçüncü bir adamın səsi daha eşidilirdi sanki. "Axı bu vaxtı kim gəlmiş ola bilər ki?" deyə düşünərək qonaq otağına doğru getdim. Otağa daxil olduğumda, Lamiyəni valideynlərimlə bərabər çay içərkən görəndə, təəccübləndim sözün açığı. Lamiyə üzündəki təbəssümlə təzad yaradan ciddi bir səs tonu ilə "Elə bilirsən tək həyəcanlı olan sənsən?" deyə soruşdu.

"Xoş gəlmisən, Lamiyə. Evə gələcəyini bilmirdim. Şəhərdə görüşərik deyə düşünmüşdüm mən."

Lamiyə çayından bir qurtum aldı. "Sözün açığı özümü bağışlatmaq üçün bura gəlmək istədim. Son zəng günü yanında ola bilməmişdim. Ona görə də, bu gün evdən çıxdığın andan etibarən yanında olmaq, sənə dəstək olmaq istədim."

"Hə, bax bu başqa məsələ. İndi səni bağışlamaq olar."

Hamı gülməyə başladı. Masada dörd stəkan çay var idi. Əlimlə stəkanlardan birini işarə edərək "dördüncü kimindir bəs?" deyə soruşdum. Anam:

“Sənin çayındır, oğlum. Elə mən də səni oyatmağa gələcəkdim indi. Həyəcandan tamam ağlımı itirmişəm. Başım qarışıb burda söhbət eləməyə.”

“Ana, imtahan verəcək olan mənəm. Sən niyə həyəcanlısan ki bu qədər?”

Anam təbəssüm edərək bir ah çəkdi: “Özün valideyn olmadan, valideynin övlad üçün necə narahat olduğunu anlamazsan, Raul.”

“Anacan, burda narahat olunası bir şey yoxdur. Nə də olsa dünyanın sonu deyil bu imtahan.”

Lamiyə əllərini ovuşduraraq söhbətə daxil oldu: “Sevda xalaya cavab qaytarmaq yerinə oturub səhər yeməyini yesən yaxşı olar. Hələ Nərgizi də götürməliyik evdən. Vaxtımız azdır.”

“Yemək yeməyəcəm onsuz, bir stəkan çay içim, sonra çıxaq.”

Həyəcanlı olduğum anlarda nə qədər ac olsam belə, yenə də yemək yeyə bilmirdim. Ən sevdiyim yemək belə olsa, boğazımdan keçmirdi sanki. Bir az sonra hazırlaşıb çıxdıq evdən. Evdən çıxarkən valideynlərimin “Biz sənə güvənirik, Raul, sən bunu bacaracaqsan”, sözləri imtahana girənə qədər ağlımdan çıxmadı. Onları məyus etməyə haqqım yox idi. Nərgizi evdən götürüb, imtahan verəcəyim məktəbə doğru yola çıxdıq. Yol boyu yalnızca imtahan haqqında danışmışdıq. Nərgiz və Lamiyə də mənim yaxşı nəticə əldə edəcəyimə inanırdılar. Məktəbə çatdığımızda imtahana altı dəqiqə qalmışdı. Mən imtahanda olduğum müddət ərzində Nərgizgil ətrafdakı mağazaları gəzəcək, bir yerdə oturub, bərabər vaxt keçirəcəkdi. Telefonumu

Nərgizə verib, imtahana girmək üçün abituriyentlərdən ibarət olan sıraya girdim mən də. Bir-bir hər kəsin üstünü yoxlayıb içəri buraxırdılar. İmtahan zalına daxil olub, oturduğum andan bəri, qəribə bir həyəcan bürümüşdü məni.

Bir az sonra balacaboy, ağsaçlı, əlli-əlli beş yaş arası bir müəllim içəri girdi. Qolundakı saatına baxıb: "Saat 09:00. İmtahan başlasın", dedikdən sonra dərhal imtahan zalını tərk etdi. Həyəcanım iki qat daha artmışdı bir anda. Hamı vaxt itirmədən imtahan suallarına baxmağa başladı. İmtahanın ilk on dəqiqəsini özümü sakitləşdirmək, diqqətimi suallara vermək üçün sərf etdim. Anarla danışığımıza əsasən imtahanda son ana qədər oturacaqdıq ikimiz də. Elə də oldu. Üç saatın sonunda kodlaşdırma vərəqini otaqdakı nəzarətçiyə təhvil verib, çıxışa doğru yönəldim.

İmtahan yaxşı keçmişdi. Ən azından kəsilmədiyimdən əmin idim artıq. Hər il olduğu kimi, bir neçə saat sonra televizorda imtahan suallarının izahı veriləcəkdi. O izahlardan sonra neçə bal topladığımızı da biləcəkdik artıq. Məktəbdən çıxdığımda gözlərim Nərgizgili axtarırdı. Bir az sonra onların məktəbin həyətindəki insan izdihamının arasından mənə tərəf gəldiklərini gördüm. Nərgizgilin yanında Anarı görəndə çaşıb qaldım bir anlıq. Əlində imtahan suallarının olduğuna fikir verməsəm, imtahana getmədiyini düşünəcəkdim hətta. Üçü də eyni anda "Neçə keçdi, Raul? Yaxşı yaza bilmisən?" və s. tipli suallar ilə sual atəşinə tutdular məni.

"Narahat olmayın. Hər şey yaxşıdır. İmtahan da yaxşı keçdi."

Nərgiz boynuma sarıldı.

“Şükürlər olsun, əzizim. Mən sənə inanırdım.” Nərgizi qucaqlayıb, gülümsəyərək alnından öpdüm. Anara tərəf dönüb “Sən nə gəzirsən burda bəs?” deyə soruşdum.

“Axıra qədər oturmağa səbrim çatmadı. Onsuz da bildiyimi yazmışdım. İmtahanın yarısında çıxdım ona görə. Yarım saatdır burdayam artıq.”

“Burda söhbət eləmək yerinə bəlkə bir az gəzməyə gedək? Sizin üçün də yaxşı olar” – deyə araya girdi Nərgiz.

“Hə, yaxşı olar. Sonra da bir restorana gedər, Raul və Anarın ballarını hesablayarıq”, deyə Lamiyə əlavə etdi. Dördümüz də bu fikirlə razılaşıb, maşını park etdiyimiz yerə getdik. Gəzinti üçün seçimimiz dənizkənarı Bulvar oldu. Maşında Lamiyənin “Gəzinti üçün hara gedək?” sualına Nərgiz “Bulvara” deyə cavab vermişdi.

Gəmi ilə dəniz turuna çıxmaq bizim böyük arzularımızdan biri idi. Sözlü olmadan əvvəl bu mümkün deyildi bizim üçün. Daha sonrasında isə, vaxt edib gedə bilməmişdik. Görünür elə buna görə də Nərgiz, bulvara getmək istəmişdi. Bulvarda bir xeyli gəzdikdən sonra “Uşaqlar, bəlkə Xəzərdə kiçik bir gəmi turuna çıxaq?” deyə təklif etdim. Lamiyə qorxmuş bir üz ifadəsi alaraq, üzünü mənə tərəf döndərdi. Həmin qorxu səs tonunda da hiss olunurdu.

“Siz istəyirsinizsə, gedin. Mən buralarda gəzməyə davam edəcəm.”

Hamımız gülərək tək bir sual verdik: “Qorxursan?”

Lamiyə bu dəfə bir az incimiş, bir az da əsəbi bir səs tonu ilə cavab verdi: “Gülməli nə isə var burda? Hər insanın qorxduğu bir şeylər olur. Məndə də uşaqlıqdan bəri talasafobiya var. Yəni, dəniz qorxusu.”

Lamiyə yeddi yaşında olanda atası dənizdə boğulmuşdu. Bu qorxusu da çox güman ki, o vaxtdan bəri yaranmışdı. Bu yadıma düşdüyündə, güldüyüm üçün çox utandım. Anarla Nərgizin yanında bunu onun yadına salıb üzr istəmək nə dərəcədə düzgün olardı, bilmədim. Ona görə də söhbəti sonlandırmaq istədim.

"Tur təxmini iyirmi dəqiqə çəkir. Anar, sən Lamiyənin yanında qal. Biz də tur bitdikdən sonra yanınıza gələrik."

Anar gülümsəyərək, Lamiyəyə doğru döndü: "Həə, mən başa düşdüm. Raul və Nərgiz ikisi tək getmək istəyirlər. Elə isə biz cütlüyə əngəl olmayaq."

İkimiz də gülümsəyərək Anarın dediklərini təsdiqlədik. Arxamızı dönüb, gəmiyə tərəf yollandıq. Tur boyunca gəminin göyərtəsində ayaq üstə duraraq dənizi seyr etdik. Nərgiz qoluma girmiş, başını çiynimə yaslamışdı. Çox xoşbəxt hiss edirdim özümü. Yaxşı keçən bir imtahan sonrası sevdiyim qız ilə belə bir dəniz turu çox yaxşı gəlmişdi mənə. İyirmi dəqiqə ərzində demək olar ki, heç danışmamış, bu anın sehrini pozmaq istəməmişdik ikimiz də. Əslində danışmışdıq, amma sözlərimiz ilə yox, gözlərimiz ilə.

Gəmidən enər-enməz Anargilin yanına getdik.

"Gəzintiniz necə keçdi?" deyə soruşdu Lamiyə.

Nərgiz ağzını doldurmuşdu ki, Lamiyənin sualını cavablasın, sözünü ağzında qoyub araya girdim: "Gəzinti yaxşı keçdi. Dəniz havası yaman acdırdı məni. Səhər oyandığımda da bir şey yeməmişdim. Bəlkə artıq restorana gedək?"

Anar saatına baxıb həyəcanlı bir səs tonu ilə dedi:

"Gedək məncə də. Bir saat sonra televizorda sualların izahı veriləcək."

Rəsmi olaraq hansı universitetə qəbul olunduğumuzu bu gün öyrənə bilməsək belə, neçə bal topladığımızı bildikdən sonra içimiz rahat olacaq idi. Gedəcəyimiz restoranı seçdikdən sonra yola düşdük. Restorana daxil olan kimi ilk iş, sifarişləri vermədən əvvəl, telefonlarımızda imtahan suallarının izahı veriləcək kanala baxmaq oldu. Proqram yenicə başlamışdı. Anarla ikimiz sifarişləri verdikdən sonra gözümüzü telefonun ekranına zilləmiş, bir yandan da imtahan vərəqində sualları səhv-düz deyə işarələmək üçün hazır dayanmışdıq. Sualların izahına elə diqqətlə qulaq asırdım ki, yanımda oturan Nərgiz və Lamiyənin söhbət etdiklərini gözlərim görür, qulaqlarım isə eşitmirdi. Sualları səhv-düz deyə işarələdikdən sonra, sıra balları hesablamağa gəlmişdi. Bir neçə dəqiqədən sonra, Anar həyəcanlı bir şəkildə “Ola bilməz” deyə qışqırdı. Əlindəki imtahan vərəqini daha diqqətli bir şəkildə incələməyə başladı. İçimdən, yəqin ki, az bal toplayıb, deyə düşündüm. İmtahandan da tez çıxmışdı bu gün.

“Nə baş verir, Anar? Yaxşı yaza bilməmisən?” deyə soruşdum.

Başını suallardan qaldırıb dərin bir nəfəs aldı.

“Yazmışam, Raul. Gözlədiyimdən daha yaxşı yazmışam hətta. Dörd yüz on iki bal toplamışam.”

“Bu əla nəticədir ki. Qorxuzdun məni bir anlıq”.

“Qorxacaq bir şey yoxdur, dostum. Artıq özümə tələbə deyə bilərəm. Bu arada sən neçə bal toplamısan?”

“Mən hələ indi başlayırdım hesablamağa. Sən...”

Anar sözümü kəsərək əlimdən imtahan vərəqimi çəkib götürdü.

“Ver görüm onu bura. Sən hesablayana qədər axşam olar. Mən hesablayaram indi.” Bir az sonra vərəqi əlindən yerə qoyub gülməyə başladı. Masada Anarla üzbəüz oturmuşduq. Ayağa qalxıb yanıma gəldi.

“Dörd yüz səksən altı bal toplamısan, qardaşım. Artıq ikimiz də tələbəyik.”

Ayağa qalxıb qucaqlaşdıq.

“Sözümüzü tutduq. Biz bacardıq, Raul”

“Bacardıq, qardaşım. Bunu da bacardıq.”

Lamiyə və Nərgiz də ayağa qalxıb bizi təbrik etdilər. Daha sonra, Lamiyə oturaraq iki əliylə də oturacaqları işarə etdi: “Yaxşı, uşaqlar, oturun. İndi əsas məsələ haqqında danışmaq lazımdır.”

“Hansı əsas məsələ?” deyə soruşdu Nərgiz.

“Raul və Anarın ixtisas seçimi. Bir həftə sonra ixtisas seçimləri başlayacaq.”

Bir neçə gün bundan əvvəl, Anarla bu haqda danışmışdıq. İkimizin də uşaqlıq arzusu olan və ən əsası o sahədə uğur qazanacağımızı düşündüyümüz bir ixtisas var idi. Memar olmaq istəyirdik. Anar yerini rahlayıb masada önə doğru oturdu: “Biz Raulla bu haqda düşünmüşük. İxtisas seçimimiz memarlıqdır. İkimiz də bu ölkənin ən yaxşı memarlarından olacağıq.”

“Ümidvaram hər şey dediyin kimi olar, Anar. Amma, ilk öncə bizə kodlaşdırmanı edəcək, bu işi yaxşı bilən birini tapmaq lazımdır.”

Lamiyə özündən razı şəkildə gülümsədi: “Deməli, yenə də işiniz mənə düşdü, cənab?”

“Lamiyə, düzünü de. Sən tanrının mənim üçün göndərdiyi bir mələksən?”

Bu ifadəm Lamiyənin üzündə təbəssüm yaratsa da, Nərgizin heç xoşuna gəlmədiyi aşkar idi. Bu haqda bir söz deməsə belə, gözlərindən bunu anlamaq çətin deyildi. Görünür, Anar da bunu anlamışdı ki, Lamiyənin cavab verməsinə icazə vermədən ikinci bir sualla araya girdi: “Həqiqətən bacarırsan bunu? Çox ciddi bir işdir bu.”

“Bacarıram. Həm də çox yaxşı bacarıram. Madam ki, siz artıq ixtisas seçiminizi etmisiniz, onda elə sabah Raul ilə bərabər mənim iş yerimə gəlin. Çox uzatmadan bu məsələni də həll edək.”

Bu iş, ikimizin də lap ürəyindən olmuşdu. Sabaha dair bütün planlarımızı qurduqdan sonra, evə getmək üçün toparlandıq. Bu gün gözəl bir gün olsa belə, nəticədə hamı çox yorulmuşdu...

***

Yuxudan telefonun zəngi ilə oyanmışdım. Gözlərimi açıb otağımdakı divar saatına baxdığımda, saat hələ 09:50 idi. Gecə ən son Nərgizlə danışmışdım. O qədər yorulmuşdum ki, sağollaşdıqdan sonra əlimdəki telefonu çəkməcənin üstünə qoyacaq taqətim belə qalmamışdı artıq. Yatağın içində telefonu tapıb, zəngin kimdən gəldiyinə baxmadan, cavab verdim.

“Sabahın xeyir, Raul. Oyaqsan?” Zəng edən Anar idi. Həm istirahət günündə, həm də səhərin bu vaxtı başqa kim ola bilərdi ki, zəng edən?

“Hər vaxtın xeyir. Sayənizdə oyağam artıq, Anar müəllim.”

Anar gülməyə başladı.

“Raul, sabah önəmli bir gün olduğunu unutmusan deyəsən. Bu gün özümüzə təzə pal-paltar almağa gedəcəkdik. Hələ oyanmamısan sən?”

“Saatdan xəbərin var sənin? Paltar mağazaları hələ indi-indi açılmağa başlayır.”

“Raul, sabah universitetin ilk günüdür. Sabahdan etibarən tələbəyik artıq. Mən həyəcandan evdə otura bilmirəm. Günortaya kimi yatmaqdansa, qalx gedək işlərimizi görək.”

“Yaxşı, elə olsun. Bir saat sonra çıxarıq evdən”.

Anarla sağollaşdıqdan sonra hazırlaşmaq üçün ayağa qalxdım. Mən də ən az onun qədər həyəcanlı idim əslində. Sadəcə, mən həyəcanlı olduğumu onun qədər hiss elətdirmirdim. Qəbul imtahanından sonra yayın geri qalan günlərini əlimizdən gəldiyi qədər səmərəli keçirməyə çalışmışdıq. Anara çətinliklə də olsa, siqareti tərgizdirməyi bacardım. Bərabər fitnesə yazılıb, idman etməyə başladıq. Nərgizlə yay boyunca, demək olar ki, hər gün görüşürdük. Aynişan müəllimə universitetə qəbul olduğuma görə istədiyimiz vaxt görüşməyimizə icazə verirdi. Bəzən görüşlərimizdə Anar və Lamiyə də bizə qoşulurdu. Bu minvalla yayın geri qalanını başa vurmuş, xəyallarımızdakı o böyük günə gəlib çatmışdıq.

Sabah artıq tələbə olaraq universitetə gedəcəkdik. İkimiz də Memarlıq və İnşaat Universitetinin memarlıq fakültəsini qazanmışdıq. Mən dövlət sifarişli, ödənişsiz əsasla qəbul ola bilmişdim. Anarın isə bunun üçün cəmi on səkkiz balı çatmamışdı. Amma, bu onun üçün önəmli bir problem sayılmazdı. Anarın ailəsinin imkanı kifayət qədər yaxşı idi

çünki. Onun üçün önəmli olan sadəcə memar ola bilmək idi. Anar da bunu bacarmışdı.

Bir saat sonra hazırlaşıb, evdən çıxdıq. Axşamüstünə qədər gəzib, Anarla özümüzə yeni paltarlar almış və ən əsası gələcəyimiz üçün yeni sözlər vermişdik bir-birimizə. Universitetə qəbul olduq deyə, oxumağın daşını atmayacaqdıq. İlkin hədəfimiz universitetə qəbul olmaq olsa da, yeni hədəfimiz universiteti yaxşı nəticələrlə bitirib, bu ölkənin tanınmış və savadlı memarları olmaq idi.

Sabah olub universitetə getdiyimizdə Anarla eyni qrupda oxuyacağımızı öyrənmək ikimizi də çox sevindirmişdi. Qarşımıza qoyduğumuz yeni hədəfimizdə də bərabər olub, bir-birimizə dəstək olacaqdıq. İlk bir ay müddətində universitetə öyrəşmək ikimizə də çətin gəlmişdi. Yeni mühit, yeni insanlar, yeni dərs strukturu və s. kimi bir çox yeniliklərə alışmağımız bir az zaman aldı. Bütün bunlara alışdıqdan sonra isə, zamanla ikimiz də fakültənin ən yaxşı oxuyan uşaqları sırasında öz yerimizi almağı bacarmışdıq.

***

Dekabr ayının sonları idi. Eyni zamanda ilk semestrin son günləri. Bu il qışın çox sərt keçəcəyini əvvəlcədən demişdilər. Hələ ki qar yağmamışdı, amma, güclü yağışlar yağmağa davam edirdi. Dondurucu hava şəraiti və güclü küləklər şəhərin üzərində öz hakimiyyətini sürdürürdü. Universitetə çatdığımızda saat 10:15 idi. Dərsimizin başlamasına hələ yarım saat var idi. Hava şəraitini nəzərə alıb, dərsə gecikməmək üçün hər zamankından bir az daha tez çıxmışdıq evdən. Universitetə gəlib çatana qədər ikimiz də soyuqdan donmuşduq. Dərs başlayana qədər isti bir qəhvə

içmək üçün, universitetin mətbəxinə tərəf yola düşdük. Dərs otaqlarının birinin yanından keçəndə içəridən gələn səslər diqqətimi çəkdi.

“Anar, dayan bir dəqiqə. İçəridə nə isə baş verir”.

“İçəridə baş verənlərdən bizə nə var axı? İliklərimə qədər donmuşam. Gəl çıxaq gedək, sən Allah”.

Qapı tam bağlı deyildi. Anarın dediklərinə qulaq asmadan aradakı boşluqdan içəri göz gəzdirdim. İçəridə üç nəfər oğlan bizim fakültədən Sahib adında bir uşağı təkləmişdi. İkisi Sahibin arxasına keçib, əllərindən tutmuş, digəri isə “Nə vaxta kimi özünü hər gün döydürəcəksən?” deyə bağıraraq üzünə və qarnına yumruq vururdu.

Sahibi sadəcə fakültədən tanıyırdım. Bizimlə eyni fakültədə, paralel qrupda oxuyurdu. Hətta salam-sağolumuz belə yox idi heç. Amma, belə bir hadisəni görüb, buradan düz keçmək bizə yaraşmazdı. Qapını açıb otağa daxil oldum. Anar da hər zamankı kimi istəməyərək də olsa, mənə görə arxamca gəldi. Sahibi vuran oğlan içəri girdiyimizi görən kimi “Rədd olun, çıxın çölə!” deyərək bizə tərəf addımlamağa başladı.

“Bir nəfərin üstünə üç nəfərin düşməsi kişiliyə yaraşan hərəkətdir?” deyə soruşaraq irəliyə doğru addımladım mən də. Görünür, bu sözüm onu bir az da əsəbiləşdirdi ki, yanındakı digər iki nəfərə də işarə edib bizə hücum etməyə qalxdılar. Məsələnin dava-dalaşsız həll olmayacağını anlayıb, məcburən biz də qollarımızı çırmadıq. Bir yandan Anar, bir yandan da mən bir neçə dəqiqə sonra üçünü də əldən-ayaqdan salmağı bacardıq. Yerə yıxılmış Sahibin əlindən tutub, ayağa qalxmasına kömək etdim.

“Nə baş verir, Sahib?” deyə soruşdum.

Sahib əlinin arxasıyla dodağından axan qanı silərək, yıxılıb yerdə qalmış üç adama baxdı: “Bunlar mənim qrup yoldaşlarımdır. İki həftə bundan əvvəl, universitetin təhsil haqqını ödəməyə gedərkən pulu cibimdən salaraq itirmişdim. Bunu evdə deyib, valideynlərimi pis vəziyyətdə qoymaq istəmədim. Borca pul tapıb, təhsil haqqını ödəyim, sonra işləyib pul toplayar, borcumu ödəyərəm, deyə düşünmüşdüm. Bu üçü öz aralarında səkkiz yüz manat düzəldərək mənə verdilər. Verəndə də “Bunu sənə borc olaraq vermirik, əlində nə vaxtsa imkan olar, qaytararsan. Olmasa da canın sağ olsun”, deyərək vermişdilər.

Anar şübhə dolu baxışlarla Sahibə baxaraq soruşdu: “Sonra nə oldu bəs?”

“Bir həftə keçdikdən sonra, verdikləri pulu geri qaytarmağımı istədilər. Bunun hal-hazırda mümkün olmadığını, bir neçə aya toparlayıb verəcəyimi dedikdə məni döyməyə başladılar. İndi də bir həftədir, hər gün pullarını qaytarmağımı tələb edirlər məndən”.

Üzümü qrup yoldaşlarına tutub “Ayağa qalxın”, dedim. Üçü də nıqqıldayaraq ayağa qalxdı.

“Sahibin nə qədər borcu var sizə?”

Oğlanlardan biri dillənərək: “səkkiz yüz manat” dedi. Əlimi cibimə salıb səkkiz yüz manat çıxardım. Pulu əlimdə bükərək Sahibə tərəf uzatdım. “Buyur qardaş, qaytar borcunu”.

“Səhv eləmirəmsə, adın Raul idi. Hər şeyə görə çox sağ ol. Amma, mən bu pulu götürə bilmərəm”, deyərək uzatdığım əlimi mənə tərəf geri itələdi.

“Borc olaraq qəbul et. Nə vaxt imkanın olsa, o vaxt da ödəyərsən”, deyərək, bir əlini tutub pulu ovcunun içinə qoydum. Heç bir söz demədən, pulu qrup yoldaşlarına tərəf uzatdı. Oğlanlardan biri əlini uzadaraq pulu götürdü. Qrup yoldaşının pulu götürərkən əlinin necə titrədiyini görən Sahib, ilk dəfə olaraq gülümsədi. Pulu götürdükdən sonra, dərhal otaqdan çıxdılar.

“Bundan sonra sənə qarşı hər hansı birinin səhv bir hərəkət edəcəyini düşünmürəm. Amma, yenə də nə vaxtsa başın dara düşsə, çəkinmədən bizim yanımıza gələ bilərsən. Bundan sonra bizi də bir qardaşın olaraq bil”.

“Çox sağ ol, Raul. İkiniz də çox sağ olun. Allah sizdən razı olsun”.

***

Anar gün boyunca dərsdə tək bir kəlmə belə danışmadı. Mən də danışması üçün çox da üstünə getmədim, sözün açığı. Bu Anarın uşaqlıqdan bəri dəyişilməz olan xasiyyəti idi. Əsəbi olduğunda əvvəl bir müddət susar, sonra bütün hirsini bir anda adamın üstünə tökərdi. Dərs bitdikdən sonra evə doğru yola düşdük. Yaşadığımız məhəlləyə gəlib çatdığımızda, Anar bir anda ayaq saxladı. Yüksək səslə: “Elədiyin axmaqlığa bir açıqlama gətirəcəksən, Raul?” deyə soruşdu.

“Nədən bəhs edirsən sən? Nə axmaqlıq etmişəm ki?”

Anar səs tonunu bir az daha yüksəltdi: “Nə vaxta kimi qəhrəmanlıq etməyə davam edəcəksən?”

Anarın nə demək istədiyini anlamırdım. Anar birinə yaxşılıq etdiyimiz üçün belə davranacaq bir adam deyildi.

“Səni anlaya bilmirəm. Bir insana yaxşılıq etmək nə vaxtdan bəri səni bu qədər əsəbiləşdirir?”

“Məni yaxşılıq etmək əsəbiləşdirmir”, deyərək bağırdı.

“Səni bu qədər əsəbiləşdirən şey nədir bəs?”

Dərin bir nəfəs alıb, sakit və təmkinli bir səs tonu ilə danışmağa başladı: “Məsələnin nə olduğunu belə bilmədən, sadəcə adını bildiyin bir adama görə, üç nəfərin üstünə cumursan. Hansı ağıllı adam belə bir hərəkət edər, səncə?”

“Haqqında nə isə bilməyimizə ehtiyac var bəyəm? Bir nəfərin üstünə üç nəfər düşmüşdü. Bunu sən də gördün”

“Məsələ bunda da deyil. Bu barədə sənə haqq vermək olar. Yaxşı bəs o səkkiz yüz manat necə? O pullar sənin tələbə təqaüdün, gündəlik yemək pulundan kəsib yığdığın pullar idi. Hər altı-bazar restoranlarda ofisiantlıq edərək qazandığın pullar idi o sənin. O qədər əziyyətlərlə yığılan pulu tanımadığın bir adamın ovcuna necə qoya bilirsən axı?”

“Anar, bax, mən səni çox yaxşı başa düşürəm. Sən mənim ən yaxın dostumsan. Bilirəm ki, nə deyirsənsə, məni istədiyindən, mənim yaxşılığım üçün deyirsən. Sənin də dediyin kimi o pulu çətinliklə toplamışdım mən. Amma, Sahib də o pulu qumar oynayaraq uduzmayıb. Başına gələnləri gördükdən sonra, onu pis vəziyyətdə qoymağa könlüm əl vermədi. Ümidvaram ki, o pulu Allah başqa bir yerdən təkrar qazandırar mənə”.

Anar əlini çiynimə qoyaraq üzgün bir ifadə ilə üzümə baxdı: “İnşallah dediyin kimi olar, qardaşım. Sənin də dediyin kimi, mən nə deyirəmsə, sənin yaxşılığın üçün deyirəm. Bu həyatda sənin kimi yaxşı insanlar daima uduzurlar. Mən sadəcə olaraq, sənin o uduzanlardan biri olmağını istəmirəm”.

***

Fevral ayının son günləri idi. Birinci kursun ilk semestri bitmiş, ikinci semestr isə yeni başlamışdı. Şəhərdəki soyuq hava şəraiti hələ də davam edirdi. Səhər yuxudan oyanan kimi ilk işim, isti bir duş almaq olmuşdu. Bu cür soyuq havalarda isti su ilə duş almaq mənə yaxşı gəlirdi. Universitetə getmək üçün hazırlaşıb evdən çıxdım. Anarla görüşüb universitetə doğru yola düşdük. Demək olar, universitetə çatana qədər elə də çox danışmamışdıq. On beş dəqiqəlik böyük tənəffüsdə isti bir şeylər içmək üçün universitetin mətbəxinə getdim. Anar isə dərs oxuyacağını deyərək, mənimlə gəlməkdən imtina etmişdi. Bir fincan isti bir qəhvə alıb masalardan birinə əyləşmişdim. Qəhvədən çıxan dumanı seyr edərək bir yandan da təkrar düşünməyə başlamışdım. Anarın iki ay bundan əvvəl dediyi sözlər hələ də qulağımdan getmirdi. Bəlkə də bu dəfə, Anar haqlı idi. Hər önümə çıxan insana yaxşılıq etmək istəyimdən artıq vaz keçməliydim. Çünki, yaxşılıq heç də hər zaman yaxşılıq doğurmur. Daldığım bu düşüncələrdən Sahibin mənə səslənməsi ilə ayıldım.

“Salam, Raul, otura bilərəm?” Sahib əlində bir stəkan çay ilə düz yanımda dayanmışdı.

“Buyur, Sahib, otur”, deyərək əlimlə yanımdakı boş stulu göstərdim. Əlindəki çayı masaya qoyub, stulu altına çəkərək əyləşdi. Əynindəki dəri gödəkcəsinin yaxa cibinə əlini salıb, bir zərf çıxardı. Daha sonra zərfi masada öz qarşısına qoyaraq söhbətə başladı.

“Raul, sənə danışacağım önəmli şeylər var. Bu iki ay ərzində bunları sənə danışıb-danışmamalı olduğumu çox

düşündüm. Məncə artıq, bunları sənə danışmağın vaxtıdır".

Bu qədər önəmli nə danışacaq deyə həqiqətən də səbirsizlənməyə başlamışdım.

"Buyur, Sahib, səni dinləyirəm", deyib, davam etməsini gözlədim.

"Raul, əslində mən kasıb bir ailənin övladı deyiləm. Tam tərsinə, ailəmin imkanı çox yaxşıdır. Atamın şəhərdə çox sayda restoran və kafeləri var. Hətta keçən ay səninlə görüşdüyümüzdə getdiyimiz kafe, atamın yeni açdığı kafelərdən biri idi".

Sahib danışdıqca, hər keçən dəqiqə daha çox təəccüblənirdim. Danışdıqlarına anlam verə bilmir, bir yandan da olub bitəni anlamaq üçün tələsirdim. Ona görə də sözünü kəsmək istəmədim.

"Təxminən üç ay bundan əvvəl, atamla aramda kiçik bir mübahisə baş vermişdi. Mübahisənin yaranma səbəbi kiçik olsa da, atamın dedikləri mənə çox ağır gəlmişdi. Mübahisə əsnasında mənə "sən öz ayaqların üzərində dura biləcək bir adam deyilsən", demişdi. O mübahisədən sonra atama bunun əksini sübut edəcəyim barədə özümə söz vermişdim. Həmən gün evi tərk etdikdən sonra, özümə bir otaqlı kirayə bir ev tapmışdım. O gündən sonra, o evdə tək başına yaşamağa başladım. Bir yandan da, dərsdən sonra restoranların birində paketçilik edirdim. Aldığım maaş universitetin təhsil haqqını vermək üçün bəs etmirdi. Buna görə də evi tərk etdiyimdə yanımda götürdüyüm bir neçə dəyərli əşyamı satmışdım. O pulu isə, ödənişi etmək üçün getdiyimdə yolda itirmişdim. Bilmirəm, bəlkə də cibimdən oğurlamışdılar. Sonrasında isə nələr baş verdiyini özün bilirsən".

Sahib dərin bir nəfəs alıb, köks ötürdü: "Bəlkə də atam haqlı idi. Mən öz ayaqlarımın üstündə dura biləcək biri deyiləm. İki gün əvvəl, şənbə günü atamla yenidən barışdıq. Hər şey yenidən öz qaydasına düşdü. Evdən kənar yaşadığım bu üç aylıq səfil həyatımda isə qazandığım tək şey sənin kimi əsl bir dost oldu."

Sahibin bu dediklərindən heyrətə gəlmişdim. Sadəcə təəccüblə üzünə baxıb, "Bunları mənə daha əvvəl niyə deməmişdin bəs?" deyə soruşdum.

"Mənə yaxşılıq etmiş olsa belə, yeni tanıdığım birinə bunları danışmağım nə dərəcədə düzgün olardı, bilmirəm. Bəlkə də sadəcə danışmağa utanmışdım. Amma, zamanla səni daha yaxından tanıdıqca bütün düşüncələrim dəyişdi. Sadəcə bütün bunları sənə danışmaq üçün, doğru zamanın gəlməsini gözləyirdim. Atam həqiqətən də haqlı idi, Raul. Bu yaşıma qədər ətrafımda dost bildiyim insanlar belə, atamın var-dövlətinə görə yanımda olublarmış. Evi tərk etdikdən sonra, qısa bir zaman ərzində bütün dostlarımın tək-tək ətrafımdan yoxa çıxdığını gördüm. Sən isə mənim kim olduğumu belə bilmədən, mənim döyüldüyümü görüb üç nəfərin üstünə cumdun. O vaxt cibindəki o qədər pul nəyin pulu idi bilmirəm, amma onu bilirəm ki, sən üstündə o qədər pul olacaq qədər imkanlı biri deyilsən. Buna baxmayaraq gözünü belə qırpmadan, o pulu mənim ovcuma qoydun. Bundan sonra əgər icazə versən, mən də səninlə bir ömür dost, qardaş olmaq istəyərəm", – Sahib öz qarşısında duran zərfi götürüb mənə tərəf uzatdı. Bir zərfə, bir də Sahibin üzünə baxıb soyumuş qəhvəmdən bir qurtum aldım.

“Məndən bütün bu olanları gizlətdiyinə görə sənə bir söz deyə bilmərəm. Çünki, görünür, sənin də özünə görə haqlı səbəblərin var imiş. Bundan sonra bir ömür boyu dost, qardaş olmağımıza isə şad olaram. Qaldı ki, bu zərfə, qardaş bildiyin insanla aranda borc pul deyə bir şey olmaz”.

Sahib gülümsəyib əlini çiynimə qoydu: “Haqlısan, Raul, bilirəm. Amma sən bu zərfi almasan, mənim vicdanım rahat olmayacaq. Ona görə də səndən bunu qəbul etməyini xahiş edirəm.”

Sahibin bu son sözündən sonra zərfi götürməyi qəbul etdim. Zərfin içindəki səkkiz yüz manat, mənim bir neçə aylıq tələbə təqaüdüm və gecəmi gündüzümə qataraq, halal zəhmətlə işləyib qazandığım pullar idi. O pulu yığmaqda məqsədim mart ayında Nərgizin ad gününə gözəl bir hədiyyə almaq və şəhərin ən gözəl restoranlarından birində yaxın dostlarımızla bərabər ad gününü qeyd etmək idi. Həmən gün pulu üstümdə götürməyimin səbəbi isə alacağım hədiyyəni artıq tapmış, dərsdən sonra Anarla birlikdə onu almağa gedəcəkdim. Sahibə yaxşılıq etdiyimə görə hər nə qədər sevinsəm də, bu arzumu yerinə yetirə bilməyəcəyimə görə bir yandan da pis olmuşdum. Halallıqla qazanılan pul, həqiqətən də heç vaxt itmirmiş. Tənəffüs artıq bitmək üzrə idi. Növbəti dərsə girmək üçün toparlanıb dərs otaqlarımıza geri döndük. Evə dönüş yolunda Sahiblə olan söhbətimizi danışmaq üçün sözə başlayırdım ki, Anar məni qabaqladı.

“Raul, sən hələ də Sahiblə əlaqə saxlayırsan?”

“Əlbəttə. Saxlamamağım üçün bir səbəb var?”

“O uşaq haqqında qrup yoldaşlarından maraqlandım. Qruplarında onunla yaxınlıq edən tək bir adam belə yoxdu.

Hər halda yaxşı biri olsa, ən azından yaxın olduğu bir nəfər adam olardı. Elə deyil?”

“Yanılırsan, Anar. O uşağın əslində necə biri olduğunu qruplarında heç kəs bilmir.”

Anar əsəbi bir şəkildə ağız-burnunu əydi: “Qrupda heç kim onun necə bir insan olduğunu bilmir, deyirsən. Amma, sən özün cəmisi iki-üç dəfə görüşməklə artıq onun necə bir adam olduğunu bildiyini zənn edirsən?”

Anarın bu sözündən sonra bu gün universitetin mətbəxində yaşananları ən xırda detalına qədər ona da danışdım. Danışdıqdan sonra, onun da Sahib haqqındakı düşüncələri dəyişmişdi.

“Əgər həqiqətən də dediyin kimidirsə, o halda onu daha yaxından tanımağa dəyər. Pulunu da gətirib qaytardığına görə yəqin ki, ad günü məsələsi yenidən bərpa oldu. İstəyirsənsə Sahibi də çağırarsan. Bizimlə dost olacaqsa, əvvəl bir yerdə çörək kəsib, bir-birimizi daha yaxından tanıyaq”.

“Sözün düzü, elə mən də belə düşünmüşdüm.”

***

Saat dördün yarısı idi. Günəşin yandırıcı şüaları amansızcasına yerə şığıyırdı. Yaxşı ki, bu gün üçün atamdan əvvəlcədən maşını istəmişdim. Anarla bərabər ilk öncə Nərgiz və Çinarəni evdən götürüb, sonra restorana gedəcəkdik. Təxminən, saat beş üçün ixtisas seçimlərinin nəticəsi açıqlanmalı idi. Nərgiz qəbul imtahanı verdiyi gündən bəri səbirsizliklə bu günü gözləyirdik. Nərgizgili evdən götürüb, restorana doğru yola düşdük.

“Anar, Sahiblə danışıbsan?”

“Evdən çıxanda əlaqə saxladım. Raula de, narahat olmasın. Mən özüm hər şeyə nəzarət etmişəm dedi.”

“Siz nə iş çevirirsiz belə?” deyə soruşaraq, Nərgiz maşının arxa oturacağından qabağa doğru boylandı.

“Sürpriz” – Çinarə və Nərgiz arxada pıçıldaşmağa başladılar. Ağlıma bir anda Lamiyə gəldi. Lamiyəylə danışıb, ona xəbər verməyi unutmuşdum.

“Lənət olsun. Tamam ağlımı itirmişəm. Lamiyəyə yeri və zamanı xəbər vermək yadımdan çıxıb.”

Anar qürurlu bir şəkildə göz süzdürdü: “Deyirəm mən olmasam, görəsən, sən nə edərsən? Narahat olma. Lamiyəylə də danışmışam. O bizdən əvvəl orda olacaq.”

“Həqiqətən, çox sağ ol, Anar. Üstümdən böyük yük götürmüş oldun.”

Lamiyəyə xəbər verməyi unutduğum üçün, bir anlıq çox pis olmuşdum. Bu gün çox həyəcanlı idim. Mart ayında nə qədər istəsəm də, Nərgiz universitetə hazırlaşdığı üçün ad günü keçirmək istəməmişdi. Ona görə də bu gün həm ad gününü, həm də universitetə qəbul olunmasını bir yerdə qeyd edəcəkdik. Çinarə, Anar, Lamiyə və Sahibin də bugünkü gündə bizimlə bərabər olması üçün dəvət etmiş, bu günü yaxın dostlarımızla bərabər qeyd etmək istəmişdik. Getdiyimiz yer Sahibin atasının işlətdiyi restoranlardan biri idi. Bu restoran həqiqətən də şəhərin ən gözəl restoranlarından biri idi. Bundan bir ay əvvəl Sahib, Anarla məni o restorana dəvət eləmişdi. Bu günün orada qeyd edilməsini elə o görüşdə qərara almışdıq.

Restorana çatdığımızda, Sahib və Lamiyə restoranın girişində bizi gözləyirdilər. Onlarla salamlaşdıqdan sonra Sahibin bizim üçün rezervasiya etdiyi zala keçdik. Zala daxil olduğumuzda gördüyü mənzərədən duyğulanan Nərgiz, boynuma sarılıb, üzümdən öpdü: "Səni sevirəm, Raul. Yaxşı ki həyatımda varsan."

"Mən də səni sevirəm Nərgiz. Həm də lap çox sevirəm."

Romantika anlayışından uzaq olan Anar: "Bir-birinizə eşq elanlarınız bitdisə, keçək oturaq. Acından ölürəm" deyə zarafat edərək əli ilə masanı göstərdi.

Zal tamamilə istədiyim kimi hazırlanmışdı. Girişdə şarlarla "Təbriklər Sevgilim" yazısından tutmuş, zalın dizaynına və masanın quruluşuna qədər hər şey çox xoşuma gəlmişdi. Masadakı yeməklərə isə söz ola bilməzdi. Necə deyərlər, süfrədə bir quş südü əskik idi. Sahibə güvəndiyim üçün peşman olmayacağımı bilirdim. Masa arxasında təzəcə yerimizi almışdıq ki, Nərgizin telefonuna mesaj gəldi. Telefonun ekranına baxıb yüksək səslə oxudu. "Memarlıq və İnşaat Universiteti, mexanika və informasiya texnologiyaları fakültəsi... Raul, səni o universitetdə tək qoya bilməzdim. Yanına gələcəyimi sənə demişdim."

Nərgizlə bir-birimizə sarılaraq, sevincimizi bölüşdük. Masadakı hər kəs bir-bir Nərgizi təbrik edib, tələbəlik illərində ona uğurlar arzu etdilər.

***

Həyətdəki çardaqda tək başına oturmuşdum. Təzə dəmlənmiş çaydan bir stəkan süzmüş, əsən sərin küləklərin onu soyutmasını gözləyirdim. Hava artıq qaralmışdı. Bu

vaxt həyətə düşməyimin səbəbi isə şeir yazmaq üçün təbə gəlməyim və tək qalmaq istəməyim idi. Yazdığım şeirləri adətən ya dəniz qırağında, ya da axşam saatlarında, tək qaldığım zamanlarda yazırdım. Amma, bu dəfə, təbim gəldiyi kimi geri qayıtmışdı, deyəsən. Bu gecə ağlımda gələcəyə dair çox düşüncələr var idi. İki gün sonra, universitetin son kursu başlayacaqdı. Nərgiz artıq üçüncü, mən isə dördüncü kurs tələbəsi olacaqdıq. Ən önəmlisi də, bu kursun sonunda nişanımız olacaqdı. Daha sonra isə, artıq əsgər getməliydim. Nərgizdən uzaq keçəcək bir il. Buna necə dözəcəm heç düşünmək belə istəmirdim. Bir gün belə ayrı qala bilmədiyim insandan düz bir il ayrı qalacaqdım.

Daldığım düşüncələrdən həyətin qapısının açılması ilə ayıldım. Qapının girəcəyi qaranlıq olduğundan gələnin kim olduğu aydın görsənmirdi. Bir az yaxınlaşdıqdan sonra gələnin Anar olduğunun fərqinə vardım. İri addımlarla mənim oturduğum çardağa doğru gəlirdi. Anarı qarşılamaq üçün ayağa qalxdım. Yanıma çatar-çatmaz, salam belə vermədən “Sənə əla xəbərlərim var, Raul” deyə sözə başladı.

Çox həyəcanlı görsənirdi. Sevincdən gözlərinin içi parıldayırdı. Bir yandan da təngnəfəs olmuş, nəfəs almaqda çətinlik çəkirdi. Görünür hardan gəlirdisə, qaçaraq gəlmişdi. Anarı belə gördükdə üzümdə qəribə bir təbəssüm yarandı: “Gəl otur iki dəqiqə, bir az özünə gəl. Yoxsa o əla xəbərini deyə bilmədən həyəcandan öləcəksən.”

Anar stullardan birini altına çəkib oturdu. Evə gedib Anar üçün də bir stəkan çay gətirdim: “Hə Anar, buyur.

Danış görək nə məsələdir. Maraqlıdır görəsən, səni bu qədər həyəcanlandıran nə ola bilər axı?"

Anar dərin bir nəfəs çəkdi: "Raul, nəhayət ki, xəyallarımız gerçək olur."

"Hansı xəyallardan söhbət gedir?"

"Qarşımıza qoyduğumuz hədəf. Tanınmış, yaxşı bir memar olmaq xəyalımız."

Özümdən asılı olmadan gülməyə başladım: "Dördüncü kursa hələ indi keçirik. Ağlını itirmisən sən?"

"Yox, Raul. Ağlım tamamilə yerindədir. Mən sənə böyük dayımın Macarıstanda yaşadığını demişdim?"

"Hə, demişdin. Səhv etmirəmsə Budapeştdə dizayn və inşaat işləriylə məşğul olur."

"Hə, düzdür. Dayım bu sektorda təzəlikcə böyük bir iş qurub. Bir həftə əvvəl, öz şəxsi memarlıq şirkətini yaradıb. Bayaq telefonda danışanda mənə dedi ki, memarlığın magistraturasını oxumaq üçün Budapeştdə yaxşı universitetlər var. Gəl, həm burda oxu, həm də mənim yanımda işə başla."

"Sənin adına çox sevindim, qardaşım. Allah yolunu açıq eləsin".

Anar gülməyə başladı: "Boş-boş danışma, Raul. Sən olmadan hara gedirəm mən? Dayıma səni də dedim. İkiniz də bərabər gəlin, burda qalmağa evi də mən təmin edəcəm sizin üçün, dedi." Həyəcanla gözümün içinə baxıb, məndən cavab gözləyən Anardan gözlərimi qaçırdım.

"Anar, mən magistr oxumağı düşünmürəm."

Anar qaşlarını çataraq, təəccüblü bir ifadə ilə üzümə baxdı: "Ağlını qaçırmısan sən? İkimizin də universiteti qırmızı diplom ilə bitirməyə doğru getdiyimizin fərqindəsən?

Həm də bu cür iş təklifi ayağımıza qədər gəlmişkən bunu rədd etmək axmaqlıq olar. Magistr oxuyarkən ikimiz də baş memarın köməkçisi olacayıq. Sonra da zamanla Baş memar olarıq. Hətta bir gün biz də dayım kimi, öz işimizi qura bilərik."

Anar o qədər həvəslə danışırdı ki, danışıb qurtarana qədər sözünü kəsmək istəmədim.

"Anar, mən səni başa düşürəm. Bu bizim üçün çox əla bir şansdır. Amma, mən artıq ailə qurmaq istəyirəm. Özün bilirsən, Nərgizin də magistr oxumaq kimi bir fikri yoxdur. Ona görə də mən universiteti bitirib, əsgər gedəcəm. Əgər geri dönmək qismət olarsa, dönər-dönməz ilk işim Nərgizlə evlənmək olacaq."

Anar məyus bir şəkildə susaraq, başını aşağı saldı. Ayağa qalxıb yanına gəldim. Əlimi çiyninə qoyub, danışmağa davam elədim: "Anar, qulaq as. Bu dediklərini mən də ən az sənin qədər istəyərdim. Amma, bu dediklərin mənim üçün mümkün deyil. Sən xəyallarının arxasınca get. Bəlkə bir gün Nərgizlə evləndikdən sonra, biz də sənin yanına gələrik. Sən də məni memar olaraq işə götürərsən", deyərək, gülümsədim.

"Yox, Raul, əgər sən getmirsənsə, mən də..."

"Sözümü kəsmə. Qardaşım, unutma! Sənin uğurun, mənim də uğurumdur. Sənin uğurun, bizim uğurumuzdur. Səndən neçə illik dostluğumuzun xətrinə xahiş edirəm. Məni bu vicdan əzabıyla yaşatma. Xəyallarının arxasınca get."

İnsan bu dünyaya bircə dəfə gəlir. Elə məhz buna görə də nə olursa olsun, xəyallarının arxasınca getməkdən vaz

keçməməlidir. Amma, mən vaz keçməyə məcbur idim. Çünki Nərgiz mənim üçün xəyallarımdan daha üstün idi...

***

İyun ayının son günləri idi. Bu gün Sahib, Anar və mənim üçün böyük bir gün idi. Dörd illik universitet macəramız, bugünkü məzun günü ilə sona yetirdi. Pis-yaxşı, bu dörd ili də uğurla başa vurmağı bacarmışdıq. Anarla ikimiz universiteti yüksək ortalama ilə bitirir, qırmızı diplom ilə məzun olurduq. Bu gün sevincli bir gün olmaqla bərabər bir yandan da narahatçılıqla keçirdi mənim üçün. Sabah Nərgizlə nişanımız olacaq idi. Restoran axtarmaq işinə vaxtında məsuliyyətsiz yanaşdığımıza görə, sonradan nişan üçün istəyimizə uyğun gün və restoran təyin etmək mümkün olmamışdı. Son çarə olaraq nişanı məzun gününün sabahısına təyin etmişdik. Digər yandan Anar Budapeştdə, dövlət universitetlərinin birində magistraturaya qəbul olunmuş və qeydiyyat üçün, nişandan iki gün sonra Budapeştə yola düşməli idi artıq. Bu da az deyilmiş kimi, mənim də hərbiyə çağırış vərəqəm bir həftə sonra üçün gəlmişdi. Artıq nəyi necə edəcəyimizi düşünməkdən yorulmuş, hər şeyi zamanın axarına buraxmışdıq. Tədbir bitər-bitməz, evə getməyi düşünürdüm. Qrup yoldaşlarımla bərabər restorana gedib, hər kəsin bir arada olacağı son gecədə iştirak etmək istəyərdim, amma təəssüf ki, bunun üçün vaxtım yox idi. Tez evə gedib, sabah üçün hazırlanmalı idim.

Universitetin Məzun günündə, məktəbdəkindən fərqli olaraq, demək olar, valideynlər iştirak etmirdilər. Ona görə də bizim valideynlərimiz də gəlməmişdi. Nərgiz isə nişan

hazırlıqlarına görə istəsə belə, gələ bilməzdi. Üçümüzün məzun günündə iştirak edən tək ortaq dostumuz Lamiyə idi. Hər şeyin bu cür ard-arda düşməsi bizi bir xeyli stressə salmışdı. İçimizdə tək gərgin olmayan isə Sahib idi. O təhsilini elə öz universitetimizdə davam etdirəcəkdi. Magistr üçün xaricə getmək fikri onun ağlına heç yatmamışdı.

Tədbir bitdikdən sonra Lamiyə bizi bir daha təbrik edib, sabah nişanda görüşmək üzrə aramızdan ayrıldı. Sahib isə, ailəsinin bugünkü gün münasibəti ilə ona hədiyyə etdiyi yeni maşınla Anarla məni məhəlləmizə qədər ötürdü. İkisinə də sabah vaxtında bizim evdə olmasını tapşırıb, evə girdim. Saat 17-də qız evinə, Nərgizgilə gedəcəkdik. Evə girər-girməz, qırmızı lent ilə bəzədilmiş xonçalar diqqətimi çəkdi. Nişan üçün demək olar, iki gün qabaqcadan hər şey hazır idi. Hamı nişanda geyinəcəyi paltarından tutmuş ayaqqabısına qədər hər nə varsa, hazır etmişdi.

Günün yorğunluğunu bədənimdən atmaq üçün duşa girdim. Bu gün həqiqətən çox yorulmuşdum. Sərin su ilə duş almaq az da olsa, məni özümə gətirmişdi. Duş boyunca sabahkı nişandan çox, nişandan sonrasını düşünürdüm. Nişandan bir həftə sonra, hərbi xidmətə yola düşəcəkdim. Bir il ailəmdən və Nərgizdən uzaq qalacaqdım. Qısqanc biri olmağım əsgərlikdə olduğum zaman, mənə çox baha başa gələcəkdi. Burda olduğum müddətdə göz bəbəyim kimi qoruduğum, tez-tez danışdığım və görüşdüyüm Nərgizdən bir il ayrı qalmağın düşüncəsi belə, çox canımı sıxırdı. Ən önəmlisi isə mən Nərgizi kimə əmanət edib gedəcəkdim? Anar magistr üçün Budapeştə getməsəydi, sözsüz ki, hərbi xidmətdə olduğumda gözüm arxada qalmazdı. Düzdür,

Sahib magistri Azərbaycanda oxuyacaq. Hətta daha da yaxşısı, Nərgizlə bir universitetdə olacaq. Amma, Sahib hər nə qədər yaxınım, doğmam olsa belə, Sahibin özünü belə qoruyacaq bir gücü yox idi. O ki qaldı Nərgizi qoruya. Sahib və Lamiyədən başqa güvənə biləcəyim heç kim yox idi.

Duşdan çıxdığımda artıq qırx dəqiqə keçmişdi. Son günlərdə saatın, dəqiqənin necə gəlib keçdiyinin fərqinə belə varmırdım. Hər anım yalnızca düşünməkdən ibarət idi. Gecə olduğunda Nərgizlə danışıb, hər zamankından fərqli olaraq saatlarla telefonda danışmaq yerinə, yatıb dincəlməyə qərar verdik. Nişan hazırlıqları ikimizi də çox yormuşdu. Hər nə qədər tez yatıb, sabah üçün dincəlmək istəsək də, səhərə qədər gözümə yuxu getməmişdi. Bir yandan nişanın həyəcanı, bir yandan isə hərbi xidmətin yaxınlaşması və düşüncələr, nə qədər çalışsam da yatmağa imkan verməmişdi.

Evdəkilər oyandığında, mən də qalxıb onların yanına getdim. Səhər yeməyimizi yedikdən sonra, birlikdə evdən çıxdıq. Əvvəlcə anamı gözəllik salonuna aparıb, sonra atamla bərabər bərbərə getdik. Evə döndüyümüzdə saat artıq 16 idi. Nərgizgilə gedəcək xonçaları səliqə ilə maşının baqajına yığdıqdan sonra, geri dönüb hazırlaşmağa başladım. Uzaq yoldan gələn qohum-əqrəba artıq, yavaş-yavaş bizim evdə toplanmağa başlamışdı. Bakıda yaşayan qohumlar və digər qonaqlar isə birbaşa restorana gələcəkdi. Evdən çıxana yaxın Anar, ondan bir neçə dəqiqə sonra isə Sahib və Lamiyə gəlib yetişdilər. Evə gələcək hər kəs toplandıqdan sonra, toparlanıb evdən çıxdıq.

Nişan kortejimiz Nərgizgilin məhəlləsində düz yarım saat gözləyəsi oldu. Qız evindəki adət-ənənələr yerinə yetirildikdən sonra, Nərgizi də götürüb restorana getdik. İki ailənin də aldığı ortaq qərar ilə nişana çox adam çağırmamışdıq. Sadəcə qohumlar və ən yaxın dostlarımızla bərabər keçirəcəkdik nişanı. Ona görə də nişan üçün restoranın yüz əlli nəfərlik kiçik zalını danışmışdıq. Restorana girər-girməz, Nərgizlə ilk rəqsimizi edib, daha sonra bəy və gəlin üçün ayrılmış masada öz yerimizi aldıq. Masaya oturduğumuzda Nərgiz əsəbi görsənirdi: "Raul, bu nə sifətdir belə? Baxanlar elə biləcək zorla gətiriblər səni bura. Fərqindəsənmi bilmirəm, amma, bu bizim nişanımızdır."

"Fərqindəyəm, əzizim, hətta çox sevincliyəm. Bu günü iplə çəkdiyimi sən də bilirsən. Sadəcə əsgərliyi düşünürəm. Ona görə bir az narahatam."

Nərgiz iki əliylə əlimi tutdu: "Raul, xahiş edirəm, belə eləmə. Hər şeyi daha da çətinləşdirirsən. Sadəcə bircə il əsgərlikdə olacaqsan. Geri döndüyündə isə hər şey çox yaxşı olacaq. Qaldı ki, mənə, mən isə hər gün səbirsizliklə sənin yolunu gözləyəcəm. Geri dönməyin və evlənməyimiz üçün."

"Səni sevirəm, Nərgiz. Yaxşı ki həyatımda sən varsan."

"Mən də, Raul. Mən də səni sevirəm."

Nərgizlə bir yandan gələcəyə dair danışır, bir yandan da əyləncəli keçən nişanımızın gedişatını seyr edirdik. Arasıra qonaqlar yanımıza gəlir, xeyr-dua verir və bizimlə şəkil çəkdirirdilər. Nişan gecə saat 23-ə qədər davam elədi. Qonaqlar yavaş-yavaş dağılışmağa başladığı sırada, Anar yanımıza gəldi.

“Raul, sizi bir daha təbrik etməyə və sağollaşmağa gəldim. Xoşbəxt olun. İnşallah sağ-salamat get qayıt, tez zamanda toyunuzu da görək. Qalx ayağa, getmədən qardaşımı qucaqlayım son dəfə. Bir də bir ildən sonra görüşəcəyik təəssüf ki.”

“İki gün sonra gedəcəksən. İndidən niyə sağollaşırsan ki? O vaxta qədər yəqin ki görüşərik də.”

“Raul, sənədlərimdə bir az problem var. Həm də Budapeştə getməzdən əvvəl getməli olduğum başqa yerlər var. Ona görə inanmıram görüşə bilək. Bu arada Nərgizə görə də narahat olma, Lamiyə də, Sahib də onun yanında olacaq. Mən özüm də tez-tez əlaqə saxlayacam. Gözün arxada qalmadan get və rahatlıqla xidmətini elə.” Daha sonra üzünü Nərgizə tutub onu da təbrik edərək sağollaşdı.

Ayağa qalxıb qucaqlaşdım Anarla: “Yolun açıq olsun, qardaşım...”

***

Nişandan sonrakı bir həftə necə gəlib keçdi, heç xəbərim belə olmadı. Hərbi xidmətin vaxtı gəlib yetişmişdi artıq. Bir az sonra doğulub, boya başa çatdığım vətənimə borcumu ödəmək üçün, hərbi xidmətə yola düşəcəkdim. İki gün əvvəl, Anarı Budapeştə yola saldıqdan sonra bütün yaxınlarımla görüşüb sağollaşmışdım. Məni hərbi hissəyə yola salmaq üçün sadəcə valideynlərim, Nərgiz və Sahib gəlmişdi. Lamiyə isə, işi ilə bağlı bu gün yanımda ola bilməyəcəyini bildiyindən, bir gün qabaqcadan sağollaşmışdı mənimlə. Hərbi xidmətin ilk aylarında Naftalanda olacaqdım. Daha sonrasında isə hansı rayona köçürüləcəyim hələ ki bilinmirdi. Sağollaşmaq vaxtı gəlib çatdığında ilk əvvəl anam gəldi

qabağa. Gözləri sanki bir bulud kimi dolmuşdu. Gözünü bircə dəfə qırpsa göz yaşları yanaqlarından süzüləcəkdi. Bərk-bərk qucaqlayıb, hər iki üzümdən öpdü: "Səni Allaha əmanət edirəm, oğlum. Sağ-salamat qayıdıb gələsən, inşallah."

Anamı belə görüb mənim də gözlərim doldu. Anama hiss etdirməmək üçün heç bir söz demədən üzümü atama tərəf çevirib atamla sağollaşdım.

"Nə badə hər hansı bir şey sənin gözünü qorxuda. Vətən üçün nə lazımdırsa, onu da et", – deyərək alnımdan öpdü atam. Dolmuş gözlərim ilə atamın üzünə baxaraq, sadəcə təbəssüm etdim.

"Möhkəm ol, qardaşım. Gözün qətiyyən arxada qalmasın", – deyə Sahib əlavə etdi. Sahiblə də sağollaşdıqdan sonra, sıra Nərgizə gəlmişdi. Onun ala gözlərini dolmuş görsəm buna dözə bilməzdim. Ona görə də gözlərimi Nərgizdən qaçırmağa çalışırdım. Sahib valideynlərimlə bərabər hərbi hissənin yaxınlığında park etdikləri maşınlara doğru gedərək uzaqlaşdılar. Nərgiz isə hələ də başını aşağı salmış, gözlərini yerə dikmişdi.

"Nərgiz, xahiş edirəm, belə eləmə. Belə boynu bükük durma qarşımda. Nə olursa olsun, hər zaman başı dik dur. Unutma, gülüm, sən artıq, bir əsgər yarısan."

Nərgiz başını yerdən qaldırıb, üzümə baxdı. Hər iki gözündən bir damla yaş axıb yanaqlarına süzüldü. Nərgizin gözündən axan o iki damla yaş içimə alov kimi düşmüşdü. Nərgiz bir anda boynuma sarılıb, hıçqıra-hıçqıra ağlamağa başladı. Heç bir şey danışmadan dəqiqələrcə qucaqlaşdıq. Əlimlə saçını oxşayır, bir yandan da qoxusunu içimə

çəkirdim. Elə dərindən qoxulayırdım ki, sanki ciyərlərimə bir illik ehtiyat qoxusunu yığırdım. “Allaha əmanət ol, Nərgiz. Sənə söz verirəm, nə olursa olsun sənin üçün geri dönəcəm. Dönər-dönməz də ilk işimiz evlənmək olacaq.”

“Sağ-salamat get və qayıt. Sən də Allaha əmanət ol, Raul.”

Nərgiz üzünü çevirib anamgilin yanına getdikdən sonra, arxamı dönüb dərin bir nəfəs aldım. – Bu bir il mənim üçün çox çətin keçəcək, – deyə düşünərkən bir an hərbi hissənin həyətindəki, mavi səmada dalğalanan üçrəngli bayrağım sataşdı gözümə. Yola düşmək üçün hərbi hissəyə daxil oldum. Təki Vətən sağ olsun!

***

Oktyabr ayının ortaları idi. Hərbi xidmətin üç ayını artıq, geridə qoymuşdum. İki ay Naftalanda xidmət etdikdən sonra, əsgərliyin davamı üçün Tərtər rayonuna köçürülmüşdüm. Bu hərbi hissəyə gəldiyim gündən bəri sıravi əsgərindən tutmuş, hərbi hissə komandirinə qədər hər kəsin sevgisini qazanmış, hər kəslə xoş ünsiyyət yaratmışdım. Buradakı hər kəs, mənim kimi, içi vətən sevgisi ilə dolubdaşan və düşmən əsarətində olan torpaqlarımızı geri almaq üçün, hücuma keçməyə hər zaman hazır olan insanlar idi. Uşaqlıqdan bəri ən böyük arzularımdan biri, əsarətdə olan torpaqlarımızı geri almaq, Ermənistan deyilən ölkəni dünya xəritəsindən silmək olub. Uğuruna canlar verilən, şəhid qanı qoxan o torpaqları geri almaq. Ala bilməsək də ən azından bu uğurda şəhid olmaq. Şəhidlik zirvəsi sözsüz ki, hər bir əsgər üçün böyük bir şərəfdir.

Hava tam qaraldıqdan sonra, baş leytenant Kamil Musavinin komandirliyi altında iki maxe, Elşən və Şahmar kəşfiyyat tapşırığını yerinə yetirmək üçün səngəri aşıb, neytral bölgəyə keçəcəkdilər. Onlarla bərabər iki əsgər daha gedib, səngərdə ehtiyat üçün gözləyəcəkdi. Bu iki əsgərdən biri ola bilməyi mən də hamı kimi çox istəyirdim. Axşam olduğunda Elşən yataqxanaya gəlib hər kəsi oyatdı.

“Kəşfiyyat tapşırığı üçün könüllü olan var?” – deyə zəhmli bir səs tonuyla soruşdu Elşən. Onun bu sualından sonra demək olar ki, hər kəs “Mən” deyib irəli çıxmışdı. Elşən isə, hamını təpədən dırnağa qədər süzdükdən sonra, kəşfiyyat tapşırığı üçün Rafaeli və məni seçdi. Təşkilat qrup komandirimiz baş leytenant Kamil, kəşfiyyat vaxtı onunla bərabər olacaq maxelər isə Elşən və Şahmar idi. Ehtiyat əsgər olaraq, səngərdə Rafael və mən duracaqdıq. Bir yandan çox həyəcanlı, bir yandan isə bu iş üçün seçildiyimə görə qürurlu idim. Səngərə gəldiyimizdə komandirin əmri ilə uzaqdan onları təqib etmək üçün öz yerlərimizi aldıq.

Bir az sonra artıq komandir və iki maxe səngəri aşıb, kəşfiyyata başlamışdılar. Səngərdən təxminən yüz metr aralıda idilər. Biz isə gecəgörmə cihazı ilə səngərdən onları təqib edir, hər an kömək etmək üçün hazır gözləyirdik. Keçidaçma yarımqrupu fəaliyyət göstərməyə başladı. Bir az sonra, Elşənin səsi eşidildi: “Komandir, mina!” Bu sözü eşitdiyim anda bir neçə saniyəlik şok keçirdim sanki. Çox keçmədən partlayış səsi eşidildi. İlk baxdığımızda heç nə görə bilmədik. Toz-duman hər tərəfi bürümüşdü. Rafael ilk tibbi yardıma hazır olması üçün hərbi hissəyə xəbər verdi. Bir az sonra on-on beş metr irəlidə komandirin bizə tərəf

sürünərək gəldiyini gördük. Rafael cəld bir şəkildə ona tərəf qaçdı. Komandirə kömək edib, onu birtəhər sürüyərək səngərə gətirdi. Mən isə hələ də şok vəziyyətində neytral bölgədə duran Elşən və Şahmara baxırdım. Rafaelin mənə "Raul, kömək elə!" qışqırması ilə özümə gəldim.

İkimiz bir yerdə komandiri hərbi hissənin tibbi yardım məntəqəsinə apardıq. Komandiri xərəyə uzadıb geri çəkildik. Həkim ilk tibbi yardıma başladı. Qanın dayanması üçün möhkəm bir şəkildə yaraları sarımağa çalışırdı. Bir neçə dəqiqə sonra təlaşlı bir şəkildə üzünü Rafael və mənə çevirib dedi: "Burada xəstəyə heç nə eləmək olmaz. O minaya düşüb. Əməliyyat üçün təcili xəstəxanaya aparılmalıdır".

Tam bu anda ikinci partlayış səsi eşidildi. Komandir uzandığı yerdən doğrulmağa çalışdı. "Lənət olsun. Elşəngil də minaya düşdü".

Rafael heç bir söz demədən qaçaraq köməyə getdi. Komandirin üz-gözü palçıq və qan ilə örtülmüşdü. Sağ ayağı isə tamamilə yox idi. Buna baxmayaraq hələ də özünü itirməmiş, bizimlə danışmağa davam edirdi. Bir yandan da bu yaşadığını qəbul edə bilməyib, əli ilə itirdiyi ayağına toxunmağa çalışırdı. Onu mümkün olduğu qədər tez bir zamanda xəstəxanaya yetişdirməli idim. Həkimin də köməyi ilə komandiri çiynimə alıb, hərbi tibb maşınına doğru yola düşdüm. Komandiri arxa oturacaqlarda uzadıb sürücü oturacağına keçdim. Komandir hələ də huşunu itirməmiş mənimlə danışmağa davam edirdi: "Raul, xəstəxanaya çatdıra biləcəksən məni?"

Mənim isə hələ də əl-ayağım əsirdi: "Narahat olmayın, komandir. Mən sizi çatdıracam. Hər şey yaxşı olacaq."

Mühərriki yenicə işə salırdım ki, Elşəni tibb məntəqəsinə apardıqlarını gördüm. Bu dəfə minaya düşən Elşən imiş. Şahmar uzaqdan qaçaraq yanımıza gəlib, heç bir söz demədən, o da yanımızda oturdu. Üçümüz bir yerdə xəstəxanaya yola düşdük. Həyatım boyunca heç sürmədiyim qədər sürətli getməyə çalışırdım. Şahmarın da partlayışda üz-gözü torpaqla dolmuşdu. Yol boyunca tək bir kəlmə belə danışa bilmədi. Partlayışlardan sonra necə təsirlənmişdisə, ağzını bıçaq açmırdı. Hətta, yolda gedərkən bir ara komandir özü "Qorxma Şahmar, mən yaxşıyam", – deyib təsəlli verməyə çalışırdı ona. O an özüm-özümə "Nə qədər ki bu ölkənin belə mərd oğulları var, bu ölkəni heç bir düşmən yıxa bilməz", – deyə düşündüm.

Tibb məntəqəsinə vardığımızda həkimlər ilkin müdaxiləni edib, tikiş qoyaraq qanaxmanı dayandırdılar. Komandir Kamil, partlayış əsnasında həm sağ ayağını, həm də sol gözünü itirmişdi. Bədənin müxtəlif yerlərində isə orta ölçülü digər yaralar var idi. Çox keçmədən Elşən də bu xəstəxanaya gətirildi. Elşən isə partlayış zamanı sol ayağının dizdən aşağı hissəsini itirmiş və bədənin bir neçə yerindən yara almışdı. Xəstəxana hər ikisi üçün əldə olan imkanlarla tam tibbi yardım göstərdikdən sonra, yaralıları Ağdam rayon xəstəxanasına təxliyə etdirdi.

Hər iki qazimiz itirdiyi ayaqlarının yerinə protez ayaqlarla təmin olundu. Əməliyyatlardan sonrakı ilk gündə baş leytenant Kamil Musavinin hər iki gözü görməsə də, tez zamanda həkimlər onun bir gözünü tam sağaltmağa nail oldu-

lar. İki gün sonra isə, müdafiə nazirimiz cənab Həsənovun əmri ilə Bakıdan göndərilən helikopter vasitəsilə qazilərimiz Bakı hospitallarından birinə təxliyə olundu.

***

Mart ayının sonları idi. Yaz fəslinin gəlişi ilə havalar yavaş-yavaş isinməyə başlamışdı. Düzdü, Bakıya nisbətən Tərtər hələ də soyuq idi. Amma, qışdakı hava şəraitindən sonra bu havaya soyuq deməyə adamın dili gəlmirdi. Hərbi xidmətin səkkiz aydan çox hissəsi artıq geridə qalmışdı. Dembel olmağımıza sadəcə bir neçə gün var idi. Hərbi xidmətə gəldiyim gündən bəri məzuniyyət haqqımı istifadə etməmiş, bu gün üçün saxlamışdım. Üç gündən sonra Nərgizin doğum günü olacaqdı. Ən son telefonla danışdığımızda bu ilki doğum günündə yanında ola bilməyəcəyim üçün çox üzgün idi. Əsgərliyin bitməsinə dörd aydan daha az qalmış bu müddətdə, məzuniyyət haqqımı istifadə etməyin tam zamanı idi.

Məzuniyyət üçün icazə çıxar-çıxmaz, heç kimə xəbər vermədən Bakıya doğru yola düşdüm. Geridə qoyub gəldiyim hər kəs üçün burnumun ucu göynəyirdi. Ailəm, dostlarım, ən əsas da Nərgiz üçün. Hərdən sanki, Nərgizin qoxusunu duyurmuş kimi olur, bir anda gözlərim dolurdu. Boşuna deməyiblər birinin qoxusunu dərindən içinə çəksən, onun üçün darıxdığında burnunun ucu göynəyərmiş deyə. Bakıya çatdığımda günorta saat dörd idi. Evə gedən yol Lamiyənin işlədiyi klinikanın yaxınlığından keçirdi. Yolüstü fikrimi dəyişib, evə getmədən əvvəl, onu ziyarət etməyə qərar verdim. Lamiyənin iş vaxtı saat beşdə bitirdi.

Çox güman ki hələ işdə olar deyə düşünüb, iş yerinə doğru yola düşdüm.

Klinikaya girdiyim anda gözümün qabağına bura ilk gəldiyim gün yadıma düşmüşdü. Lamiyənin yanına atamın zoru ilə gəlmişdim. Bura ilk gəldiyimdə, Nərgizlə qovuşmağımızı xəyal belə edə bilməzkən, şükürlər olsun ki, hal-hazırda nişanlıyıq və ailə qurmağa hazırlaşırıq. Çatdığımda Lamiyəni açarla otağın qapısını bağladığını gördüm. Üzü qapıya tərəf olduğundan ilk öncə məni görmədi. Bunu fürsət bilib ona kiçik bir zarafat etmək istədim: “Həkim, evə gedirsiz?”

“Bəli, evə gedirəm artıq”, deyərək üzü mənə tərəf döndü. Məni görüb, əvvəl diksindi, sonra bir əlini ağzına tutaraq, təəccüblə bir neçə saniyə məni süzdü: “Raul, bu sənsən? İlahi, necə də arıqlamısan!”

Lamiyənin belə reaksiya verməsi mənə həm təəccüblü, həm də gülməli gəlmişdi. Arıqladığımın fərqindəydim, amma, kənardan bu qədər çox hiss olunduğunu düşünmürdüm: “Lamiyə xanım, deyəsən məni gördüyünüzə heç sevinmədiniz?”

Lamiyə heç bir söz demədən məni qucaqladı. “Əlbəttə ki, səni gördüyümə çox sevindim. Sadəcə gözləmədiyim bir anda, səni arxamda görüb həm diksindim, həm də çox dəyişildiyinə görə bir az təəccübləndim. Gəl, içəri girək. Otaqda rahat danışarıq”.

Lamiyə hələ də əlində tutduğu açar ilə qapını açıb, əli ilə işarə edərək, içəri buyur etdi. İlk dəfə bu otağa gəldiyimdə oturduğum həmən kresloda əyləşdim. Lamiyə də qapını içəridən bağlayaraq, yanıma gəldi.

“Qapını niyə içəridən bağlayırsan, bəlkə xəstələrindən gələn oldu?”

“Bu günlük işim bitmişdi artıq. Sən gələndə qapını bağlayıb, evə gedirdim. Sən işi boş ver, danış görək nə gəzirsən burda?”

“Yox, yox, artıq əmin oldum. Sən məni gördüyünə heç sevinmədin”, deyərək gülməyə başladım.

“Raul, yaxşı day, zarafata salma. De görüm necə gəlmisən sən? Niyə xəbər verməmisən gələcəyini? Yoxsa vermisən, bircə mənim xəbərim yox idi?” – Lamiyə hər zamankı kimi bütün suallarını birnəfəsə vermişdi. Sualları verərkən üzündən nə qədər həyəcanlı və tədirgin olduğunu görməmək əldə deyildi.

“Hər şeyi danışacam indi. Əvvəlcə sən bir özünə gəl. Ən əsası isə bunu bil ki, pis heç nə olmayıb. Və qorxulası bir şey də yoxdur. – Bu sözlərimdən sonra, bir az rahatlamış bir şəkildə davam etməyimi gözləyərək üzümə baxdı: – Lamiyə, bilmirəm xəbərin var, yoxsa yox, amma, hərbi xidmətin ilk altı ayını tamamladıqdan sonra, hər bir əsgərin on günlük məzuniyyət haqqı olur. Mən də bu haqqımı, Nərgizin ad günü üçün saxlamışdım. Heç kimə xəbər vermədən gəlməyimin səbəbi isə, Nərgizə sürpriz etmək üçündü.” – Elə bunu demişdim ki, Lamiyə gözlərini bərk-bərk yumaraq, dərin bir köks ötürdü. – “Lamiyə, nə isə olub?”

Lamiyə susmağa davam elədi. Səs tonumu bir az qaldıraraq təkrar soruşdum: “Lamiyə, nə baş verir? Niyə susursan? Pis bir şey olub?!”

Bu dəfə gözlərini məndən qaçıraraq, “olub, Raul, çox təəssüf ki, olub”, deyə cavab verib, yenidən susdu. Bir

neçə saniyə ərzində ağlıma baş verə biləcək hər cürə pis hadisə gəlmişdi. Oturduğum yerdən aramızda duran masaya söykənərək, Lamiyəyə tərəf uzandım: “Susma, Lamiyə! Xahiş edirəm, nə baş verdiyini danış artıq.”

Lamiyə təkrar köks ötürüb, üzümə baxmadan danışmağa başladı: “Raul, bunu sənə danışmaq mənim üçün çox ağır və eyni zamanda da çox çətindir. Amma, buna məcburam. Mən bunları səndən gizlədə bilmərəm.”

Əsəbi bir şəkildə qışqırdım bu dəfə. “Lamiyə, uzatma! De görüm nə olub?!”

“Raul, mən də üç gündür bunu sənə necə deyəcəyimi düşünürdüm. Üç gün bundan qabaq, iş yoldaşlarımla gəzintiyə çıxmağı planlamışdıq. İşdən sonra, gəzinti üçün dənizkənarı bulvara getdik.” – Lamiyə danışdıqca söhbətin axırı hara gedir deyə düşünməkdən ağlımı itirəcəkdim artıq. Bir neçə saniyə ara verib, udqunaraq danışığına davam etdi. “Bulvarda gəzərkən təsadüfən uzaqdan Nərgizi gördüm. Yanında isə...”

Otağa yenidən sükut çökdü.

“Yanında isə nə?!”

“Yanında isə Sahib var idi”, – deyərək üzüntülü bir şəkildə üzümə baxdı.

Hələ də Lamiyənin dediklərinə bir anlam verə bilmirdim. “Burda üzülməli nə var axı? Mən Nərgizi Sahiblə sənə əmanət etməmişəm bəyəm? Yəqin Nərgizin nəsə bir işi var imiş ki, Sahib də ona kömək etmək üçün yanında olub.”

Lamiyə yenə də gözlərini qaçırdı. “Elə deyildi, Raul. Əfsuslar olsun ki, elə deyildi.

Ayağa durub qışqırmağa başladım. “Necə yəni elə deyildi?! Necə idi bəs?!”

“Nərgizin bulvarda nə işi ola bilər axı, Sahib də kömək üçün onun yanında olsun?”

Gözlərimi bərəldib, sual dolu ifadə ilə üzünə baxdım. “Lamiyə, dəli eləmə adamı. Başqa nə ola bilər axı? Biri sevdiyim qız, nişanlım olan Nərgiz, digəri isə bərabər çörək kəsdiyim, doğma qardaşım kimi olan Sahibdir.”

Lamiyə də oturduğu yerdən ayağa qalxdı. “Raul, bunların hər birini mən də bilirəm. Amma, onlar sənə xəyanət edirlər. Mən bunları öz gözlərimlə gördüm. Bulvarda heç bir işləri-filan yox idi. Sarmaş-dolaş gəzirdilər sadəcə”.

“Sən ağzından çıxanın fərqində belə deyilsən! Nə Nərgiz, nə də Sahib heç vaxt belə bir şey etməz. Heç biri mənə bunu edə bilməz. Sən səhv görmüsən. Nərgizlə Sahibə oxşatmısan sadəcə.”

Gözlərim dolmuş, ağlamamaq üçün özümü zor saxlayırdım. Lamiyə yanıma gəlib boynumu qucaqladı. “Kaş ki sənin də dediyin kimi səhv görmüş olaydım, Raul, amma, nə yazıq ki, düz görmüşəm. Onlar məni görməsə də, mən onları çox yaxşı gördüm”.

Lamiyə dediklərini bitirdikdən sonra, sanki kresloya oturmamış, yıxılıb qalmışdım. Beynim başımın içərisində silkələnirmişcəsinə qulaqlarım uğuldamağa başladı. Payız buludu kimi dolmuş gözlərimdən bir damla göz yaşı süzülərək, əynimdəki hərbi formanın üstünə düşdü...

***

Artıq iki saatdan çox idi ki, bir az aralıdan Nərgizgilin məhəlləsini müşahidə edirdim. Səhər saat 10-dan bəri bura-

da idim. Lamiyənin dediklərindən sonra, iki gün boyunca, gecə-gündüz Nərgizi izləsəm də, onu Sahiblə bərabər görə bilməmişdim. Lamiyə hər nə qədər gördüklərindən əmin danışsa da, öz gözümlə görmədiyim müddətcə buna tam inana bilməyəcəkdim. İçimdə bir yanım nə Nərgizə, nə də Sahibə toz qondura bilirdi. Həm sevdiyim qız, həm də qardaş bildiyim insan, hər ikisi eyni anda necə xəyanət edə bilərdi axı mənə? İkisindən birinin xəyanətini eşitsəm bəlkə də inanardım. Amma, ikisinin birlikdə mənə xəyanət etməsinə ehtimal verə bilmirdim. Bəlkə də, vermək istəmirdim. Valideynlərim eşidib pis olmasın deyə, onlara bu haqda heç nə deməmiş, hiss etdirməməyə çalışmışdım.

Bu gün, artıq Nərgizin doğum günü idi. Şübhə çəkməmək üçün ən azından zəng vurub, təbrik etməli idim. Beynimdə bu qədər sual var ikən, onunla necə danışacaqdım heç bilmirəm. Telefonu əlimə alıb, zəng vurdum. Nə qədər zummer getdisə də, telefona cavab vermədi. Bir neçə dəqiqədən sonra isə, Nərgiz blokun qarşısına çıxdı. Telefonla danışa-danışa, bir-iki məhəllə ötədə bir dayanacağa gəldi. Nərgizə görsənmədən, onu gizli-gizli izləməyə çalışırdım. Çox keçmədən bir maşın gəlib yanında saxladı. Maşının şüşələri çirkli olduğundan, uzaqdan kim olduğunu görə bilmirdim. Sürücü qapısı açıldığında isə, gələnin Sahib olduğunu gördüm. Maşından düşüb, əlində bir buket gül ilə Nərgizin yanına gəldi. Gözlərimin önündə əvvəl öpüşərək görüşüb, sonra isə qucaqlaşdılar. Nərgiz Sahibin əlindən gülü alıb, yanağından öpdü. Bir az sonra maşına minib, gözdən itdilər...

Gördüyüm bu mənzərənin qarşısında donub qalmışdım. Gördüklərimdən sonra, heç bir söz, heç bir kəlmə keçirtdiyim hislərə tərcüman ola bilməzdi. Gözlərim yaş ilə dolmuş, amma, sanki qürur edib axmaq istəmirdi. İçimdən dəli bir nərə çəkib, bağırmaq gəlir, amma pıçıldayacaq taqəti belə tapmırdım özümdə. Bədənim bir anda iflic keçirmiş kimi uyuşmağa başlamışdı. Bədənim keçirməmiş olsa belə, ürəyim çoxdan keçirmişdi artıq. İçimdəki insan sevgisini, bir anda silib atmışdı bu xəyanət. İlahi, bu gördüklərim nə idi belə? On altı ildir bir gün belə sevməkdən vaz keçmədiyim, uğuruna gözümü belə qırpmadan canımdan keçəcəyim qız idimi o gördüyüm? Ya digəri? Dörd illik dostum, qardaşım deyib, sevdiyimi əmanət etdiyim Sahib idimi o? Və ən əsası, mən indi nə edəcəkdim? İçimdə yaranan bu atəş nə vaxtsa sönərmiydi görəsən? Ya da yanmağa davam eləsə, kimləri öz ağuşuna alacaqdı bu atəş?

***

Yaşanan hər şeyi bir anlıq unutmaq, heç bir şey düşünməmək üçün çarəni içkidə görmüşdüm. Üçüncü qədəhi bir nəfəsə başıma çəkdim. Kafeyə gələrkən, yolüstü dükandan bir paçka siqaret və alışqan almışdım. Paçkadan ilk siqaretimi çıxarıb, dodaqlarımın arasına qoydum. Təzəcə yandırmışdım ki, az qala öskürəkdən boğulacaqdım. Üzümün rənginin belə dəyişdiyinin fərqində idim. Həyatımda ilk dəfə idi ki, içki içir və siqaret çəkirdim. Yaşanan heç bir şeyi düzəltməyə fayda etməyəcəkdi bunlar. Amma, bir müddətlikdə olsa sərxoş olub, hər şeyi unutmaq istəyirdim. Ciyərlərimdəki Nərgizin qoxusunu siqaretin tüstüsü ilə qovurdum bədənimdən. Ciyərlərim sökülənə qədər

içki içib, siqaret çəkməyə davam edirdim. Telefonu götürüb, Lamiyəyə zəng vurdum. Artıq, yavaş-yavaş sərxoş olmağa başlamışdım. Telefonun ekranı belə gözümə dumanlı görsənirdi. "Alo, Lamiyə..."

"Raul, hardasan sən? İki gündü bəlkə yüz dəfə zəng vurmuşam sənə. Niyə cavab vermirsən telefona?"

Səsindən çox qorxduğu hiss olunurdu. Görünür, özümə bir xətər yetirəcəyimdən qorxmuşdu.

"Mənə bu xəyanəti necə elədilər, Lamiyə? Hə? Necə elədilər mənə bunu?!"

"Raul, sən yaxşısan!? Hardasan? Tez ol, yerini de mənə. Gəlib götürüm səni."

Ağzımdan kəlmələr zorla çıxırdı sanki. "Kafedəyəm. Nərgizgilin evinin yaxınlığında."

"Elə mən də sizə gəlirdim. On-on beş dəqiqəyə çataram yanına. Mən gəlmədən heç yerə getmə."

***

Gözlərimi açdığımda başımda çox şiddətli ağrılar var idi. Başım elə zoqquldayırdı ki, sanki ortadan ikiyə ayrılacaq. Ən son yadıma gələn, Nərgizə, onun mənə xəyanət etdiyi bir yuxu gördüyümü danışırdım. O isə qarşılığında "Bu bir yuxu idi, Raul, mən sənə heç xəyanət edərəmmi?" deyirdi. Bu yadıma düşdüyündə üzümdə təbəssüm yarandı. Hər şey yuxu imiş deyə dərindən bir oh çəkib, rahatlaşdım. Başımdakı ağrılar get-gedə artmağa başlayırdı. Bir neçə dəqiqə sonra öz evimdə yox, Lamiyənin evində olduğumun fərqinə vardım. Bura necə gəldiyimi, nələr olduğunu xatırlaya bilmirdim. Ən önəmlisi isə, yuxu olan hansı idi bəs? Nərgizin xəyanəti? Yoxsa bunları Nərgizə danışmağım?

Yatdığım yerdən doğrulmağa çalışaraq, Lamiyəyə səsləndim. Masanın üzərindəki kağız və qələmi görüb iki gözümdən eyni anda yaş gəldi. Bu kağız və qələm bir anda hər şeyi xatırlamağıma kömək olmuşdu. Ən son Lamiyə gəlib kafedən götürmüşdü məni. Bura gəldiyimizdə Lamiyədən şeir yazmaq üçün kağız və qələm istəmişdim. Gerisini isə xatırlamıram. Lamiyə əlində iki fincan qəhvə ilə otağa daxil oldu. "Nəhayət ki, oyana bildin. Günorta saat dörddən bəri yatırsan. Düz altı saatdı sızıb qalmısan divanda."

Əlindəki qəhvələri masaya qoyub, yanıma oturdu. "Raul, yaxşısan? Mən səni heç vaxt belə görməmişdim. Məni çox qorxutdun".

Heç bir söz demədən üzünə baxdım sadəcə. Özümü saxlaya bilməyib ağlamağa başladım.

"Raul, belə eləmə. O iki insana görə tək damla belə göz yaşı axıtmağına dəyməz. Onlar sənin üçün hətta itki belə sayılmamalıdır. Yanında səni sevən bir ailən var. Mən varam. Bir zənginə Budapeştdən bu gecə qalxıb gələcək Anar var. Biz daima sənin yanındayıq".

"Lamiyə, məni anlamırsan. Nərgiz də mənim bir ailəm idi! Sahib də mənim bir zəngimə çox şeylər edəcək bir qardaşım idi. Nə oldu bəs indi? Hardadır onlar?"

Lamiyə qəhvənin birini mənim üçün qoyub, digərini isə əlinə alaraq ayağa qalxdı. "Sənin bir az yalnız qalmağa ehtiyacın var. Nərgiz və Sahib haqqında nə edəcəyinə və ya nə etmək istədiyinə qərar ver artıq. Və bunu da unutma. Nə olursa olsun, mən sənin yanındayam, Raul".

Sözünü bitirdikdən sonra otaqdan çölə çıxdı. Telefonun ekranında saata baxdım, 22:30 idi. Ayağa qalxıb masanın

arxasına oturdum. Qəhvəmdən bir qurtum alıb, kənara qoydum. Masanın üzərindəki kağız və qələmi götürüb yazmağa başladım.

Yenə oturmuşam masa başında,
Əlimdə qələmim, yazıram yenə.
Sızlayır ürəyim, dolub gözlərim,
Bir sözü yüz yerə yozuram yenə.

Ürəyim çırpınır, fəryad eyləyir,
Könlümə tərcüman olub qələmim.
Saxta məhəbbətin ağrılarından,
Yaman sızıldayır yaralı qəlbim.

Yolunda canımdan keçdiyim gözəl –
gözümə görünmür xeyli zamandı
Deyirlər vəfasız çıxıbdır sənə,
Deyirlər sevgisi, saxta-yalandı.

Kaş yuxu olaydı bu deyilənlər,
Buna tab gətirmək, çətindir, çətin.
Mən səni sevəndə düşünmədim ki,
Sənin nə sevgin var, nə məhəbbətin.

Getdin, bu gedişlə xar etdin məni,
Nə olar, eybi yox, bir söz demirəm.
Bir vaxt varlığımla sevirdim səni,
İndi başqasıyam, o mən deyiləm.

Bir daş parçasıdır ürəyin sənin,
həqiqət olmayıb heç vaxt sözündə.
Sevgiyə inamım qalmayıb mənim,
sevgini dəyərsiz etdin gözümdə…

Şeiri yazıb bitirdikdən sonra, bütün gecə düşünüb, qərarımı verdim. Artıq, üzləşməyin vaxtı idi...

***

“Lamiyə, danışdın Nərgizlə? Bir xəbər var?”

“Elə indicə danışdım. Yarım saata burda olacaq. Sahibdən nə xəbər var?”

“Mən də onu gözləyirəm. Harda olsa, gəlib çatar indi.”

“Raul, mənə söz vermisən ha, unutma. Vurmaq, öldürmək məsələsini tamamilə ağlından çıxart”.

“Narahat olma. Necə lazımdırsa elə də davranacam. Heç kimə deməməyi üçün tənbeh eləmisən Nərgizi?”

“Hə, eləmişəm. Şübhə çəkməsin deyə, “Raul ilə danışsan, onun belə xəbəri olmasın” dedim.”

“Yaxşı demisən. Ən azından, daha məndən şübhə etməz. Nəysə, gəl onda sağollaşaq. Sahib harda olsa gəlib çatar. Onsuz da bir azdan görüşəcəyik.”

Dünən gecə Lamiyəylə oturub, hər şeyi planlaşdırmışdıq. Lamiyə şəxsi bir problemi olduğunu deyib, kömək üçün Nərgizi evinə çağıracaqdı. Mən isə Sahiblə görüşüb, daha sonrasında isə, bir bəhanə ilə onu Lamiyənin evinə gətirəcəkdim. Gətirdikdən sonra nə edəcəyim barədə heç bir fikrim yox idi. Ən azından son dəfə gözlərinin içinə baxıb, mənə bunu necə etdiklərini soruşacaqdım.

Bir neçə dəqiqədən sonra Sahibin maşını düz qarşımda dayandı. Maşından düşmək istəyərkən, buna macal verməyib, əlimlə otur deyə işarə etdim. Özüm də keçib, Sahibin yanında oturdum. Sahib çox tədirgin görsənirdi. Titrəyən əllərini mənə hiss etdirməmək üçün, sükandan bərk-bərk yapışmışdı. Böyük bir günah işlətmiş hər adam kimi gözlərinin bəbəyi bir yerdə sabit durmurdu. Şübhə çəkməmək üçün üzümə baxmağa çalışsa da, amma, gözümün içinə baxa bilmirdi. Həyəcanlı səs tonu ilə "Xoş gəlmisən, qardaşım. Bir imkan vermədin düşüm, qucaqlayım səni. Nə olub, harasa tələsirik?"

"Heç də xoş gəlməmişəm, Sahib. Sür gedək. Lamiyənin evinə gedirik, orda qucaqlayarsan".

Sahib get-gedə daha da həyəcanlanırdı. Artan həyəcanı özünü daha çox itirməyə səbəb olurdu. Bunu elə verdiyi cavabdan da çox rahat başa düşmək olurdu. "Lamiyə kimdir? Niyə gedirik ki ora? Bizim kafelərdən birində oturardıq da elə".

Üzümü Sahibə çevirib qan çanağına dönmüş gözlərim ilə gözünün içinə baxdım. "Ortaq dostumuz olan neçə Lamiyə tanıyırsan toplamda? Dəli eləmə adamı! Sür gedək!"

Olduğumuz yerdən Lamiyənin evinə qədər maşınla on dəqiqəlik yol idi. Özüm bilərəkdən yaxın bir yerdə görüşmək istəmişdim. Yola çıxdıqdan sonrakı ilk bir neçə dəqiqə maşında sükut var idi. Evə çatana yaxın, sükutu yenidən Sahib pozdu. "Lamiyənin evinə niyə gedirik? Düzün de, Lamiyəyə nəsə olub?"

Lamiyəyə görə narahat olmuş kimi davranması əsəblərimi daha çox pozurdu. Ağzımdan söz almağa çalışır, ça-

lışdıqca bataqlıqdan çıxmağa can atan adam kimi daha da batırdı. “Olub Sahib, olub. Lamiyə iki nəfər yaxınını itirib. Baş sağlığı verməyə gedirik.” Bu dediklərimdən sonra əcəlinə getdiyini anlayan qurban kimi, ölümə gedən yolunu uzatmağa çalışırdı sanki. Yanılma payını düşünüb, birdən səhvliklə özü, öz əməlinin üstünü açar deyə, açıq-aşkar heç nə demir, amma, evə gedən yolu uzatmaq və məndən bir söz almaq üçün əlindən gələni də edirdi.

“Kimi itirib? İki nəfər kimdir? Mənim niyə xəbərim yoxdu bəs?”

“Sahib, gəlib çatmışıq artıq. Maşını bir yerdə saxla, yuxarı qalxaq. Bu suallarını da mənə yox, elə Lamiyənin özünə verərsən.”

Evə qədər demək olar ki, ikimiz də heç nə danışmadıq. Yolda olanda, qapının kilidini açıq saxlaması üçün Lamiyəyə mesaj yazmışdım. Evə çatdığımızda qapı zəngini sıxmadan, əlimi dəstəyə atıb, qapını açdım. Bu hərəkət, Sahibi öz düşüncələrində haqlı çıxarmaq üçün kifayət idi. O da hər şey üçün çox gec olduğunun fərqindəydi artıq. Bir gün gec, ya da tez, bu çirkin əməllərinin üstü açılmalı və buna görə hesab verməli idilər. Bu gün, o gün idi. İçəridən Nərgizin səsi eşidildi. Sahibin üzünə baxdığımda ani bir reflekslə gözlərini yumub, üzünü turşutdu. Sadəcə “Gəl” deyib, içəri girdim.

Nərgiz məni gördüyündə, xortlaq görmüşcəsinə qorxu dolu baxışlarla üzümə baxdı. Bir neçə saniyə ağzı açıq vəziyyətdə məni süzdükdən sonra, özünü itirmədən ayağa qalxdı. Titrək səs tonu ilə “Aman Allahım, inana bilmirəm. Sevgilim gəlib”, – deyərək mənə doğru addımlamağa baş-

ladı. Qollarını iki yana açıb sarılmaq istədiyində, əlimlə sinəsindən sıxaraq geri itələdim. Nərgiz bir az qorxu, bir az da sual dolu ifadə ilə üzümə baxdı. Sahibə tərəf dönüb, əynindəki gödəkcənin boynundan yapışdım. Gözlərimi bərəldərək, gözünün içinə baxdım. “Sahib, səni deyir. Sevgilisi olan sənsən. Mən nişanlısı idim”.

Nə dediyimi anlamasına imkan belə vermədən, itələyərək Nərgizin yanına atdım onu da. Lamiyə söhbətə qarışmadan, sadəcə bir qıraqda oturub izləyirdi. Sahib heç nə demədən, başını önə əyib, dayandı. Sahibin susqunluğu hər şeyi qəbul etməsinə işarə idi. Nərgiz isə hələ də anlamazlıqdan gəlirdi: “Raul, nə baş verir? Nə danışırsan sən?”

“Kəs səsini, Nərgiz! Görünür, bu vaxta kimi sizin yalanlarınızı çox dinləmişəm. Artıq sus! Heç deyilsə yanındakı şərəfsiz kimi sən də qəbul et öz xəyanətini.”

Sahib başını qaldırdı: “Raul, icazə ver hər şeyi başa salaq.”

“Nəyi başa salacaqsız mənə? Etdiyiniz şərəfsizliyin incəliklərini danışacaqsız?”

Hər ikisi tir-tir titrəyirdi. Qan çanağına dönmüş, nifrət ilə baxan gözlərimlə təzad yaradan bu sakit danışığımın, normal olmadığının fərqindəydi ikisi də. Hər ikisi, qəzəbləndiyimdə necə insanlıqdan çıxmış bir canavara döndüyümün dəfələrlə şahidi olmuşdu. Buna görə də titrəməkdə haqlı idilər.

“Xəyanət etdiyinizi ilk eşitdiyimdə buna ehtimal belə vermədim mən. Öz gözlərimlə görməsəm, belə bir xəyanətə əsla inanmazdım” – Qabağa gəlib Sahibin yaxasından yapışdım. – “Sən... Sən, mənim qardaşım idin. Ailəmin

içinə qədər gətirib saldığım, bərabər çörək kəsdiyim dostum idin. Sən, sevdiyim qadını əmanət etdiyim adam idin. Yaxşılıqdan başqa nə etmişdim axı mən sənə? Mən sənə nə etmişdim ki, mənə bu şərəfsizliyi etdin?" Əlimlə Nərgizin çənəsindən tutub, başını qaldırdım. "Ya sən? İyirmi iki illik ömrümün on altı ilini səni sevməklə keçirmişəm mən. Bir dəfə də olsa, gözlərimlə belə xəyanət etməmişəm sənə. Səni sevdiyim ilk illərdə, sən yanımda yox ikən belə başqasına baxmamışam mən. Mən sənin yoxluğunu belə sevmişəm, qadın! Onu belə aldatmamışam heç. Sənə görə bütün xəyallarımdan, gələcək karyeramdan imtina etdim. Hərbi xidməti tez bitirib, səninlə ailə qurmaq üçün, bütün xəyallarımdan vaz keçdim mən. Ya sən? Sən nə etdin bəs? İyirmi iki ildir heç kimin edə bilmədiyi şeyi bacardın sən. Kürəyimi ilk yerə vuran sən oldun qadın." Səs tonumu qaldıraraq, fəryad edərcəsinə qışqırdım bu dəfə. "Niyə axı, Niyə?! Mənə bu alçaqlığı niyə elədiz? Nə pislik etmişdim axı mən sizə?"

İkisinin də ağzını bıçaq açmırdı. Lal-dinməz dayanmış, sadəcə üzümə baxırdılar. Özümü saxlaya bilməyib, Sahibin yaxasından yapışdım. Yerə yıxıb, yumruqlamağa başlamışdım ki, Nərgiz "Raul, yalvarıram, vurma", deyərək əlimdən yapışdı. Üzümü döndərib, öfkəylə gözlərinə baxdım. Əlimi buraxıb, ağlamağa başladı. Sahib isə özünü qorumağa və ya qarşılıq verməyə belə çalışmırdı. Çalışsa belə, buna gücü çatmayacağının fərqindəydi çünki. Bəlkə də gücü çatacağını bilsə, utanmadan döyməyə də qalxardı məni. Mənə bu xəyanəti edən adam bundanmı utanacaqdı bəyəm? Üzü tamam qan ilə bürünmüş Sahib, sadəcə gözlərini möhkəm

yummuş, ondan nə vaxt əlimi çəkəcəyimi gözləyirdi. Nərgiz Sahibi belə görüb, ağlaya-ağlaya qışqırmağa başladı.

"Raul, bəsdir! Heç kimi zorbalıqla yanında saxlaya bilməzsən. Mən Sahibi sevirəm. Sən mənim üçün sadəcə şirin bir nağıl idin. Uşaqlıq həvəsi idin sən. Mən həqiqi sevgimi Sahibdə tapdım".

Kaş ki bu sözləri eşitmək yerinə qulaqlarım kar olaydı. Əlimdə olsa bu sözləri eşitməkdənsə, ölümü şərbət kimi içməyi seçərdim mən. Gözümdən bir damla yaş axıb, Sahibin üstünə düşdü. Ayağa qalxıb, təəssüflə Nərgizin üzünə baxdım sadəcə. Üzünə baxdıqca, itirdiyim on altı ilim gözümün önünə gəlirdi. Masanın üzərindəki meyvə qabında bıçağı gördüyüm an, ağlımdan ikisini də öldürmək keçdi. Bıçağa əlimi atmaq istəyirdim ki, Lamiyə məndən cəld davrandı. Bıçağı arxasında gizlədib danışmağa başladı.

"Raul, gördüyün kimi bayaqdan lal-dinməz oturmuşam, heç bir şeyə qarışmıram. Çünki nə etsən də, nə desən də haqlısan. Amma, bu iki əclafa görə, mən səni itirə bilmərəm. Bunları öldürməklə bu dünyanı sadəcə iki mikrobdan təmizləmiş olacaqsan. Ömrünün geri qalanını isə, dəmir barmaqlıq arxasında keçirəcəksən. Dostlarına, digər yaxınlarına və ən əsası da ailənə bunu etməyə haqqın yoxdur. Bizi sənsiz qoyma, Raul, səndən xahiş edirəm, bunları Allaha həvalə et. Burax, rədd olub getsinlər."

Lamiyə haqlı idi. Bu ikisinə görə əlimi qana bulamaqdansa, bunları tanrının ədalətinə həvalə etmək, ən doğru seçim idi. Sahibi ayağa qaldırıb, hər ikisinin qolundan tutaraq dəhlizə qədər apardım. Qapını açıb, ikisini də itələyərək çölə çıxartdım. Evdə qalan nə əşyaları varsa onları da bir-

bir arxalarıyca fırlatdım. Son olaraq cibimdən nişan üzüyümü çıxarıb Nərgizin üstünə atdım.

"Heç kim, yaşatdığının cəzasını çəkmədən ölməzmiş bu həyatda. Sizə tək arzum, mənə yaşatdığınız acının eynisini yaşayın!"

***

Aprel ayının ilk gecəsi idi. Yataqxanaya gəldiyimdən bəri, nə qədər istəsəm də yata bilməmişdim. Artıq dörd saatdan çox idi ki, düşünməkdən gözümə yuxu getmirdi. On gün bundan əvvələ kimi, əsgərlikdən sonrakı həyatım ilə bağlı çox böyük xəyallar qururdum. İndi isə, qurduğum o bütün xəyallar üstümə çökmüşdü sanki. Gələcəyə dair nə varsa, hamısı o çöküntünün altında qalmışdı. Elə mən özüm də həmçinin. Yaşamaq üçün heç bir səbəbi qalmamış, bütün hər şeyini itirmiş kimi hiss edirdim özümü. Ona görə də əsgərlikdən sonra nə edəcəyim barədə heç bir fikrim yox idi.

Daldığım düşüncələrdən Müşfiqin səsi ilə ayıldım. "Görünür, bu gecə yata bilməyən, tək mən deyiləm." Otaq qaranlıq olduğundan üzü görsənmirdi. Amma, səs Orucov Müşfiqin səsi idi. Doqquz aylıq hərbi xidmət müddətimdə demək olar ki, tək dostum o idi. Əsgərliyin ilk aylarından, hələ Naftalanda ikən, aramız çox yaxşı idi. Tərtərə təxliyə olunduqdan sonra isə, daha da yaxın olmuşduq bir-birimizə. Çarpayının ikinci mərtəbəsindən enib, Müşfiqin yanına düşdüm. Yataqxananın tək işıqlı hissəsi olan pəncərənin qarşısına keçdik. Gecənin qaranlığında ay işığı pəncərədən içəri süzülərək, yorğun simamızı aydınladırdı. "Nə olub, Müşfiq? Sən nə əcəb yatmamısan?" Pəncərədən yarı qır-

mızı, yarı sarı görsənən aya baxaraq, dərin bir köks ötürdü.

“Bilmirəm, Raul. Əslində elə bir səbəbi də yoxdur. Sadəcə anlam verə bilmədiyim bir sıxıntım var içimdə. Sanki, pis bir hadisə baş verəcəkmiş kimi hiss edirəm”.

“Pis şeylər gətirmə ağlına. Artıq ikimiz də dembel sayılırıq. Üç aydan sonra hərbi xidməti bitirib, ailəmizin yanına dönəcəyik.”

“İnşallah, qardaş. Ailəm üçün həqiqətən də çox darıxmışam. Evə dönüb, anamın əllərindən öpmək, onun ləzzətli yeməklərindən dadmaq üçün səbirsizlənirəm”.

Elə bu vaxt ardı-arası kəsməyən güllə səsləri eşidilməyə başladı. Bir neçə dəqiqə ərzində atılan mərmilər və partlayış səsləri dörd bir yanı sarmışdı artıq. Cəbhə bölgələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv atəşə tutulmuşdu. Müşfiq hislərində haqlı çıxdı. Pis bir hadisə baş verdi, amma, hər kəsin gözündə qorxu yox, öfkə var idi. Komandirin əmri ilə tez zamanda cavab atəşinə keçdik. Hücuma keçmək üçün hər birimiz can atsaq da, bunun üçün əmrin gəlməsini gözləməli idik. Buna görə də bir müddət cəbhə boyunca cavab atəşi verdik, sadəcə. Atışmalar səhər açıldıqdan sonra da gün boyunca davam etdi. Gün ərzində, bütün cəbhə boyunca, Azərbaycan mövqeləri və yaşayış məntəqələrimiz Ermənistan silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə tutuldu. Aldığımız məlumata görə, bunun nəticəsində dinc əhalidən iki nəfər dünyasını dəyişmiş, on nəfər isə müxtəlif tipli bədən xəsarəti almışdı. Aldığımız bu xəbər bütün hərbi hissəni özündən çıxarmışdı. Hər kəs, artıq hücum əmrini tələb edirdi. Axşam olduğunda hərbi hissə komandirimiz bütün maxe və dembelləri

danışıq üçün bir araya topladı. Çağırılan hər kəs bir araya toplandıqdan sonra komandirin özü də yanımıza gəldi. Sıra boyunca gəzib, hər kəsin gözünün içinə baxa-baxa danışmağa başladı. Səsində elə bir əzəmət, elə bir heybət var idi ki, düşmən görsə, qorxudan tük tökərdi.

"Hər kəs nə baş verdiyinin yəqin ki, fərqindədir. Belə bir hadisənin hər an baş verə biləcəyini hər birimiz çox yaxşı bilirdik. Ermənistan silahlı qüvvələri cəbhənin müxtəlif istiqamətlərində 82 və 120 millimetrlik minaatanlardan və iriçaplı pulemyotlardan istifadə etməklə, sutka ərzində atəşkəsi yüz dəfədən çox pozub. Bir çox bölgələrimiz düşmən tərəfindən vurulub artıq. Ermənistanın İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndi atəşə tutulub. Habelə, Berd rayonun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndi, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən isə Gədəbəy rayonu ərazisindəki yüksəkliklərimiz vurulub. Gözünü yaxşı aç, əsgər! Bu döyüş, 1994-cü ilin 12 may tarixində razılaşdırılmış atəşkəs rejimindən sonra Azərbaycan qoşunlarının təmas xəttində baş verən ən böyük qarşıdurmadır. Hücum əmrimiz az əvvəl gəldi. Allahın izni ilə düşmənin üstünə göydən od yağdırıb, bütün ordularını pərən-pərən edəcəyik. Cəbhənin ən gərgin bölgələri olan Ağdam-Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətində yerləşən birliklərimiz, artilleriya bölmələri və digər qoşun növlərimizlə birgə əlaqəli fəaliyyət göstərərək, tez zamanda cavab tədbirləri həyata keçirəcəyik. Bütün hərbi hissəyə xəbər verin. Dan yeri ağarar-ağarmaz, hər kəs hücuma hazır olsun!"

Komandir sözünü bitirib, aramızdan ayrıldı. Komandirin dediklərindən sonra gözümüzə yenidən işıq gəldi. Müşfiqlə bir-birimizin üzünə baxıb, qürurla gülümsədik. Uşaqlığımızdan bəri, düşmənlərimizlə savaşmaq, əsarətdə olan torpaqlarımızı geri almaq ikimizin də ən böyük arzularından biri idi. Komandirin dedikləri, mənə yaşamaq üçün yeni bir səbəb vermişdi sanki. Müşfiqdəki vətən sevgisinə isə, söz ola bilməzdi. Ona bu sevgini hələ məktəb illərində ikən, gənclərin çağırışaqədərki hazırlığı üzrə dərs verən atası, Arif müəllim aşılamışdı. Müşfiq də mənim kimi universiteti bitirib, magistr oxumadan hərbi xidmətə gəlmişdi. Magistr təhsili almasa da məzun olduğu Azərbaycan Texniki Universitetinin avtomatika və kompüter texnikası fakültəsinə yeddi yüz bal ilə daxil olmuşdu. Universitetdə oxuduğu illər ərzində, eyni zamanda, restoranlarda ofisiant işləyərək pul qazanırmış. Yay aylarında isə, dondurma sexində işləyirmiş. Mən məzuniyyətdən döndüyüm gün, Müşfiq məzuniyyətə çıxmalı idi. Sonradan aprel ayında qrup yoldaşının toyu olacağını öyrənib, məzuniyyətini aprelin doqquzuna təxirə salmışdı. Təxirə salmamış olsaydı, indi ailəsinin yanında və təhlükədən uzaqda olardı. Səhərə qədər heç birimizin gözünə yuxu getməyəcəyi bəlli idi. Kitelin cibinə əlimi salıb, bir siqaret çıxartdım. Ağzıma qoyub, yenicə yandırmışdım ki, Müşfiq deyinməyə başladı.

"Raul, bəsdir daha. Tərgit bu zəhrimarı. Orqanizman bu zəhərə öyrəşdikdən sonra, tərgitmək çətin olacaq. Özün, öz sağlamlığını məhv edirsən."

Ciyərlərimdəki tüstünü çölə üflədim. "Siqaretdən öləcək qədər uzun yaşayacağımızı zənn etmirəm, qardaş. Ona görə

də, boş ver getsin. Gəl gedək, komandirin tapşırığını yerinə yetirək. Bütün hərbi hissə, səhərədək hazır olmalıdır."

"Nə deyim, qardaş, sən də haqlısan. Gəl gedək."

Hərbi hissəni məlumatlandırdıqdan sonra, cəbhə boyu davam edən intensiv atışmalara biz də qoşulduq. Hava tam ağardıqdan sonra, komandirin əmri ilə qoşunumuz hücuma keçdi. İlk hədəfimiz Tərtər rayonunun Talış kəndi ətrafındakı hərbi strateji əhəmiyyət daşıyan yüksəklikləri düşməndən təmizləmək və orada möhkəmlənmək idi. Çox çəkmədən bu hədəfimizə nail olmağı bacardıq. Səngərlərinə çatmağımıza az qalmış, erməni əsgərləri hərbi sursatlarını və digər avadanlıqlarını belə götürmədən hərbi hissələrini tərk edərək geri çəkilmişdilər. Düşmən səngəri kifayət qədər dərin olmadığından, komandirin əmri ilə onu dərinləşdirib, səngərdə möhkəmlənməyə başladıq. Bura gəlib çatmağımız üçün, önümüzdəki ən böyük əngəl olan düşmən tanklarından üçünü məhv etməyi bacarmışdıq. Dördüncü tank isə geri çəkilərək, gözdən uzaqlaşmışdı.

Füzuli bölgəsindən aldığımız məlumata görə, onlar da xeyli irəliləmiş və düşmənin pilotsuz uçuş aparatını vurmuşdular. Bir yandan səngərdə möhkəmlənmə işləri davam edərkən, bir yandan da su ehtiyatımızı artırmaq üçün, bir neçə əsgər yoldaşımla bərabər düşmənin hərbi hissəsinə baxmağa getdik. İçəri girdiyimizdən bir-iki dəqiqə keçmişdi ki, sanki, yer yerindən oynadı. Nə olduğunu anlamaq üçün qaçaraq çölə çıxdıq. Çölə çıxdığımızda hər tərəf toz-dumana qarışmış, göz-gözü görmürdü. Hamı bir ağızdan qışqıraraq bir-birini çağırır, salamat olub-olmadığını soruşurdu. Heç nə görə bilməsəm də, səslərin gəldiyi

yerə doğru addımlamağa başladım. Havadakı toz dumanı dağılana qədər nə baş verdiyini anlamamışdım. Yerdə yaranan böyük çuxuru, duman tamamilə dağıldıqdan sonra gördüm. Bütün əsgərlər çuxurun yanında toplanmışdı. Uzaqdan baxdığımda, çox pərişan görsənirdilər. Bir qismi dizlərinin üstünə çökmüş, bir qismi isə yerdə oturmuşdu. Komandir isə başlarında durmuş, onlara bir şeylər deyirdi. Nə baş verdiyini anlamaq üçün qaçaraq yanlarına getdim. Gördüyüm mənzərə qarşısında donub qalmışdım. Ağzımı açıb tək kəlmə belə danışa bilmədim. İçimdən qışqırıb, bu fani dünyaya üsyan eləmək gəlsə də nitqim tutulmuş, demək istədiklərimi deyə bilmirdim. Bir az sonra dizlərimi yerə atıb, hüzn dolu baxışlarla son dəfə şəhidimin cansız bədəninə baxdım. Bir saat bundan əvvəl vura bilmədiyimiz o dördüncü tank, uzaqdan öz səngərlərinə mərmi atmışdı. Bir neçə əsgərimiz yaralanmış, Müşfiq isə şəhid olmuşdu. Komandir "Ayağa qalxın! Şəhidimizi başı dik uğurlayın!" – deyərək sükutu pozdu. Hamı toparlanıb, ayağa qalxdı. Mən isə hələ də dizlərimin üstündə çöküb qalmışdım. Bir əl, möhkəm bir şəkildə çiynimdən tutdu. Başımı qaldırdığımda heybətli olduğu qədər bir o qədər də mülayim olan komandirimizi gördüm.

"Qalx ayağa, Raul".

İki gözümdən də yaş axdı. Boğazımda düyünlənmiş sözlər, bir anda ağzımdan tökülməyə başladı. "Niyə komandir? Axı niyə? Niyə görə dünyada bu qədər şərəfsiz hələ də yaşayırkən Müşfiq kimi bir oğul öldü? Biz düşmənin kökünü kəsmək, Qarabağımızı geri almaq üçün söz vermişdik bir-birimizə".

“Raul, yas saxlamağın vaxtı deyil. Müşfiq ölmədi. Müşfiq Orucov, adını ölümsüzlərin sırasına yazdı bu gün. Şəhidlik zirvəsinə ucalaraq, haqqın dərgahına qalxdı igidimiz. Verdiyi söz uğrunda, vətəni uğrunda canından keçdi.”

Qolumdan sərt bir şəkildə yapışıb, ayağa qaldırdı. İki əlini də çiyinlərimə qoyub, gözümün içinə baxdı. “Şəhidimizin qanı yerdə qalmayacaq. Hər şəhid nəşinin qarşılığında min düşmən kəlləsi alacağıq onlardan. Şəhidimin bir damla qanına qarşılıq, öz qanlarında boğacayıq onları. Yaralılarımızı və şəhidimizi öz səngərimizə göndərdikdən sonra yenidən hücuma keçəcəyik. Qisasımızı almaq üçün hazır olun. İstiqamətimiz Seysulan kəndinədir!”

***

Nəhayət ki, iyul ayı gəlib yetişmişdi. Üç aydır yataqxanaya hər girişimdə olduğu kimi, bu dəfə də içəri girər-girməz, Müşfiqlə pəncərə önündəki danışığımız yadıma düşdü. Yaşananları sanki öncədən bilirmiş kimi, bu pəncərənin önündə dayanıb, səmaya baxaraq “Anlam verə bilmədiyim bir sıxıntım var içimdə. Sanki, pis bir hadisə baş verəcəkmiş kimi hiss edirəm.” demişdi. O sözünün üstündən üç aya yaxın vaxt gəlib keçmişdi artıq. Əgər yaşasaydı, sabah ordudan bərabər tərxis olunacaqdıq. Tərxis olunduqdan sonrası ilə bağlı bir çox planlarımız var idi Müşfiqlə. Hərbi xidmətdə yaranan dostluğumuzu, tərxis olunduqdan sonra, daha da möhkəmləndirəcəkdik.

Özümü saxlaya bilməyib, gözlərim doldu yenə. Çölə çıxıb bir siqaret yandırdım. Son 4-5 ay ərzində yaşadıqlarım, həm fiziki, həm də mənəvi olaraq çox yormuşdu

məni. Yaşananlar daldığım şirin xülyalardan oyanmağıma, həyatın gerçək və acı üzünü görməyimə vəsilə olmuşdu. Bu yorğunluqlarla yanaşı bir o qədər də qürurlu idim, əslində. Dörd gün davam edən müharibə Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə başa çatmışdı. Şükürlər olsun ki, heç bir şəhidimizin qanını yerdə qoymayıb, düşmənə böyük zərbə endirməyi bacarmışdıq. Ermənistan tərəfi hər nə qədər səkkiz yüz hektarlıq ərazini itirdiklərini və bu ərazilərin heç bir strateji əhəmiyyət daşımadığını desə də, iki min hektarlıq ərazini düşməndən azad etmişdik. Yenidən atəşkəs müqaviləsi imzalanmadan əvvəl, Ağdərə şəhərinə aparan əsas yol üzərində, strateji baxımdan çox əhəmiyyətli sayılan, Madaqiz məntəqəsindəki hərbi bazanı ələ keçirdiyimizdə, qarşı tərəfi ağır itkilərə uğratmışdıq. Aprelin beşində saat 12-dən etibarən Azərbaycan və Ermənistanın baş qərargah rəisləri arasında əldə edilmiş razılığa əsasən Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində əməliyyatlar dayandırıldı. Silahlı qüvvələrimizin bölmələri azad edilmiş torpaqlarda: Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Goranboy rayonunun Gülüstan kəndi, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Çocuq Mərcanlı, Tərtər rayonunun Qazaxlar kəndi və Madaqiz kəndi istiqamətindəki yollarda möhkəmləndirmə işlərini həyata keçirməyə başladı. Düşmən tərəfi müqavilə bağlanmadan əvvəl, itirilmiş torpaqları geri qaytarmaq üçün dəfələrlə hücuma keçməyə çalışsa da, bu istəklərinə nail ola bilmədi...

Ard-arda iki siqaret çəkdikdən sonra, yenidən yataqxanaya qayıtdım. Səhər tərxis olunacağım üçün əşyalarımı

yerbəyer edib, çantamı hazırlamalı idim. Artıq gecə olduğundan vaxt itirmədən hazırlaşmağa başladım. Çantamı toparlayarkən əşyaların arasından Nərgizlə olan bir şəklimizi tapdım. Şəkil beş il bundan əvvəl çəkilmişdi. Sözləndikdən sonrakı ilk görüşümüzdə çəkdirmişdik bu şəkli. Ah, o Botanika bağı... Şəklə diqqətlə baxdığımda, həqiqətən də çox dəyişildiyimin özüm də fərqinə vardım, amma, bu dəyişikliyin səbəbi aradan keçən beş il deyildi. Dörd-beş ay öncəsinə qədər bir az arıqlamış olsam da, hələ də canlı bir adam idim. Saç-saqqalıma ağlar düşməmiş və hələ də o şəkildəki kimi içdən olan gülüşlərim var idi. Yaşadığım mənəvi yorğunluqlar, fiziki olaraq da aydın hiss olunurdu. Hələ iyirmi iki yaşım olmasına baxmayaraq, xeyli arıqlamış, saç-saqqalıma tək-tək bəyazlar düşməyə başlamışdı. Hər daim üzümdə olan təbəssümüm getmiş, yerini göz yaşlarına və hicran dolu baxışlara buraxmışdı. Aynaya baxdığında gördüyü əksindən utanan, itirdiyi on altı ilinə görə özü-özündən üzr istəyən bir insana dönüşmüşdüm artıq. Buna baxmayaraq, içimdəki Nərgiz eşqini hələ də tam öldürə bilməmişdim. Bunu, Nərgizlə olan şəklimizi tapdığımda anladım. Mənə etdiyi xəyanət ağlıma gəldikcə, içimdən onu öldürmək, on altı ilimin intiqamını almaq keçir, amma, beş il bundan əvvəlki şəklimizi belə cırmağa əlim gəlmirdi. Məni vara-dövlətə satıb getmiş bir qızı hələ də sevdiyimə görə, özüm özümə qəzəblənirdim. Çantamı hazırlamadan əvvəl, bir kağız parçası və bir qələm götürüb, öfkəmi sətirlərə tökmək istədim.

Səni sevdiyimə utanıram mən,
sevgim çox təmizdir, sən isə kirli.
İllərlə heç kimə danışmadım mən,
Saxladım özümdə bu eşqi sirli.

İndi isə yazıram şeirlərimdə,
qoy, hamı bilsin ki, kimi sevmişəm,
İlahi, nə qədər axmaq olmuşam?
Bir gör, kimin üçün candan keçmişəm.

Getdiyin yollar da utanmadı heç,
ayağın altında paralanmadı.
Səni məndən alıb, aparan yollar,
niyə iki yerə aralanmadı?

Əqlim ürəyimdən çıxarıb səni,
hər axşam öfkəylə soxur gözümə.
Hələ də sevirsən sən bu insanı, –
sorub, şillə təki vurur üzümə.

Səni sevdiyimə utanıram mən,
güzgüyə baxmağa üzüm yox indi.
De necə baxım ki, axı güzgüyə,
Eşqimdən əvvəlki özüm yox indi.

Nə haqla danışır dilin sevgidən,
Səndə heç sevgidən zərrə qalıbdı?
Bir onu bilirəm sənin mayana –
əmdiyin o südə su qatılıbdı!...

***

Taksi qəsəbəyə gəlib çatdığında, bir-iki məhəllə uzaqda, Nərgizgilin evlərinin yaxınlığında enib, evə piyada getmək istəmişdim. Bu qəsəbənin hər yanı on altı ilin xatirələri ilə dolu idi. Evə doğru gedərkən, bir yandan da bundan sonra nə edəcəyimi düşünürdüm. Hərbi xidmətə getdiyimdə, tez gedib-gəlib, Nərgizlə evlənməyi düşünürdüm. İndi isə yaşananlar, gələcəklə bağlı bütün planları alt-üst etmişdi. Gələcək üçün tək bir plan, tək bir hədəf belə qalmamışdı artıq. Hər kvadrat metri xatirə qoxan məhəllələrdən keçərək, nəhayət, gəlib öz məhəlləmizə çatdım. Məhəlləyə ayaq basar-basmaz, ilk qarşılaşdığım insan Nərgiz oldu. Onu görən kimi üzümdə yaranan iki saniyəlik gülümsəmənin ardınca, sanki hər şeyi unutmuş beynim yaşananları yenidən xatırladı. Üzümdəki təbəssüm, öfkə dolu baxışlarla yer dəyişdi. Bir yanım dayanıb saatlarca üzünə baxmaq istəyirdi, amma, digər yandan, qürurum buna izin vermədiyi üçün başımı çevirib, yoluma davam etdim. Yanından düz keçib, evə doğru üz tutdum. "Görəsən, Nərgiz burada nə gəzir?" deyə düşünərək addımlamağa davam edirdim.

"Raul, bir dəqiqə gözlə", deyə səsləndi Nərgiz. Başımı çevirib arxaya baxdığımda, mənə doğru gəldiyini gördüm. Əhəmiyyət vermədən, üzümü çevirib, yoluma davam etdim. Bir neçə saniyə sonra mənə çatıb, qolumdan yapışdı. "Raul, xahiş edirəm, ayaq saxla bir dəqiqə."

Başımı çevirib, öfkə dolu baxışlarla əvvəl tutduğu qoluma, sonra isə gözlərinin içinə baxdım. Nərgiz qorxub, refleks ilə əlini qolumdan çəkdi. Qorxudan bütün bədəni tir-tir titrəyirdi. Nərgizi ilk dəfə idi ki, belə görürdüm. Üzünə

heç makiyaj vurmamış, saçını belə daramamışdı hətta. Hər daim özünə baxımlı olan Nərgiz getmiş, yerinə bitkin, xəstə kimi görsənən bir qız gəlmişdi sanki. Bulud kimi dolmuş ala rəngli gözləri ilə, qorxaraq üzümə baxdı. “Raul, xahiş edirəm, dinlə məni. Ən azından bərabər keçirdiyimiz o gözəl günlərin xətrinə, son bir dəfə qulaq as mənə.”

Bu sözündən sonra üzümü dönüb gedə bilmədim artıq. Son bir dəfə nə demək istəyirsə, qoy desin, deyə düşündüm içimdən.

“Ən son gördüyündə, öldürməkdən vaz keçib, sizi Allaha həvalə edirəm demişdin. Kaş ki, o gün, Lamiyə əngəl olmayaydı da, öldürmüş olaydın bizi. Həvalə etdiyin Allah, öldürməkdən daha betər etdi məni.”

Nərgiz danışır, mən isə üzünə belə baxmadan sadəcə qulaq asırdım.

“Anam yaşananları öyrəndikdən sonra “Mənim bundan sonra Nərgiz adlı qızım yoxdur. Sən mənim üçün öldün”, deyərək məni evdən qovdu. Sahib evdən qovulduğumu öyrəndiyində, məni özünə aid olan evlərindən birinə apardı. Daha doğrusu, mən elə bilirdim”

Nərgiz danışmağa ara verib, ağlamağa başladı. Hər nə qədər bu halına pis olsam da, bunu ona hiss etdirməməyə çalışdım. Bir az sonra göz yaşlarını silib, danışmağa davam elədi.

“Sahib mənə təsəlli vermək üçün, “Narahat olma. Evləndikdən sonra anan dözə bilməz, bağışlayar səni”, demişdi. Bir neçə gün o evdə qalıb, özümə gəldikdən sonra, bir gecə, Sahib yataq otağıma gəldi. Artıq vaxtı gəldiyini, ona aid olmağımı istədiyini dedi. İlk başda buna qətiyyətlə qarşı

çıxsam da, tezliklə evlənəcəyimizi düşünüb, buna razı oldum. O gecə, ilk dəfə Sahiblə bərabər olduq."

Bunu eşidər-eşitməz, iki gözümdən də yaş axdı. Mənim illərdi toxunmağa belə qıymadığım qız, artıq başqasının qadını olmuşdu. "Bunları mənə niyə danışırsan, Nərgiz?!"

"Dinlə, Raul, xahiş edirəm. O gecənin səhəri qapının zəngi ilə oyandım yuxudan. Qapını açdığımda tanımadığım bir adam gəlmiş, bu evin ona aid olduğunu iddia edirdi. Sahibin bu evi sadəcə bir neçə günlük kirayələdiyini və bu gün artıq evi tərk etməli olduğumuzu dedi. Bunları Sahibə demək üçün evə baxdığımda, onu evdə tapa bilmədim. Telefona əlimi atıb zəng vurdum. Dəfələrlə zəng vurdum ona. İki nömrəsinin ikisinə də zəng çatmırdı. Daha sonra..." – Bu dəfə hıçqıra-hıçqıra ağlayıb, asfaltın üzərində dizlərinin üstünə çökdü.

Nərgiz danışdıqca sanki içimdə bir əl ürəyimi tutmuş, tez-tez sıxıb buraxırdı. "Yatağın üzərində bir not buraxmışdı Sahib. Notda "Nərgiz, məni bağışla. Gözəlliyin məni başdan çıxardı. Şeytana uydum. Belə olmasını istəməzdim" yazırdı. O gündən sonra bir daha görə bilmədim onu".

Ayaqlarıma yapışaraq, ağlamağa davam etdi. "Allah bəlamı verdi, Raul. Sahib məni kirlədib, tərk etdi. Sənə yalvarıram, məni bağışla. Bilirəm, mən sənin sevginə layiq olmadım heç vaxt. Amma yalvarıram sənə, məni bağışla. İkinci bir şans ver sevgimizə".

"Nərgiz, mənim ömrüm səni sevməklə keçib. İllərlə sevgili olduq, sözləndik, hətta nişanlandıq. Buna baxmayaraq, mən sənə toxunmağı ağlımdan belə keçirmədim. Mən səni bəyazlar içində, gəlinliklə xəyal etmişdim həmişə. Sən isə,

Sahibin yatağına yatdın. Sən mənim duyğularımın, sevdiyim qızın və ən əsası da, on altı ilimin qatilisən! Gözümdə bir az daha kiçilmədən çıx get burdan."

Əlini ayaqlarımdan çəkib, üzümə baxdı. "Nə desən haqlısan, Raul. Söz verirəm, bundan sonra bir daha qabağına çıxmayacam. Səndən tək istəyim, əgər bacarsan haqqını mənə halal et."

İçim qan ağlasa da, heç bir söz demədən üzümü çevirib, evə doğru getdim...

***

Evdəkilərlə görüşdükdən sonra, təmizlənmək bəhanəsi ilə duşa girdim. Əslində təmizləmək istədiyim bədənim yox, kirlənən xəyallarım idi. Duşa girənə qədər özümü saxlamağa çalışsam da, suyu açıb altına girdikdən sonra hönkür-hönkür ağlamağa başladım. Göz yaşlarımın istiliyini yanaqlarımda hiss edirdim. Bu, sevginin uğrunda axan son göz yaşları idi. Nərgizin dedikləri, yaramın üstünə yenidən köz basmışdı. Duşun altında ciyərlərim sökülənə qədər ağladım. Canımın necə yandığını heç kim görməmişdi. Duşdan çıxıb, otağıma çəkildim. Gecəyə qədər çölə çıxmadım. Yaşananların hamısını mən tərxis olmadan əvvəl, Lamiyə valideynlərimə danışmışdı. Hər şeydən xəbərdar olduqlarına görə, üstümə gəlməyib, tək qalmaq istəyimi anlayışla qarşılamışdılar. Gecə yarısına qədər ancaq siqaret çəkib, yaşananları düşündüm. Evə gələrkən aldığım iki şüşə şərabı hansı ara bitirdiyimin, fərqində belə deyildim. Artıq, yavaş-yavaş, başım dönməyə başlamışdı. Bir az sonra tamamilə sərxoş olmuş, danışacaq halım belə qalmamışdı. İçimdən keçənləri Nərgizə dair son bir şeir yazaraq demək istədim.

Gözləri zümrüdtək parlayan gözəl,
gözündən bir damla yaş axdımı heç?
Qəlbimi sındırıb, pərişan etdin,
Gedərkən geriyə bir baxdınmı heç?

İsti yatağında yatarkən gecə,
donmuş vicdanından bir səs gəldimi?
O səsi duyarkən heç xəyalına,
xəyanət etdiyin oğlan gəldimi?

Dedinmi, İlahi, neyləmişəm mən?
Gör kimə xəyanət eyləmişəm mən?
Xəyanət etdiyim o cavan məni,
sevərdi hər kəsdən üstün, əbədi.

İndi heç olmasa peşimanmısan,
Yoxsa keçənləri tam unutmusan.
Bəlkə heç səhvini dərk eyləmirsən,
Etdiyin əmələ don geydirirsən...

Yox-yox, sən kimilər peşman olmaz,
Peşman olsa da bu heç sayılmaz.
Həzrəti Yusifin bir kəlamı var:
“Xəyanət əhlindən aşiq olunmaz”

Gecə tez ötüşdü, bilmirəm nədən,
bir qurtum meyim də qalmayıb artıq.
Bir şəkil xatirə qalıbdı səndən,
Təkcə o şəkildə səninlə varıq...

***

Yuxudan telefonun zənginə oyandım. Səhər çoxdan açılmışdı. Hətta, günorta belə sayılardı artıq. Buna baxmayaraq, sanki heç yatmamış kimi yuxum gəlirdi. Nə də olsa, ayların yorğunluğu var idi canımda.

"Alo, buyurun, eşidirəm."

"Salam, qardaşım. Mənəm, Anar. Evdəsən?"

"Hə, evdəyəm. Bu nə nömrədir belə? Azərbaycandasan sən?"

"Təzə nömrəmdi. Hə, Raul, burdayam. Gecə yarısından sonra gəlmişəm. Hazırlaş, yarım saata gəlib səni evdən götürəcəm."

Anar Budapeştə getdikdən bir neçə ay sonra, ailəsi də bizim qəsəbədən köçüb, şəhərdə yeni bir mənzilə yerləşmişdi. Artıq əvvəlki kimi, gecənin bir yarısında, bir-birimizə "Çıx məhəlləyə, bir az dərdləşək", deyə bilməyəcəkdik. Güc-bəlaynan özümü toparlayıb, ayağa qalxdım. Hazırlaşıb, səhər yeməyi üçün içəri keçdim. Evdəkilərlə bir az söhbət edib, yeməyimi yedikdən sonra yarım saatın tamamında küçəyə çıxdım. Anara zəng vurmaq üçün əlimi telefona atırdım ki, yol ayrıcından maşınla məhəlləyə girdiyini gördüm. Maşını yanımda saxlayıb, pəncərədən "keç otur" deyə səsləndi.

"Salam, Anar. Xoş gəlmisən."

"Sən də, qardaşım. Sən də xoş gəlmisən öz evinə."

Anar bir az gərgin görsənirdi.

"Əslində mən elə də xoş gəlməmişəm. Sənə danışacağım şeylər var. Amma, əvvəl, de görüm, sənin niyə kefin yoxdur?"

"O danışacağın şeyləri səndən yox, üstündən üç ay keçdikdən sonra, Lamiyədən öyrəndiyimə görə kefim yoxdu. Raul, mənə niyə deməmisən bütün bunları?"

Gözlərimi Anardan qaçırıb, pəncərədən çölə baxdım. "Utandım, qardaşım. Nişanlımın və qardaş bildiyimiz insanın birlikdə mənə xəyanət etdiyini necə deyəydim axı sənə?"

"Bəri bax, Raul. Sənin utanmalı olduğun hər hansı bir şey yoxdur. Qoy sənin sevgini var-dövlətə satan Nərgiz və sənə qardaş deyib kürəyindən vuran o əclaf utansın! Lamiyə bunları mənə deyəndə, özümə o şərəfsiz Sahibi yaşadığına peşman edəcəm, deyə söz verdim. Amma heyf ki, məndən qabaq Allah verib cəzasını."

Anarın nə dediyini anlamadım. Sahib haqqında Nərgizin ən son mənə dediklərindən başqa heç bir məlumatım yox idi. Diqqətlə Anarın üzünə baxıb, soruşdum.

"Nə cəzası? Nə olub ki, o şərəfsizə?"

"Sənin xəbərin yoxdur bəyəm?"

"Xəbərim olsa, nə olub deyə səndən soruşmaram. De görüm, nədir o mənim xəbərim olmayan məlumat."

"Sahibin ardı-arası kəsilmək bilməyən paçka-paçka pullarının sirri açılıb nəhayət ki. Sahibin atası uzun illərdi, insanları zəhərləyən bəyaz ölümün, narkotikin ticarəti ilə məşğul imiş. Sahib də üç ildi, atasının bu işlərini idarə edirmiş. İki həftə əvvəl, atası da, özü də həbs olunub. Həbs olunmadan bir ay əvvəl isə, necə olub bilmirəm, amma, bütün var-dövlət əllərindən çıxmış, səfil vəziyyətə düşüblərmiş. Yəni anlayacağın, mənə ehtiyac qalmadan, Allah verib bəlasını."

"Lap yaxşı. Bu mövzu elə buradaca bağlansın. Bundan sonrakı həyatımda o iki insanın adını belə eşitmək istəmirəm." İçimdən mən heç nə etməsəm də, Allah ikisinə də

lazım olan cəzanı verib deyə düşünüb, şükür etdim. İlahi ədalət yenə də öz sözünü deyib. Artıq içimdə intiqam deyə bir kəlmənin qırıntısı belə qalmamışdı. Bundan sonra tək istədiyim, hər şeyi tamamilə unutmaq idi sadəcə. Anarla bərabər çay içib, söhbət etmək üçün hər zaman qəsəbə daxilində getdiyimiz kafeyə üz tutduq.

"Danış görək, Raul, əsgərlik necə keçdi?" – Bu sualı eşidər-eşitməz, gözümün önünə şəhid və qazi olan əsgər yoldaşlarım gəldi. Əsəbi şəkildə üzünə baxdım.

"Axmaq-axmaq suallar vermə. Necə keçdiyin bilmirsən bəyəm?"

Anar gözlərini qıyıb, əli ilə alnına şillə vurdu.

"Üzür istəyirəm, Raul. Tamamilə ağız alışqanlığıdır, vallah. Əsgərlikdən gələn hər adama eyni sualı verməyə dilimiz öyrəşib."

"Nəysə, boş ver. Əsas mövzuya gələk. Yayı burda keçirəcəksən, ya qayıdacaqsan Budapeştə?"

"Burda keçirməyi çox istəyərdim. Amma, iş yerimdən sadəcə bir həftəlik icazə almışam. Nədə olsa, artıq, bir ilim qalıb. Magistr bitdikdən sonra birdəfəlik geri dönəcəm."

"Uğurlar, qardaşım. İşin avand olsun. Burdan çıxanda bizə gedərik. Digər evə gedəcək əşyalarım var. Həm onları götürüm, öz evimə aparım, həm də sən yeni evimi görmüş ol."

"Raul, yadına salıb səni üzmək istəmirəm. Amma, o ev, Nərgizlə evləndikdən sonra yaşamağınız üçün, ipoteka ilə aldığınız ev deyil?"

"Hə, Anar. Həmin evdi. Elə öz qəsəbəmizdəki. Yaşananları həzm etmək üçün bir az tək qalmağa ehtiyacım var. Ən azından bir müddət"...

# III
# İndiki zaman

Nərgiz haqqında eşitdiklərim canımı yandırmadı bu dəfə. Hə, bu dəfə, bunu bacarmışdım. O mənim üçün, xəyanət etdiyini öyrəndiyim gün ölmüşdü onsuz da. Tək problem, hələ də içimdə yaşatdığım, toz qondura bilmədiyim Nərgizi öldürmək idi ki, görünür, bunu da, bacarmışdım artıq. Hətta, evlənəcəyinə bir baxımdan sevindim də. Nədə olsa, bir zamanlar canımdan belə çox sevmişdim mən onu. Mənə etdiklərinin bədəlini, çox keçmədən, elə, bu dünyadaca ödədi. Bütün bunlara baxmayaraq, hər bir insan kimi, xoşbəxt olmaq onun da haqqıdır. Bundan sonra istər xoşbəxt olsun, istərsə də bədbəxt. Əsas odur, bircə məndən uzaq olsun.

Hər şey bir yana, mən bu qızı necə tapacam indi? Nərgiz kimi uğursuz bir sevdadan sonra, haqqında bir sətir belə məlumatım olmayan, heç adını belə bilmədiyim birinə aşiq olmuşam. Gecə düşdükcə, artıq, üşüməyə başlayırdım.

Noyabr ayı sakit olduğu qədər, bir o qədər də soyuq keçirdi. Gərək, evdən çıxanda əynimi qalın geyinərdim. Bir siqaret yandırıb şəhərin mərkəz küçələri ilə addımlamağa davam edirəm. Şəhər tamamilə boşalıb artıq. Demək olar ki, küçələrdə heç kim yoxdur. Hərdənbir yoldan bir-iki nəfər keçir, onlar da sürətli addımlara harasa tələsirlər sanki. Çox güman ki, isti evlərinə, qadınlarının qoynuna tələsirlər. Nə də olsa, hamı mənim kimi bədbəxt deyil bu şəhərdə. Nəinki bir qadın, dərdləşəcək bir kimsəm belə yoxdur bu gecə. Anar da yenə, lənətə gəlmiş Budapeştinə qayıtdı. Yenə də tək qaldım. Bircə bu altı-yeddi ay da tez gəlib-keçsəydi, magistrini bitirib, birdəfəlik geri dönərdi artıq.

Telefonum zəng çalır. O qədər yorulmuşam ki, əlimi cibimə salıb, telefonu götürməyə belə halım yoxdur. Bir yandan da, telefonun zəngi laylay kimi şirin gəlir. Bu axmaq telefon zənginin, qulağıma laylay kimi şirin gələcəyi qədər nə vaxt yoruldum, onu da bilmirəm.

“Alo. Salam, Raul. Necəsən?” – Zəng vuran Lamiyədir.

“Salam Lamiyə. Mən aşiqəm. Sən necəsən?” – Gülməyə başladı.

“İkinci dəfə aşiq ola bildiyinə sevindim. Amma, kimə aşiq olduğunu özün də bilmirsən deyəsən.”

“Gülmə! O boşboğaz, ağzında söz saxlaya bilmədi yenə? Hə, düzdü. Hələ ki adını bilmirəm. Amma, öyrənəcəm.”

Lamiyə hələ də gülməyə davam edirdi.

“Öyrən, öyrən. Toplam üç gündür görüşmürük, hansı yara aşiq oldun sən?”

Paçkanın son siqareti yavaş-yavaş əriyib gedirdi barmaqlarımın arasında. Yolun qarşı tərəfində, gözümə bağ-

lanmaq üzərə olan bir dükan sataşdı. Sahibi dükanı bağlayıb getmədən, ona çatıb, bir paçka siqaret almalı idim. “Lamiyə, zəhmət olmasa, bir dəqiqə xətdə qal...”

***

Deyəsən, bu dəfə, həqiqətən də ölmüşəm. Bunun başqa bir açıqlaması ola bilməz çünki. Aşiq olduğum qız, əlində təzyiq ölçən cihaz ilə təzyiqimi ölçür. Hələ bir əliynən biləyimdən də tutub. İlahi, bu nə zərif bir əldir belə. Biləyi o qədər incədir ki, toxunsam qırılacaq sanki. Zərif əllərindəki, nazik uzun barmaqları, tək kəlmə ilə mükəmməldir. Hələ biləyimə toxunuşunu demirəm. “Qadın zərifliyi” sözünün canlı izahıdır bu qız. Başını qaldırıb, üzümə baxır. Baxır ki, nə baxır həm də. Bu gözlərə bu qədər yaxından baxmaq, insan sağlamlığına ziyandı məncə. Dəniz mavisi gözləri, elə ilk gördüyüm andan bəri, ağlımı başımdan alıb. Gözünü hər qırpdığında kiprikləri ox kimi ürəyimə batır sanki. Sən də özünə şair deyirsən, Raul. Hünərin var bu gözləri təsvir edəcək iki bənd şeir yaz indi. Nəinki iki bənd şeir, roman yazsan yenə də təsvir edə bilməzsən.

“Keçmiş olsun” deyərək təbəssüm edir. Qızın səs tonu belə, özü kimi çox zərif və gözəldir. İlahi, bu qızı insanlıq aləminə “Qadın budur!” demək üçünmü yaratmısan? Yoxsa “Gözəllik” sözünün tərifi olaraqmı yaratmısan? Heçmi nöqsan verməmisən axı bu qıza? Ağzımı açıb təşəkkür etməyimə imkan vermədən otaqdan çölə çıxır. Otaqdan çıxarkən, bir şey düşür cibindən. Yataqdan doğrulub, yerə baxıram. Yerə düşən sarı rəngli bir yaylıqdı. O yaylıq az əvvəl boğazında idi. Yerə necə düşdü bilmirəm, amma, yaxşı ki də düşdü. Bir neçə saniyə sonra qapı yenidən açılır. Bu dəfə gələn Lamiyədi.

“Basdalama!”

“Nə deyirsən, Raul? Nəyi basdalamayım?”

Əlimlə ayağının altını işarə etdim.

“Mənə ver onu.”

Lamiyə yerdəki yaylığı götürüb, yanıma gəlir. Yaylığı mənə verib, yatağımın yanındakı boş stula əyləşir. “Raul, yaxşısan? Məni çox qorxutdun. Danışdığımız yerdə birdən-birə səsin kəsildi. Nə baş verdiyini anlamışdım təxmini. Çox keçmədən, səni vuran maşının sürücüsü sənin telefonunla mənə zəng etdi. Qəza baş verdiyini, bu xəstəxanaya doğru yola çıxdığını dedi. Bu arada, bu nə yaylıqdır belə?”

Heç nə demədən yaylığı üzümə sıxıram. Bacardığım qədər dərindən qoxulayıram. Körpə bir uşağı öpərkən, dərindən qoxulayıb, içdən-içə, kaş ki, mənim də belə bir körpəm ola, deyər insan. Qadın qoxusu tam olaraq belə bir şeydir. Bu həyatdakı ən gözəl parfüm bir körpə uşaq, bir də qadın ətridir, onsuz da. Yeddi ayrı dağdan yeddi ayrı gül gətirib, bir araya toplasalar yenə də sevdiyin qadının öz qoxusu qədər gözəl ola bilməz. Yaylıqdakı qoxu parfüm qoxusu deyildi. O qadının, o zərafətin öz qoxusu idi bu.

“Raul, neynirsən sən? Niyə cavab vermirsən?”

“Yaxşıyam, Lamiyə. Uzun zamandır heç olmadığım qədər yaxşıyam həm də.”

“Soruşmaq ayıb olmasın, bu qədər yaxşı olmağına səbəb nədir? Beş saat bundan əvvəl maşın vurub səni. Bu da az deyilmiş kimi, yıxıldığında başın yarılıb. Səkkiz tikiş atdılar başına. Və sən, uzun zamandır olmadığın qədər yaxşısan hə?”

Gülməyə başlayıram. Amma, qabırğalarımın sızıltısı gülüşümü yarıda qoymağıma səbəb olur. Ağrılarıma şəfa niyyətinə bir nəfəslik daha qoxulayıram yaylığı.

“Lamiyə, az əvvəl otaqdan çıxan tibb bacısını gördün? Təzyiqimi ölçən?”

“Hə gördüm. Nə olub ki?”

“Anara dediyim qız, bax, elə o qızdı. Allaha şükürlər olsun ki, aşiq olduğum qızı ikinci dəfə qarşıma çıxardı. Nə yaxşı ki, bu qəza baş verib. Yaxşı yadıma düşdü, məni vuran adam hardadır? Ona da təşəkkür etmək istəyirəm.”

Lamiyə qəribə-qəribə üzümə baxıb, güldü. “Qapının ağzında gözləyir o da. Dayan, çağırım gəlsin.”

Ayağa qalxıb, qapıya tərəf yönəlir. Qapını açıb, əliylə çöldəki adama, buyur deyə işarə edir. Otuz-otuz beş yaşlarında, gənc bir adam, otağa daxil olur. Üzündən çox tədirgin və qorxmuş görsənir. Titrək səsi ilə danışmağa başlayır. “Keçmiş olsun, qardaş. Şükür ki, yaxşısan. Vallah, bu hadisə necə oldu heç özüm də bilmirəm. Bir onu bilirəm ki, bir anda qabağıma çıxdın. Hər nə qədər tormozu vaxtında sıxsam da, qəzadan qaça bilmədim. Xahiş edirəm, öz aramızda xoşluqla həll edək bu məsələni. Məndən şikayətçi olma. Evdə ailəm məni gözləyir. Həyat yoldaşım da hamilədir.”

Ara vermədən, bir nəfəsə danışırdı adam.

“Qardaş, bir sakit ol, özünü ələ al. Narahat olma, mən yaxşıyam. Səndən də heç bir şikayətim yoxdur. Əksinə, bu qəza ilə mənə elə bir yaxşılıq etmiş oldun ki, neyləsəm də sənin borcundan çıxa bilmərəm. Maşınla məni vurmadan əvvəl, siqaret almağa gedirdim mən. Səndən tək istəyim, mənə bir paçka siqaret al, sonra isə çıx get ailənin yanına.” Adam bir mənə, bir də Lamiyəyə, sual dolu baxışlarla bir neçə saniyə baxdı. İçindən “Bu adam lap zır dəlidir ki”, deyirdi böyük ehtimal.

“Yaxşı, qardaş. Bu saat alıb gətirəcəm nə lazımdırsa. Allah səndən razı olsun.”

İçindən keçirdiyi düşüncələrdə haqlı idi əslində. Ağlım olsa, yaşadığım o qədər şeydən sonra, ikinci dəfə aşiq olmazdım. Ona görə də, çox da ağıllı sayılmaram mən də. Ümumiyyətlə bu həyatda ən gözəl sevənlər, şübhəsiz ki, dəlilərdi. Onların heç biri, səbəbsizcə dəli olmayıblar. İçində bir parça belə olsa dəlilik olmayan insan, əsla aşiq ola bilməz. Çünki sevmək, heç də ağıl işi deyil, əslində...

***

“Salam, Raul. Mən artıq gəlmişəm. Aşağıda səni gözləyirəm. Sən çıxış üçün hazırsan?”

“Salam, Lamiyə. Bütün gecəni yatmayıb, sevdiyim qızla danışacağımın planını qurmuşam. İndi də çıxış üçün, onun gəlməsini gözləyirəm. Sən qeydiyyat bölməsindən adını öyrənə bildin? Heç şübhəsiz ki, adı da özü kimi zərifdir o qızın. Olsa-olsa ya Ayşən olar, ya da Nura.”

“Elə isə, sənə uğurlar, Raul. İnşallah, hər şey istədiyin kimi olar. Bu arada qızın adı Banudu.”

Adının da özü kimi zərif olacağını təxmin etmişdim. Nə də olsa, bu qız tək kəlmə ilə qüsursuzdu. Belə qüsursuz bir qız, məni sevərmi, görəsən? Düzdü, mən də çirkin bir adam deyiləm, amma, onun qədər mükəmməl də deyiləm. Ən azından, onun kimi, gözəl gözlərə sahib deyiləm. Əşi, hər nəysə. Sevmək üçün qarşındakının qüsursuz olmasına ehtiyac yoxdu onsuz da. Sevən insan, qarşısındakının hər hansı bir xüsusiyyətinə də aşiq ola bilər. Kimi bir baxışına aşiq olar, kimisi də gülüşünə. Səs tonuna aşiq olanlar

da var təbii ki. Toxunuşunu sevənlər, bir fincan tutuşunu, bir qəhvə içişini sevənlər belə var hətta. Qısacası eşq ilə baxdıqdan sonra, qarşındakı çirkin belə olsa, yenə də gözəl görər insan. Eynilə Məcnun dediyi kimi: "Siz Leylaya mənim gözümdən baxın..." Və hər şeydən önəmlisi, bir insanın xarici görünüşü yox, daxili gözəlliyidir, əlbəttə. Sevəndə elə birini sevməlidir ki insan, üzündən çox, onun ruhunu sevsin. Ruhunu sevsin ki, hər iki dünyada sevməyə davam edə bilsin.

Gecə yatmayıb, səhərə qədər Banuya deyəcəklərimi düşünmüşəm. Ümidvaram ki, onu gördüyümdə dilim yenidən tutulmaz. Eh, Raul, dilin tutulmasa, bülbül kimi cəh-cəh vursan, nə xeyri? Ən yaxşı ehtimalda, sən ona hisslərini danışacaqsan, o da mədəni bir şəkildə səni rədd edəcək.

Otağın qapısı açılır. Bir tibb bacısı otağa daxil olur. Bu qız, mənim sevdiyim qız deyil. Banu deyil bu. Üzündə zorakı bir gülümsəmə ilə mənə doğru yaxınlaşır.

"Salam, Raul bəy. Çıxış üçün hazırsız?"

"Bəli, hazıram. Banu xanım hardadır bəs? O yoxdur?"

"Banu xanımın iş saatı bitib artıq. İşə bir də sabah gələcək. Növbətçi tibb bacısı mənəm. Buyurun, gedək."

"Getməsinə, gedək. Amma, ondan əvvəl, bir-iki sual vermək istəyirəm izninizlə."

"Əlbəttə. Buyurun."

"Banu xanım evlidir, yoxsa subay?"

"Subaydır".

"Bəs yaxşı, bilmirsiz, sevdiyi bir adam var, yoxsa yox?"

"Yoxdur. Amma, bunları nəyə görə soruşursuz, bilmək olar?"

“Bunları eşitdiyimə sevindim. Sualları verməyimin səbəbi isə, Banu xanıma aşiq olmuşam.”

Qızın üzündə istehzalı bir gülümsəmə yarandı. “Bir günün içində aşiq oldunuz?”

“Yox, bir gündə deyil, iki dəqiqə otuz yeddi saniyədə.”

Qaşlarını çataraq, sual dolu baxışlarla üzümə baxdı. “Necə yəni? Dediklərinizdən heç nə başa düşmədim”.

“Boş verin. Buyurun, gedək.”

***

Lamiyə məni evə gətirdikdən sonra, özü çıxıb getmişdi. Hər nə qədər evə dəvət eləsəm də, yalnız qalıb, istirahət etməyimi istəmişdi. Gecə yatmadığıma görə yuxu gözlərimdən axır, ayaq üstə yuxulayırdım artıq. Bir az da dünənki qəzanın yorğunluğu var üzərimdə. Niyə bilmirəm, amma bədənim çox qaşınır. Ən çox da tikişlərin yeri. Bəlkə də isti bir duş almağa ehtiyacım var. Hamama girib, bədənimi isti suyun rahatladıcı damlalarına təslim edirəm. Suyun altında hərəkət belə etmədən, saatlarca dayanmaq gəlir içimdən. Amma, gərək elə edim ki, başım islanmasın. Xəstəxanada, tikişlərin yerinə bir-iki gün su dəyməməyi barədə tənbehləmişdi həkim. Gözlərimi yumub, xəyallara dalıram yenə. Suyun narın damlaları zərif-zərif masaj edir çiyinlərimi. Zəriflik demişkən, ağlıma yenə Banu gəldi. Görəsən, günün birində, o incə əlləri ilə masaj edərmi o da çiyinlərimə? O əllər, bircə dəfə əlimi tutsa, bu belə həyatımın sonunadək yetər mənə. Hələ bir də gözlərimin içinə baxsa, o an, keçmişdəki bütün acılarımı belə unuda bilərəm bəlkə də.

Duşdan çıxıb, yataq otağıma gəlirəm. Bəlkə, qoxusu yastığıma da sinər deyə, evə gələr-gəlməz, Banunun yaylığını, yastığımın üzərinə qoymuşdum. Əlimdə ona aid yalnız bu qoxu var hələ ki. Hə, bir də, yaylığının üstündə saçının iki telini tapmışdım. Onları da bir qutuya qoyub saxladım. Sabah, nə olursa olsun, Banuyla danışmalıyam daha. Onu ikinci dəfə qarşıma çıxararaq, ikinci bir şans verib Allah mənə. Bu şansı itirə bilmərəm artıq. Bir siqaret yandırıb, dodaqlarımın arasına qoyduqdan sonra, yatağa uzanıram. Amma, bu dəfə, xoşbəxtlikdən yandırıram siqareti. Bəli xoşbəxtəm. Xoşbəxtlik yalnız qarşılıqlı sevmək, sevgili olmaq və ya ona toxunmaq demək deyil. Xoşbəxtlik sevə bilməkdir. Sevməyi hər adam bacarmır çünki. Məsələn mən, onu sevməyə sevdalanmışam artıq. İndiki zəmanədə gerçək sevginin, sevməyin, nə demək olduğunu anlamır çox adam. Həqiqətən sevmək üçün dağ boyda ürəyin olsun gərək. Ona görə də fərqi yoxdur, istər kişi ol, istərsə də qadın. Əgər bu ürək səndə varsa və sən həqiqətən də sevirsənsə, sən artıq xoşbəxtsən...

***

Hər nə qədər ümidsizliyə qapılmamaq üçün özümü məcbur etsəm də, günbəgün tükənir artıq ümidlərim. Bu gün, səkkizinci dəfədir ki, Banunun işlədiyi xəstəxanaya gedirəm. Ümidvaram, bu gün qeydiyyat şöbəsində işləyən xanım, məni gördüyündə "Raul bəy, Banu xanım bu gün də gəlməyib", deməz. Bu sözü eşitməkdən yorulmuşam artıq. Bu sözdən başqa, heç bir məlumat ala bilməmişəm onun haqqında. Xəstəxanada heç kim, Banunun nə ünvanını, nə də bir əlaqə nömrəsini belə bilmir. Haqqında heç

bir məlumat olmayan bir işçi, bu xəstəxanada necə işləyir, anlaya bilmirəm. Qız, sanki bu dünyada yaşamır heç. Elə bil cənnətdən gəlmiş bir mələkdir. Hərdən gözümə görsənir, sonra da yoxa çıxır. Bəlkə də Allah, öz mələyini mənə vermək istəmədiyi üçün belə edir. Yox, yox. Vermək istəməsəydi, ikinci dəfə qarşılaşdırmazdı məni onunla. Xəstəxanaya girər-girməz, qeydiyyat şöbəsinə yaxınlaşıram yenə. Qeydiyyatçı qız kompüterdən başını qaldırıb məni görən kimi, gülümsəyərək, başını sağa-sola yellədi.

"Banu xanım bu gün də gəlməyib?"

"Gəlmişdi. Amma, işdən ayrıldığını bildirmək üçün gəlmişdi. Sənədlərini götürüb, çıxdı işdən."

"İşdən ayrıldı? Nəyə görə ayrıldı işdən? İşləmək üçün başqa bir xəstəxanaya getdi?"

"İşdən nəyə görə ayrılıb və ya hara gedib, bilmirəm. Amma, iki saat tez gəlsəydiniz, Banu xanımı xəstəxanadan ayrılmadan əvvəl görə bilərdiniz."

Axmaq Raul! İki saat tez gəlsən, canın çıxardı? Öküz kimi yatmayıb, evdən ikicə saat tez çıxsan, bəlkə də bitmişdi artıq bu həsrət. Bəlkə də sevdiyinə qovuşmuş, bir kafedə oturmuş, bərabər çay içirdiz. Gözlərinin içinə baxıb, mənzərəyə qarşı çayını qurtumluyurdun indi.

Xəstəxananın qarşısına çıxıb, bir siqaret yandırıram. Ah Banu, işdən çıxmağın vaxtı idi heç? Nə edəcəm mən indi? Səni üçüncü dəfə hardan tapacam mən? Siqaretin son tüstüsünü ciyərlərimə çəkib, göyə sovururam. Eynilə, sovurulub gedən son ümidlərim kimi. Tükəndi daha. Son ümid də tükəndi. Bəlkə də, getməyin vaxtıdır artıq. Bu eşqi qəlbimə gömüb, çox uzaqlara getmək lazımdır. Beynim get deyir,

amma, ürəyim də bir yandan qal, deyə israr edir. Nə də olsa, Banu ilə bağlı, bildiyim tək məkandır bura. Bəlkə günün birində yolu düşər deyə, sonsuza qədər oturub, gözləyim burda. Beynimlə ürəyimin savaşı arasında çarəsiz qalmışam. Nə yazıq ki, beynim qazanmaq üzərədi bu savaşı. Deyəsən, çıxıb gedəcəm buralardan. Arxamdan bir əl, çiynimə toxunur.

“Raul, bir dəqiqə olar sizi?” Səsindən tanımasam da, geriyə dönüb baxdığımda gördüyüm sima heç də yad gəlmir. Bu qız, xəstəxanadan çıxdığım gün, mən Banunu gözləyərkən, onun əvəzinə gələn tibb bacısıdır. “Bir az danışa bilərik?”

Qızın üzündə səmimi bir təbəssüm var. Tam da ehtiyacım olan şeydir hal-hazırda. Səmimi bir təbəssüm və bir az dərdləşmək.

“Buyurun, xanım, əlbəttə.”

“Adım Günaydır. Banunun rəfiqəsi.” – Gülümsəyib əlini mənə uzatdı. – “Banunun rəfiqəsi” sözü beynimə çatar-çatmaz, gözlərimə işıq gəldi bir anda. Bunu, mən belə, özüm də hiss edə bilirəm. Suya düşən ümidlərimə süni tənəffüs kimi gəldi bu söz. Yeni bir həyat şansı, yeni bir gələcək vəd etdi sanki mənə. Əlimi uzadıb, sevincək bir şəkildə qızın əlini sıxıram. “Sözün əsl mənasında, tanış olduğumuza şad oldum. Uzun zamandır, tanış olduğuma şad olduğum tək insansız hətta.”

Qız zərif bir şəkildə güldü. “Xəstəxanadan çıxdığınız gün, Banuya aşiq olduğunuzu demişdiniz. Nə yalan deyim, o gün çox da ciddiyə almamışdım bu sözünüzü. O gündən sonra xəstəxanaya dəfələrlə gəlib-getdiyinizi və

xəstəxanadakı hər kəsdən Banu haqqında məlumat almağa çalışdığınızı gördükdən sonra, fikrim bir az dəyişmişdi. Bu gün isə, az əvvəl, Banunun işdən ayrıldığını öyrəndikdən sonrakı halınıza şahid oldum. Təxminən, bir neçə dəqiqədir ki, yanınızdayam və gəldiyimdən bəri, durmadan özünüzü azarlayırsız. Artıq...”

“Azarlanası adamam çünki. İkicə saat evdən tez çıxsaydım, Banunu görə bilərdim bu gün”.

“Artıq ciddiyyətinizdən bir şübhəm yoxdur. Sadəcə sizə bir sualım var. Sizi maşın vurmadan əvvəl Banunu tanıyırdız? Ya sadəcə xəstəxanada görüb, aşiq oldunuz?”

“Xəstəxanaya düşmədən əvvəl, çoxdan aşiq olmuşdum artıq. Amma, sizdən bir xahişim var, ikinci bir sual vermədən əvvəl, Banu ilə görüşməyimə kömək edin. Görüşdüyümüzdə, olub-bitəni daha ətraflı şəkildə danışaram.”

Qız qolundakı saatına baxıb, bir neçə saniyəliyinə susdu. Əli ilə alnını ovuşduraraq, bir az düşündü. “Elə isə, sizə bir təklifim var. Bir saat sonra Banu ilə, bir kafedə görüşəcəyik. Əgər, sizin üçün də uyğundursa, buyurun gəlin. Mənim əlimdən gələn tək kömək budur sizin üçün. Amma, bəri başdan deyim, Banunu öz sevginizə inandırmaq, məni inandırmaq qədər asan deyil. Çünki, o, sevgiyə inanmayan bir insandır. Daha doğrusu, kişilərin sevə bildiyinə inanmayan.”

“Mənim üçün uyğundur. Buyurun, gedək. Bir insan, əgər, həqiqətən aşiqdirsə, sözlərə ehtiyac qalmaz, gözlər inandırar sevdiyinə.

***

Kafeyə gəldiyimizdən bəri ağlımdakı tək şey, Banunun sevgiyə inanmama səbəbidir. Görünür, o da mənim kimi keçmişindən yaralıdır. Əgər elə olmasa, bir insan başqa nəyə görə inanmaz ki sevgiyə? Eybi yox, əgər elədirsə, bir-birimizin yaralarını sarıyar, bərabər sağalarıq.

Təxminən, iyirmi dəqiqə tez gəlmişdik görüş yerinə. Gəldiyimizdən bəri gözlərim qapıda, Banunun içəri girməsini gözləyirəm. Bir az sonra, o da bura gələcək. Bunu bilmək belə, çox gözəldir. Təkcə elə bunu bilmək, ürək ritmimin dəyişməsinə yetir də, artır belə. Bura gəldiyimizdə paçkadan dörd siqaret ayırdım. Hər beş dəqiqədən bir çölə çıxıb, bir siqaret çəkirəm. Dördüncü siqaretim bitdiyində Banu gələcək deyə gözləyirəm. Qapının ağzına çıxıb, dördüncü siqaretimi yandırıram. Bu gün artıq sondur. Bu gün, bu həsrət sona yetəcək. Az sonra, sevdiyim qıza qovuşacam. Banunu görmək ümidi ilə, dörd gözlə yola baxıram. Dördüncü siqaret də bitdi artıq. Amma, o, hələ də gəlmədi. İçəri girib, Günayın yanına gedirəm.

"Banu gec gələr görəsən? Ümumiyyətlə, görüş yerinə gecikən biridir?"

"Xeyr. O hər zaman görüş yerinə vaxtında gələr. Harda olsa, gəlib çatar indi."

"Banu ilə çox yaxınsız?"

"Uşaqlıq dostuyuq biz. İkimizin də bacısı yoxdur. Uşaqlıqdan bəri, bir-birimizə bacı əvəzi olmuşuq hər zaman. Eyni universitetdə oxumuş, bitirdikdən sonra da eyni iş yerində işləmişik."

Gözümün qabağına Anarla olan dostluğumuz gəldi. Biz də Anarla eynilə belə olmuşuq. Tək fərqimiz, biz bərabər işləyə bilmədik. Bunun da səbəbi, Nərgizə görə karyeramdan vaz keçməyim oldu. Və budur, Banu hər zamankı zərafəti ilə qapıda peyda olur. Bir neçə saniyə ətrafa göz gəzdirdikdən sonra, bizi görür. Çiyinlərinə düşmüş qara saçlarını əli ilə toplayıb, arxasına atır. Yavaş-yavaş bizə doğru gəlir. Mavi gözlərindən keçənləri, az-çox oxuya bilirəm. Özü-özünə «Günayın yanındakı adam kimdir? Günayın yanında nə işi var görəsən?» – deyə düşünür.

Bu gözlər, digər mavi gözlərdən çox fərqlidir. Dünyadakı bütün mavi gözləri bir araya yığsalar, tərəddüd belə etmədən, milyonlarla gözün arasından, yenə də taparam bu gözləri. Rəng məsələsi deyil bu. Gözlərində böyük bir anlam var. Təkcə elə baxışlarında bir roman yatır bu qızın. Amma, tam oxuya bilməmişəm hələ ki. Bu vaxta qədər oxuya bildiyim, sadəcə bu romanın proloqudur. Yanımıza gəldikdən sonra, birinci Günayla görüşüb, daha sonra isə mənə əlini uzadır. İkimizlə də salamlaşdıqdan sonra, stullardan birini çəkib oturur. Təxminən, on saniyə çəkən sakitliyi Günay pozur.

"İki gün əvvəl, sənə birindən bəhs eləmişdim. Hər gün xəstəxanaya gəlib, səni soruşan adam." Əli ilə məni işarə elədi. "Bax, həmən adam, Rauldur." Günayın gözlərinin içinə elə baxdı ki, gözləri ilə "Bu adamın, burda nə işi var? Niyə gətirmisən bura?" deyə hesab sordu sanki. Bunu mənə hiss etdirməmək üçün, üzündə, zorakı bir gülümsəmə ilə mənə doğru dönür.

"Buyurun, eşidirəm sizi. Bir müddətdir məni axtarırmışsız. Sizə necə kömək edə bilərəm?"

İçimdən "mənimlə evlənərək, kömək edə bilərsiz", cavabı keçdi bir anlıq. Amma, bu cavabı versəm, ən yaxşı ehtimalla, masanı tərk edib, gedər bu qız. Ən yaxşısı, hər şeyi ən başından ona danışmaqdır.

"İcazə verin, hər şeyi ən başından bəri danışım sizə. Bir müddət bundan əvvəl, ilk dəfə şəhərdə qarşılaşmışdıq sizinlə. Elə, o ilk gördüyüm andan etibarən, aşiq olmuşdum sizə. Sonra birdən-birə, basaratım bağlandı sanki. Hansı ara gözdən uzaqlaşdız, xəbərim belə olmadı. Sonradan çox axtardım sizi, amma, tapa bilmədim. Bəlkə ikinci dəfə qarşılaşarıq deyə, gəzmədiyim küçə qalmadı bu şəhərdə. Ən son, sizi ilk gördüyüm yerə getmişdim axşam vaxtı. Yolu keçərkən, qəzaya düşdüm. Olduğum yerə ən yaxın olan xəstəxanaya gətiriblər məni. Allahın işinə bax ki, o xəstəxana sizin işlədiyiniz məkan imiş. Və o gecə, mənə baxan tibb bacısı siz olduz. Gözlərimi açdığımda, yanımda oturmuş, təzyiqimi ölçürdüz. Sizi görüb, həyəcandan dilim tutuldu yenə. Sonra, nə də olsa, səhər xəstəxanadan çıxanda danışarıq deyə ümid etdim. Geri qalanı isə, yəqin ki, hər birimizə məlumdur. O gündən sonra, yenidən itirdim sizi. Bu gün xəstəxanaya gəldiyimdə, işdən çıxdığınızı dedilər. Bütün ümidlərim tükənmişkən, bu dəfə Günay xanım yetdi imdadıma. Və nəhayət ki, qarşınızdayam indi."

Üzünü dönüb əvvəl Günaya, sonra isə mənə baxdı. Danışdıqlarımdan təəccüblənmiş görsənirdi. "Sizi başa düşürəm. Hisslərinizdən dolayı da, sizə yalnızca hörmət edirəm. Amma, məni üzrlü sayın. Mən sevgiyə çox da inanan bir insan deyiləm. Hətta, kişilərin sevə bildiyinə heç inanmıram desəm, daha doğru olar."

Görünür, düşüncələrimdə haqlıyam. Bu qızın sevgiyə olan inancını zədələmiş bir adam var keçmişində. Mənim də onun kimi yaralı olduğumu, ona başa salım gərək. Ən yaxşısı, Nərgiz və Sahib əhvalatını, xırdalıqları ilə ona danışmaqdır. Bəlkə o zaman, mənim də ondan fərqli olmadığımı anlayar.

"Mən də sizi başa düşürəm. İzninizlə öz keçmişimlə bağlı, bir az danışmaq istəyirəm sizə."

Söhbəti ən başından bəri, danışmağa başladım. Həm də, lap uşaqlıq illərindən bəri. Təxminən yarım saat çəkdi danışığım. Danışdıqca keçmişin xəyallarına dalmış, ən xırda detalına kimi danışmışdım hər şeyi. Söhbətim boyunca, ikisi də səsini çıxarmadan, sadəcə qulaq asdılar. Hər ikisi həyat hekayəmdən təsirlənmişdi. Amma mən, sadəcə Banuya baxırdım, demək olar. Mən danışarkən, bir ara, gözləri yaşarmışdı. Hər nə qədər, mənə hiss etdirmədən, əli ilə göz yaşını silməyə çalışsa da, diqqətimdən yayınmadı.

Mən danışıb qurtardıqdan sonra, masaya yenidən sükut çökdü. Heç kim deməyə söz tapmırdı sanki. Bu dəfə sükutu Banu pozdu. Həm də köks ötürərək. Elə bir köks ötürdü ki, sanki, bir fırtına qopdu qızın beynində. Görünür, mənim həyat hekayəm, onun da yaralarını təzələdi. Nə də olsa, hər kəsin bir hekayəsi var. Bəlkə də, bizim hekayələrimiz bir-birinə çox bənzəyir. Banu gülümsəyərək dilləndi. Amma, bu dəfə, zorakı gülümsəmə deyildi üzündəki.

"Mən sizin yerinizdə olsam, ikinci dəfə aşiq olmağa cəsarət belə etməzdim. İndi ki, siz buna cəsarət edib aşiq olubsunuz, sizə bir təklifim var. Belə görürəm ki, nə siz öz sevdanızdan vaz keçənsiniz, nə də mən sevdaya inanan. Ona

görə də, bizim üçün ən yaxşı yol, dost olmaqdır. Amma, bəri başdan deyim, dostluqdan başqa bir şey gözləməyin məndən."

"Yaxşı. Qoy, elə olsun. Mən buna da razıyam."

Banu oturduğu yerdən doğrularaq, əlini uzatdı: "Elə isə, dostluğumuz əbədi olsun."

"Bundan heç şübhəm yoxdur", – Banunun əlini sıxıb, daha sonra mən də Günaya əl uzatdım. Dostluğumuzun əbədi olması, bir-birimizi sevib, ailə qurmağımıza əngəl deyil nə də olsa. Hal-hazırda tək şansım, sevdiyim qız ilə dost olmaqdı. Günün birində ona olan sevgimi görüb, o da məni sevər bəlkə də. Necə deyərlər, ən böyük sevgilər ya nifrətlə, ya da dostluqla başlayar.

***

Hər dəfə olduğu kimi, yenə də görüş yerinə vaxtından əvvəl gəlmişəm. Bu kafedə nə qədər çox otursam belə, heç bezmirəm bu yerdən. Əksinə, çox doğma gəlir bu məkan mənə. Banu ilə ilk görüşdüyümüz məkan olduğu üçün, buranın özəl bir yeri var məndə. Bu gün, bu kafeyə ilk gəlişimizin üstündən, düz, üç ay keçir. Eyni zamanda, Banuyla tanışlığımızın da üçüncü ayı tamam olur.

Pəncərə kənarında oturmuş, Banunun gəlişini gözləyirəm. Hələ günorta saatları olmasına baxmayaraq, dondurucu soyuqlar, şəhərdə öz hökmünü sürür. Bu qış, Bakıda çox qar yağmasa da, fevral ayı, yenə də öz sözünü deyirdi. Nəhayət ki, Banu da gəlib çıxdı. Görünüşə baxılarsa, bura gələnə qədər çox üşüyüb. Əllərində qara rəngli, əl toxuması olan əlcəkləri olmasına baxmayaraq, içəri girər-girməz, əllərini ovuşdurmağa başlayır. Bir yandan da, nəfəsi ilə əllərini

isitməyə çalışır. Bir dəli şeytan deyir, gəl bu qıza denən ki, ver o üşüyən əllərini, öz əllərimlə isidim. Nə də olsa, eşqindən od tutub yanıram aylardı. Digər yandan, bu sözü deyəcəyim təqdirdə, ən az, iki gün küsülü qalacağımızı bilirəm. Zalımın qızı, sevgiyə dair bir söz deməyə peşman edir adamı. Elə sifət göstərir ki, baxanda elə bilər, xətrinə dəyəcək bir söz demisən.

Üç ay bundan əvvəl, dost olduğumuzda, zamanla öz sevgimi Banuya isbat edər, onun da sevgisini qazanaram deyə düşünürdüm. Amma, heç də düşündüyüm kimi olmadı. Mən ha çalışsam da, Nuh deyir, peyğəmbər demir bu qız. Kafeyə daxil olan kimi, göz-gözə gəlmişdik. Hansı masada oturduğumu əzbərə bilir artıq. Bura hər gəlişimizdə, ilk dəfə oturduğumuz masada otururam. Bu taxta parçası olan masanın belə, özəl bir yeri var məndə. Banu üçün də belədirmi, bilmirəm, amma, ona aid olan hər şeyin, özəl bir yeri var məndə.

"Salam, Raul. Lamiyə gəlməyib hələ?"

"Salam, Banu. Lamiyə az əvvəl, mesaj yazmışdı. Harda olsa çatar indi."

Stullardan birini altına çəkib, oturur. Paltosunu çıxarıb, oturduğu stulun başına asır. Üç aydır, hər nə qədər istəsək də, Banu ilə Lamiyəni tanış eləməyə imkan olmamışdı. Qismət bu günə imiş demək ki.

"Nə olub, Raul? Yaman kefsiz görsənirsən."

"Narahat olunacaq bir şey yoxdur. Hər şey qaydasındadır. Sadəcə bir az başım ağrıyır."

"İndi deyirsən, mən öz dostumu tanımıram? Ayrıca sənə dəfələrlə demişəm ki, sən yalan danışa bilmirsən. Yalan

danışdığın an, gözlərin səni ələ verir. Ona görə də, hər dəfəsində gözlərini qaçırırsan."

"Səni heç cürə anlaya bilmirəm. Üç ay ərzində məni bu qədər yaxşı tanımış bir insan, necə ola bilər axı, ona qarşı olan bu sevgimi görməsin? Deməli, bu sevgini özü bilərəkdən, görmək istəmir. Bəlkə də görmək istədiyi mənim sevgim yox, bir başqasının sevgisidir."

"Yenə döndük dolaşdıq, gəldik eyni yerə. Raul, biz səninlə nə danışmışdıq?"

"Nə danışdığımızı bilirəm mən. Amma, sənin anlamadığın şey, qızılgülün adını dəyişib, ona başqa bir gülün adını verməklə, o gül başqa cür qoxumaz. Yenə də qızılgül ətri verməyə davam edər. Mən sənə dost da desəm, tanış da desəm, yenə də sənə qarşı olan hissim dəyişməyəcək əsla."

"Raul, mən sənə heç vaxt yalan danışmamışam. Sənə boş yerə ümid vermək istəməmişəm əsla. Ona görə də, ilk gündən sənə demişdim, məndən, dostluqdan başqa bir şey gözləmə".

"Deməli, mənə heç vaxt yalan danışmamısan. Elə isə gözlərimin içinə bax və sualıma cavab ver. Hal-hazırda, aşiq olduğun, sevdiyin bir adam var? Səni bu qədər çox sevən biri olaraq, ən azından bunu bilməyə haqqım var məncə."

"Əgər, bunu bilmək sənin üçün bu qədər önəmlidirsə, qoy deyim. Bəli, sevdiyim bir adam var. Hətta, öz canımdan belə çox sevdiyim bir adam."

"Kaş ki bunu demək yerinə, silah çəkib, düz ürəyimdən vuraydın məni. Ən azından, daha az yanardı canım. Amma, sənin bir günahın yoxdur. Belə olmasını, mən özüm istədim. Sənə dostun olaraq son sözüm: sevdiyin adamla xoşbəxt

ol.” Son sözümü də deyib, Banunun cavab verməsinə macal vermədən ayağa qalxıram. Onsuz da bundan sonra, nə desə də boşdu. Masadan qalxdığım an, Lamiyəylə üz-üzə gəlirəm.

“Salam, Raul. Hara gedirsən belə?”

“Siz, istədiyiniz qədər tanış olun. Mən gedirəm. Bizim tanışlığımız bitdi artıq.”

“Nə olub, Raul? Hara gedirsən axı?”

Cavab vermədən, çıxışa doğru üz tuturam. Veriləcək bir cavabım da yoxdur əslində. Deyiləcək son sözü, Banu az əvvəl dedi...

***

Bəzən, nə qədər çox sevsə belə, yenə də uzaqlaşmalı olur insan öz sevdiyindən. Əgər sevdiyin insan səni sevmir və sən onun xoşbəxtliyinə bir əngəlsənsə, bu əngəli aradan qaldırmalısan. Onu həqiqətən sevirsənsə, tərəddüd belə etmədən, bunu etməlisən. Onun xoşbəxtliyi ilə xoşbəxt olmağı bacarmalı və səssiz-səmirsiz yox olmalısan həyatından. Dünən gecə, bu barədə uzun-uzun düşünüb, son qərarımı verdim. Banunun həyatından tamamilə çıxacam artıq. Telefonum zəng çalır. Zəng vuran Lamiyədir.

“Salam, Raul. Haralardasan sən? Dünəndən bəri dəfələrlə zəng vurmuşam sənə.”

“Salam, Lamiyə. Cavab verə bilmədiyim üçün, üzrlü say. Bir az tək qalıb, düşünməyə ehtiyacım var idi.”

“Düşünüb qurtardınsa əgər, bir az da mənim deyəcəklərimi düşünsən yaxşı olar. ”

“Buyur, Lamiyə, səni dinləyirəm”.

“Dünən nə üstündə dalaşmışdız bilmirəm, amma, sən getdikdən sonra, Banu heç yaxşı deyildi. Bəlkə də yanında

mən olmasam, oturub uşaq kimi ağlayardı. O qız, sənin düşündüyün kimi, sənə qarşı boş deyil."

"Dünən, mənə sevdiyi bir adam olduğunu etiraf etdi. Yəni sənin anlayacağın, özünü boş yerə yorma. Banu başqa birinə aşiqdir."

"Hardasan sən? Vaxtın varsa, görüşüb, üz-üzə danışaq."

"Səhər Günay zəng eləmişdi. Mənimlə vacib bir məsələ barədə danışmaq istədiyini dedi. İndi də, onunla görüşməyə gedirəm. Sənin üçün də uyğun olsa, axşama doğru görüşə bilərik."

"Elə isə, işini bitirdikdən sonra bizə gələrsən. Son olaraq bunu da deyim ki, az əvvəl dediklərimdən əminəm mən. Unutma ki, mən bir psixoloqam. Bu mənim işimdi. O qız sənə qarşı boş deyil, Raul. Amma, səndən niyə qaçır, nəyə görə səni özündən uzaqlaşdırmağa çalışır, bax, bunu bilmirəm. Günayla görüşmüşkən, onun ağzını yoxla. Bu sualın cavabını yalnız onda tapa bilərsən."

"Yaxşı, Lamiyə. Bu gün şansımı son dəfə yoxlayaram".

Telefonla danışa-danışa, görüş yerinə gəlib çatmışam artıq. Lamiyəylə sağollaşıb, kafeyə daxil oluram. Təxminən, on dəqiqə gecikmişəm görüşə. Görünür, Günay məndən xeyli qabaq gəlib. Masada tək başına oturub, çay içir. Yaman bikef görsənir həm də.

"Salam, Günay. Gecikdiyim üçün üzr istəyirəm."

Günayın üzündə kiçik bir təbəssüm yarandı. "Xoş gəldin, Raul. Mən də yeni gəlmişəm, narahat olma. Buyur, əyləş."

Günayın qarşısına keçib, oturdum. Ofisiant qız, üzündə səmimi bir təbəssümlə masaya yaxınlaşdı.

"İstədiyiniz bir şey var, cənab?"

“Sadə qəhvə, zəhmət olmasa.”

Ofisiant başı ilə “yaxşı” deyib, masadan ayrıldı.

“Buyur Günay, səni dinləyirəm. Telefonda vacib bir məsələ barədə danışmalıyıq demişdin.”

Öhö. Günay öskürdü. Soyumuş çayından bir qurtum aldı. “Bunu sənə deməyim nə dərəcə düzgündü, bilmirəm. Bəlkə də, Banu öyrəndiyində, məni heç vaxt bağışlamayacaq. Amma, bunları bilmək sənin də haqqındı. Bunları bilməli və qərarını buna görə verməlisən.”

Bir az sonra nə eşidəcəyim barədə heç bir fikrim yoxdu. Amma, bu cümlələrin sonu, heç də yaxşı yerə getmir. Bundan əminəm. “Günay, xahiş edirəm, ürəyimi partlatmadan, nə deyəcəksənsə de artıq.”

“Dünən Banu ilə dalaşmısız, deyəsən. Bildiyim qədəri ilə bitirmisiz dostluğunuzu.”

“Hə, bitirdik. Nəhayət ki, aylar sonra, sevgimi görməzdən gəlməyinin səbəbini etiraf etdi. Sevdiyi bir adam var imiş.”

“Bəs sevdiyi adamın kim olduğunu sənə dedi?”

“Kim olduğunun nə fərqi var ki? Hansısa bəxtəvərin biridir də. Əsas odur ki, heç deyilsə, Banunu sevən bir adam olsun.”

Günayın üzündə təbəssüm ilə hüzn qarışığı bir ifadə yarandı. “O bəxtəvər, elə sən özünsən, Raul. Banunun aşiq olduğu adam sənsən.”

“Necə yəni? Nə danışdığının fərqindəsən sən?”

“Fərqindəyəm, Raul. Sənə hər şeyi başa salacam indi. Banu hələ uşaq ikən, atası onları tərk etmişdi. O gündən sonra, Banu, anası Gülşən xala və məndən başqa heç kimə güvənməyərək yaşadı. Əsas da kişilərə. Bilirsən necədir,

Raul, qız uşaqlarının ilk qəhrəmanı, ataları olur hər zaman. Güvən duyğusundan, kişilər haqqındakı düşüncələrinə qədər, hər cürə təcrübəni, ilk olaraq atalarından öyrənirlər. Atalar, qız uşaqlarının qadın olma müddətindəki ən önəmli kişi obrazıdır. Banunun həyatındakı bu obraz isə, təəssüf ki, mənfi bir obraz idi. Banu da haqlı olaraq, atam belə məni sevməyib, tərk edibsə, özgəsi də günün birində tərk edər, deyə düşünüb hər zaman. Bütün bunlara baxmayaraq, o heç vaxt sənin sevgini görməzdən gəlmədi. Tam tərsinə, sənin ona olan sevgindən, bir an belə şübhə etmədi. Banu ilk dəfə aşiq oldu, Raul. Və aşiq olduğu, o adam, səndən qeyrisi deyil."

Günay danışıb qurtarana qədər, sözünü kəsmədim. Eşitdiklərim, şok etmişdi məni. Banunun yaşadıqlarınamı üzülüm, yoxsa məni sevdiyinəmi sevinim, bilmədim.

"Yaxşı bəs, o da məni sevirsə, nəyə görə hələ də məndən qaçır?"

"Əsas məsələ də elə budu. Banunun ağır xəstəliyi var."

"Nə xəstəliyi? Nə danışırsan sən?!"

Günay dərin bir köks ötürüb, başını aşağı saldı.

"Günay, üzümə bax. Cavab ver mənə. Nə xəstəliyi var Banunun?"

"Banu leykoz xəstəsidir. Loru dildə desək, qan xərçəngi. Yəni ağ qan qırmızı qanı yeyir. Səndən qaçmasının səbəbi də elə budur. Günün birində dünyasını dəyişdikdə, sən üzülməyəsən deyə, özündən uzaq tutmağa çalışdı səni hər zaman."

Dünyam başıma yıxıldı sanki. Oturduğum yerdə, gözlərim qaralmağa başladı. Qulaqlarıma əcaib bir cingildəmə

gəldi. Gözlərimi möhkəmcə sıxıb, toxtamağa çalışdım. Bir neçə saniyə içində, dünya bütün gözəlliyini gözümdə qaib etdi. İlahi, bu nə imtahandır edirsən belə? Sənə yalvarıram, mənə ikinci bir acını yaşatma. Buna dayanacaq gücüm yoxdur...

***

Hansı ara yatıb qalmışam, heç yadımda da deyil. Başımda çox şiddətli ağrılar var. Dilim, ağzım palçıq kimi olub. Doğrulub, yataqda otururam. Çəkməcənin üstündə duran, şərab butulkasına uzadıram əlimi. Onun da dibində bir qurtumluq şərab qalıb. Şüşəni başıma çəkib, içirəm. Ən azından, bir az dilim-dodağım islansın. Çəkməcədən yerə düşmüş siqaret paketini, yataqdan qalxmadan, uzanaraq götürməyə çalışıram. Ən nifrət etdiyim şeylərdən biri də budur. Sən yataqdan qalxmaq istəməzsən, amma, sənə lazım olan əşya, əlinin çatmayacağı qədər uzağında olar. Deyinə-deyinə qalxıb, götürürəm yerdən. Son iki siqaret qalıb paketdə. Birini çıxarıb, dodaqlarıma qoyuram. Ard-arda iki tüstü çəkib, otağın tavanına doğru üfürürəm. Görəsən, Banu nə edir indi? Günlərdir bir an belə ağlımdan çıxmır. Yuxularım belə, ondan ibarətdir, demək olar ki. Lənətə gələsi bu xəstəlik, dünyada bu qədər insan varkən, gəlib Banunu tapıb. Həm də bu qədər yaşadıqlarımdan sonra, ikinci dəfə aşiq olmuşkən. Nərgizdən sonra, günün birində yenidən aşiq olacağıma ehtimal belə verməzdim. Hələ üstəgəl, hissim də qarşılıqlıymış. Necə bu qədər kor ola bilirəm, hələ də ağlım almır. Məni bir həvəs olaraq görən qızı, illərlə sevirmiş sandım. Həqiqətən sevənin isə, sevgisini görə bilmədim.

Ayağa qalxıb, divanın üstünə atdığım gödəkcəmi əynimə geyinirəm. Dükana gedib siqaret və şərab almaq lazımdır. Qapının zəngi çalınır. Gələn hər kimdirsə, həm uzun-uzun zəngə basır, həm də yumruğu ilə qapını döyür. Zalımın balası elə bil ki dava eləməyə gəlib. Kim olduğunu görmək üçün, qapıya doğru gedirəm. Gələn Lamiyə imiş. Onu heç vaxt, bu qədər əsəbi görməmişdim. Öfkəylə üzümə baxıb, bir söz demədən, içəri keçir.

"Nə olub, Lamiyə? Nəyə əsəbiləşmisən belə?"

"Sənə əsəbiləşmişəm! İnsanlara bunu etməyə haqqın yoxdur, Raul!"

"Nə etmişəm ki, mən?"

"Üç gündür nə zənglərə cavab verirsən, nə də ailəni ziyarətə gedirsən. Hamı sənə görə narahatdır."

"Lamiyə, tək qalmaq istəyirəm. Xahiş edirəm, üstümə gəlmə."

Üzümü çevirib, qapıya doğru gedirəm təkrar.

"Bəs indi hara gedirsən?"

"Dükana."

Lamiyə öfkəli bir şəkildə qışqırdı. "Niyə? Şərabın bitib?! Əyyaşlar kimi səhər-axşam içki içməkdən yorulmadın? Mənə izah et görüm, nəyə çalışırsan sən?"

"Lamiyə, bəsdir. Bilmədiyin bəzi şeylər var."

"Nədir o bilmədiklərim? Banunun xəstə olması? Yoxsa sənin günlərdir bu evdə əyyaş kimi yaşamağın?!"

"Sən hardan bilirsən Banunun xəstə olduğunu?"

"Anar sağ olsun. Budapeştdə qalsa da, burda olub bitənləri məndən qabaq öyrənir."

"Bu barədə Anarla nə vaxt danışmışıq, xatırlamıram belə. Çox güman ki, sərxoş olduğum bir zamanda olub.

Bir az toparlandıqdan sonra, özüm hər şeyi danışacaqdım sənə.”

“Məsələ bunları mənə danışıb-danışmamağın deyil. Məsələ sənin davranışındı. Banu hələ sağdı. Sən isə ölmədən məzara qoymusan qızı. Burda oturub, içki içmək yerinə, sevdiyinin yanına get. Sevginə sahib çıxmağa çalış. Unutma, Allahdan ümid kəsilməz...”

***

Ailə həyatı qurarkən, yaxşı və pis gündə, xəstəlikdə və sağlıqda, daim bərabər olmağa dair söz verilir. Bu sözün mənası çox böyükdür, əslində. Yaxşı gündə və sağlıqda hər kəs bir-birinin yanında olar. Pis gündə, xəstəlikdə isə yalnız həqiqətən sevənlər bir-birinin yanında ola bilərlər. Sevdiyin insan istər ölümcül xəstə olsun, istər əlil olsun, istərsə də sonsuz. Bunların heç biri sənin ona qarşı olan düşüncə və duyğularında dəyişikliyə səbəb olmamalıdır. Tam əksinə, hər zamankından daha çox sevib, daha çox qayğı göstərməlisən ona. Əks təqdirdə sən onu yox, sadəcə özünü sevibsən, deməli...

Lamiyənin dedikləri məni elə bil yuxudan oyatdı. Dediyi hər bir sözdə sonuna qədər haqlı idi. Hələ Banu sağ ikən, özümü evə qapamış, yas saxlayırdım sanki. Adama deyərlər, bir dəqiqə sonra nə olacağını belə bilməzkən, onun ölümünü görəcək qədər uzun yaşayacağını hardan bilirsən? Hələ də heç bir şey üçün gec deyil. Çətinliklə də olsa, Banunu görüşə gəlməyə razı saldım. Harda olsa, gəlib çatar indi. Ümid edirəm ki, bu gün, ikimiz üçün də gələcək gözəl günlərə yeni bir başlanğıc olacaq. Görüş yeri olaraq, İçərişəhəri seçmişik bu dəfə.

Qız qalasının yanında oturmuş, Banunun yolunu gözləyirəm. Artıq, yavaş-yavaş gecə düşür. Öz füsunkar gözəlliyi ilə gecəni aydınladan ay, hər zamankından fərqli olaraq, susqun görsənir, nədənsə, gözümə. Bu gecə, ay belə nəfəsini tutub, bizim qovuşacağımız anı gözləyir səbirsizliklə. Və budur, Banu hər zamankı ovsunlayıcı gözəlliyi və şux əndamı ilə tam qarşımda peyda olur. Bir az irəlidən mənə doğru addımladığını görürəm. Paltosunu əyninə geyinmək yerinə, həmişəki kimi çiyinlərinə atıb yenə də. Uzun saçlarını isə, sanki, sırf küləyə inad olsun deyə açıq qoyub. Üzünə düşən ay işığı, fərqli bir gözəllik qatır simasına. Mavi gözləri, gecənin qaranlığında belə, öz cazibəsini zərrə qədər də itirmir. Banu ilə ilk qarşılaşdığımız an gəldi gözlərimin önünə. Onu ilk gördüyümdə də əynində bu geyim var idi. Tək fərq, o gün dikdaban geyinmişdi ayaqlarına.

“Axşamın xeyir, Raul”

“Axşamın xeyir. Məni qırmayıb, gəldiyin üçün çox sağ ol.”

Çöhrəsinə xoş bir təbəssüm yayıldı: “Ümidvaram ki, gəldiyimə peşman olmayacam. Eşq söhbətlərini yenidən...”

“Aha, eşq söhbətləri. Tam da bu söhbətləri etmək üçün çağırdım səni bura. İndi isə Qız qalasının başına çıxıb, hayqıraraq, səni sevdiyimi bütün Bakıya bildirəcəm.”

Banu əsəblə qaşlarını çatdı. “Bu mövzu üstündə kifayət qədər dalaşmışıq, Raul. Bu gün yenidən dalaşmağa nə halım var, nədə ki, səbrim. Odur ki, qoy mən gedim, sonra sən istədiyin qədər hayqırarsan. Gecən xeyrə.”

Sözünü bitirib, getmək üçün üzünü döndüyü anda, qolundan yapışıram.

“Hər şeyi bilirəm, Banu. Xəstə olduğundan xəbərim var. Məni sevdiyini də bilirəm artıq.”

Bir neçə saniyə hərəkətsiz durub, yenidən üzü mənə döndü. Hər iki gözündən də yaş axmışdı.

“Hardan bilirsən sən bunları? Günay deyib sənə?”

“Hardan öyrəndiyimin nə fərqi var ki? Önəmli olan, öyrənmiş olmağımdı. Elə deyil?”

Banu məyus bir şəkildə, başını aşağı saldı.

“Deməli, öyrəndin artıq. Elə isə, bu gündən sonra bir daha görüşməyək.”

“Başa düşmədim. O niyə?”

“Raul, mən qan xərçəngiyəm. Mənim sağalmaq şansım yoxdur. Önümdə sənə həsr edəcək uzun bir həyatım da yoxdur. Biz səninlə heç vaxt bir ailə qura bilməyəcəyik. Sənin xəyal etdiyin kimi uşaqlarımız da olmayacaq heç vaxt. Bax, elə buna görə də, mənim səni sevməyə haqqım yoxdur.”

Banunu belə görüb, lap ürəyim paralandı. Həyatım boyunca heç vaxt özümü bu qədər çarəsiz hiss etməmişdim. Soyuqdan qızarmış olan yanaqlarına əlimi uzadıb, axan göz yaşlarını silirəm.

“Banu, başını qaldır və üzümə bax. Səni bir daha nə boynu bükük, nə də gözüyaşlı görmək istəmirəm. Ölüm dediyin şey, hər birimiz üçün, qaçışı olmayan, sonuncu mənzildir. Hər canlı, şübhəsiz ki, ölümü bir gün dadacaq. Amma, günün birində öləcəyik deyə, bu günümüzü yaşamamaq da ağılsızlıq olar. Mən səni sevirəm. Geri qalan hər nə qədər ömrümüz varsa, onu səninlə bərabər keçirmək istəyirəm.”

Başını qaldırıb, məlul-məlul üzümə baxdı. Elə bir köks ötürdü ki, göydəki susqun ay belə, bizə baxıb ah çəkdi. Sanki, sevmək günahmış kimi, utana-utana "Mən də səni sevirəm, Raul", dedi. Nəhayət ki, Banunun ağzından bu sözü eşitdim. Bütün qəm-qüssəmi unutmağa kifayət etdi bu söz. Əlimi uzadıb, Banunun əlindən tuturam. Barmaqlarımın arasındakı boşluqları onun barmaqları doldurur. Tanrı o boşluqları, şübhəsiz ki, səbəbsizcə yaratmayıb.

"Elə isə, gəl mənimlə."

"Hara?"

"Qız qalasına çıxıb, hayqıracağımı deyəndə, zarafat etdiyimi düşünürdün bəyəm?"

Banu güldü. "Sən tam bir dəlisən, Raul."

Qalaya girib, ensiz, dar pilləkənlərlə yuxarıya çıxdıq. Qalanın başı şüşə sədlərlə əhatələnib. Hələ üstəlik, bir nəfər nəzarətçi də dayanıb, həm gələnləri salamlayır, həm də insanlara nəzarət edir. Nə də olsa, bura intihar üçün mükəmməl məkandır. Elə təkcə evində-eşiyində hər gün söz-söhbət olanları, məişət problemlərindən təngə gələn kişiləri, banklarla borclu qalan yaşlıları, sevgiləri daşa dəymiş gəncləri düşünsək, bura nəzarətçi qoymağın çox yerində bir qərar olduğunu görərik. Mənzərəyə isə söz ola bilməz. Bütün Bakı ayaqlarımızın altındadır. Gecə vaxtı şəhərin gözəlliyi insanı valeh edir. Bu qədim, eyni zamanda müasir şəhərin bütün gözəlliyini sözlə ifadə eləmək çox çətindir. Hələ bir də bu gözəl mənzərəyə Banu əlavə olunub indi. Banunun əllərindən tutub, "Səni sevirəm" deyə, avazım çıxdığı qədər hayqırıram. "Səni çox sevirəm, Banu!" "Mən də səni sevirəm, Raul." "Ey, əzəmətli Qız qalası, sev-

gimizin şahidi ol! Ey Bakı, sən də şahid ol! Əsən külək və gecə, sizlər də şahid olun! Və sən, ey susqun ay, sən də şahidimiz ol!”

***

Bir kişinin, ən acınacaqlı olduğu vəziyyət, çarəsiz olduğunu anlayıb və bunu, özünün də qəbul etdiyi zamandır. Sözsüz ki, ilk başlarda, heç kim bunu qəbul etmək istəməz. Əlbət, hər şeyin bir çarəsi vardır, deyə düşünər. Qəbul etmək isə, çarəsizliyin sonuncu mərhələsidir. Bu mərhələyə çatdığında, onun üçün hər şey bitmiş deməkdir. Hətta, oturub, uşaq kimi ağlayar bir kişi. Bəli, kişilər də ağlayar. Həm də için-için yox, içinə-içinə ağlayar. Qürur edib, öz çarəsizliyini bildirməz kimsəyə.

Qadınlar zərif məxluqdur. Dırnağı belə qırılsa, oturub ağlaya bilərlər buna görə. Amma, bir kişinin asan-asan axmaz göz yaşı. Əgər axırsa, demək ki, məhv olmuşdur dünyası. Sevdiyim qız ölümcül xəstədir. Mənimsə əlimdən, heç bir şey gəlmir. Bütün sevgililər evlənəcəyi günün xəyallarını qurarkən, biz görüşlərimizdə yalnız Banunun ölümünü danışırıq. Ən son, gözlərimin içinə baxıb, “səni buraxıb da, necə öləcəm axı mən?” demişdi mənə. Çarəsizliyin nə olduğunu o baxışlarda öyrəndim mən. Canımdan can getdi, amma, bir söz deyə bilmədim. Hər şey yaxşı olacaq, deyə bilmədim sevdiyimə. Banu öldükdən sonra, nə olacağı barədə heç bir fikrim yoxdur. Yəqin ki, intihar edərəm mən də. Qorxuram amma. Çox qorxuram həm də. Ölməkdən yox, öldükdən sonra, digər tərəfdə onu tapa bilməməkdən qorxuram. Bir yandan da, Banu üzülməsin deyə, bütün bunları, əlimdən gəldiyi qədər, ona hiss etdirməməyə çalışıram.

Artıq beş aydır ki, sevgiliyik. Heç şübhəsiz ki, həyatımın ən gözəl aylarını yaşayıram hal-hazırda. Bacardığımız qədər, çox vaxt keçirməyə çalışırıq birlikdə. Bir sözlə, bərabər keçirtdiyimiz hər dəqiqəni, qənimət sayırıq özümüzə. Qalxıb, toparlanım gərək. Banu, harda olsa, gəlib çatar indi. Beş saatdır yatdığıma baxmayaraq, oyandığımdan bəri, yataqdan qalxacaq taqəti tapa bilmirəm özümdə. Bəlkə də, çox yatmaqdan, keyləşib artıq bədənim. Düz, günorta saat üçdən bəridir ki, yatmışam. Birtəhər, doğrulub qalxıram yataqdan. Əynimi dəyişib, evə əl gəzdirməyə başlayıram. Evdə tək yaşadığımdan, çox vaxt, dağınıq və səliqəsiz olur hər yer. Bir siqaret yandırıb, dodaqlarıma qoyuram. Banu gəlmədən, bir dənəsin çəkim gərək. O gəldikdən sonra, çəkə bilməyəcəm, çünki. Siqaret yarıya çatar-çatmaz, qapı döyülür. Cəld, əlimdəki siqareti masanın üzərindəki külqabıya atıb, qapını açmağa gedirəm. Banu bir əlində cips, digər əlində isə bir film CD-si ilə içəri girir. "Xoş gəldin, sevgilim."

"Təəssüf ki, heç xoş görmədim. Üst-başından yenə o zəhrimarın iysi gəlir. Cəza olaraq, bu gün səni öpməyəcəm. Get üzərindəki o qoxunu təmizlə, mən də film üçün hazırlıq görüm o vaxta kimi."

"Nə filmdir ki, o elə?"

Banunun üzündə qırıq bir gülümsəmə yarandı.

"Türk filmidir. Eynilə bizim həyatımıza bənzəyir. Baş roldakı qız, ölümcül xəstədir. Sevdiyi adam isə, sənin kimi yazıçıdır."

"Filmin adı nədir?"

"İncir Reçeli."

"Hm, elə isə, sən hazırlığını gör. Mən də əmrinizi yerinə yetirib, iki dəqiqə sonra yanınızda olacam, sultanım."

Banu gülümsündü. “Zəhmət olmasa, yubanmayın cənab.” – Bir-birimizə baxıb, güldük. Yataq otağıma keçib, qarderobdan yeni bir köynək seçirəm. Əynimi dəyişdikdən sonra, siqaretin iyini ört-basdır etmək üçün, bir az da ətir vururam üstümə. Son olaraq hamama keçib, əlimdəki qoxunu aparmaq üçün, sabunla yuyuram əllərimi.

Banu içəridən səslənir. “Raul, hər şey hazırdır. Səni gözləyirəm. İşini bitirmədin hələ?”

Cavab vermədən, əllərimi qurulayıb, içəri dönürəm. Banunun yanında oturub, ayaqlarımı uzadıram. Qolumu boynuna dolayıb, yüngülcə özümə sıxıram. Eyni zamanda, başından öpüb, qoxusunu dərindən ciyərlərimə çəkirəm. “Filmə baxaq? Yoxsa, hələ qoxulayacaqsan?” – deyə güldü Banu.

“Qoxulaya-qoxulaya baxacam. Sən başlat filmi.”

Film başlayan kimi, ikimiz də susduq. Banu bu filmi bizim həyatımıza bənzətdiyindən, ilk dəqiqələrindən etibarən, çox diqqətlə izləməyə başladım. İlk başlarda, Banunun yanıldığını, bizim həyatımıza qətiyyən bənzəmədiyini düşünsəm də, filmin irəliləyən dəqiqələrində ona haqq verdim. Tək fərq, filmdəki qız, QİÇS xəstəsidir. Onun xaricində, demək olar ki, eynilə bizim həyatımızdan bəhs edir bu film. Final səhnəsində, cütlük bərabər oturduğu vaxt, qız başını sevdiyinin çiyninə qoyaraq, dünyasını dəyişir. Tam bu səhnədə, Banunun başı da mənim çiynimdədir. Keçirtdiyim hissin kəlmələrlə ifadəsi yoxdur. Ölüb-ölüb, dirildim rəsmən. Göz yaşlarıma hakim ola bilmirəm. Banuya möhkəmcə sarılıb, hıçqıra-hıçqıra ağlamağa başlayıram. Mən ağladıqca, Banu da əli ilə saçıma sığal çəkir. “Sənə, ağlama, deməyəcəm,

Raul. Ağla. Qara taleyimizə ağla. Heç gəlməyəcək olan günlərimizə, doğulmayacaq uşaqlarımıza ağla. İstədiyin qədər ağlaya bilərsən. Amma, bir şərtim var. Bundan sonra, yalnız mənim yanımda ağlayacaqsan. Sağlığımda ağlayacaqsan bu qara taleyimizə. Mən öldükdən sonra, gözündən bir damla da olsa, yaş axmayacaq. Həyatına qaldığın yerdən davam edəcəksən."

"Banu, sənə yalvarıram, belə danışma."

"Mənə söz ver, Raul."

"Xahiş edirəm, məndən belə bir şey istəmə."

"Söz ver!... Söz ver ki, qoy, ürəyim rahat olsun."

"Bilirsən ki, sənin o ürəyinə, lap canım da qurbandır. Söz, sevdiyim, söz."

***

Güvən duyğusunu bir dəfə itirdinmi, ondan sonrası daima şübhədir. İnsan bir dəfə aldadıldıqdan sonra, gerçəklərdən belə şübhə etməyə başlayar. Həyatına girən hər kəsə şübhə ilə yanaşar və əsla, tam şəkildə güvənə bilməz. Nə fırtınalara sinə gərmiş sevgilər vardır ki, bir şübhə uğuruna məhv olub çox zaman. Boş yerə deməyiblər, ağacı qurd, insanı isə şübhə öldürər. Şübhə, eynilə, qızdırmalı uşağa bənzəyər. Nə yatar, nə də yatmağa qoyar. Yatdığında isə kabuslar gördürər. Girdiyi qəlbi elə zəhərləyər ki, o qəlbdə nə dinclik qalar, nə də ki sevgi. Bundan birdəfəlik qurtulmağın tək yolu isə, şübhə ilə yaşamaq yerinə, şübhənin üzərinə getməkdir. Banuya hər nə qədər güvənsəm belə, güvən duyğusu dərindən sarsılmış bir insanam mən. Ömrümün on altı ilini, onu sevməyə həsr etdiyim qız və özümə qardaş bildiyim insan tərəfindən, xəyanətə uğramış biriyəm nə də olsa.

İtirilmiş duyğularım Banu ilə yenidən bərpa olmağa başlasa da, hər daim şübhənin bir addım yaxınlığındayam. Banuyla artıq bir ilə yaxındır ki, sevgiliyik. Buna baxmayaraq, hələ də məndən bir şeylər gizlətdiyinə dair şübhələrim var. Bu şübhələrimin səbəbi isə, son günlərdə, Banunun telefonuna gələn müəmmalı zənglərdir. Son bir neçə gündə, bərabər olduğumuz zamanlarda telefonuna zənglər gəldi. Banu isə, bu zənglərin heç birini cavablandırmadı. Səbəbini soruşduğumda isə, "Əşi, tanımadığım nömrədir, sonra baxaram kim olduğuna, söhbətimiz bölünməsin."

Və s. kimi bəhanələrlə keçişdirdi məni. Banuya hiss etdirməməyə çalışsam da, şübhələnməyə başladım artıq. Bəlkə, həqiqətən də, dediyi kimidir. Amma, bundan əmin olmadığım müddətcə, heç cürə rahatlıq tapa bilməyəcəm. Ən qısa zamanda, Banuya bildirmədən, həll etməliyəm bu işi. Əgər dedikləri doğrudursa, ondan şübhə etdiyimi öyrəndiyində, bu dəfə də, mən onun güvənini sarsıda bilərəm. Bu gün, bir şeylər öyrənmək ümidi ilə, evdən çıxdığı andan bəri, onu izləyirəm. Bu hərəkəti etdiyimə görə hər nə qədər özümdən utansam da, içimdəki şübhəni öldürmək üçün, buna məcburam. Əks təqdirdə, ikimiz üçün də, heç yaxşı olmayacaq. Telefonum zəng çalır. Zəng vuran Anardı. "Salam, qardaşım. Necəsən?"

"Salam, Anar. Yaxşı deyək, yaxşı olaq. Sən necəsən?"

"Əlayam, Raul. Sənə iki yaxşı xəbərim var."

Səs tonundan çox həyəcanlı olduğu açıq sezilir.

"Bu aralar, yaxşı xəbər eşitməyə çox ehtiyacım var. İkisinin də yaxşı olduğuna görə, hansından istəyirsənsə, buyur başla."

“Birinci xəbərim, bir-iki həftəyə Azərbaycana qayıdıram. Həm də bir daha geri dönməmək üzərə.”

“Bax, buna sevindim. Yanımda olmağına ehtiyacım var idi. İkinci xəbərin nədir bəs?”

“İkinci xəbər isə, gələn ay dayımın Bakıda yeni memarlıq şirkəti açılacaq. Şirkətin baş memarı isə mən olacam. Səni də memar olaraq işə düzəldəcəm. Bundan sonra, əvvəlki kimi daim bir yerdə olacayıq.”

“Bu ki lap əla xəbərdir. Xeyirli olsun, qardaşım. Həm dayın üçün, həm də bizim üçün. Dərdlərim azmış kimi, bir yandan da işsizlik canımı çox sıxırdı. Bu xəbər, az da olsa içimi rahatlatdı.”

“Hər şey yaxşı olacaq, Raul. Sən canını sıxma. Ora gəldiyimdə, ətraflı şəkildə danışarıq. İndi sağollaşmalıyam, təəssüf ki. Görüləsi işlərim var bir az. Özünə yaxşı bax.”

“Yaxşı, Anar. İşində ol. Hələlik.”

Aldığım xəbərlər, üzümdə az da olsa təbəssüm yaratdı. Həm ən yaxın dostumun yanımda olmasına, həm də işləyib, pul qazanmağa ehtiyacım var idi. Ayrıca, Nərgizə görə vaz keçdiyim memarlıq karyerama yenidən qovuşacağım üçün, çox sevindim. Telefonla danışa-danışa, bir yandan da Banunu izləyərək, xeyli yol qət etmişəm. Banunun, içində olduğu taksi, hər zaman görüşdüyümüz kafenin önünə gəlib dayandı. Banu maşından düşüb, kafeyə daxil oldu. Kiminlə görüşdüyünü görmək üçün, arxasınca gedib, kafenin girişində dayanıram. Qapının şüşəsindən boylanıb, içəri baxıram. Masalardan birində tək oturub kimisə gözləyir. Çox güman, Günayla görüşəcək. Arxadan bir əl çiynimə toxunur.

“Ay kişi, yol ver, keçək də. Nə tutmusan qapının ağzını?”

Üzünü görmək üçün, çevrilib, arxama baxdığımda, gülərüz bir adamla qarşılaşıram. Adamın, səs tonu və danışıq tərzi ilə ziddiyyət yaradan, qəribə bir siması var. İçimdən “Lənət sənə, kor şeytan” deyib, bir söz demədən, çəkilib yol verirəm. Adam içəri girib, ətrafa bir az göz gəzdirdikdən sonra Banunun yanına gedir. Banuyla salamlaşıb qarşısında oturur. Gördüklərimdən heç nə başa düşmürəm. Bu nə işdir belə? Kimdir axı bu adam? Ən yaxşısı, içəri girib, bunu o adamın özündən soruşmaqdı. Onsuz da bir az əvvəl, özümü zorla saxlamışdım, dava olmasın deyə. Ya da... yox, vaz keçdim. Birinci gərək, Banuya zəng vurum. Görüşdüyü adamın kim olduğunu, elə onun özündən soruşum. Cibimdən telefonumu çıxarıb, zəng vururam. “Salam, Banu.”

“Salam, Raul. Üzrlü say, bir az işim var. Mən sənə yarım saat sonra zəng vursam, olar?”

Səsi çox tədirgin gəlir telefonda.

“Hardasan ki, sən? Nəsə problem var?”

Üç-dörd saniyəliyə susdu. Udqunmasının səsini, telefondan rahatlıqla eşitdim.

“Yox, Raul. Heç bir problem yoxdur. Günayla bir yerdəyik. Bir az işimiz var sadəcə.”

“Bax, elə mən də, bu cavabı verməyindən qorxurdum...”

“Necə yəni? Başa düşmədim, Raul... Alo?”

Telefonu cibimə qoyub, əsəbi bir şəkildə kafeyə girirəm. Öfkəylə, oturduqları masaya doğru gedirəm. Banu məni görüb, tez ayağa qalxır. Məni gördüyünə həm təəccüblənmiş, həm də ki, qorxmuşdu. “Raul, sənin nə işin var burda?”

Qəzəbdən partlamaq üzərə olan gözlərimlə Banuya elə baxdım ki, zəhmimdən dili tutuldu sanki. Əlimlə yanındakı adamı işarə edib, soruşuram. "Günay budur?!"

Banu şokdaymış kimi, dinmədən, sadəcə üzümə baxır. Bir az daha öfkələnib, qışqırıram bu dəfə. "Səninləyəm ey mən! Bu adam Günaydır?!" Adam oturduğu stulu bir az arxaya çəkib, sanki çiyinlərində ağır bir yük var imiş kimi, çətinliklə ayağa qalxdı.

"Ay qardaş, sən kimsən? Nə səsini başına atmısan?"

Üzümü adama çevirib, qan çanağına dönmüş gözlərim ilə qəzəblə baxdım. Əlimin tərsi ilə elə bir şillə vurdum ki, arxasındakı stula ilişib, yerə yıxıldı. Banu qorxu dolu baxışlarla üzümə baxdı. Kəkələyə-kəkələyə danışmağa başladı. "Raul, nə edirsən sən?"

"Əsas, sən nə edirsən? Mən sənə güvənmişdim, Banu. Yaşadığım o qədər şeyə baxmayaraq, mən sənə güvəndim. Səni hər kəsdən fərqli zənn etdim. Banu digər qızlar kimi deyil, dedim özümə. Banu başqadır, dedim mən. Ya sən? Sən nə etdin bəs?"

"Raul..."

"Kəs səsini, Banu. Tək kəlmə belə eşitmək istəmirəm daha."

Kafenin administratoru yanıma gəlib, qolumdan yapışır: "Zəhmət olmasa, kafeni tərk edin. Yoxsa, polis çağırmalı olacam."

Üzümü yenidən Banuya çevirib, son bir dəfə, sevdiyim mavi gözlərinə öfkə ilə baxıram. "Bundan sonra, bir daha qarşıma çıxma. Nə ölümə, nə ölünə!"

***

***Öfkə gələr – göz qızarar, öfkə gedər – üz qızarar***

*(Türk atalar sözü).*

Aradan iki həftə keçməsinə baxmayaraq, Banuya olan öfkəm, hələ də keçməyib. Düz on dörd gündür ki, hər gün Banudan bir zəng, bir mesaj gözləyərək keçdi günlərim.

"Raul, sən hər şeyi, tamamilə səhv başa düşdün. Heç nə sənin düşündüyün kimi deyildi. İcazə ver, məsələnin nə yerdə olduğunu, sənə başa salım." deməsini gözlədim. Hər nə qədər öfkəli olsam da, bir yandan da, yanılmış olmağım üçün, için-için yalvardım hər gecə. Saatlarla telefonun başında gözləyib, Banu indi zəng vuracaq və hər şeyə bir açıqlama gətirəcək, dedim özüm-özümə. Yenidən barışacayıq və hər şey çox gözəl olacaq, deyə xəyallar qurdum. Qoy, elə bir açıqlama versin ki, yenə də əsəbiləşəcəyim bir şey olsun, eybi yox. Nə olursa olsun, amma, xəyanət olmasın, deyə ümid etdim. Ən azından, Günay zəng edər, deyə gözlədim hətta. Mənə yanıldığımı, Banunun qəlbini boş yerə qırdığımı deyər. İşin gerçək üzünü o danışar bəlkə mənə.

Artıq, iki həftə keçdi. Nə Banudan səs-soraq çıxdı, nə də Günaydan. Demək ki, yanılmamışam. Hər şey, elə mənim düşündüyüm kimi imiş. Heç cürə ağlım almır bu işi. Necə ola bilər axı, bir insan iki dəfə aşiq olsun və iki sevgisinin də sonu xəyanətlə bitsin. Bir insan üçün, bundan daha ağır nə ola bilər ki, bu həyatda? Telefonum zəng çalır. Bir telefon zənginin, məni bu qədər həyəcanlandıracağını düşünməzdim əsla. Bəlkə də, günlərdir gözlədiyim, o zəng

gəlir hal-hazırda. Ekrana baxdığımda, zəng vuranın Günay olduğunu görürəm. Həyəcanla telefonu açıb, cavab verirəm. "Alo?"

"Raul, hardasan?"

"Evdəyəm. Nə olub ki?"

"Banu əməliyyata girir indi. Çox ağır və riskli bir əməliyyatdır."

Danışdıqca səsi titrəyir Günayın. Ya da ki, ağlayır. Telefonda tam ayırd edə bilmirəm. "Nə əməliyyatı? Nə danışırsan sən?"

"Raul, gəl bura. Tez ol. Hər şeyi danışacam sənə. Adresi mesajla yollayıram."

Sözünü bitirib telefonu üzümə qapadı. Evdən çıxıb, qaça-qaça ən yaxın dayanacağa gedirəm. Banu mənə xəyanət etmiş olsaydı, nə olur-olsun, Günay mənə zəng vurmazdı. Banunun yanındakı o adam kim idi bilmirəm, amma, bundan artıq əminəm. Banu mənə xəyanət etməyib. Sevdiyim qız, bir az sonra ağır bir əməliyyata girir. Mənim isə heç dünyadan xəbərim yoxdur. Görünür, həqiqətən də, Banunun qəlbini qırmışam. Ona görə də, mənə heç bir söz demədən, yoxa çıxmaq istəyib həyatımdan. Taksiyə minib, xəstəxanaya doğru yola düşürəm.

"Qardaş, bacardığın qədər tez ol. Sevdiyim qız əməliyyata girmədən, məni ona çatdır."

"Narahat olma. Uzağı iyirmi beş dəqiqəyə ordayıq."

Yol boyunca, sürücüdən, daha sürətli sürməsini istəyərək, başını dəng elədim. İyirmi dəqiqə sonra, gəlib çatdıq nəhayət ki. Cibimdəki son pulumu da taksiyə verib, xəstəxanaya girirəm. Gözləmə zalına gəldiyimdə, Banunun

anası Gülşən xala və Günayı görürəm. Gülşən xala ağlayır, Günay isə başının üstündə durub ona təsəlli verir. Günay, bir az aralıdan gəldiyimi görüb, əli ilə, orda qal, deyə işarə edir. Gülşən xalaya nə isə deyib, sonra yanıma gəlir.

"Qorxma, Raul, salamatçılıqdır. Gəl bir az çölə çıxaq. Həm rahat danışaq, həm də mən bir az hava alım."

Dərin bir oh çəkdim. Banunun anasını ağlayan görüb, ağlıma min cürə fikir gəlmişdi. Şükür ki, salamatçılıqdır. Söhbət edə-edə qapının ağzına çıxırıq.

"Banu artıq yarım saatdır ki, əməliyyatdadır. Həkim ağır bir əməliyyat olacağını dedi. Təxminən, beş-altı saat çəkəcək. Əməliyyatın gedişatından asılı olaraq, hətta, daha da uzun çəkə bilər. Səni bura çağırdığımdan, Banunun xəbəri yoxdur. Hər zamankı kimi, Banunun sözünü dinləmək yerinə, qəlbimin səsini dinlədim."

"Yaxşı eləmisən, Günay. Çox sağ ol. İnşallah, Banu da yaxşı olacaq. Amma heç demədin, bu əməliyyat nə üçündür?"

"Banu, altı ay əvvəl, əməliyyat ola bilmək üçün, yardım fonduna müraciət etmişdi. Məlum məsələdir ki, Banunun, öz imkanı çatmayacaq qədər, bahalı bir əməliyyatdır bu. Bu əməliyyat nəticəsində ya bu xəstəlikdən birdəfəlik azad olacaq, ya da ki..."

"Ya da ki falan yoxdur. Banu sağalacaq!"

Günay köks ötürdü.

"Raul, əməliyyatdan əvvəl, yüzdə səksən ölüm riski olduğunu dedi həkim."

"Banu güclü qızdır. Həm də nə olursa olsun, Banu məni buraxmaz. Məni buraxıb da, ölməz əsla."

“İnşallah, Raul. İnşallah, sənin dediyin kimi olar. Lakin, iki həftə əvvəl Banunun qəlbini çox pis qırıbsan. Əməliyyata girərkən belə, əhvalı heç yaxşı deyildi. Hələ üstəlik, kafedə qardaşını da döyübsən.”

“Nə qardaşı? O adam Banunun qardaşı idi?”

“Hə, Raul. Banunun qardaşıdır.”

“Banu evin tək uşağı deyildi, məgər?”

“Bildiyin kimi, atası, Banu hələ uşaq ikən, atıb getmişdi ailəsini. Bir müddət sonra, yenidən ailə həyatı qurub. Yəni sənin anlayacağın o adam, Banunun ögey qardaşıdır. Atası, sonradan ailəsini tərk etdiyinə görə, çox peşman oldu. Banuyla görüşmək, aranı düzəltməyə çalışsa da, Banu buna izin vermədi. İndi isə, atası ağır xəstədir. Ölmədən əvvəl, son arzusu, Banunu görmək, ondan halallıq almaqdı. Ögey qardaşı da, Banuya bu məsələni danışmaq, onu razı salmaq üçün, görüşmək istəyib.”

“Banu bütün bunları mənə niyə deməyib bəs?”

“Ailəsindəki problemlər Banu üçün hər zaman utancverici olub. Bu məsələni səndən gizlətməyinin tək səbəbi də, elə məhz, bunları sənə deməkdən utanması idi.”

Günay danışdıqca, iki həftə əvvəl, kafedə yaşananlar, lent yazısı kimi gözümün önündən keçdi. İlahi, mən nə etmişəm belə? Nələr demişəm Banuya? Hələ ən son, “Nə ölümə, nə ölünə”, demişdim.

“Raul, mən içəri girirəm. Gülşən xala tək qalıb orda. Sən də gəl.”

“Sən get. Qoy, Gülşən xala tək qalmasın. Mən bir az daha burda qalıb, hava alacam.”

Günay gözləri ilə “yaxşı” deyə işarə edib, içəri girir. Xəstəxananın önündəki pilləkənə oturub, bir siqaret yan-

dırıram. Bir tüstü çəkib, xəyallara dalıram yenə. Görəsən, Banu bağışlayarmı məni? Ciyərlərimdəki tüstünü göyə üfürüb, səmada xəyallarımın şəklini çəkirəm. Mən bəy kostyumunda, yanımda da Banu. Həm də bəyazlar içində. Uzun və gözəl olan, gəlinlik paltarında. Əl-ələ tutmuş, toyumuzun keçirildiyi şadlıq sarayına giririk. İkinci tüstü isə, tamamilə fərqli bir şəkil çəkir. Nə çəkdiyimi, dilimə belə gətirmək istəmirəm. Banuya bir şey olsa, nə edəcəm mən? Necə yaşayacam onsuz? Hələ, bu son yaşananlardan sonra, necə qaldıra bilərəm axı belə bir şeyi? Yox, Raul, yox. Ağlına pis fikirlər gətirmə. Banuya heç bir şey olmayacaq. Buna əminəm. Bu əməliyyat uğurla nəticələnəcək. Tamamilə sağalacaq artıq, mavi gözlüm. Bir müddət küsülü qalacaq, yəqin ki, mənə. Amma eybi yox, küsməkdə haqlıdır. Zamanla könlünü alaram əlbət. Əvvəlkindən daha çox xoşbəxt olarıq. Bircə bu əməliyyat uğurla bitsin, Banuya evlilik təklifi də edəcəm. Bərabər keçirdiyimiz bir il müddətində, hər ikimiz, kifayət qədər acı çəkdik. Artıq xoşbəxt olmağın tam zamanıdır. Banu əməliyyatda olduğu müddətcə əlimizdən gələn tək şey dua etməkdir. Dua etmək üçün, ən doğru məkan məsciddir, əlbəttə. Amma, heç şübhəsiz ki, məsciddən daha çox, xəstəxana divarları şahid olur içdən edilən dualara.

Əməliyyatın beşinci saatı tamam olandan bəri, gözlərimi əməliyyat otağının qapısına dikib, həkimin çıxışını gözləyirəm. Gözləməkdən, gözlərimin kökü saralıb. Banu haqqında, heç kim, doğru-dürüst məlumat vermir. Tək dedikləri söz, əməliyyat hələ də davam edir. Həkim çölə çıxıb, bir xəbər versin artıq. Banunu bu xəstəlikdən qurtardıq, de-

sin, məsələn. Sevdiyin qız artıq tamamilə sağlamdır, desin. Səbrim tükənmək üzrədir. Əməliyyatın vaxtı uzandıqca, ağlıma pis-pis fikirlər gəlir yenə. Bir az daha bir xəbər ala bilsəm, dayana bilməyib, elə özüm əməliyyat otağına girəcəm.

Nəhayət ki, beş saat qırx dəqiqənin sonunda həkim çölə çıxır. Üzündəki maskanı çıxarıb, cibinə qoyur. Əlindəki kiçik bez parçası ilə alnından axan təri silərək, bizə doğru gəlir. "Əməliyyat bitdi artıq. Bundan sonra, bir neçə saat gözləməliyik, sadəcə."

"Necə yəni? Nəyi gözləməliyik? Banu yaxşıdı?"

Həkim, kiçik bir təbəssüm edərək, cavab verir. "Cavan oğlan, biz əlimizdən gələni elədik. Əməliyyatda heç bir problem olmadı. Bundan sonrası, xəstənin dayanıqlılığına bağlıdır. Hal-hazırda əlimizdən gələn tək şey, dua etməkdir."

Həkimin bu sözlərinin ardınca, əməliyyat otağından tibb bacısı çıxaraq, təşvişlə həkimə səslənir. "Həkim! Xəstənin ürəyi dayandı. Yetişin!"

Həkim qaçaraq otağa girir. Həkimin ardıyca mən də girirəm içəri. Tibb bacılarından biri önümü kəsir. "Zəhmət olmasa çölə çıxın. Bura sterilizə olunmuş bir yerdir."

Gözlərimi bərəldib, üzünə baxıram. "Heç yerə çıxmıram. Mən burda qalacam! Siz də öz işinizə baxın!"

Həkim tibb bacısına dönüb qışqırır. "Buraxın qalsın. Defibrillatoru hazırlayın. Tez olun!" Banuya elektro-şok verməyə başlayırlar. İki yüz! – Qayıtmadı. Artırın bir az. İki yüz əlli! – Olmadı. Üç yüz elə! – Yenə də olmadı. Son bir dəfə daha! – Olmadı... Həkim üzünü mənə çevirib məyus bir şəkildə başını sağa və sola yelləyir. "Xəstəni itirdik. "

Yanına gedib, yaxasından yapışıram. Səsimin çıxdığı qədər bağırıram üstünə. "Necə yəni itirdik?! Ağzından çıxanı qulağın eşidir sənin? Nə işə yarıyırsız siz burda? Yenə cəhd edin! Əlinizdəki o zibilin sürətini artırın bir az! Bir şeylər edin!"

Heç bir söz demədən, başını aşağı salır həkim. Tibb bacısı, bəyaz örtüyü Banunun üzünə örtür. Əlimi atıb, öfkəylə, yenidən üzünü açıram. "Neynirsiz siz?! Dəli olmusuz? Həkim, sağalt onu! Sənə yalvarıram, qoyma onu ölməyə. Çiyinlərimə bu yükü qoyma, həkim. Mənim canımı al, ona ver. Neynirsən elə, amma, yaşat onu! Sənə yalvarıram, həkim. Yaşat onu!..."

"Biz əlimizdən gələn hər şeyi elədik. Bilirəm, çox çətindir, amma, İlahi təqdirə razı olmaq lazımdır. Əlimizdən başqa bir şey gəlməz. Allah rəhmət eləsin..."

Sözünü bitirib, çölə çıxır. Onun ardınca tibb bacıları da bir-bir otağı tərk edirlər. Otaqda Banuyla ikimiz qalırıq sadəcə. "Aç gözlərini, Banu. Mən gəlmişəm yanına. Burdayam. Yanındayam mən. Nə olar, aç gözlərini. O mavi gözlərinlə, gözlərimə bax yenidən. Məndən küsdüyünü de. Hətta mənə nifrət etdiyini de. Amma, yalvarıram, aç gözlərini. Buna dayanacaq gücüm yoxdur, Banu. Özün də bilirsən ki, bunu qaldıra bilmərəm mən. Məni tərk edib getmə. Sən mənim yalnızca sevdiyim qız deyilsən, Banu. Sən mənim dostumsan. Sirdaşımsan sən mənim. Heç gəlməyəcək olan gözəl günlərə inancımsan. Sən, ...Sən heç vaxt doğulmayacaq olan, uşaqlarımın anasısan, Banu. Sən mənim hər şeyimsən. Sən getsən, bitərəm mən. Aç gözlərini sevdiyim..."

Sonuncu dəfə toxunuram sevdiyimə. Bədəni sonuncu dəfədir ki, bu qədər istidir. Bir az sonra yavaş-yavaş soyumağa başlayacaq. Qara saçlarını oxşayıb, ağlaya-ağlaya, qoxusunu içimə çəkirəm. Ciyərlərim çartlayana qədər qoxulamağa davam edirəm. Sanki, qoxusunu, bundan sonrakı bütün ömrümə bəs edəcək qədər tədarük etməyə çalışıram...

# IV

# Ölümdən sonrakı şizofreniya

Banudan ayrılmamaq üçün, səhərin açılmasını heç istəmirdim. Ölmüş də olsa, ən azından, cansız bədəni yanımdaydı gecədən bəri. Ruhu bədənini tərk etsə belə, cismi hələ də mənimlə bərabərdir. Banu ilə bərabər keçirtdiyim son gecə idi bu. Cansız bədəninə sarılıb, səhərə qədər yanında uzandım. Bir az sonra isə sevdiyimi son mənzilə yola salacayıq. Bərabər keçirtdiyimiz, sonuncu dəqiqələrdir artıq.

Otağın qapısı döyülür. Günay içəri girir. "Raul, yaxşısan?" Çox yersiz bir sual olduğunun, özü də fərqindədir, əslində. Başımı çətinliklə qaldırıb, üzünə baxıram. Başım, sözün əsl mənasında bədənimə ağırlıq edir sanki. Elə Günayın özü də, ağlamaqdan, iki cümləni ard-arda qoşub, danışa bilmir heç. "Raul, dünən, Banu əməliyyata girmədən

əvvəl, mənə bir məktub vermişdi. – Allahın işidir, bilmək olmaz. Əgər, bu əməliyyatdan sağ çıxmasam, bu məktubu Raula çatdırarsan, – demişdi mənə. Elə bu məktubu mənə verəndən sonra, dözə bilməyib, mən də, sənə zəng vurdum.”

Əlindəki məktubu mənə verib, başqa bir söz demədən, çölə çıxır. Günay çıxdıqdan sonra, həyəcanla məktubu açıb, oxumağa başlayıram.

Məktub: “Raul, əgər bu məktubu oxuyursansa, demək ki, mən artıq həyatda yoxam. Bu gün xəstəliyimlə bağlı əməliyyat olunacam. Ya bir dəfəlik sağalacam, ya da ki, öləcəm. Bu xəstəliklə yaşamaq çox ağırdır, Raul. Ölümdən daha betərdi bu. Həkimlər, yüzdə səksən ölüm riskimin olduğunu deyirlər. Sənin xəbərin olsa, məni bu əməliyyata girməyə qoymayacağını bilirəm. Buna görə də, əməliyyat bitənə qədər, sənin heç nədən xəbərin olmayacaq. Əgər ölsəm, bu riski gözə alıb, əməliyyata girdiyim üçün mənə əsəbiləşmə. Yüzdə iyirmi faiz belə olsa, sağalmaq, yaşamaq ehtimalım var. Hər kəs kimi, uzun bir ömür yaşayıb, səninlə bərabər ola bilmək ehtimalım var. Həm, nə bilmək olar, bəlkə də, hər şey yaxşı oldu. Həqiqətən də, sağalaram bəlkə. Evlənərik, iki uşağımız da olar. Biri oğlan, biri qız. Onlar böyüdüyündə, bu məktubu səninlə bir yerdə onlara göstərərik. Sevginin nə olduğunu, sevib-sevilmənin gözəlliyini, bizdən öyrənər uşaqlarımız. Raul, sənin üçün çox darıxmışam. Bu əməliyyat uğurla bitsə, ilk işim, səninlə barışmaq olacaq. Mən ölsəm, son yaşadığımız hadisə ilə bağlı, özünü günahlandırma. O hadisədə ikimizin də günahı var idi. Mənim günahım, ailəvi məsələlərimi səndən gizlətməyim oldu. Sənin günahın isə, məndən şübhə etmək.

Sənə xəyanət edə biləcəyimi düşünmüş olmağın, həqiqətən canımı çox yandırdı. Sən mənim bu həyatdakı ilk və son sevdiyimsən. Mən sevginin nə demək olduğunu səninlə öyrəndim, Adam. Adam deyirəm, çünki adam sözünü, hər kəsə deməzlər. Hər kəs adam kimi sevməsini bilməz. Səndən öncə, sevgiyə inanmayan biri idim mən. Sevginin var olduğunu, mənə sən isbat etdin. Yeri gəldi, atalıq etdin mənə. Yeri gəldi, qardaşlıq etdin. Dostum oldun, sirdaşım oldun. Ən önəmlisi isə, sən mənə həyat yoldaşı oldun. Səninlə keçirtdiyim bu bir il, həyatımın ən gözəl hissəsi oldu mənim üçün. Səni sevdiyimdən, bir an belə olsun, peşman olmadım əsla. Səni sevməkdən bircə an belə vaz keçmədim. Yaxşı ki, həyatıma girdin, Adam! Və məktubu bitirmədən son sözüm, unutma ki, mənə verdiyin bir söz var. Məndən sonra, gözündən tək damla belə yaş axmayacaq. Məni unut demirəm, çünki, mən səni əsla unuda bilməzdim. Amma, çətin də olsa həyatına davam edəcəksən. Səni sevirəm, cənnət qoxulum..."

Məktubu göz yaşları içində, hıçqıra-hıçqıra oxudum. Sonuna çatdığımda isə, sildim göz yaşlarımı. Banuya söz vermişdim mən. Heç deyilsə, verdiyim son sözümü tutum gərək. Qapı yenidən döyülür. Anar içəri girir. Yanıma gəlib, əlini çiynimə qoyur. "Raul, toparlan, qardaşım. Cənazə qalxmalıdır artıq. Sevdiyinlə vidalaş. Sonra isə, ayağa qalxıb, Banuya olan son borcunu yerinə yetir. Sevdiyini son mənzilə uğurla." Banunun üzünü açıb, son dəfə alnından öpürəm. Hər nə qədər, gözümdən yaş axmamağı üçün özümü sıxsam da, bir damla isti göz yaşı, yanağımdan süzülüb Banunun üzünə düşür.

Cənazəni qaldırıb, məzarlığa doğru yola düşürük. Yol boyunca, tabutun bir tərəfindən, israrla, mən tuturam yalnız. Son mənzilinə, öz çiyinlərimdə aparıram sevdiyimi. Ətrafımda onlarla insan olmasına baxmayaraq, qəribə bir səssizlik var. Hətta, təbiətdən belə, bir səs gəlmir. Nə bir quş ötür, nə də bir yel əsir. Sevdiyim qızın tabutunu daşıyıram mən. Bu mənzərəni görən dünya, utancından susub sanki. Məzarlığa çatıb, Banu üçün qazılmış məzarın yanına gəlirik. Tabutu çiynimizdən endirib, məzarın yanında yerə qoyuruq. Mollanın göstərişi ilə cənazə namazını qılıb, dua oxumağa başlayırıq...

İlahi, bundan daha ağır bir şey varmı görəsən bu dünyada? İnsan da heç, öz sevdiyinin cənazə namazını qılarmı? Cənazənin qəbirə endirilmə vaxtı çatdığında, yerləşdirmək üçün, qəbirə girirəm. Anar əlindəki taxta parçalarını, məzarın üstünü qapamaq üçün mənə uzadır. Qəbirdən çıxıb, onları da bir-bir əllərimlə düzürəm. Son olaraq, məzara bir ovuc torpaq atıb, geri çəkilirəm. Ayaqda duracaq taqətim yoxdur daha. Kaş ki, Banu ilə bərabər, məni də gömsələr bu məzara...

Dəfn mərasimi bitdikdən sonra, hamı bir-bir başsağlığı verib, dağılışır. Hətta, Banunun öz qohum-əqrəbası belə. Bir tək Anar qalır yanımda. "Raul, maşında oturub, gözləyirəm səni. İstədiyin qədər otur, danış sevdiyinlə. Sonra isə, gəl səni evə aparım. Dincəl bir az. Dünəndən bəri yatmayıbsan heç."

Başımla "yaxşı" deyə işarə edirəm. Anar getdikdən sonra Banunun yanına uzanıram yenidən.

“Anar da getdi, Banu. İkimiz qaldıq sadəcə. Aramızdakı tək əngəl, sadəcə bu torpaqdı. Sən öldün, amma, mən hələ də yaşayıram. Niyə yaşayıram, onu da bilmirəm heç. Bəlkə mən də gəldim yanına. Amma, öldükdən sonra, digər tərəfdə səni görə bilməməkdən çox qorxuram. Burda ən azından, sənin xatirələrin var. Şəkillərimiz var çoxlu. Qoxunu ala biləcəyim paltarların, səninlə söhbət edə biləcəyim, bir məzarın var. Hal-hazırda imkanım yoxdur, amma, sənə söz verirəm, əlimə pul keçən kimi, sənə çox gözəl bir məzar düzəltdirəcəm... Ehh, Banu... Səninlə evlənib, öz evimizi düzəltdirmək var ikən, sənə məzar düzəltdirməyi düşünürəm indi. Bundan sonra, mənim evim də, elə buradır. Mənim evim sənsən, Banu. Bilirsən, həyat mənim üzümə heç vaxt gülməyib. Tanrının mənə verdiyi tək hədiyyə sən idin. Səni də aldı əlimdən. Bu vaxta qədər, başıma gələn hər pis hadisədə, “hər işdə bir xeyir var” demişəm öz-özümə. Bəs indi nə deyim? Sənin ölümün də, nə kimi bir xeyir ola bilər axı? Əgər qovuşa bilməyəcəkdiksə, niyə qarşılaşdırdı tanrı bizi? Niyə aşiq etdi bizi bir-birimizə? Üzr istəmək üçün, iki dəqiqəlik vaxt belə vermədən, səni məndən aldı. Ah, mavi gözlüm, ah... Bu bəyaz kəfən, heç yaraşmadı sənə. Səni bəyazlar içində görməyi xəyal edərkən, bunu nəzərdə tutmamışdım mən. Kaş ki, bir ömür mənə küsülü olaraq qalaydın, amma, ölməyəydin. Heç deyilsə, eyni oksigeni tükədərdik səninlə. Ən azından, yaşadığını, sağ olduğunu bilərdim. Ölüm, hər şeydən daha betər imiş, sevdiyim. Amma, hər şeyə baxmayaraq, səninlə keçirtdiyim bu bir il, həyatımın ən gözəl hissəsi idi. Səninlə bərabər ikən, zamanın necə keçdiyinin fərqinə belə varmırdım heç.

Ümumiyyətlə, sənin yanında olanda, zaman qavramının varlığını unudurdum. İndi isə, saatın əqrəbləri tərpənmir sanki. Vaxt gəlib-keçmək bilmir.”

Qolumdakı saatı çıxarıb, məzarın hələ bərkiməmiş olan, yumşaq torpağına basdırıram. “Artıq saat taxmağın bir mənası yoxdur mənim üçün. Zaman, səninlə dayandı, Banu...”

***

Oyandığımdan bəri, başımda şiddətli ağrılar var. Gözümü açdığım andan etibarən, qulaqlarımda qəribə bir uğultu yaranıb. Elə bil, qorxunc, dəhşətli əks-səda eşidirəm. Neçə saatdır yatmışam, bilmirəm. Saatın neçə olduğundan xəbərim belə yoxdur. Hətta, otaqda pəncərə olmadığından, gecədir, yoxsa gündüz, onu belə bilmirəm. Xatırladığım son şey, hər şeyi bir neçə saatlıq da olsa unutmaq üçün, başım dönənə qədər şərab içmişdim. Onsuz da, içki içməklə, itirdiklərimiz dönmür, sadəcə başımız dönür. Nə qədər çox içmişəmsə, sanki, evin içində, Banunun səsini eşidirəm. “Raul, bura gəl. Mən burdayam. Yanıma gəl”. Banunun səsi yataq otağımdan gəlir. Səsin gəldiyi yerə getmək üçün, ayağa qalxıram. Yerimdən qalxar-qalxmaz, başım hərlənir. Otaq, birdən-birə, mənim ətrafımda dönməyə başlayır. Sanki, dünya hər zamankından çox, daha sürətlə fırlanır hal-hazırda. Görünür, hələ də sərxoşluqdan ayılmamışam. Divarlardan tuta-tuta, bir təhər yataq otağına gəlirəm. Gördüyüm mənzərənin qarşısında, yerimdəcə donub qalıram. İlahi, bu nədir belə? Belə getsə, ağlımı itirib, dəli olacam artıq. Bəlkə də itirmişəm, heç xəbərim yoxdur. Yox, bu ola bilməz. Ya mən, hələ də yuxudayam, ya da ki, çox

sərxoşam. Əllərimlə məzara qoyduğum sevgilim, yataq otağında, çarpayının üstündə oturub, gülümsəyərək mənə baxır. “Yuxuda deyilsən, Raul. Gördüyün həqiqətdir.”

Ayağa qalxıb, mənə doğru gəlir. Döş qəfəsim get-gedə daha çox sıxılır. Ürəyim elə bərk döyünür ki, səsini özüm də eşidirəm. Yanıma gəlib, düz qarşımda dayanır. O qədər yaxınımda dayanır ki, aldığı nəfəsi belə, hiss edə bilirəm. Bu, mənim sevdiyim qızdır. Banudur bu. “Hər sərxoş olduğumda səni görə biləcəmsə, bundan sonra, səhər-axşam, əlimdə şərabla gəzərəm mən.” “Məni görməyinin sərxoşluqla bir əlaqəsi yoxdur. Mən, sənin üçün gəldim, Raul. Bundan sonra, daima, sənin yanında olacam.”

Banunun nə dediyini anlamağa çalışarkən, qapı döyülür. Yuxuda olub-olmadığımı tam anlamaq üçün, qapıya doğru qaçıram. Gələnlər, Anar və Lamiyədir.

“Uşaqlar, mən yuxudayam? Yoxsa oyağam? Tez olun, mənə bir söz deyin.”

Hər ikisi çaşqın-çaşqın üzümə baxır. Bir neçə saniyədən sonra Anar dillənir. “Yox, Raul, oyaqsan. Nə olub ki, bəyəm?”

“Bax, buna çox sevindim. Elə isə, içəri gəlin. Sizə elə bir şey göstərəcəm ki, dilinizi udacaqsınız.”

Bir-birinin üzünə baxıb, təbəssüm etdilər. Lamiyə:

“Nə yalan deyim, səni bu qədər sevindirən şeyin nə olduğu, mənə çox maraqlıdır.”

Anar: “Elə mənə də həmçinin.”

“Arxamca gəlin. Nə olduğunu, elə öz gözlərinizlə görün.”

İçəri keçib, təkrar yataq otağına dönürəm. Anar və Lamiyə də arxamca otağa daxil olurlar. Amma, Banunu

görə bilmirəm. Otaqda yoxdur. Çölə çıxıb təlaşla digər otaqlara baxıram.

"Yoxdur. Heç bir otaqda yoxdur! Necə ola bilər axı bu? Hara yoxa çıxdı bir dəqiqənin içində?"

Anar: "Nə yoxdur axı? Nəyi axtarırsan?"

"Banu az əvvəl burda idi. Söhbət edirdik. Sonra sizin üçün, qapını açmağa getdim. İndi isə, heç yerdə yoxdur. Elə bil, bir dəqiqənin içində qeybə çəkildi qız."

Sanki məni ilk dəfə görürmüş kimi, qəribə-qəribə üzümə baxmağa başladılar.

Anar: "Qardaşım, yaxşısan sən? Deyəsən, çox içibsən hə? Gəl, sənin otağına keçək. Uzanıb dincəl bir az."

Lamiyə: "Anar, bu belə olmaz. Təcili olaraq, Raulu həkimə aparmaq lazımdır."

Anar: "Başqasının yanına niyə aparırıq ki? Sən özün psixoloq deyilsən?"

"Görünür, Raula psixiatr lazımdır. Psixoloq yox."

Anar: "Tanıdığın yaxşı bir həkim var?"

Sanki mən yanlarında yoxmuşam kimi, öz aralarında danışıb, mənə diaqnoz qoymaqları lap əsəblərimi pozdu. Deyəsən, ikisi də mənim dəli olduğumu düşünür.

"Mənim həkimə-zada ehtiyacım yoxdur! Həkimə ehtiyacı olan elə siz özünüzsünüz. Sizə deyirəm ki, Banu az əvvəl burda idi. Öz gözlərimlə gördüm. Danışdım onunla. Siz mənə inanmırsız?"

Anar: "Raul, Banu öldü. İki gün əvvəl, səninlə bərabər dəfn elədik onu. Nə danışdığının fərqindəsən sən?"

"Bəli, nə dediyimin fərqindəyəm. Banunun öldüyünü sizin kimi mən də bilirəm. Amma, gəlmişdi. Burda idi. Yanımda!"

Lamiyə: "Raul, belə bir şeyin olması mümkün deyil. Bunu sən özün də yaxşı bilirsən. Sadəcə olaraq, sənin sinir sistemin pozulub. Bir anlıq, Banunu gördüyünü zənn etmisən. Gəl həkimə gedək, sənə bir dərman yazdıraq."

"İkiniz də evimdən rədd olun! Siz inansanız da, inanmasanız da, Banu burda idi! Siz gəldiniz deyə getdi o! Çıxın çölə! Tez olun!"

Bir-birinin üzünə baxıb, sanki, fikrə getdilər. Əsəbimdən daha sərt qışqırıram bu dəfə: "Rədd olun dedim sizə!"

Heç bir söz demədən, qapını açıb, çölə çıxırlar. Banunu yenidən görmək ümidi ilə yataq otağına dönürəm. Anargil gəlməmişdən əvvəl Banu burda idi. Buna adım kimi əminəm. Bu nə yuxu idi, nə də ki, sərxoşluğun əlaməti. Görəsən, nə vaxtsa Banunu yenidən görə biləcəm? Mətbəxdən səs eşidilir. "Raul, bura gəl. Mən burdayam..."

***

Yenə darıxmışam bu gecə sənsiz,
Yenə də tənhayam, yenə kimsəsiz.
Ürəyim üşüyür, sənsiz soyuqdur,
Sən isə bunlardan tamam xəbərsiz.

Əlimdən əlinin istisi gedib,
haçandır əllərim qızmır heç daha.
Gözlərim yorulub, nuru çəkilib,
gözlərin gözümə baxmır heç daha.

Həsrətəm o isti nəfəsinə mən,
həsrətəm bir kəlmə sözünə sənin.

Nə olar, bu gecə dur yuxuma gəl,
doyunca qoy baxım üzünə sənin.

Gəl bax gözlərimə gör nə haldadır,
Hey səni arayır, intizardadır.
Sanki, bir möcüzə gözləyir onlar,
Dərk etmir, sevdiyi bir məzardadır.

Səni dəfn edən gün, qocaldım mən də,
Kəfəninin ağı saçıma düşdü.
Dünya utancından sakit, susurdu,
İstirab ağrısı başıma düşdü.

Gözümdə ölüm də, yaşam da artıq,
bir məna kəsb etmir mənimçün bu gün.
Çünki həyatımın mənasını mən,
əlimlə torpağa gömdüm həmən gün.

"Xatırlayırsan, bir neçə ay bundan əvvəl, mənə bir sual vermişdin. Soruşmuşdun ki, nəyə görə mənim üçün heç şeir yazmırsan? Həmin gün, özümü eşitməməzliyə vurub, sənə cavab verməmişdim. Sualının cavabı isə, əslində çox sadə idi. Mən xoşbəxt olduğum zaman şeir yaza bilən bir insan deyiləm. Bütün həyatım boyunca, mənim ilham mənbəyim çəkdiyim acılar olub yalnız. Bax, elə bu şeiri də, səni dəfn etdiyimiz günün gecəsi yazmışdım."

Banu başını aşağı salıb, köks ötürdü. "Nə deyim, Raul, deyəcək heç bir söz tapmıram. Bizimki də belə gətirdi. Bundan sonra üsyan etməyinin heç bir mənası yoxdur.

Taleyinlə barışmalısan artıq. Unutma, həyat sənin üçün hələ də davam edir."

"Düzdü, həyat hələ də davam edir. Amma, mən, sənin olmadığın bir həyatda yaşamaq istəmirəm. O əməliyyata girməsəydin, bəlkə də hər şey fərqli ola bilərdi."

"O əməliyyat, bizim üçün son ümid idi. Əməliyyata girməməyim heç nəyi dəyişməyəcəkdi. Beş gün gec və ya beş gün tez. Əlbət-axır, bunları bir gün yaşayacaqdıq onsuz da." – Otağa bir neçə dəqiqəlik sükut çökdü. İkimizin də üzündə, məğlubiyyətə dair hüzn yarandı. Hər ikimiz, bu həyatın məğlublarıyıq.

"Səndən şübhə etdiyim üçün, məni bağışlaya biləcəksən?"

"Raul, mən səni hələ əməliyyata girmədən əvvəl bağışlamışdım. Artıq olan olub, keçən keçib. Bu barədə çox düşünüb, özünə zülm etmə daha."

Banuya cavab vermək istədiyim an qapı döyülür. "Görəsən, bu dəfə kim gəlib?"

"Bu qapıya gələnlərin hər biri, səni sevən insanlardır. Pis günlərində yanında olmaq, sənə kömək etmək istəyənlərdir."

"Mənim heç kimin köməyinə ehtiyacım yoxdur."

"Raul, mənim xətrimə dostlarına qarşı gəlmə. İcazə ver, qoy sənin üçün əllərindən gələni etsinlər."

"O qapını açdığımda, sən yenə də yoxa çıxacaqsan, hə?"

"Bu barədə dünən danışmışdıq axı səninlə. Unutma, məni yalnızca sən görə bilərsən."

Üzümü dönüb, qapını açmağa gedirəm. Gələnlər, Anar, Lamiyə və atamdır. Yanlarında isə, kim olduğunu bilmədiyim, qırx-əlli yaşlarında, hündürboy bir kişi var. Qapını

açan kimi, atam içəri girib, hər iki üzümdən öpür. Sanki illərdi görmürmüş kimi, möhkəm-möhkəm qucaqlayır məni.

“Necəsən, oğlum? Yaxşısan?”

“Yaxşıyam, ata. Narahat olma. Buyurun, keçin içəri. Qapıda qalmayın.”

Anargili də içəri buyur edib, qonaq otağına keçirik. Bir neçə dəqiqəlik xoş-beşdən sonra, Lamiyə yanında oturan, tanımadığım adamı əli ilə işarə edərək dillənir. “Raul, icazə ver tanış eləyim. İlqar müəllim həm mənim həqiqətən də, xətrini çox istədiyim bir həmkarım, həm də psixiatriya sahəsində tanınmış və çox savadlı bir həkimdir. Dünən, sənin barəndə onunla bir az söhbət elədik. Sağ olsun, o da səni görmək və şəxsən özü müayinə etmək istədi.”

Lamiyə cümləsini hələ bitirmədən, təzədən hirsim təpəmə vurdu. Elə ağzımı doldurdum ki, bunları yenə evdən qovum, sonra, Banunun az əvvəl dediyi sözlər qulağımda səsləndi. Qəzəbimi qurtum-qurtum udub, özümü birtəhər cilovladım. Nə də olsa, Banu dediklərində haqlı idi. Onlar mənim ən yaxın dostlarımdı. Hər biri, əlindən gəldiyi qədər, pis günlərimdə yanımda olmağa və mənə dəstək olmağa çalışır. Elə məhz buna görə də, bu dəfə onlara qarşı gəlmək yerinə, məndən hər nə istəyirlərsə, razı olacam. Bir halda ki, mənim bir psixiatr müayinəsindən keçməyimi istəyirlər, qoy elə olsun. Onsuz da, mənə olan-olub artıq. Günün birində, mən də ölümü dadıb, Banuya bir dəfəlik qovuşmayana qədər, heç nə düzələn deyil. Heç deyilsə, ailəmin və dostlarımın könlü xoş olsun. Həm də mənim heç bir psixi problemim olmadığını onlar da öyrənsin. Lamiyə cümləsini bitirər-bitirməz, bu dəfə də atam dillənir.

“Raul, sən bu yaşına kimi, mənim sözümü bir dəfə də olsun, yerə salmamısan. İndi də səndən atan olaraq xahiş edirəm, icazə ver, İlqar həkim, səni müayinə etsin.” “Yaxşı, ata, siz necə deyirsinizsə, elə də olsun. Buyurun, mən müayinə üçün hazıram.”

Həkim: “Raul bəy, əgər sizin üçün də uyğundursa, müayinə üçün xəstəxanaya getməyimiz daha yaxşı olar.”

“Əlbəttə, uyğundur.”

“Elə isə, buyurun, vaxt itirmədən, gedək.”

Bir neçə dəqiqədən sonra, hazırlaşıb, çıxırıq evdən. Vaxt itirmədən, maşınlara doluşub, xəstəxananın yolunu tuturuq. İlqar həkimin işlədiyi xəstəxana, bir nömrəli respublika psixiatriya xəstəxanası imiş. Hansı səbəbdəndir bilmirəm, amma uşaqlığımdan bəri, o xəstəxananın adını hər eşitdiyimdə tüklərim ürpəşir. İndi isə, həmin xəstəxanaya müayinə olunmaq üçün gedirəm. O xəstəxanada pis bir şey olacağına dair, qəribə bir hiss var içimdə. Allah axırını xeyir eləsin. Təxminən, bir saata yaxın yol getdikdən sonra, nəhayət ki, gəlib çatırıq. Maşınlardan enib, İlqar həkimin bələdçiliyi ilə, xəstəxananın həyətinə daxil oluruq.

Xəstəxananın həyəti olduqca geniş və yaşıllıq ərazidir. Həyətdə skamyalar, idman meydançaları, hətta, süni göllər belə var. Həkimin otağına gedərkən, həyətdə öz-özünə danışan xəstələrin, məni gördüyündə, gözünü zilləyib, qəribə-qəribə üzümə baxması, tüklərimin yenidən ürpəşməsinə səbəb olur. Xəstəxanaya girib, İlqar həkimin otağının önünə gəlirik. Otağa girərkən, İlqar həkim üzünü atamgilə tutub deyir:

“Zəhmət olmasa, siz çöldə gözləyin. Müayinə üçün, Raulla tək qalmalıyıq.”

Otağa daxil olub, oturduqdan sonra, İlqar həkim çox mehriban, səmimi bir təbəssüm edərək, sözə başlayır.

"Raul, bu müayinənin səbəbi, sadəcə olaraq, əlimizdən gəldiyi qədər, sənə kömək olmaqdır. Ona görə də, səndən xahişim odur ki, mənimlə səmimi olasan."

"Əlbəttə, bundan heç şübhəniz olmasın."

"İlk olaraq, mənə de görüm, səni narahat edən şey nədir?"

Cavab vermək istədiyim an, birdən-birə öskürək tutur. Şiddətli öskürək qulaqlarımın uğuldamasına və başımın dönməsinə səbəb olur. O qədər öskürürəm ki, az qala gözlərim hədəqəsindən çıxsın.

"Öhö. öhö. Məni narahat edən heç bir şey yoxdur."

"Əsas məsələyə keçmədən əvvəl, bunu da deyim ki, təcili olaraq siqareti tərgitməlisən. Əks təqdirdə, bu gedişlə ciyərlərini tamamilə məhv edəcəksən."

"Həkim, ciyərimin məhv olması ilə heç nə olmaz. Mənim əsas, ürəyim məhv olub. Əgər bacarırsınızsa, ona bir əlac qılın."

"Hər şeyin bir çarəsi vardır, əlbət. Ürəyinin məhv olmasının səbəbi nədir?"

"Boş verin. Onsuz da başa düşə bilməyəcəksiniz."

"Sən mənə hər şeyi danışsan, mən səni başa düşərəm."

"Yaxşı, danışım. Sevdiyin qadını itirməyin nə demək olduğunu başa düşə bilərsiz, həkim? Gəlinlikdə xəyal etdiyiniz o qadını, kəfənə bürünmüş bir halda görməyin, nə demək olduğunu anlaya bilərsiniz siz? Ya da, tabutunu çiynində daşımağı? Hələ öpməyə qıymadığın üzünə torpaq atmağı demirəm heç. İnsan sevdiyinin ölümü-

nü görməməlidir, həkim. Hətta, insan sevdiyindən sonra ölməməlidir. Yaşayanda onunla bərabər yaşayıb, öləndə də onunla bərabər ölməlidir.”

“Raul, səni başa düşürəm. Amma nə etmək olar? Ölüm təbiətin qanunudur. Ölənlə ölmək olmur. Həyat yenə də davam edir.”

“Məni əsla başa düşə bilməzsiniz. Başa düşmək üçün, mənim yaşadıqlarımın eynisini yaşamalısınız. Bunu da, heç düşmənimə belə arzu etmərəm.”

Otaqda yaranan bir neçə saniyəlik səssizliyin ardından, həkim öskürüb, boğazını təmizləyir. Masada duran qrafindən stəkana su töküb, bir-iki qurtum içdikdən sonra, yenidən sözə başlayır.

“Aydındır. Elə isə, keçək əsas məsələyə. Lamiyənin dediyinə görə, ölən sevgiliniz, bəzən gözünüzə görsənir. Bu doğrudur?”

“İnsanın gözünə hər hansı bir şeyin görsənməsi, tamamilə başqa bir anlayışdır. Mən Banunu, eynilə sizi gördüyüm kimi görə, hətta onunla danışa da bilirəm. Sadəcə olaraq, onu məndən başqa heç kim görə bilmir.”

“Hmm. Ölümündən sonra, onu ilk dəfə nə vaxt gördünüz?”

“Ölümündən iki gün sonra. Yəni, dünən.”

“Bu haqda bir az danışa bilərsiniz?”

“Əlbəttə. Onu ilk dəfə gördüyümdə, elə mənim özümün də, buna inanmağım, heç də asan olmadı. İlk başlarda, həqiqətə çox bənzəyən, bir yuxu gördüyümü zənn etdim. Sonra isə anladım ki, gördüklərim tamamilə həqiqətdən ibarətdir. Lamiyə və Anar evimə gəldiyində, yuxu görüb-

görmədiyimdən tam əmin olmaq üçün, hətta, bunu onlardan belə soruşmuşdum. Yuxu olmadığından əmin olduğumda, Banunu onların da görməsi üçün, içəri dəvət etdim. Amma, onlar evə girdiyində, Banu artıq evdə yox idi. Hər nə qədər dedimsə də, ikisi də Banunu gördüyümə inanmadı. Onlar evdən getdikdən sonra isə, Banu yenidən gəldi. Dünən, bütün gün ərzində mənim yanımda idi. Hətta bu gün də, siz gələnə qədər evdə bərabər idik. Siz gəldikdən sonra, o, təkrar yoxa çıxdı."

"Bir sözlə, Banu, yalnız sənin tək olduğun zamanlarda yanında olur, düzdür?"

"Bəli, düzdür."

Həkim düşüncəli bir şəkildə üzümə baxaraq, barmaqları ilə gicgahını ovuşdurur. Sanki, nəyi isə yadına salmaq istəyir.

"Raul, sən burda gözlə, beş dəqiqədən sonra gəlirəm", deyib, otaqdan çölə çıxır. Qapının önündə, atamgillə mənim haqqımda söhbət etməyə başlayır. Otaqdan çıxarkən, qapını tam bağlamadığından, çöldə nə danışdıqlarını rahatlıqla eşidə bilirəm.

Həkim: "Təəssüflər olsun ki, yaşadığı ağır mənəvi travma, Raulun şizofreniya xəstəliyinə tutulmasına səbəb olub. Burdakı xəstələrin, təxminən, əlli-altmış faizi elə məhz, şizofreniya xəstələridir."

Atam: "Şizofreniya? O nədir, ay həkim?"

Həkim: "Şizofreniya, düşüncə prosesində problem və zəif emosional cavablarla xarakterizə olunan əqli bir xəstəlikdir. Şizofreniya sözünün mənşəyi iki yunan sözü olan "parçalanma" və "fikir"-ə dayanır. Bunun da səbəbi,

şizofren xəstələrin beyinlərində və reallıqda baş verən hadisələr arasında parçalanma olmasıdır. Bu xəstəlikdə ümumi simptomlar, eşitmə hallüsinasiyaları, nitqdə əks olunan düşüncə pozğunluğu, paranoid və əqli çatışmazlığın da daxil olduğu yanılmalardır.”

Lamiyə: “Həkim, bəs indi biz nə etməliyik? Nə məsləhət görürsünüz?”

Həkim: “Xəstəliyin ilkin səciyyəvi simptomları, özünü göstərməyə başlayıb artıq. Hələ ki Raul, yalnız tək olduğu zamanlarda hallüsinasiya görür, amma, bu zamanla dəyişə bilər. Ola bilsin ki, xəstəlik daha da inkişaf etsin. Buna görə də Raulun xəstəxanada qalıb, müalicə olmasını şiddətlə tövsiyə edirəm.”

Atam: “Siz necə uyğun görürsünüzsə, qoy elə olsun. Təki Raul tez zamanda sağlamlığına qovuşsun.”

Anar: “Əli dayı, hər birimiz yaxşı bilirik ki, Raul buna əsla razı olmayacaq.”

Atam: “Razı olsa da, olmasa da, – Raulun yaxşılığı üçün, buna məcburuq.”

Axır dözə bilməyib, otaqdan çölə çıxıram. Kimin üzünə baxıramsa, gözlərini məndən qaçırır. Özümü saxlaya bilməyib, qışqırıram. “Siz nəyə məcbursunuz, onu bilmirəm, amma, mənim şizofren olduğumu düşünürsünüz deyə, mən bu xəstəxanada qalmağa məcbur deyiləm.”

Cümləmi bitirər-bitirməz, elə bil hazırda gözləyirlərmiş kimi, dörd nəfər tibb işçisi yanımda peyda olur. İkisi qollarımdan bərk-bərk yapışır, digər ikisi isə, ukutka adlanan dəli köynəyini zorla əynimə geyindirməyə çalışır. Əllərindən qurtulmağa gücümün yetmədiyi üçün, avazım çıxdığı qədər bağırıram.

"Anar, kömək elə mənə! Buraxın məni! Mən dəli deyiləm. Buraxın!"

Qışqırıb-bağırmağıma, heç kim əhəmiyyət vermir. Hər nə qədər dirənsəm də, əllərindən qurtulmağı bacarmıram. Məni palataya gətirib, zorla yatağa uzandırırlar. Həkim əlində bir iynə ilə yanıma gəlir. "Raul, sakitləş bir az. Biz sadəcə sənin yaxşı olmağını istəyirik."

Cavab verməyə macal belə tapmadan, iynənin ağrısını bədənimdə hiss edirəm. Ağrıdan gözlərimi bərk-bərk yumuram. Gözümü açdığımda isə, Banu yanımda peyda olur. Əli ilə üzümə sığal çəkib, gülümsəyir: "Raul, qorxma. Mən sənin yanındayam. Yum gözlərini..."

***

"Sözün əsl mənasında, dəlilik, hər cür müdrikliyin başlanğıcı olduğu kimi, şizofreniya da hər bir sənətin, hər bir fantaziyanın başlanğıcıdır" *(Herman Hesse).*

Günorta yeməyini yedikdən sonra, bir az hava almaq üçün, xəstəxananın həyətinə çıxıram. Hər gün, bu həyətdə bacardığım qədər, çox vaxt keçirməyə çalışıram. Həyətdəki yaşıllıq ərazi və quşların səsi, insanın ruhuna sakitlik bəxş edir və eyni zamanda, emosiyalarına harmoniya qatır. Xəstəxanaya gəldiyim ilk gün, burada qalmağa etiraz etsəm də, Banunun da israrı ilə, buna razı oldum. Yaxşı ki, olmuşam. Həm sevdiyim qadın yanımdadır, həm də həyatım boyunca heç olmadığım qədər rahat və hüzurluyam. Valideynlərim və dostlarım da, demək olar ki, hər gün ziyarətimə gəlirlər. Burada keçirdiyim müddət ərzində, psixiatriya xəstəxanasının heç də, mənim düşündüyüm kimi vahiməli bir yer olmadığını öyrəndim. Hətta, bu beş

ay müddətində, dəli deyə adlandırılan bir çox insanın, tam tərsinə, çox ağıllı və savadlı olduqlarını gördüm. Həyətdə bir xeyli gəzib, yorulduqdan sonra, bir az dincəlmək üçün, skamyalardan birinə otururam. Mənim ardımca, xəstələrdən biri də, əlində bir kitab ilə, gəlib yanımda oturur. Təxminən, əlli yaşlarında olmasına baxmayaraq, adamın saçında, bir dənə də olsun, siyah tel qalmayıb. Yorğun baxışları ilə, məni təpədən-dırnağa qədər süzdükdən sonra, əlindəki kitabı açıb, səhifələrini ehtiyatla vərəqləyir. Səhifələrin birinə çatdığında isə, dayanıb, diqqətlə oxumağa başlayır. Bir neçə dəqiqə oxuduqdan sonra, barmağını kitabın arasına qoyub, bağlayır. Yenidən üzünü mənə dönüb, soruşur. "Niyə görə burdasan?"

"Şizofren olduğumu deyirlər."

"İnsanların nə dediyinə, çox da əhəmiyyət vermə. Ona qalsa, mənim də dəli olduğumu deyirlər."

"Əgər dəli deyilsinizsə, nəyə görə hələ də burdasınız?"

"Çünki artıq, gedəcək bir yerim yoxdur."

"Bəs necə oldu ki, bura gəldiniz?"

Mənə tərəf dönüb, yuxusuzluqdan ağırlaşmış göz qapaqlarını çətinliklə açaraq, üzümə baxır. Sallaq dodaqlarında incə, kədərli bir təbəssüm yaranır.

"Mənim adım Vüqardır. Kimya üzrə fəlsəfə doktoru Vüqar Qurbanov. Demək olar ki, bütün həyatımı elm uğrunda sərf etmişəm. Ona görə də, gənclik illərimdə sevgiyə ayıracaq bir zamanım olmayıb heç vaxt. Sözün düzü, aşiq olmaqdan qorxurdum həm də. Niyə bilmirəm, amma, günün birində aşiq olsam, bütün həyatımın məhv olacağını düşünürdüm. Təəssüf ki, düşüncələrimdə haqlı çıxdım.

Qırx bir yaşında ikən, ilk dəfə bir qadına aşiq oldum. İndi isə, gördüyün kimi, psixiatriya xəstəxanasındayam."

"Yəni həqiqətən, sevginin insanı dəli etdiyini düşünürsünüz?"

"Xeyr, dəli etmir. Sevgi insanı öldürür."

"Necə yəni?"

"Sevgi, dadı ağıza şirin gələn, bir zəhər kimidir. İnsanı uzun bir müddət ərzində, yavaş-yavaş öldürür."

Cavab vermədən əvvəl, gözlərimi yerə dikib, bir qədər düşünürəm. Nə demək istədiyini, tam olaraq anlamağa çalışıram. Əgər, həqiqətən də sevgi belə bir şeydirsə, niyə görə insanlar daima gerçək sevginin axtarışında olurlar? Məncə sevmək, üzməyi bilmədiyin halda, yenə də dənizə atılmaqdır. Sevmək, əlinin yanacağını bilə-bilə, atəşə toxunmaqdır. Eynilə, pərvanənin şama olan sevgisindən, özünü yandırıb, kül etməsi kimi. Bir sözlə, sevmək, sonunu düşünməməkdir. Çünki, düşünmək ağıl, sevmək isə ürək işidir."

Cavab vermək üçün, başımı yerdən qaldırdığımda, adamın artıq yanımda olmadığını görürəm. Az əvvəl, onun oturduğu yerdə isə, indi Banu oturub.

"Raul, səninlə bir az danışmalıyıq."

Baxışlarını məndən yayındırıb, ətrafa baxır. Səs tonu və hərəkətlərindən, hüznlü olduğu açıq sezilir.

"Nə olub, Banu? Niyə üzümə baxmırsan?"

"Artıq beş aydır ki, bu xəstəxanadasan. Hər kəs, sənə görə nigarandır. Ailənin və dostlarının sənə ehtiyacı var."

"Nə deməyə çalışırsan, Banu?"

"Raul, artıq vaxtdır. Mən getməliyəm. Sən isə, sevdiklərinin yanına dönüb, həyatına davam etməlisən."

“Nə danışdığının fərqindəsən sən? Əgər getməlisənsə, məni də özünlə apar. Sənin olmadığın bir dünyada yaşamaq istəmirəm mən.”

“Əlbət, günün birində, sən də yanıma gələcəksən. Həmin gün, əbədi olaraq, yenidən qovuşacağıq. Amma, o gün, bu gün deyil. Sən hələ yaşamalısan, Raul.”

Əsəbiləşib qışqırıram: “Mənə yaşamağım üçün, tək bir səbəb göstər!”

Banu qoluma girib, başını çiynimə qoyur. “Raul, xatırlayırsan, hələ dost olduğumuz zamanlarda, mənə, bir roman yazmaq istədiyini demişdin. Məncə, o romanı yazmağın tam zamanıdır artıq.”

“Bundan sonra, bir roman yazmağım, nəyi dəyişəcək axı?”

“Raul, gözlərini yum və məni dinlə. Sənə söz verirəm, hər şey çox yaxşı olacaq. Sən bundan sonra, hər zamankından, çox daha güclü olacaqsan. Gördüyün hər işdə, mən sənin yanında olacam. Varlığımı hiss etməyin üçün, sadəcə əlini sol yanına qoymağın kifayətdir. Mən hər zaman orda olacam. Sənin hekayəni dinləmək istəyən, minlərlə insan var bəlkə də. Yaz, sevgilim, bir roman yaz. İnsanlara sevgini anlat. Sevməyin, sevə bilməyin gözəlliklərini anlat. İnsanların çoxu, beyinləri ilə sevir. Sən, ürəklə sevməyi anlat. Bərabər yaşam savaşı verməyi, ən çətin zamanlarda belə, tək bir bədən ola bilməyi anlat. Bəzən insanlar, ölümün var olduğunu unudub, çox kiçik səbəblərdən dolayı, bir-birinin qəlbini qırırlar. Səbəbsiz yerə, günlərlə, bəzən isə aylarla küsülü qalırlar. Bəzən, həyatın, iki dəqiqəlik üzr

istəyəcək vaxtı belə, insanlara çox gördüyünü anlat. Onlara, ölümün saatı olmadığını xatırlat."

Gözlərimin qapalı olmasına baxmayaraq, göz yaşlarıma hakim ola bilmirəm. Gözümdən axan yaşlar, içimdəki yanğını söndürməyə kifayət etmir. Banunun getdiyini görməmək üçün, gözlərimi açmaq istəmirəm. Hətta, gözlərimi, əbədi olaraq yummaq istəyirəm. Amma, yox, hələ ölməməliyəm. Ən azından, bu kitabı yazana qədər. Gözlərimi açdığımda, tibb bacısının mənə doğru gəldiyini görürəm. Banu isə yanımda yoxdur.

"Raul, dostların ziyarətinə gəliblər. İlqar həkimin otağında səni gözləyirlər."

Göz yaşlarımı silib, ayağa qalxıram. Həkimin otağına doğru bərabər yola düşürük. Hər kəsi şizofren olmadığıma və ya şizofreniyadan qurtulduğuma inandırıb, bu xəstəxanadan çıxmalıyam artıq. Ən qısa zamanda, romanı yazmağa başlamalıyam. Ən azından, Banuya bunu borcluyam. Xəstəxananın dəhlizində İlqar həkimlə qarşılaşırıq. Həkim: "Raul, dostların otaqda səni gözləyirlər. Sən onların yanına keç, mən də bir az sonra yanınıza gələcəm."

Başımla "Yaxşı" deyə işarə edib, otağa girirəm. Roman yazmağa qərar verdiyimi, bir an əvvəl, dostlarıma söyləmək üçün səbirsizlənirəm. "Tam zamanında gəlibsiniz. Sizə yeni bir xəbərim var."

Lamiyə: "Nə xəbərdir o elə? Ümidvaram ki, pis bir şey olmayıb."

"Yox, narahat olma. Bu dəfə yaxşı bir xəbərdir."

Anar: "Raul, çərlətmə adamı. De görək, nə xəbərdir?"

"Az əvvəl, yeni bir qərar aldım. Artıq, yaşamaq üçün bir səbəbim var."

Anar əlini çiynimə qoyub gülümsədi: "Bax, bu əla xəbərdir. Mənim qardaşıma da, elə bu yaraşardı."

Lamiyə: "Aldığın qərar hər nədirsə, gözlərinə işıq gətirib. Səni belə gördüyümə çox sevindim."

"Raul və Banunun sevgi hekayəsini ölümsüzləşdirmək naminə, bir roman yazmaq istəyirəm. Eyni zamanda, bu roman vasitəsilə, insanlara anlatmaq istədiyim bəzi şeylər var. Sadəcə bir nəfər belə, bu romandan bir dərs çıxara bilsə, bu mənim üçün böyük bir uğurdur. Ona görə də, mən bu kitabı yazmağı, özümə borc bilirəm. Hal-hazırda, tək sıxıntım, tez bir zamanda xəstəxanadan çıxıb, işə başlamaq və kitabın çapı üçün lazım olan pulu toplamaqdır."

Anar gülümsəyərək deyir: "Yadındadırsa, mən bir zamanlar, bütün gününü çayxanalarda keçirən, avara bir adam idim. Bu gün isə, tanınmış, savadlı bir memar və eyni zamanda, şəhərin ən böyük memarlıq ofislərindən birinin sahibiyəm. Mən bütün bunları sənə borcluyam, Raul. On birinci sinifdə oxuduğumuz vaxtı, sən məni avaralığın daşını atıb, xəyallarımızın arxasınca getməyə məcbur etməsəydin, bəlkə də mən, hələ də çayxanalarda domino oynamaqla məşğul idim. Ona görə də, nə iş, nə də pul barəsində düşünüb, canını sıxma. Mən hər zaman sənin yanındayam. Sən fikrini, sadəcə olaraq, romana cəmlə."

Anarın dedikləri gözlərimi yaşartdı. Belə bir dosta sahib olduğum üçün, bir daha qürur hissi duydum.

Lamiyə: "Yaxşı, day bəsdirin. Məni də kövrəltdiniz. Anarın da dediyi kimi, sən fikrini romana cəmlə. Biz hər zaman sənin yanındayıq. De görüm, kitabın adını nə qoyacaqsan?"

Heç düşünmədən cavab verirəm: "Ölümdən sonrakı şizofreniya..."

***

Nəşriyyatdan çıxar-çıxmaz, taksiyə minib, məzarlığa doğru yola düşürəm. Bu gün, Banunun öldüyü gündən düz bir il keçir. Onunla uzun-uzun danışıb, dərdləşmək üçün, həqiqətən də çox darıxmışam. Xəstəxanadan çıxdığım gündən bəri, imkan tapıb, ziyarətinə gedə bilməmişdim. Daha doğrusu, yanına getməyə üzüm yox idi. Ona verdiyim sözləri yerinə yetirmədən, nə üzlə gedə bilərdim axı ziyarətinə? Söz verdiyim kimi, ona mərmər daşından, gözəl bir məzar düzəltdirdim. Bu gün isə, Banunun məndən son istəyi olan, roman-kitabım nəhayət ki, işıq üzü gördü.

Kitabın bir kopiyasını götürüb, sevdiyimin yanına gedirəm. Məzarı başında oturub, məndən yazmağımı istədiyi romanı onun üçün oxuyacam. Artıq vaxtdır, Banu məni gözləyir. Taksidən düşüb, məzarlığa girirəm. Bir anda, güclü yağış yağmağa başlayır. Banunun yanına gəlib, onun üçün aldığım gülləri məzarının üstünə qoyuram. Göz yaşlarıma hakim ola bilməyib, ağlamağa başlayıram. Sanki, Banuya sarılırmış kimi, soyuq məzar daşını bərk-bərk qucaqlayıb, bağrıma basıram.

"Gülüm, mən gəlmişəm ziyarətinə. Qalx, sarıl boynuma, sarmala məni. Mavi gözlərinlə gözlərimə bax, sənsizlik gör necə də qocaldıb məni. Səni itirməyə necə dözdüm, hələ də ağlım almır. Bəlkə də mənim yerimdə dağ olsa, çəkdiyim bu qədər dərdə, kədərə dözə bilməzdi heç... Bu yağan yağışları görürsən, Banu? Bax, bu yağışlar göylərin göz yaşlarıdır. Bu gün göylər belə, bizim üçün ağlayır.

Çox üşüyürəm, sevgilim. Əllərim buz kimi soyuqdur. Hər dəfə üşüdüyümdə, əllərimi qızdıran o isti əllərin indi yoxdur daha. Əlimdən əlinin yox oluşunu hələ də qəbullana bilmirəm. O isti əllərinə, isti nəfəsinə çox ehtiyacım var indi. Sənə sarılmaq var ikən, bu soyuq baş daşına sarılıram. Artıq, bir il olur sənin getdiyin. Mən isə, hələ də yanına gələ bilmədim. Bağışla məni, sevgilim... Bilirəm, ağlamayacağıma dair sənə söz vermişdim. Amma, bu sözümü tuta bilmirəm. Sənsizlik çox ağırdır, Banu. Ölümdən daha betərdir sənsizlik. Bilirsən, xəstəxanadan çıxdığım gün, həkimlər, bu qədər tez bir zamanda sağalmağımı möcüzə adlandırdılar. Hər kəs, mənim şizofren olduğumu və beş ay ərzində, psixiatriya xəstəxanasında sağaldığımı düşünürdü. Mən də buna görə yazdığım romana "Ölümdən sonrakı şizofreniya" adını verdim. Əsl möcüzə olan isə, bilirsən nədir? Sənin artıq bir ildir ölmüş olmağına baxmayaraq, mənim hələ də yaşamağım. Buna hər nə qədər yaşamaq demək olarsa, təbii ki... Səndən sonra çox dəyişdim mən. Sənsizlik, çox qocaltdı məni. Sadəcə nəfəs alan və yaşamaq üçün yemək yeyən bir insana dönüşdüm. Aradan bir il keçməsinə baxmayaraq, hələ də hər an, hər saniyə ağlımdasan. Səhər oyanandan axşam yatana kimi, sadəcə sən varsan ağlımda. Hətta, yuxularım belə, yalnızca səndən ibarətdir. Üzünü unutmamaq üçün, sənin şəkillərinlə yatıbdururam hər gün. Yəni, sənin anlayacağın, mənim də bir ölüdən fərqim yoxdur. Heç kimə faydası olmayan, yaşayan bir ölüyəm mən. Amma, artıq toparlanmalıyam. Sənə yalvarıram, mənə icazə ver... Yalvarıram, icazə ver, az da olsa, unudum səni. İcazə ver, yaşayım yenidən. Mən ölə

bilmərəm, sevdiyim. Özümü öldürə bilmərəm. Yaşlı atam və anamı tək qoyub, yanına gələ bilmərəm mən. Ən azından, onlar üçün yaşamağa məcburam. Bu günə qədər səni sevməkdən, bir an belə olsun, vaz keçmədim. Vaz keçməyi də düşünmürəm. Səni geri gətirmək əlimdən gəlmir. Ona görə də, yanına gələcəyim günü gözləyəcəm. Hə, bu arada, kitabın bir kopiyasını yanımda gətirmişəm. Bir azdan oxuyacam sənin üçün. Bilirəm, üz qapağının rəsmini bəyənməyəcəksən. Bəlkə də indi, "mən bu rəsmdəki qız qədər çirkin deyiləm" deyirsən. Mətin adında bir rəssam tapdım kitabın rəsmi üçün. Hər nə qədər bacarıqlı olsa belə, sənin gözəlliyini təsvir edə biləcək qədər məharətli bir rəssam yoxdur bu dünyada. Hətta, mən özüm belə, yazdığım romanda sənin gözəlliyini təsvir edə bildiyimi düşünmürəm. Nəysə, başlayaq oxumağa...